# KONFRANS
# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ
# HÖRMƏTLİ
# İLHAM ƏLİYEVİN
# 11 FEVRAL 2004-CÜ İL TARİXLİ FƏRMANI İLƏ TƏSDİQ EDİLMİŞ
# "AZƏRBAYCAN RESPUBLİKASI REGİONLARININ SOSİAL-İQTİSADİ İNKİŞAFI
# DÖVLƏT PROQRAMI (2004-2008-ci illər)"
# ÇƏRÇİVƏSİNDƏ KEÇİRİLMİŞDİR

**AZƏRBAYCAN RESPUBLİKASI MƏDƏNİYYƏT VƏ TURİZM NAZİRLİYİ**

**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI ARXEOLOGİYA VƏ ETNOQRAFİYA İNSTİTUTU**

**AZƏRBAYCAN MEMARLIQ VƏ İNŞAAT UNİVERSİTETİ**

**REGİONLARIN İNKİŞAFI İCTİMAİ BİRLİYİ**

# ŞƏMKİR

## ARXEOLOJİ İRSİ, TARİXİ VƏ MEMARLIĞI BİRİNCİ RESPUBLİKA ELMİ-PRAKTİK KONFRANSIN MATERİALLARI

**28-29 NOYABR 2007**
**ŞƏMKİR**

# SHAMKIR

## ARCHAEOLOGICAL HERITAGE, HISTORY AND ARCHITECTURE MATERIALS OF THE 1st NATIONAL SCIENTIFIC AND PRACTICAL CONFERENCE

**28-29 NOVEMBER 2007**
**SHAMKIR**

# ШАМКИР

## АРХЕОЛОГИЧЕСКОЕ НАСЛЕДИЕ, ИСТОРИЯ И АРХИТЕКТУРА МАТЕРИАЛЫ ПЕРВОЙ РЕСПУБЛИКАНСКОЙ НАУЧНО-ПРАКТИЧЕСКОЙ КОНФЕРЕНЦИИ

**28-29 НОЯБРЯ 2007**
**ШАМКИР**

**Bakı-2008**

**ISBN:** 978-9952-27-082-2

# ŞƏMKİK: ARXEOLOJİ İRSİ TARİXİ VƏ MEMARLIĞI

BİRİNCİ RESPUBLİKA ELMİ-PRAKTİK KONFRANSIN MATERİALLARI
28-29 NOYABR 2007, ŞƏMKİR

Bakı-2008, 496 s.

**Redaksiya heyəti**
Maisə Rəhimova
Gülçöhrə Məmmədova
Seymur Quliyev
Rizvan Bayramov
Tarix Dostiyev
Kərim Şükürov
Nizami Nağıyev
Taleh Həmid Fəxrəddin
Vəliyev Yusif Əliyev

**Tərtibat**
İdris Əhmədov

© **Regionların İnkişafı İctimai Birliyi**
AZ1009 Bakı şəhəri,
Zərgərpalan küçəsi 143,
Tel.: (+994 12)596 36 60 Faks: (+994 12) 596 36 86
Mobil: (+994 50)216 78 57 (+994 50) 443 80 07
regionlariib@yahoo.com region.00@rambler.ru

**Mətbəə - Çaşıoğlu**

# ŞƏMKİR:

# ARXEOLOJİ İRSİ
# TARİXİ VƏ MEMARLIĞI

# BİRİNCİ RESPUBLİKA
# ELMİ-PRAKTİK KONFRANSIN
# MATERİALLARI

**İ. BABAYEV**
**F. KNAUSS**
**Y. QAQOŞİDZE**

## *Azərbaycan, Almaniya və Gürcüstanın birgə beynəlxalq arxeoloji ekspedisiyasının 2006-2007-ci illərdə Şəmkir rayonunun Qaracəmirli kəndində apardığı qazıntıların ilkin nəticələri.*

### *İdealtəpədə arxeoloji qazıntılar*

Qaracəmirli kəndi Azərbaycanın Şəmkir rayonunda, Kür çayının sağ sahilində yerləşən böyük müasir kənddir. Azərbaycanın bütün Kür çayı boyu ərazisi, o cümlədən, Qaracəmirli kəndinin ətrafı müxtəlif dövrlərə aid arxeoloji abidələrlə zəngindir. Keçən əsrdə kəndin ətrafında bir sıra arxeoloji abidələr öyrənilmişdir. Bu abidələr ilk tunc dövründən başlayaraq son orta əsrlərə qədər böyük dövrü əhatə edən müxtəlif tipli yaşayış yerləri və qəbir abidələrindən ibarətdir. Bəzi hallarda bu abidələr müxtəlif torpaq işləri zamanı aşkar olunmuşdur.

Belə tapıntılardan biri keçən əsrin 80-ci illərinin əvvəllərində Qaracəmirli kəndindən 6-7 km şimalda traktorla kiçik təpələr hamarlanarkən aşkar edilmişdir. Bu, İranın Əhəmənilər dövrü üçün səciyyəvi olan monolit daş sütunaltlığıdır. Torpaq işləri zamanı sütunaltlığı sındırılmış və sonra onun üst hissəsi itirilmişdir. Sütunaltlığının alt hissəsi isə kəsilib iki hissəyə ayrılaraq kənd sakini Həmid Yusifovun həyətində saxlanmışdır.

Qafqazda ilk dəfə iki ədəd belə daş sütunaltlıqlar (baza) 1958-ci ildə arxeoloq İdeal Nərimanov tərəfindən Qazax şəhərində Santəpə adlı abidədə qazıntı aparılarkən tapılmışdır[1]. O zaman Moskvada sonralar da dəfələrlə müxtəlif müəlliflər tərəfindən çoxsaylı elmi məqalə və monoqrafiyalar yazılarkən istifadə olunmuşdur. Təəssüf ki, arxeoloji qazıntılar aparılana qədər Sarıtəpədəki bina qalıqlarının çox hissəsi təsərrüfatla əlaqədar torpaq işləri zamanı dağıdılmışdır. Lakin binanın salamat qalmış qalıqları əsasında onun təxmini olaraq ümumi planını müəyyənləşdirmək mümkün olmuşdu. Bu binanın planı, tikinti materialı və tikinti texnikası İranın Əhəmənilər dövrü (e. ə. 550-330-cu illər) memarlığı üçün səciyyəvidir. Sarıtəpədə aşkar edilən daş sütunaltlıqları Əhəmənilər imperiyasının mərkəzi şəhərləri olan Pasarqad, Suz, Persopolda sarayların tikilməsində istifadə olunan daş sütunaltlıqlarına oxşayır. Başqa tapıntılarla yanaşı, Sarıtəpədəki bina qalıqları e. ə. V əsrdə yaşamış yunan tarixçisi Herodotun Əhəmənilər imperiyasının şimal sərhədləri haqqında məlumatını təsdiq edirdi. Herodotun məlumatına görə, bütün Cənubi Qafqaz ərazisi Böyük Qafqaz Sıra dağlarına qədər bu imperiyanın tərkibinə daxil idi (Her. III. 97 ).

Keçən əsrin 90-cı illərində Gürcüstanla Almaniyanın birgə arxeoloji ekspedisiyası Şərqi Gürcüstanda Gumbati adlı abidədə Sarıtəpə tipli bina qalıqlarını 5 ədəd daş sütunaltlıqları ilə birlikdə aşkar etmişdi[2]. O zaman İdeal

Nərimanov Gumbatidə qazıntılar aparan arxeoloqlara Qaracəmirlidə aşkar edilən daş sütunaltlığının qrafik şəklini və onun haqqında məlumatı vermiş və alman arxeoloqları da bu tapıntının rəsmini və bu barədə məlumatı Gumbati qazıntılarına həsr etdikləri məqalədə nəşr etmişdilər[3]. Azərbaycanda aşkar edilən Sarıtəpə abidəsi və Qaracəmirli sütunaltlığı haqqında digər əsərlərdə də məlumat verilmişdir[4].

Qaracəmirlidə daş sütunaltlığının tapılması orada Əhəmənilər İranın Qafqazda idarəçiliyi ilə əlaqədar yeni qiymətli arxeoloji abidənin olduğunu göstərirdi. Lakin bu abidədə qazıntı aparmaq üçün maliyyə vəsaiti lazım idi. 2000-ci ildə bu məqalənin müəlliflərindən biri (İ.Babayev) Tbilisidə «Qafqaz İberiyası və qonşuları Əhəmənilər və Əhəmənilərdən sonrakı dövrdə» mövzusunda Beynəlxalq simpoziumda iştirak edərkən Qumbatidə qazıntılar aparan Almaniya və Gürcüstan arxeoloqlarına Əhəmənilər dövrünə aid Azərbaycan abidələrini öyrənmək üçün birgə arxeoloji ekspedisiya təşkil etməyi təklif etmişdi. 2001-ci ildə Azərbaycanda Əhəmənilər dövrü abidələri ilə tanış olmaq üçün Almaniyadan Florian Knauss və Qundula Mehnert, Gürcüstandan prof. Yulon Qaqoşidze Azərbaycana gəldilər. Onlar Bakı şəhərində Tarix muzeyinin materialları ilə tanış olduqdan sonra İlyas Babayev və İdeal Nərimanovla birlikdə Şəmkirin Qaracəmirli kəndinə gedərək Həmid Yusifovun evində saxlanan sütunaltlığı hissəsi ilə tanış olub, yerlilərin müşayiəti ilə tapıntı aşkar edilən sahəyə də baxdılar. Sahəyə baxarkən yaz vaxtı idi. Sütunaltı tapılan düzdə taxıl əkilmişdi. Tapıntı aşkar edilən təpə tamamilə hamarlanmış və abidənin yerüstü əlaməti qalmamışdı. Lakin orada qazıntı aparılarsa, çox güman ki, binanın bəzi qalıqlarını aşkar etmək olardı. Yer üstündə əkin sahəsində Əhəmənilər və ilkin ellinizm dövrü üçün səciyyəvi olan keramika nümunələrinə rast gəlinirdi.

İlkin müşahidələr göstərir ki, bu ərazi qazıntı aparmaq üçün perspektivlidir. Ancaq maliyyə vəsaiti olmadığından, o zaman arxeoloji qazıntılara başlamaq mümkün olmadı. Nəzərdə tutduğumuz ekspedisiya yalnız 2006-cı ildə fəaliyyətə başlaya bildi. Ekspedisiyanın maliyyə xərclərini Almaniya tərəfindən Gerda Henkel fondu (Gerda Henkel Fondation) ödəmişdir. Ekspedisiyanın ümumi rəhbəri prof. İ.Babayev təyin olundu. Almaniya tərəfi məlumat vermişdi ki, onlar yalnız 1 ay (avqust ayında) qazıntı apara bilərlər. Ona görə də ekspedisiya fəaliyyətə başlayana qədər ekspedisiyannı rəhbəri İ.Babayev təşkilati işlərlə məşğul olaraq lazımi təşkilatlarla söhbət aparmış, Şəmkir rayonuna getmiş, rayon rəhbərliyi ilə görüşmüş, Qaracəmirli kəndində də yerli hakimiyyət orqanlarına orada işləyəcək beynəlxalq ekspedisiya haqqında məlumat vermişdi.

Nəhayət, 2006-cı il iyul ayının 30-da ekspedisiya aşağıdakı tərkibdə fəaliyyətə başlamışdır.

Azərbaycandan ekspedisiyada İlyas Babayev - tarix elmləri doktoru ekspedisiya rəisi və Ceyhun Eminli - aspirant iştirak etmişlər. Azərbaycan tərəfindən Qafqazda Əhəmənilər dövrünə aid Sarıtəpə abidəsində qazıntılar apararaq daş sütunaltlıqları ilə birlikdə inzibati bina qalıqlarını aşkar edən

AMEA-nın müxbir üzvü İdeal Nərimanov da ekspedisiyada iştirak etməli idi. Lakin xəstəliyi ilə əlaqədar o, ekspedisiyada iştirak edə bilmədi.

Almaniyadan ekspedisiyada 5 nəfər: Florian Knauss (Münhen muzeyi - qrupun rəhbəri), Dirk Vicke (Mainz), Gundula Mehnert və Nadin Lüdviq (Halle Universiteti), Ulrix Sens (Berlin, Almaniya Arxeologiya İnstitutu), Gürcüstandan isə Gürcüstan Milli Muzeyinin əməkdaşı, professor Yulon Qaqoşidze və rəssam Titsino Turkiaşvili (avqustun 12-dən 25-dək) iştirak etmişlər. Ekspedisiyanın bütün üzvləri 2006-cı ildə Şəmkirə gələn kimi rayon rəhbərliyi tərəfindən qəbul edilmiş və rayonun əlaqədar təşkilatlarına ekspedisiyanın məhsuldar işləməsi üçün hər cür köməklik göstərmək tapşırılmışdır. Ekspedisiya üzvləri Qaracəmirli kəndində bələdiyyə sədri Qurban Mehdiyevin evində yerləşmişlər. 2007-ci ildə də ekspedisiya yenə 1 ay avqust ayında Qaracəmirlidə tədqiqat işlərini davam etdirmişdir.

2007-ci ildə də ekspedisiya əsasən həmin tərkibdə fəaliyyət göstərmişdir. Yalnız Azərbaycandan ekspedisiyamn tərkibinə aspirant Emin İsgəndərli əlavə edilmişdir.

Almaniya qrupunda da az dəyişiklik edilərək Dirk Vickenin əvəzinə Münhen muzeyindən Hagen Schaaft və Hall Universitetindən Henrik Löhr iştirak etmişlər.

Gürcüstandan olan ekspedisiya üzvləri Yulon Qaqoşidze və rəssam Tsitsino Turkiaşvili ekspedisiyaya avqust ayının 12-də qoşulmuşlar. Onlardan başqa, Gürcüstandan 2007-ci ildə ekspedisiyamızda avqust ayının 12-dən 14-dək paleobotanik, professor Eliso Kvavadze də iştirak etmişdir.

Yuxarıda qeyd olunduğu kimi qazıntı aparılacaq sahə kənddən təxminən 6-7 km şimalda yerləşir. Sovet hakimiyyəti illərində əsasən pambıq əkilən bu yerlər hazırda yerli əhali arasında bölüşdürülmüşdür. Əhali əsasən maldarlıqla məşğul olduğundan, əkin sahələrində yonca əkməyə üstünlük verir. Bu geniş düzənliklərdə suvarmaq məqsədilə çoxlu artezian quyuları qazılmışdır. Əsasən qədim tikililərin qalıqları yerləşən kiçik təpəciklərin əksəriyyətinin üstü hazırda heyvandarların yataq yerləri kimi istifadə olunur. Onların üstündə kiçik evciklər, kölgəliklər tikilmişdir. Şübhəsiz, keçmişdə bu ərazidə belə təpəciklər çox olmuşdur. Keçən əsrin ikinci yarısında sahənin suvarılmasını asanlaşdırmaq üçün traktorla belə təpəciklərin bir çoxu dağıdılaraq hamarlanmışdır. 80-cı illərdə tapılan, yuxarıda göstərilən sütunaltlığı da belə torpaq işləri zamanı üzə çıxmışdır.

2006-cı ilin iyul ayının 31-də biz Qaracəmirli kəndinə gəlib avadanlığımızı qalacağımız evdə yerləşdirəndən sonra 2001-ci ildə baxdığımız və qazıntı aparmağı nəzərdə tutduğumuz sahəyə getdik. Biz əvvəllər sütunaltlığı tapılan yeri müəyyənləşdirmək istəyirdik. Bu zaman son vaxtlarda qazılan artezian quyusunun yanında arxın içində iri daş parçalarının olduğu haqqında bizə məlumat verdilər. Bunlar Əhəmənilər dövrü üçün səciyyəvi olan sütunaltlıqlarının iri parçaları idi. Lakin bura keçən əsrin 80-ci illərində daş sütunaltlığı tapılan yer deyildi. Sonralar bildik ki, bu yeni sahə əvvəlki tapıntı yerindən təxminən 220 m. şimalda yerləşir. Artezian quyusunun suyunu şimal

istiqamətinə axıtmaq üçün qazılan arxı (eni və dərinliyi 0,8 m) və onun ətrafını diqqətlə nəzərdən keçirərkən arxın içində daha iki sütunaltlığına rast gəldik (şəkil 2). Onların biri kəsik konusvari olub, demək olar bütünlüklə salamat qalmışdı, digəri isə bir qədər başqa formalı idi. Bu sütunaltlıqlarını ekskavatorla arx qazılarkən yan üstə çevirmişlər. Sütunaltlıqların üstündəki reylef naxışlar onların Əhəmənilər dövrü memarlığı üçün səciyyəvi olduğunu göstərirdi. Arxın içərisində belə sütunaltlıqlarının xeyli miqdarda digər parçaları tapıldı. Tapıntılar burada Əhəmənilər dövrünə aid bina qalıqlarının olduğunu göstərirdi.

Bu sahə ətraf ərazidən o qədər də seçilməyən kiçik təpəcik idi. Təpəciyin qərb hissəsindən şimal istiqamətinə doğru artezian quyusunun suyunu axıtmaq üçün qazılan arx uzanırdı. Təpənin çox hissəsi arxın sağında (şərq tərəfində) yerləşirdi. Bu əlamət göstərirdi ki, binanın çox hissəsi burada yerləşir. Ona görə də qazıntı işi üçün həmin sahə seçildi.

Burada qazıntı aparmaqla yanaşı, ətraf ərazi diqqətlə nəzərdən keçirilmişdir. Müşahidələr göstərir ki, ərazidə Əhəmənilər dövrünə aid çoxlu binalar olmuşdur. Qazıntı apardığımız sahədən təxminən 1 km şimalda və şimali-qərbdə daş sütun hissəsi (baraban) nisbətən kiçik sütunaltlıqlarına rast gəlindi (şəkil 4). Daş sütun hissəsi Qafqaz üçün nadir tapıntıdır. Belə ki, adətən, sütunaltlıqları (bazalar) daşdan yonulmuş, onların üstünə ağac sütunlar qoyulmuşdur. Bu tapıntı isə daş sütunun hissəsi idi.

Qazıntı apardığımız sahədən təxminən 0,5 km şimali-şərqdə, təxminən o qədər məsafədə cənub-qərbdə və 200 m qərbdə də təpələr yerləşir. Bu təpə üstlərinin təxmini diametri 100 m hüdudlarındadır. Şübhəsiz, sahədə böyük tikinti qalıqları yerləşən belə təpəciklər çox olmuşdur. Lakin minillər ərzində şumlanma nəticəsində, xüsusilə XX əsrin ikinci yarısında pambıqçılıqla əlaqədar traktorla həmin təpələr hamarlanmışdır. Ümumiyyətlə, ilkin tədqiqatlar göstərir ki, e. ə. I minilliyin ortalarında burada salınan yaşayış yeri təxminən 1 kv-km sahəni əhatə etmişdir. Bütün bu ərazidə Əhəmənilər və erkən ellinizm dövrünə aid maddi mədəniyyət qalıqlarına təsadüf olunur. Qazıntı apardığımız sahənin də ən üst təbəqəsində həmin dövr üçün səciyyəvi olan saxsı kasa və digər qabların fraqmentlərinə rast gəlinir. Qazıntı üçün seçilən sahə 10x10, onlarda 5x5 ölçülərində kvadratlara bölünmüşdür (şəkil 5). Qazılan torpaq diqqətlə yoxlanılaraq əl arabaları və vedrələrlə sahədən çıxarılırdı (şəkil 7-9). Qazıntı zamanı məlum oldu ki, 0,3 m qalınlığında üst təbəqə minilliklər ərzində şumlanma nəticəsində çox qarışmışdır. Bundan başqa, bu sahədən müasir artezian arxından (şəkil 6) başqa da müxtəlif dövrlərdə cənub-şimal istiqamətində suvarma arxları keçmişdir. Belə arxlardan biri orada XIII-XIV əsrlərdə qazılmışdır. Bu arxın içərisindən göstərilən dövrə aid şirli və şirsiz gil qablar da tapıldı. Arxların çoxu isə XX əsrdə, xüsusilə əsrin ikinci yarısında qazılmışdır. Arxlar qazılarkən və kotanla yer şumlanarkən buradakı Əhəmənilər dövrünə aid bina qalıqları xeyli dağıntılara məruz qalmışdır. Bütün bu dağıntılara baxmayaraq, burada yerləşən binanın planını bütünlüklə izləmək mümkün olurdu. Qazıntı aparılarkən ilk gündən bilinirdi ki, burada yerləşən bina adi yaşayış binası olmayıb. Binanın qalıqları aşkar olunarkən məlum oldu ki, onun tikinti texnikası,

planı, tikinti materialları, eyni ilə əvvəllər Azərbaycanın Sarıtəpə, Şərqi Gürcüstanın Gumbati abidələrində olduğu kimidir. İlk aşkar edilən divarların qalınlığı 1,17 m. idi. Bu divarlar 12x35x35 sm ölçülərində çiy kərpiclərlə hörülmüşdür. Divarların hər iki üzünə 3,5 sm qalınlığında suvaq çəkilmişdir. Divarlar təxminən 10 sm qalınlığında olan çınqıl bünövrə üzərində hörülmüşdür (şəkil 11). Sonrakı qazıntılar göstərdi ki, binanın tikintisində 12x32x32 sm ölçülərində kərpiclərdən də istifadə olunmuşdur. Qazıntı nəticəsində müəyyən edildi ki, binanın ara divarları 1,17 m. qalınlığında olduğu halda, kənar divarların qalınlığı 1,5 m-dir (şəkil 12,14). 2006-ci ildə aparılan qazıntılar zamanı binanın orta hissəsində böyük bir zalın olduğu məlum oldu. Həmin zalın içərisinin ölçüləri: cənub-şimal divarları arasında məsafə 11, 2, şərq-qərb divarları arasındakı məsafə isə 9 m-dir. Beləliklə, bu zalın ümumi sahəsi 100,8 kv. m-dir (şəkil 14). Zalın içərisindən şimal divarından 3,10 m, şərq divarından 2,65 m məsafədə bir ədəd daş sütunaltlığı aşkar edildi. Bu sütunaltlığı bina tikilərkən qoyulduğu yerində idi. İndiyə qədər Qafqazda (Sarıtəpə, Gumbati) tapılan o dövrə aid sütunaltlıqları ilkin yerində aşkar olunmamışdır. Zalın içərisində sütunaltlığının yerləşməsi göstərirdi ki, bu zalın keçmişdə 4 sütunu olmuşdur. Sonrakı qazıntı zamanı bu zalın içərisində ikinci daş sütunaltlığının alt hissəsi ilkin yerində aşkar edildi (şəkil 10,12). Qalan iki ədəd sütunaltlıqlarının yerləri dəqiqləşdirildi. Belə ki, sütunaltlıqlarının altına çınqıl daşı tökülmüşdür. Sütunlu zalın ətrafında ona bitişik nisbətən kiçik otaqlar olmuşdur (şəkil 13,14). Binanın fasadı şərqdə yerləşmişdir. Bu tərəfdən zala girişin eni 3,72 m. olmuşdur. Zalın qərb divarında da eyni ilə şərq divarında olduğu kimi 3,72 m. ölçüdə keçid vardır. Zalın şimal və cənub divarları boyunca eyni ölçüdə otaqlar yerləşir. Bu otaqların içəridən eni 3,4 m-dir. Şərq tərəfdə girişdən cənub və şimal tərəflərdə kiçik otaqlar yerləşir. Onların içəridən ölçüləri 3,4x3,4 m-dir. Bu otaqlardan qərbə doğru hər iki tərəfdə eyni böyüklükdə (3,4x10,1 m.) otaqlar yerləşir (şəkil 14). Zalın şimal və cənub tərəflərində yerləşən həmin bu otaqların hər ikisinin içərisində 3-4 $m^2$ sahədə döşəmənin üstündə 15-20 sm qalınlığında kül qatı aşkar edildi. Böyük zaldan bu otaqlara l m enində keçid qapı yerləri aşkar edildi. Qeyd olunan uzun otaqlardan isə şərq girişdən şimal və cənub tərəfdə yerləşən kvadrat planlı kiçik otaqlara giriş qapıları olmuşdur. Böyük zaldan qərb tərəfdə də digər zal yerləşir. Həmin zalları birinci aşkar edilən zalın qərb divarında yerləşən 3,72 m keçid birləşdirir. Qərb tərəfdə yerləşən zalı cənub-şimal istiqamətində uzanan arxlar daha çox dağıntıya məruz qoymuşdur. Bu zalda da görünür dörd sütun olmuşdur. Onlardan ikisinin alt hissəsinin sütunu tapılmışdır (şəkil 12). Bir sütunaltı da artezian arxının içərisində yanı üstə çevrilmiş vəziyyətdə tapılmışdır. Bu zalın da cənub və şimal tərəflərində divarlar izlənir. Görünür, şərq tərəfdə olduğu kimi burada da kiçik otaqlar olmuşdur.

2007-ci ildə binanın qərb hissəsi aşkar edildikdən sonra məlum oldu ki, bu üzə çıxarılan çox ehtimal ki, biz keçən 2006-cı ildə aparılan qazıntılar zamanı düşündüyümüz kimi müstəqil saray tipli bina deyil, saraya giriş binası-propleyadır.

Çox güman ki, əsl saray qazıntı apardığımız İdealtəpədən 200 m qərbdə yerləşən, hazırda üstündə maldarların yataq yeri düzəltdikləri böyük təpənin yerində yerləşmişdir.

Qazıntı apardığımız binanın orta hissəsindən şimala və cənuba doğru 1 m enində divar uzanır. Güman etmək olar ki, həmin divarlar daha mühüm olan 200 m məsafədə qərbdə yerləşən binanın (sarayın) propileya ilə birləşdirən ümumi hasarının divarlarıdır (şəkil 14). Binanın tikintisində istifadə olunan daş sütunaltlıqları yerli daşdan-yaxınlıqdakı dağların əhəngdaşından yonulub hazırlanmışdır. Bu sütunaltlıqları kobud şəkildə daş karxanasında yonulub istifadə olunacaq sahəyə gətirilmişdir. Onların tam yonulması və naxışlanması istifadə olunası yerin yaxınlığında başa çatdırılmışdır. Əgər onların tam hazırlanması dağdakı daş karxanasında olsaydı, sütunaltlıqların reylef naxışları nəqliyyat vasitəsilə istifadə yerinə gətirilərkən qopub korlana bilərdi. Qazıntı apardığımız ərazidə çoxlu xırda qəlpələrin olması sütunaltı bazaların yonulmasının istifadə yerində başa çatdırılması ilə əlaqədardır. Daşyonan ustalar baza düzəltmək üçün nəzərdə tutulan monolit daşın yerə qoyulacaq hissəsinə bir-birinə perpendikulyar kəsişən iki xətt cızmışlar. Qumbatidə də sütunaltlıqları belə yonulmuşdur. İdealtəpədə aşkar etdiyimiz sütunaltlıqları oturacağı dairəvi enli olub yuxarıya doğru konusvari şəkildə daralır. Onların oturacağının diametri 88-89, yuxarı üstlərinin diametri 73-74, hündürlüyü 29-30 sm-dir. Çox ehtimal ki, ağac sütun bir başa bu altlığın üstünə qoyulmuşdur. Onda ağac sütunun altlığın üstünə qoyulan hissəsinin diametri 72-73 sm olmuşdur. Lakin belə fikir də vardır ki, sütunaltlığın bu alt hissəsinin üstünə daha bir dəyirmi balışvari (tora) hissə də qoyulmuşdur[5]. Buna bənzər sütunaltlığın hissələri tapılmışdır. Digər fikirlərə görə, balışvari yanı, aşağısı konelyurlu, üstü dəyirmi lövhə şəkilli baza hissələri müstəqil bazalardır. Onlar konusvari sütunaltlığın üstünə qoyulmayıb. Belə olduqda ağac sütunların durumu zəifləyərdi.

Qazıntı zamanı binanın döşəməsinin hər yerində yanıq izləri müşahidə olunurdu. Xüsusilə böyük zalın döşəməsinin üstündə olan dam örtüyü üçün istifadə olunan ağacların yanıb külə dönmüş izləri və bəzən tam yanmayan hissələri hər yerdə görünürdü. Yanıb döşəməyə tökülən bu ağac tikinti materiallarının hamısı üfüqi vəziyyətdə düşməmişdi. Onların bəziləri yanğın zamanı döşəmənin üstünə tökülərkən bir qədər maili vəziyyətdə qalmışdır. Bu da yanğın zamanı təbii haldır. Bir sıra otaqlarda, xüsusilə aşkar etdiyimiz binanın cənub-qərb hissəsində yanğın nəticəsində döşəmə və divarlar bozumtul qırmızı rəng almışdır. Bəzi yerlərdə bir neçə nazik yanıq təbəqə izlənirdi. Bu ola bilsin dam örtüyünün ikiqat bir üfüqi, digəri maili (ola bilsin iki çatlı) çardağın olması ilə əlaqədar idi. Lakin tədqiqatçılardan bu barədə başqa cür düşünənlər də vardır. Onlar həmin nazik yanıq qatların, Əhəməni dövrü binaları dağılandan sonra orada yeni tikinti qatının olması ilə izah edirlər. Binanın dağılmasının, burada həyatın dayanmasının dövrünü dəqiq müəyyənləşdirmək üçün arxeoloji tapıntılar əsas əhəmiyyət kəsb edir. Tapıntıların böyük əksəriyyəti saxsı məmulatından ibarətdir. Onların çoxu Əhəmənilər və erkən ellinizm dövrü üçün səciyyəvidir. Burada hələ üst təbəqədə Əhəmənilər dövrü üçün səciyyəvi olan kasa, cam və digər qabların

parçaları tapılırdı. Bundan başqa, təbəqədə üstü boya ilə naxışlı qab parçalarına çox rast gəlindi. Həmin qabların üstünə tünd-qəhvəyi rənglə həndəsi naxışlar çəkilmişdir. Tapıntılar içərisində üstünə ağ anqobla üfüqi xətlər çəkilərək naxışlanan qab parçaları xüsusi əhəmiyyətə malik idi (şəkil 16). Belə naxışlı qablar qonşu Gürcüstan abidələrində çox inandırıcı şəkildə e. ə. IV-III əsrlərə aid edilir.

Binanın döşəməsində tapılan bir neçə yarımdairəvi, nov formalı kirəmit parçaları böyük maraq doğuran tapıntılardandır. Bunlar, ola bilsin, bütün Qafqazda ən qədim kirəmitlərdir. Bu vaxta qədər Azərbaycanda ən qədim kirəmitlər Qafqaz Albaniyasının mərkəzi şəhəri Qəbələnin e. ə. III-II əsrlərə aid təbəqəsində tapılmışdı[6]. İdealtəpədə aşkar etdiyimiz kirəmit parçaları isə e. ə. IV-III əsrlərə aid edilə bilər. Binaların örtülməsi üçün kirəmitdən istifadə tikinti texnikasında, memarlıqda mühüm əhəmiyyətə malikdir. Tikintiyə bu yeniliyi qədim yunanlar gətirmişlər. Əhəmənilər imperiyasının tərkibinə Kiçik Asiyanın yüksək mədəniyyətə malik yunan şəhərləri də daxil idi. Əhəmənilər İranının ordusunun tərkibində on minlərlə yunan mənşəli döyüşçülər xidmət edirdi. Yunanlar Əhəmənilərin saraylarında da xidmət edirdilər. İranlıların Yunanıstana hərbi yürüşlərində Qafqaz xalqları, o cümlədən kaspilər, albanlar iştirak edirdilər. Ona görə də hələ Əhəmənilər dövründə e. ə. IV əsrdən gec olmayaraq cənub-şərqi Qafqazda yunanların tikinti mədəniyyətinin təsirinin olması təbii qarşılanmalıdır.

Binanın döşəməsi üstündə bir bişmiş kərpic parçasının tapılması da böyük maraq doğurur. Bu vaxta qədər Azərbaycanda ən qədim bişmiş kərpiclərlə tikilən bina qalıqları Qəbələ şəhər yerində aşkar edilmişdi. Bu bina eramızın I əsrinin ortalarında tikilmişdir[7]. İdealtəpədə aşkar edilən tapıntı sübut edir ki, Qafqaz Albaniyası ərazisində bişmiş kərpiclərdən kirəmitlərlə eyni dövrdə e. ə. IV-III əsrlərdən istifadə etməyə başlamışlar. Lakin o zamanlarda belə inşaat materiallarından əsasən şəhər tipli yaşayış yerlərində xüsusi əhəmiyyət daşıyan bəzi ictimai binaların tikintisində istifadə etmişlər.

Nadir tapıntılardan biri sütunlu zalın döşəməsi üstündə aşkar edilən tünd-göy rəngli şüşə bərninin ağzının kənarının bir parçasıdır (şəkil 17). Belə qablar o dövrdə çox qiymətli idi. Onlardan ancaq cəmiyyətin ən yüksək təbəqəsinin nümayəndələri istifadə edə bilərdilər. Şübhə etmədən demək olar ki, həmin qab o zaman Suriya və ya Misirdə hazırlanmışdır. Bu ölkələr də həmin dövrdə Əhəmənilər imperiyasının tərkibinə daxil idi.

Qazıntı aparılan sahədə arabir obsidian (vulkanik şüşə) və çaxmaq daşı qəlpələrinə rast gəlinirdi. Bu əlamətlər göstərirdi ki, alt təbəqələrdə daha qədim dövrə aid maddi mədəniyyət qalıqları olmalıdır. Onlar Əhəmənilər və sonra erkən ellinizm dövründə tikinti və digər torpaq işləri zamanı alt təbəqədən üzə çıxmışdır. Bu məqsədlə qazıntı sahəsinin şərq kənarında abidənin tam strafiqrafiyasını aydınlaşdırmaq üçün kiçik sahədə qazıntı xam torpağa qədər davam etdirildi. Məlum oldu ki, burada 1 m qalınlığında üst mədəni təbəqə Əhəmənilər və erkən ellinizm dövrünə, ondan altda 0,6 m qalınlığında mədəni təbəqə isə e. ə. III minilliyə (ilk tunc dövrünə) aiddir. Çox maraqlıdır ki, bütün

Qafqaz ərazisində Əhəmənilər və antik dövrə aid yaşayış yerlərinin əksəriyyəti heç bir ara təbəqə olmadan ilk tunc dövrü yaşayış yerlərinin üzərində yerləşir. Bu fenomenin səbəbləri hələlik aydınlaşdırılmamışdır.

İlkin tədqiqatlar göstərir ki, arxeoloji cəhətdən tədqiqinə başladığımız abidə bütün Qafqazda xüsusi elmi əhəmiyyətə malik olan nadir abidələrdən biridir. Çox ola bilsin, burada e. ə. I minilliyin ortalarında Əhəmənilərin Cənubi Qafqazda inzibati mərkəz kimi istifadə etdikləri şəhər tipli yaşayış yeri olmuşdur.

Məlum olduğu kimi, Əhəmənilər imperiyası e. ə. 330-cu ildə Makedoniyalı İskəndərin Şərqə yürüşü ilə əlaqədar süqut etmişdir. Görünür, o zaman buradakı yaşayış yeri də inzibati mərkəz kimi əhəmiyyətini itirmişdir. Ola bilsin, bundan sonra yaşayış yerinin əhalisinin bir hissəsi ilkin ellinizm dövründə (e. ə. IV əsrin sonu -III əsrin əvvəlləri) də burada yaşamaqda davam etmişlər.

Qazıntı sahəsində aşkar edilən tapıntıların bir çoxu Əhəmənilər dövlətinin mövcud olduğu dövrə aiddir. Lakin tapıntıların bir hissəsi, heç şübhəsiz, ilkin ellinizm dövrünə aiddir. Sonuncuların sırasına yuxarıda göstərilən kirəmitləri, üstü oxra ilə, əsasən həndəsi rəsmlərlə, ağ anqob xətlərlə naxışlanan qabların çoxsaylı fraqmentlərini daxil etmək olar. Ellinizm dövrü üçün səciyyəvi tapıntılar sırasına üstündə möhür əksləri olan iki gil qab parçalarını da aid etmək olar. Əkslər ellinizm dövrü (e. ə. IV əsrin sonu I ərin 1-ci yarısı) üçün səciyyəvi sayılan möhürlərə məxsusdur. O zaman üzüyün qaş hissəsinə keçirilən, üstü qabarıq (kabaşon) intaliyalar (təsviri dərinə həkk olunan, əksdə qabarıq olan rəsmlər) geniş yayılmışdı. Bu intaliyalar adətən, müxtəlif rəngli daşlardan düzəldilir və üzüklərin qaşı kimi istifadə olunurdu. Gil qab parçalarının üstündə möhür əkslərini yaxşı izləmək mümkün olmasa da, təsvirlərin bəzi əlamətləri onların ellinizm dövrünə aid olmasına şübhə yaratmır.

Beləliklə, tapıntılar göstərir ki, bu yaşayış yerində Əhəmənilər dövlətinin süqutundan sonra da insanlar bir müddət yaşamışlar. Əlbəttə, yaşayış yerində yeni sahələrdə aparılacaq gələcək qazıntılar abidə haqqında daha dəqiq fikirlər söyləməyə imkan verəcəkdir. Beynəlxalq arxeoloji ekspedisiyamız Qaracəmirli abidəsində arxeoloji qazıntılar aparmaqla yanaşı, Gəncəyə, Xanlara və Şəmkirin bəzi abidələrinə baxmaq üçün səfərlər təşkil edərək, muzeylərə baxmış, abidələrlə tanış olmuşdur. Ekspedisiya üzvləri Gəncədə Tarix muzeyinə baxmış, Nizaminin məqbərəsini ziyarət etmiş, Xanlarda və Şəmkirdə almanların bu ərazidə olarkən tikdikləri kilsələrə, yaşayış evlərinə baxmışlar. Ekspedisiya üzvləri Şəmkirdə tarix elmləri doktoru Tarix Dostiyevin başçılığı ilə orta əsr şəhər yerində aparılan qazıntılara, Şəmkirin diyarşünaslıq muzeyinə, Daşbulaq kəndində hazırda yerli əhali tərəfindən pir kimi ziyarətgaha çevrilən yerli albanların xristian əhalisinin orta əsrlər dövründə istifadə etdikləri kilsəyə baxmışlar. Ekspedisiya Qaracəmirlidə qazıntılar apararkən həmişə rayon və kənd hakimiyyət orqanlarının, yerli əhalinin qayğısını hiss etmişdir. Şəmkir Rayon İcra Hakimiyyətinin başçısı Nazim Veyisov, Almaniya Federativ Respublikasının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Per Stankin, Azərbaycan Mədəniyyət və Turizm Nazirliyinin şöbə müdiri Rizvan Bayramov, Şəmkirin orta əsrlərə aid şəhər yerində qazıntılar aparan tarix elmləri doktoru Tarix Dostiyev

ekspedisiyamızın qazıntı sahəsinə gələrək aşkar etdiyimiz abidə ilə yerində tanış olmuşlar.

Ekspedisiyamızın fəaliyyəti haqqında beynəlxalq və respublika əhəmiyyətli elmi konfranslarda məruzələr oxunmuş, radio, televiziyada geniş məlumat verilmiş, cari mətbuatda məqalələr çap olunmuşdur.

Qaracəmirlidə aparılan arxeoloji qazıntıların nəticələri bir sıra xarici ölkələrin tədqiqatçılarının marağına səbəb olmuşdur.

## ƏDƏBİYYAT


1. Нариманов И. Г. Находки баз колонн 5-4 вв до н. э. в Азербайджане. - СА,1960. №4, с. 162-164.
2. Furtwangler, A. Gumbati. Archaologishe expedition in Kachetian 1994. Vorbericht, Eurasia Antiqva, 1, 1995, s. 177-211; Furtwanqler. A. Knauss, F. Gumbati. Archaologishe Expedition. İn Kachtien 1995, Eurasia Antqua 2,1996, s. 363-381; Archaologishe Expedition in Kachetien 1996, Ausqrabungen in den Siedlungen Gumbati und Ciskaraant-Gora 3., Vorbericht, Eurasia Antiqua. 3. 1977, s. 353-387; Knauss. F. Persian Rule in the North. Achaemenid Palaces on the Periphery of the Empire. The Royal Palace İnstitution in the First Millenium BC. Monoqraphs of the Danish Institute at Athens. Vol. 4. Athens, 2001, p. 125-133.
3. Furtwangler A, Knauss F. Gumbati. Archaologische Expedition in Kachetian. 1995. s. 375-376.
4. Gagosidze Y. und Kipiani. G. Nene Beobachtungen zur achaimenidischen Baukunst in Kartlı - Archaologisiche Mitteilungen aus İran und Turan. Band 32, Berlin. 2000. s. 60. Abb. 6.
5. Florian S. Knauss, Nadin Ludwiq, Gundula Mehnert, Ulrich Sens, Dirk Wicke . Ein Perserbau auf dem İdeal Tepe bei Karacamirli (Azerbaidcan) Arta. 2007,002, s. 24. Abb. 14. 20.
6. Бабаев И. А. Античнаяа черепица Кавказской Албании- СА, 1974, № 2: Города Кафказской Албании в IV в. до н. э- III в. н. э., Баку, 1990. с. 74-77; Yenə onun: Exsavations of Communal buldings (Fourth Century BC- First Centry AD) at Gabala, the Capital of Caukasian Albania. - The Royal Palace İnstitution in the First Millenium BC. Monoqraphs of the Danish İnctitute at Athens.Vol. 4. Athens,2001. p. 285-286.
7. Yenə onun: Города... s. 69-73: Yenə onun. Excavations... p. 290-291.



**Şəkil 1. Artezian quyusu yanında tapılan sütunaltlıqları**



**Şəkil 2. Arxdan çıxarılan sütunaltlığı**



**Şəkil 3. Arxda və qazıntı sahəsində tapılan sütunaltlıqlarının hissələri**



**Şəkil 4. Yaşayış yerinin şimal-qərbində təsadüfi tapılan sütunaltlıqlarının hissələri**



**Şəkil 5. Qazıntı sahəsinin sxematik planı**



**Şəkil 6. Qazıntı sahəsindən keçən müasir artezian arxı**



**Şəkil 7. Qazıntı sahəsində iş prosesi**



**Şəkil 8. Qazıntı sahəsinin bir hissəsi**



**Şəkil 9. Aşkar edilən sütunaltlıqlarının təmizlənməsi**



**Şəkil 10. Sütunaltlığı ilkin qoyulduğu yerdə**



**Şəkil 11. Çınqıl bünövrə üzərində divar qalıqları**



**Şəkil 12. Qazıntı sahəsinin qərb tərəfində tapılan sütunaltlıqları**



**Şəkil 13. Qazıntı sahəsinin şimalı-şərqindən bir görünüş**




**Şəkil 14. İdialtəpədə Qazıntının ümumi planı**



**Şəkil 15. Rəssam S. Turkiaşvilinin çəkdiyi sütunaltlığı hissələrinin rəsmləri**



**Şəkil 16. Ağ anqob xətlərlə naxışlanan gil qab parçaları**



**Şəkil 17. Göy rəngli şüşə qabın fraqmenti**

**T. Dostiyev**

***2006-2007-ci illərdə Şəmkirin şəhər yerində aparılmış arxeoloji tədqiqatalar.***

Orta əsr yazarları Azərbaycanın orta dərəcəli, abad və nemətlərlə zəngin şəhərləri arasında Şəmkir şəhərinin də adını çəkirlər (1, s. 89, 110, 129-130). Yazılı mənbələrdən bəlli olur ki, ərəb istilası zamanı artıq Şəmkir şəhər kimi mövcud idi. IX əsr tarixçisi Əhməd əl-Bəlazuri qeyd edir ki, Salman ibn Rəbiə əl-Bahili qədim şəhər hesab olunan Şəmkiri fəth etdi. Şəmkir savartilər onu dağıdıb viran qoyanadək gur və abad şəhər idi. Hicri 240-cı ildə (854/855) sərkərdə böyük Buğa şəhəri bərpa etdi, burada islamı qəbul etmiş xəzərləri yerləşdirdi, Bərdə tacirlərindən bura köçürtdü və şəhəri xəlifənin şərəfinə Mütəvəkkiliyyə adlandırdı (2, s. 13-14). Tədqiqatçılar savartilərin Şəmkir şəhərini dağıtmasını 752-ci ilə aid edirlər (3, s.349). Böyük İpək yolunun üzərində olan Şəmkir şəhəri IX əsrin ikinci yarısı - X əsrdə yüksəliş keçirərək mühüm sənətkarlıq və ticarət mərkəzinə çevrilmiş, müxtəlif növ yun məmulatı və keyfiyyətli bıçaqlar istehsalı üzrə böyük şöhrət qazanmış (4; 5 ), XI-XII əsrlərdə çiçəklənmə çağını keçirmişdir. Şəmkir şəhərinin inkişaf ahəngi monqol istilası ilə pozulmuşdur. 1235-ci ildə monqollar inadlı müqavimət göstərən şəhəri tutub dağıtmış, əhalisini qılıncdan keçirmişdir. Bu hadisədən sonra şəhər tənəzzül etmiş, bir daha özünə gələ bilməmiş, son orta əsrlərdə burada şəhər əlaməti olmamışdır. XVII əsrdə şəhər xarabalıqlarında olmuş rus səyyahı onu belə təsvir etmişdir: “... biz boş şəhərə gəldik, böyük idi. Divarları kərpicdən idi. Qala divarları içərisində biri də vardı. Hər ikisinin divarları dağılmış vəziyyətdə idi. Amma minarə olduqca hündür və yaxşı qalmışdır, bütövdür, kərpicdəndir. Burada çay üzərində kərpicdən tikilmiş körpülər də vardır» (6, s.103).

Qədim Şəmkir şəhərinin xarabalıqları XIX əsrdən başlayaraq tədqiqatçıların diqqətini cəlb etsə də, son illərədək bu abidədə sistemli, ardıcıl arxeoloji tədqiqatlar aparılmamışdır. 2006-cı ildə Azərbaycan MEA Arxeologiya və Etnoqrafiya İnstitutu abidədə məqsədyönlü, sistemli tədqiqatlara başlamış, 2007-ci ildə Regionların İnkişafı İctimai Birliyinin maliyyə yardımı ilə geniş qazıntılar aparmağa nail olmuşdur.

Orta əsr Şəmkir şəhərinin xarabalıqları Şəmkir rayonunun Muxtariyyə kəndinin şimal kənarında, Şəmkirçayın sahilində, Bakı-Tbilisi dəmir yolu xəttindən 600 m cənubda yerləşir. Şəhər xarabalıqlarında istehkam qalıqları yaxşı mühafizə olunduğundan, şəhristan və narınqalanı vizual izləmək olur. Şəhər xarabalıqlarının qala divarları ilə əhatə olunan sahəsi, yəni şəhristan hissə geniş ərazini tutur, qərb-şərq istiqamətində olmaqla dördbucaq biçimlidir. Narınqala şəhristanın şərqində, Şəmkirçayın sahilində yerləşməklə 1 hektara yaxın sahəyə malikdir. Şəhristanın şimal, qərb və cənub divarları nisbətən yaxşı mühafizə olunmuşdur. Şimal-şərq tərəfdə dağıntı daha çoxdur. Şəhristanın divarlarında şəhər darvazalarının yerini çətinlik çəkmədən müəyyənləşdirmək olur. Vizual müşahidə əsasında belə qənaətə gəlmək olur ki, hər bir divarda olmaqla şəhərin dörd qapısı olmuşdur.

Narınqalada təsərrüfat işləri görülmədiyindən (memarların qərb divarı boyunca qazdıqları xəndək, «həvəskar arxeoloqların qazdıqları bir neçə kiçik çala və çuxurlar istisna olmaqla), mədəni təbəqə nisbətən yaxşı mühafizə olunmuşdur. Şəhristanın ərazisi isə mütəmadi olaraq kənd təsərrüfatı işlərinə məruz qaldığından, mədəni təbəqə yatımının üst qatı pozulmuş, tikinti qalıqları dağıdılmışdır. Yalnız bir neçə yerdə salamat qalmış tikili qalıqlarına rast gəlinir. Şəhristanın ərazisi bişmiş kərpic qırıqları, çay daşları, yerli ağ daş və kirəc parçalarından ibarət inşaat materialları ilə zəngindir. Son zamanlar şəhristanın şərq tərəfində texnikanın vasitəsilə kanal qazılmışdır. Kanal üçün xəndək qazılarkən Narınqalanın müdafiə xəndəyi, Narınqalanı şəhristan ilə əlaqələndirən birtağlı körpü də dağıdılmışdır. Kanal, həmçinin, şəhərin şimal divarını kəsərək dağıtmışdır. Həmin yerdə qala divarının qalınlığı 4 metrdən artıqdır və çaydaşı, bişmiş kərpicdən keyfiyyətli kirəc məhlulla hörülmüşdür. Şəhristandan şimal-şərqdə şəhərin rabad hissənin xarabalıqları üzərində müasir qəbiristanlıq salınmışdır. Orada çaydaşı və bişmiş kərpicdən əhəngli məhlulla inşa olunmuş orta əsr tikililərinin qalıqları vizual izlənilir.

Şəhər xarabalıqlarından şərqdə, Şəmkirçayın yatağmda orta əsr körpülərinin qahqları qalmaqdadır.

2006-cı ildə şəhər xarabalıqlarının şəhristan hissəsində abidənin stratiqrafiyasını, mədəni və xronoloji mənsubiyyətini müəyyənləşdirmək üçün kiçik sahəli (16 kv.m.) arxeoloji qazıntı aparılmış, qalınlığı 2 m-dən artıq olan, zənginliyi ilə fərqlənən mədəni təbəqə yatımı öyrənilmişdir.

Abidənin ərazisində mütəmadi kənd təsərrüfatı işlərinin görülməsi nəticəsində mədəni təbəqənin üst yatımı 66-68 sm dərinliyə qədər dağıntıya məruz qalmış və qarışdırılmışdır. Mədəni təbəqənin qarışdırılmış üst qatı bişmiş kərpic, yerli ağ daş fraqmentləri, çaydaşı, kirəc parçaları, kaşı qırıqlarından ibarət inşaat materialları ilə zəngin idi. Tapıntılar şirsiz və şirli saxsı, fayans qab fraqmentlərindən, metal əşyalar, şüşə bilərzik qırığı ilə təmsil olunmuşdur. Yerli dulusçuluqdan xəbər verən istehsalat tullantıları, kürə ləvazimatı kimi işlədilmiş gil cubuq qırığı da maraq doğuran faktik materiallardandır. Mədəni təbəqənin XI-XII əsrlərə aid inşaat qatında bünövrəsi çaydaşından, divarları bişmiş kərpicdən hörülmüş tikili qalıqları, ocaqlar, eləcə də güclü dağıntıya məruz qalmış təndir qalıqları üzə çıxarılmışdır. Təndirin diametri 53 sm, divarlarının qalınlığı 3-4 sm idi. Tikinti qalıqlarından qazıntının qərb divarı boyunca yerləşən divar qalığı nisbətən yaxşı qalmışdı. Bünövrəsinin eni 80 sm olan bu divarm eni 68-70 sm idi. Bünövrə iri və orta ölçülü çaydaşlarından qoyulmuş, divar isə 21x21x4,8 sm, 21,5x21,5x5 sm ölçüdə bişmiş kərpicdən əhəngli məhlulla hörülmüşdür. Hörgünün üç, bəzi yerlərdə isə dörd cərgəsi salamat qalmışdı (şəkil 4). Divardan şərq tərəfdə çoxlu bişmiş kərpic parçaları töküntüsü və əhəng ovuntusu qatları təmizlənmişdir. Töküntü qatından altda bişmiş kərpic parçalarından nal şəklində qurulmuş ocaq, yerə basdırılmış kiçik tutumlu küpün aşağı hissəsi üzə çıxarıldı. XI-XII əsrlərə aid inşaat qatında xeyli miqdarda əmək alətləri, şirli və şirsiz saxsı qab-qacaq, metal piyalə qırığı, şüşə qab nümunələri və müxtəlif növ bəzəklər tapılmışdır. Tapıntılar arasında Eldənizlərin zərb etdikləri mis sikkə də vardır.

VIII-X əsrlərin inşaat qatında bünövrə qalıqları, təndirxanalar, təsərrüfat və məişət quyuları aşkarlanmışdır. Bu inşaat qatında qazıntının qərb və şimal-şərq tərəflərində olmaqla iki təndirxana diqqəti daha çox cəlb edir. Qazıntı sahəsinin qərb tərəfindəki təndirxana XI əsrə aid tikilinin bünövrəsindən altda, 1,9 m dərinlikdə üzə çıxarılmışdır. Təndirin dibinin diametri 45 sm, ağzının diametri 42 sm idi. Divarlarının qalınlığı 4-5 sm, salamat qalmış hündürlüyü 42 sm idi. Təndirdən güvəc və iki şüşə bilərzik fraqmenti, ətrafından bıçaq, bıçaq tiyəsi (inv.145-146), güvəc (inv.155), şirli saxsı duzqabı (inv.150), şüşə qabın oturacağı (inv.147) tapıldı. İkinci təndirxanada üç təndirin qalığı üzə çıxarıldı. Onlardan ikisi biri-digərini kəsmişdi. Təndirlərin dibinin diametri 52-56 sm, ağzının diametri 48-52 sm, divarlarının qalınlığı 3-4 sm, salamat qalmış hündürlüyü 26-28 sm idi. Tapıntılar əsasən mətbəx qablarından - güvəc qırıqlarından ibarətdir.

VIII əsrin sonu - IX əsrin əvvəllərinə aid edilən təsərrüfat quyusu quruluşu və tapıntılarının zənginliyi ilə fərqlənmişdir. Dərinliyi 2, 26 m olan bu quyu 1,28 m-dək aşağıya doğru getdikcə genişlənir, daha sonra isə kəskin daralaraq çıxıntı əmələ gətirir və silindrik formada dibədək davam edir. Quyunun diametri ağzında 1,87-1,97 m, ən gen yerində 2,2 m, dibində 1,6 m idi. Quyudan müxtəlif təyinatlı dəmir məmulat, mis bəzək əşyası, şirsiz saxsı küpə, bardaq, güvəc, piyalə, duzqabı, çıraq, xüsusilə çoxlu şüşə qab qırıqları tapıldı. Küpə və bardaqların bəziləri qırmızı boya ilə bəzədilmişdir. Nazik divarlı, incə zövqlə naxışlanmış nəfis bardaq fraqmentləri də maraqlı tapıntılardan hesab olunur. Diskşəkilli oturacağı, əziklərlə bəzədilmiş kürəvi gövdəsi, dar boruşəkilli boğazı, novçalı ağzı, boğaz və gövdəyə birləşən qulpu olan kiçik tutumlu həmin bardağın 17 fraqmenti tapılmışdır. Bardağın üzərinə nazik anqob çəkilmiş, gövdədəki əziklər nazik cızma xətlə salınmış nəbati naxışla canlandırılmışdır (inv. 227). Şüşə məmulat içərisində piyalə, stəkan, bərni tipli qab nümunələri üstünlük təşkil edir. Onların əksəriyyəti nazik divarlı olub, şəffaf şüşədən hazırlanmış, incə zövqlə naxışlanmışlar. Quyudan əldə olunmuş tapıntılar arasında qayıqvari dən daşı da vardır. Qədimdən məlum olan bu tip dən daşları VIII əsrdən sonra istifadədən çıxır.

2006-cı ildə Şəmkir şəhər yerində aparılmış arxeoloji qazıntı abidənin şəhristan hissəsində VIII əsrdən XIII əsrədək şəhər həyatının mövcudluğunu təsdiqləmiş, XI-XII əsrlərdə şəhərin çiçəklənmə çağını keçirdiyini müəyyənləşdirməyə əsas vermişdir. 2007-ci ildə arxeoloji qazıntı işləri üç sahədə aparılmışdır. Bu il ekspedisiyanın qarşısına qoyulan vəzifələr aşağıdakılardan ibarət idi: 1) Abidənin dəqiq topoqrafik planını çıxarmaq; 2) Şəhristanın qala divarlarından şərqdə, Şəmkirçayın yatağına doğru abidədə mədəni təbəqənin mövcudluğunu dəqiqləşdirmək; 3) Narınqalanın torpaq qalaqları altında qalmış şərq divarını təmizləmək və tədqiq etmək; 4) Narınqalanın içərisində mədəni təbəqənin stratiqrafiyasını müəyyənləşdirmək.

Abidənin müasir cihazlarla topoplanının (şəkil 1) çıxarılması nəticəsində bəlli oldu ki, əvvəllər düşünüldüyü kimi şəhərin qala divarları ilə qorunan hissəsi 21 hektar deyil, 28 hektardır.

Şəhristanın qala divarlarından 40 m aralıda II qazıntı sahəsində aparılan tədqiqatlar bu sahədə mədəni təbəqə yatımının olmadığını göstərdi. Yalnız üst qatda bişmiş kərpic ovuntularına, seyrək saxsı parçalara rast gəlinir.

Narınqalanın şərq divarını torpaq qalaqlarından təmizləmək, onun səciyyəvi xüsusiyyətlərini öyrənmək məqsədi ilə uzunluğu 80 m, eni 4 m olmaqla divarın bayır tərəfində III qazıntı sahəsi qoyuldu. Tədqiqatın gedişatında qazıntı sahəsinin eni bəzi yerlərdə 6,3 - 7,5 m-dək genişləndirildi. Qazıntı işləri nəticəsində 80 m məsafədə Narınqalanın şərq divarı torpaq qalaqlarından təmizləndi, divar bünövrəyədək tədqiq edildi (şəkil 5-7). Divarın bünövrəsi yalnız 5 saylı kvadratda öyrənildi. Bünövrə üçün çınqıl qatında xəndək qazılmış səliqə ilə yonulmuş yerli ağ daşlardan və iri çaydaşlarından keyfiyyətli əhəngli, gilli yapışdırıcı məhlulla özül qoyulmuşdu. Bünövrə kürsülüklə vahid kostruksiya təşkil edirdi və ikipilləli idi (şəkil 6). Belə quruluş divarın dayanaqlığını artırır, onun antiseysmik imkanlarını gücləndirirdi. Bünövrə və kürsülüyün hündürlüyü l,5m-ə çatır.

Narınqalanın şərq divarı mürəkkəb quruluşu ilə diqqəti çəkir (şəkil 7). Qalanın şimal-şərq dairəvi bürcündən qövsvari formada cənub-şərqə istiqamətlənən divar 6 saylı kvadratda 90 dərəcə bucaq altında içəriyə qatlanaraq çıxıntı yaradır. Çıxıntı 1, 85 m-dir. Daha sonra divar düz xətt üzrə 12,9 m davam edir. 10-13 saylı kvadratlarda divar 12, 95 m uzunluqda 1,61-1,76 m enində bayıra genişlənir. Görünür, bu çıxıntı, genişlənmə şəhər müdafiəçilərinin döyüş imkanlarını artırmaq məqsədi ilə edilmişdi. 13 saylı kvadratdan 17 saylı kvadratın başlanğıcınadək divar 15, 43 m uzunluqda düz xətt üzrə davam edir. 17-20 saylı kvadratlarda yanmdairəvi bürc yerləşir. 17 saylı kvadratda divar xəttindən 4,85 m irəli çıxmış bürc, 20 saylı kvadratda daha çox içəri girərək düzxətli divara keçir. Bu kvadratda bürc çıxıntısı 6,7 m təşkil edir. Bürcdən cənuba istiqamətlənən divar 5,3 m uzunluqda təmizlənmişdir (şəkil 7).

Qala divarının ucaldılmasında bişmiş kərpic, çaydaşı və yerli ağ daş (Zəyəm daşı), əhəngli məhluldan istifadə olunmuşdur. Bişmiş kərpic və ağ daş həm də üzlük materialı kimi işlədilmişdir. Ağ daş bloklar 49X37, 50x52, 57x38, 59x43, 59x47, 60x45, 61x32, 63x42, 72x45, 77x35 ölçüdədir. Ustalar divarın üzlüyünə xüsusi diqqət yetirmişlər. Bişmiş kərpic, çaydaşı və yerli ağ daşdan yüksək peşəkarlıqla istifadə divarın monumentallığını və bədii-estetik təsir gücünü artırmışdır. Qarışıq hörgüdə daş və bişmiş kərpic cərgələrinin növbələşməsi, polixrom divar səthində ağ-boz, göy və qırmızı-çəhrayı rənglərin ritmik dəyişməsi göz oxşayır, xoş təsir bağışlayır. Qarışıq hörgü üslubu Arran memarlığı üçün səciyyəvidir və Şəmkir narınqalası bu texnikadan istifadə edilməklə ucaldılmış gözəl sənət əsəridir. Üzlük hörgüdən fərqli olaraq divarın içərisi isə bişmiş kərpic və çaydaşından yapışdırıcı əhəngli məhlulla hörülmüş və ya bəzi yerlərdə üzlük divarlar arasına çaydaşları tökülərək keyfiyyətli yapışdırıcı məhlulla doldurulmuş, nəticədə möhkəm kütlə əmələ gəlmişdir.

Qala divarları təmizlənərkən götürülən töküntü qatları əsasən inşaat materiallarından - çaydaşı, bişmiş kərpic və ağ daşlardan, əhəng, kərpic ovuntusu, çınqıl qatlarından ibarətdir. Töküntü qatının qalınlığı qazıntı sahəsinin müxtəlif

kvadratlarında fərqli olub bəzi yerlərdə 5- 5,4 m - ə çatır. Bu qalaqlar arasında IX - XIII və XVIII-XIX əsrlərin müxtəlif maddi mədəniyyət nümunələri tapılmışdır. Töküntü qalaqlarının 2 m-dən artıq qatı bişmiş kərpic, kərpic parçalarının və əhəng topalarının, qatlarının zənginliyi ilə fərqlənir. Görünür, bu qalaqlar qala divarlarının XIII əsrdə monqol hücumu zamanı dağılması nəticəsində əmələ gəlmişdir. Bişmiş kərpiclər 21x21x4,8 sm, 22x22x5 sm, 22x22x6 sm, 23x23x5 sm, 23x23x5,5 sm, 23,5x23,5x6 sm, 24x24x6 sm ölçüdədir. Bişmə prosesində deformasiyaya uğramış, yanıb ötmüş kərpic nümunələrinə də rast gəlinmişdir. Kərpiclərdən ikisinin üzərində isə itin pəncəsinin əksi qalmışdır (I tablo, şəkil 4).

III qazıntı sahəsindən orta əsrlərə aid xeyli şirli və şirsiz saxsı qab qırıqları, şirli kirəmit fraqmentləri, metal məmulat, bəzək əşyaları, mis sikkələr tapılmışdır. Diqqəti cəlb edən cəhətlərdən biri tapıntıların fraqmentar olması, xüsusilə də saxsı qabların kiçik fraqmentlərlə təmsil olunması, tam salamat qalmış nümunələrə təsadüf olunmamasıdır.

Monqol işğalı zamanı əmələ gəlmiş dağıntı qalaqları üzərindəki əmələ gəlmiş yatım sonrakı uzunmüddətli aşınma, XVIII-XIX əsrlərdə Narınqala daxilindəki yaşayışla bağlı əmələ gəlmişdir. XIX əsr maddi mədəniyyət nümunələri 16-21 saylı kvadratlarda daha çox qeydə alınmışdır. Bu yatımda müvəqqəti istifadə olunmuş ocaq yerləri də aşkar edilmişdir. 13 saylı kvadratda isə qala çıxıntısının küncündə dəfn adətinə riayət olunmadan basdırılmış insan skeleti üzə çıxarılmışdır. Tapıntılar arasında dəmirdən olan inşaat materialları, Rusiyada istehsal olunmuş çini qab qırıqları, xüsusilə tünd şüşədən hazırlanmış butulka nümunələri, qəlyan başlıqları üstünlük təşkil edir. 18-21 saylı kvadratlardan XIX əsrə aid külli miqdarda kirəmit nümunələrinin tapılmasını da qeyd etmək olar. Onların arasında bütöv nümunələr də vardır.

Narınqalanın içərisində, IV qazıntı sahəsində tədqiqatların nəticələri daha maraqlı olmuşdur. Burada abidə iki təbəqəlidir. Üst, XVIII -XIX əsrlərə aid mədəni təbəqənin qalınlığı 1a, 2a , 3a, 4a kvadratlarında 10 - 15 sm olduğu halda 3d kvadratında 2 metrə yaxın idi. Üst mədəni təbəqənin belə yatımı hər şeydən öncə 2 c - e, 3 c - e, 4 c- e kvadratlarında XIX əsrə aid bina qalıqlarının varlığı ilə bağlı idi. Çaydaşı və bişmiş kərpicdən inşa olunmuş həmin binanın dəhliz və iki otağının qalıqları aşkarlanıb təmizlənmişdir. XVIII - XIX əsrlər təbəqəsində xeyli miqdarda şirsiz və şirli saxsı qab qırıqları, saxsı qəlyan başlıqları, Rusiyada istehsal olunmuş dəmir və metaldan əmək alətləri, məişət əşyaları, çini qab nümunələri, şüşə məmulat, rus pulları tapılmışdır. Üst təbəqənin səciyyəsinə ayrıca məruzə həsr olunduğundan, ondan geniş bəhs etmirik. XVIII-XIX əsrlər təbəqəsindən altda zənginliyi ilə fərqlənən, qalınlığı 4 m-ə çatan IX - XIII əsrlərin təbəqəsi yerləşir. Orta əsr mədəni təbəqə yatımı tərkibində kül, kömür qatları, bişmiş kərpic parçaları, çaydaşları, kirəc parçaları, saxsı qab qırıqları, müxtəlif təyinatlı artefaktlar, heyvan və quş sümükləri ilə zəngin, əsasən, yumşaq torpaqla səciyyələnir. Bu təbəqədə istehkam qalıqları, təsərrüfat təyinatlı tikililər, təndir və ocaqlar, təsərrüfat və məişət quyuları, bişmiş kərpicdən hörülmüş qurğu, kürəbənd üsulu ilə düzəldilmiş kanalizasiya xətti aşkarlanaraq tədqiq edilmişdir (şəkil 8-13). Qeyd edək ki, XII-XIII əsrlərin tikili qalıqları daha çox dağıntılara

məruz qalmışdır. Monqol istilası çağına uyğun gələn qat dağıntı, yanğın qalıqları ilə zəngindir. Tikililər güclü dağıntıya məruz qaldığından, əsasən bünövrə qalıqları, yaxşı halda divarın alt cərgələri salamat qalmışdır. Bu dövrə aid bir ocaq ürək və ya badamvari biçimdə bişmiş kərpiclərdən qurulmuşdu. İçərisi küllə dolu idi. XII-XIII əsrlərin inşaat qatında aşkarlanmış quyulardan 3 saylı quyu məişət tullantıları ilə daha zəngin olmuşdur. O, planda ellipsə yaxın formada olub, uzunluğu 2, 85 m, eni ən gen yerdə 2,4 m idi. Quyunun içərisi çoxlu saxsı qab qırıqları, kərpic parçaları, dəmir və metal əşyalar, şüşə qab qırıqları, bəzək əşyaları, heyvan və quş sümükləri olan, ara sıra yanmış gil, tez-tez kül qatlarına rast gəlinən narın torpaqla dolu idi. Fauna qalıqları arasında 943 davar, 55 iribuynuzlu heyvan, 40 quş sümüyü tapılmışdır. Məişət avadanlığından saxsı qab qırıqlarına daha çox rast gəlinmişdir. Quyu təmizlənərkən orada 1086 ədəd şirsiz saxsı qab fraqmenti tapılmışdı. Təkcə güvəc fraqmentlərinin sayı 56 ədəd idi. Şirsiz saxsı qablardan - küp, səhəng, bardaq, küpə, sərnic, güvəc, qapaq qırıqları daha çox idi və onların böyük əksəriyyəti kiçik fraqmentlərdən ibarət idi. Küp qırıqlarından iiçboyalı küp fraqmenti daha çox diqqəti çəkir. Onlardan biri gövdənin fraqmenti olub, üzərində möhürlə vurulmuş heyvan təsvirlərindən ornamental qurşaq vardır. Küpün üzəri həm də batıqlardan ibarət naxışla bəzədilmişdir. Küp qırmızı boya ilə örtüldükdən sonra üzəri cilalanmışdır (inv.406). Digər boyalı küp fraqmenti heyvan və quş təsvirli ornamental qurşaqdan başqa, həm də inkrustasiya ilə bəzədilmiş, bu məqsədlə firuzəyi rəngli qırıntılardan istifadə edilmişdir (inv.448). Səhəng qırıqlarından biri nisbətən iri fraqment olub, düz ağzı, dar boğazı, maili çiyni, ağzının kənarına və çiyninə yapışdırılmış lentşəkilli qulpu olan səhəngin qırığıdır. Çiyni cızma düz və dalğalı xətlərlə naxışlanmışdır (IV tablo, şəkil 4, inv. 412). Şirli qab qırıqları nimçə, kasa, piyalə və çıraq fraqmentləri olub, naxışlanma texnikasına, şir örtüyünə görə bir-birindən fərqlənir. Cızma üsulu ilə naxışlanıb yaşıl şirlə şirlənmiş monoxrom qab nümunələri çoxluq təşkil edir. Bir saya monoxrom nimçə isə bənövşəyi rəngdə şirlə şirlənmişdir (inv.433). Polixrom şirli saxsı qab nümunələrindən iki nüsxə diqqəti çəkmişdir (inv.418,419). Şüşə qab nümunələrindən silindrik gövdəli, oturacağında içəriyə batığı olan flakon qırığı (inv. 421) və halqavari, bayıra genişlənmiş, alçaq altlığı, yuxarıya doğru tədricən genişlənən divarları olan, yaşıla çalan, yarımşəffaf şüşədən hazırlanmış bokal qırığı (inv. 422) diqqətəlayiqdir. Quyudan tapılmış dəmir məmulat əsasən inşaat materiallarından ibarət olub mıx, çənbər, cəftədən ibarətdir (inv. 426-431). Düz, lentvari dəstəyi, haça şəkilli işlək hissəsi olan tapıntının təyinatı müəyyənləşdirilməmişdir (inv. 430). Nazik mis lövhədən döymə üsulu ilə hazırlanmış piyalənin kiçik fraqmenti tapılmışdır (inv.449). Quyudan tapılmış bəzək əşyaları metal asma (inv.444), muncuqlar (inv.445,446) və şüşə bilərziklə (inv.488) təmsil olunmuşdur.

1a - 4a kvadratlarında Narınqalanın şərq divarı içəri tərəfdən də açılaraq tədqiq edilmişdir. Məlum olmuşdur ki, onun eni 3, 75-4 m təşkil edir. Son təmir işləri zamanı isə buradakı bürcün üst hörgüsündə 30x30x8 sm ölçüdə çiy kərpiclər işlədilmişdi. Narınqalanın şərq divarının istər bayır, istərsə də içəri

tərəfində aparılmış arxeoloji tədqiqat onun XI əsrdən gec olmayaraq inşa edildiyini, sonradan dəfələrlə təmir olunduğunu düşünməyə əsas verir.

Narınqalanın içərisində üzə çıxarılmış başqa bir istehkam tikilisinin qalıqları cənub-şərq bürcü, ondan şimal və qərb istiqamətlərinə ayrılan şərq və cənub divarlarını təmsil edir. Bu qala daşdan keyfıyyətli yapışdırıcı kirəc məhlulu ilə hörülmüşdü. Daş hörgünün hündürlüyü bəzi yerlərdə 3, 5 m-ə çatır. Hörgünün üst cərgələri isə çiy kərpicdən hörülmüşdü (şəkil 8). Bişmiş kərpicdən hörgü hələlik yalnız şərq divarda qeydə alınmışdır. Qeyd edək ki, arxeoloji qazıntı zamanı inşaat və təmir işlərinə dəlalət edən qalıqlar da üzə çıxarılmışdır. 4a saylı kvadratda, bürcün qarşısında 16-22 sm qalınlıqda, 1,7 m uzunluqda, 1,25-1,35 m enində kirəc qatı, üst-üstə yığılmış, hansısa səbəbdən işlədilməmiş 23x23x5 sm, 23,5x23,5x5 sm ölçülü kərpiclərin yığımı aşkarlanmışdır. Kirəc qatından götürülmüş nümunənin Azərbaycan MEA Geologiya İnstitutunun «Analitik cihaz və avadanlıqlardan kollektiv istifadə mərkəzində» fiziki-kimyəvi, rentgen faza, termiki analiz üsullarından istifadə etməklə apardığı analiz bu yapışdırıcı məhlulun əsasının gips təşkil etməklə tərkibində həm də kalsit və kvars, az miqdarda çöl şpatı olduğunu təyin etmişdir (7, s. 36-37). Bürc və cənub divarın hörgüsündə tir qalıqlarına rast gəlinmişdir. Cənub divarda daş hörgüdən çiy kərpic hörgüyə keçiddə, horizontal atılmış tir səliqə ilə kirəclə örtülmüşdü. Görünür, tirlərdən hörgüdə istifadə divarın dayanaqlığını artırmağa xidmət etmişdir. Cənub divarına çiy kərpicdən hörülmüş konrfors da eyni məqsəd daşımışdır. Qalanın arxeoloji qazıntılarla kiçik bir sahəsi tədqiq olunduğundan, onun plan quruluşu, konstruktiv xüsusiyyətləri, təyinatı və xronoloji çərçivəsi ilə bağlı əsaslı fikir söyləmək çətindir və ümidvariq ki, gələcək tədqiqatlar bu məsələlərə tam aydınlıq gətirəcək.

IX-X əsrlər inşaat qatında məişətlə bağlı tikinti qalıqları daha sıxdır (şəkil 8-9). Burada aşkarlanmış kiçik çaydaşları və bişmiş kərpic parçaları ilə səliqəsiz hörülmüş hasarı olan kiçik bir həyətdə üç təndir və su hopdurulması üçün qazılmış quyu vardı (şəkil 10). Təndirlər kiçik ölçülü olub diametrləri 48-52 sm, salamat qalmış divarlarının hündürlüyü 44-48 sm idi. 5 saylı təndirin diametri 9 sm olan külbəsi vardı. Quyunun diametri ağzında 0,9 m, dibində lm, dərinliyi l,92 m idi. Quyunun ağzı hörülmüş, üstü uzunluğu lm, eni 18 sm, qalınlığı 6 sm olan uzun, yastı daş, 45x45x7 sm ölçüdə iri bişmiş kərpiclərlə örtülmüşdü. Quyunun mərkəzində yerləşdirilmiş kərpicin ortasında diametri 14 sm olan çuxur oyulmuş, onun ortasında isə 9 sm diametrdə deşik açılmışdır. Həyət yastı daşlar və bişmiş kərpiclə döşənmişdi (şəkil 10-11).

Bu həyətdən cənubda, oxşar hörgülü hasarla əhatə olunmuş digər həmdövr kompleksdə, şimal-qərb tərəfində, divara yaxın təndir, onun yaxınlığında isə ocaq üzə çıxarıldı. Təndirin yerləşdiyi 1,5 m uzunluqda, 1 m enində, döşəmədən 15-20 sm hündürlükdə sahə səkiyə bənzəyirdi və bişmiş kərpicdən qurulmuşdu. Təndirdən 60 sm cənub-qərb tərəfdə bişmiş kərpiclərin dikinə qoyulması ilə ocaq düzəldilmişdi. Ocaq kül ilə dolu idi. Kompleksin döşəməsi torpaqdan olub üzərinə suvaq çəkilmişdi. Suvağın iki qatı müəyyənləşdirilmişdir.

IX əsrə aid edilən bişmiş kərpiclə inşa olunmuş kiçik bir tikilinin qərb divarında eni 60 sm olan qapı yeri vardı, şərq divarı isə qalmamışdı. Diqqəti çəkən cəhətlərdən biri döşəməsinin səliqə ilə bişmiş kərpiclə döşənərək üzərinə kirəclə suvaq çəkilməsidir (şəkil 13). Orta əsr təbəqəsində aşkar edilmiş maddi mədəniyyət qalıqları arasında şəhər abadlığı ilə bağlı mühəndis qurğusu - IX-X əsrlərə aid kanalizasiya xətti böyük elmi əhəmiyyət kəsb edən, yüksək şəhər mədəniyyətindən xəbər verən maddi dəlildir. Qazıntı sahəsinin lc kvadratında qərb tərəfdən gələn əsas xəttə cənubdan yan xətt qoşulur. Əsas xətdə kanalın eni 35 sm, yan xətdə isə 23 sm idi. O, bişmiş kərpic, çaydaşı və ağ daş lövhələrdən istifadə etməklə kürəbənd üsulu ilə qurulmuşdur (şəkil 12).

IX-XIII əsrlərin tikililəri əsasən 22x22x5 sm, 23x23x5 sm, 23,5x23, 5x5 sm, 23,5x23,5 x5,5 sm ölçüdə bişmiş kərpiclərdən və çaydaşından əhəgli məhlulda inşa olunmuşdur. Diqqəti çəkən IX-X əsrlər təbəqəsində 45x45x6 sm, 45x45x7 sm, 43x43x6-7 sm ölçüdə iri bişmiş kərpiclərə rast gəlinməsidir. Belə kərpiclərdən 5 ədədi üst-üstə qoyulmuş şəkildə qazıntının cənub tərəfində, 1a kvadratında üzə çıxarılmışdır. 45x45x6 sm, 45x45x7 sm, 43x43x6-7 sm ölçüdə iri bişmiş kərpiclər Azərbaycanın inşaat sənətində IX-X əsrlər üçün səciyyəvi deyildir. Oxşar ölçüdə, lakin 10 sm qalınlıqda bişmiş kərpiclərdən istifadə edilməsi Qəbələ şəhər yerində VI-VII əsrlərə aid inşaat qatından məlumdur (8, 18). Qeyd edək ki, belə iriölçülü çiy kərpiclər erkən orta əsrlərdə Azərbaycan inşaat sənətində geniş yayılmışdı (9; 10 , s. 22; 11, s. 9-10).

Orta əsr təbəqəsindən əldə olunmuş tapıntılar dəmir əmək alətləri və silah nümunələrindən (II tablo), inşaat materiallan (I tablo) və məişət əşyalarından, şirli və şirsiz saxsı qab nümunələrindən (III-VII tablo), metal və şüşə məmulatdan (VIII tablo), bəzək əşyalarından (IX tablo), mis sikkələrdən ibarətdir. Mavi şirli kirəmit fraqmentləri (I tablo, şəkil 2,3) də maraqlı tapıntılardandır.

Tapıntılar arasında saxsı məmulatı daha çoxdur. Şirsiz saxsı məmulat, əsasən, təsərrüfat və məişətdə işlədilən müxtəlif təyinatlı qablardan ibarətdir (III-V tablo). Təsərrüfat küplərinin dar, yastı oturacağı, armudvari gövdəsi, gen, alçaq boğazı vardır. Ağzının kənarı yana qatlanmışdır. Bir qayda olaraq gövdənin üzərini yapma qurşaq dövrələyir (III tablo). Çiyni ornamental kəmərlə bəzədilmiş qırmızı boyalı küp qırıqlarının çoxluğu diqqəti cəlb etməyə bilməz. Möhürlə salınmış ornamental kəmərlərdə, adətən, keçi, maral, at təsvirlərinə, həyat ağacına, bəzən insan təsvirlərinə rast gəlinir. Bir nümunədə hətta ov səhnəsi təsvir edilmişdir. Oxşar boyalı küplər orta əsr Gəncə, Beyləqan şəhərlərinin arxeoloji tədqiqindən yaxşı məlumdur (12; 13) və bu isə öz növbəsində Arran keramika məktəbinin mövcudluğundan xəbər verir. Güvəc qırıqları da adi tapıntılardandır. Onlar müxtəlif tutumlu, lüləkli və lüləksiz olub zəngin naxışlanmaları ilə fərqlənir (V tablo, şəkil 1-3). Onların bəzədilməsində cızma xətlər, çərtmələr, yapma düyməciklər, nöqtələr və batıqlardan ibarət naxışlara, bəzən inkrustasiyaya rast gəlinir. Şirsiz saxsı məmulat arasında orijinal forması ilə fərqlənən nümunələrə də rast gəlinir. Misal üçün, ağzı novçalı kiçiktutumlu qabın boğazında simmetrik dörd yarımsilindr formasında bayıra genişlənmə ona

bənzərsiz görünüş verir (IV tablo, şəkil 1). Tapılmış sferokonuslar kiçiktutumlu, formalarının müxtəlif olması ilə diqqəti cəlb edir. Şirli saxsı məmulat Azərbaycanın orta əsr şirli saxsı məmulatı üçün səciyyəvi olan nümunələrlə təmsil olunmuşdur. Erkən şirli saxsı qab nümunələri şir altından anqob və marqansla, əsasən həndəsi naxışlarla bəzədilmişdir. Şir altından anqob, marqans və mis oksidi ilə bəzədilmiş nümunələrə də rast gəlinir (VI tablo, şəkil 1-6). X əsrin sonundan qabların bədii işlənməsində şir altından cızma üsulla naxışlar salınmasına başlanılır. Belə qablar daha çox yaşıl rəngdə şirlə şirlənir. XI-XIII əsrin əvvəllərində cızma naxışlı polixrom şirli qabların istehsalına üstünlük verilmişdi (VII tablo). Onların bədii işlənməsində həndəsi və nəbati naxışlar, quş təsvirləri uğurla tətbiq olunurdu. Şəmkirin şirli saxsı qablarının fərqli cəhətlərindən biri hələlik oturacağına damğa vurulmuş nümunələrə rast gəlinməməsidir. Fayans qab qırıqlarının çoxluğu, çıxar nümunələrinə rast gəlinməsi yerli istehsalın mövcudluğundan xəbər verir. Tapıntılar məişətdə nəfis şüşə qab-qacaqdan da geniş istifadə edildiyini təsdiqləyir. Bərni, piyalə, ətir qablarının fraqmentləri onların əsasən şəffaf şüşədən yüksək peşəkarlıqla hazırlandığını, həndəsi naxışlarla bəzədildiyini göstərir (VIII tablo). Əmək alətlərindən bıçaqlar, silahlardan ox ucluqları, inşaat materiallarından mix və çənbərlər (II tablo), bəzək əşyalarından metal və şüşə bilərziklər, metal sancaqlar, pasta muncuqlar (VIII tablo) çoxluq təşkil edir. Bıçaq tiyələrinin qırıqları müxtəlif ölçü və tiplərdə hazırlanmış nümunələrə məxsusdur.

Ox ucluqları xüsusilə çox və müxtəlif tiplidir. Təkcə IV qazıntı sahəsində 20 ədəd ox ucluğu tapılmışdır. Onların hamısı sulğuncludur. Qrup və tiplərə pərlərinin en kəsiyi və formasına görə bölünürlər.

Bəzək əşyalarından şüşə bilərziklər adi tapıntılardandır. Onlar qara, yaşıl, göy, çəhrayı, qızılı rəngli şüşədən hazırlanmış, en kəsikləri dairəvi, oval, üçbucaq formalıdır. Lentşəkilli, içəri tərəfdən hamar bilərziklərə də rast gəlinir. Metal bilərziklər az da olsa, müxtəlif tiplidir. Onlardan ikisinin tərkibinin spektral analizi onların qurğuşun və sink qarışığının faizinin çox olduğu tuncdan hazırlandığını göstərmişdir. Başlığı quş formasında hazırlanmış tunc sancaq da maraqlı bəzək nümımələrindəndir. Sual işarəsi formasında hazırlanmış sırğanın XI əsrə aid inşaat qatından tapılması isə bu tip sırğaların xronoloji çərçivəsini dəqiqləşdirməyə, onların Azərbaycanda monqol istilasından əvvəl yayıldığını müəyyənləşdirməyə imkan verir.

Şəmkir şəhər yerindən tapılmış mis sikkələr xronoloji baxımdan VIII - XV əsrləri əhatə edir. Ən erkən iki nümunə nominal olaraq fulusdur və erkən abbasilər dövrünə aiddir. Təyin olunan sikkələr arasında Azərbaycan Atabəylərinin zərb etdirdikləri sikkələr üstünlük təşkil edir. Tapıntılar arasında yarımfabrikat və istehsal tullantılarının olması isə Şəmkirdə zərbxananın fəaliyyət göstərməsinə dəlalət edən faktdır (14, s. 31-32). Diqqətəlayiq haldır ki, VIII-XIII əsrlərin sikkələri əsasən qazıntıdan tapıldığı halda, XIV-XV əsrlərin sikkələri yerüstü tapıntılardır.

Beləliklə, 2006-2007-ci illərdə Orta əsr Şəmkir şəhər yerində aparılmış qazıntı işləri intensiv şəhər həyatının mövcudluğunu təsdiqləmiş, bu şəhərin

sosial-iqtisadi, siyasi və mədəni inkişaf tarixinə dair maraqlı faktik materiallar vermişdir. Lakin şəhərin tarixi ilə bağlı sirlər, sual doğuran, həllini gözləyən məsələlər də çoxdur. Tədqiqatlar davam edir. Ümidvarıq ki, gələcək arxeoloji qazıntılar sirlərə, suallara aydınlıq gətirəcək, orta əsr Azərbaycan şəhərinin öyrənilməsində mühüm rol oynayacaqdır.

## ƏDƏBİYYAT


1. Vəlixanlı N.M. IX-XII əsr ərəb coğrafiyaşünas-səyyahları Azərbaycan haqqında. Bakı, 1974.
2. Баладзори. Книга завоевания стран. Перевод с арабскою П.К.Жузе. Баку, 1927.
3. Аргаманов М.И. История Хазар. Ленинград, 1962.
4. Hüdud al-Alam. The regnon of the world. A Persnan geography. 372 h.d. / 982 a.d. Trans, and expl. by V. Мипогеки. London, 1937.
5. Миклухо-Маклай Н.А.Географическое сочинение XIII в. на персидском языке.
Ученые записки Института Востоковедения АН СССР, 1954, т. 9.
6. Православно-палестинский сборник, 1889, вьи. VII.
7. Xəlilov Ə.C., Sadıqov N.M., Hüseynova E.B., Sadıqov B.A. Şəmkir rayonunun qədim abidələrinin tikilməsində istifadə olunan tikinti materiallarının kimyəvi və mineraloji tərkibinin kompleks analizi. // Şəmkir: arxeoloji irsi, tarixi və memarlığı. Birinci respublika elmi-praktik konfransı. Proqram və tezislər. Şəmkir, 2007.
8. Əliyev İ.H., Qədirov F. V. Qəbələ. Bakı, 1985.
9. Vahidov R.M. Mingəçevir III-VIII əsrlərdə. Bakı, 1961.
10. Əhmədov Q.M. Orta əsr Beyləqan şəhəri. Bakı, 1979.
11. Alizadeh K. Preliminary Report of of archaeological excavations at Ultan qalasi, Mughan steppe - Ardabil. Tehran. 2007.
12. Левиатов В.Н. Керамика Старой Гянджи. Баку, 1940.
13. Əhmədov Q.M. Azərbaycanın şirsiz saxsı məmulatı. Bakı, 1959.
14. Pirquluyeva Q.Ə. 2007-ci ildə Şəmkir qazıntılarından tapılmış mis pullar haqqında. // Şəmkir: arxeoloji irsi, tarixi və memarlığı. Birinci respublika elmi-praktik konfransı. Proqram və tezislər. Şəmkir, 2007.




**Şəkil 1. Orta əsr Şəmkir şəhər yerinin topoqrafik planı**



**Şəkil 2. Şəhristanın qərb və şimal divarları qalıqlarının görünüşü**



**Şəkil 3. Şəhristanda tikili qalığı**



**Şəkil 4. I qazıntı sahəsinin görünüşü**



**Şəkil 5. Narınqalanın şərq divarından görünüş**



**Şəkil 6. Narınqalanın şərq divarı. Bünövrə və divar**



**Şəkil7. III qazıntı sahəsi. Şərqdən görünüş**



**Şəkil 8. IV qazıntı sahəsi. Cənubdan görünüş**



**Şəkil 9. IV qazıntı sahəsi. Şimaldan görünüş**



**Şəkil 10. IV qazıntı sahəsi. IX-X əsrlərə aid kompleks**



**Şəkil 11. 5 saylı quyu**



**Şəkil 12. IV qazıntı sahəsi. IX-X əsrlərə aid kanalizasiya qurğusu**



**Şəkil 13. IV qazıntı sahəsi. IX-X əsrlərə aid tikili qalıqları**



**1**



2



3



4

**I tablo. İnşaat materialları**




**II tablo. Alət və silahlar**


1


2

**III tablo. Küplər**




**IV tablo. Səhənglər və bardaqlar**




**V tablo. Şirsiz saxsı məmulat**




**VI tablo. Erkən şirli saxsı məmulatı**




**VII tablo. XI-XIII əsrlərin şirli saxsı məmulatı**




**VIII tablo. Şüşə məmulatı**




**IX tablo. Metal fiqur və bəzək əşyaları**

## R.Y BƏŞiROV

### *Şəmkir şəhər yerində XVIII-XIX əsrlər mədəni təbəqəsi*

2007-ci ildə orta əsr Şəmkir şəhərinin xarabalıqlarında aparılan arxeoloji qazıntılar zamanı XVIII-XIX əsrlərdə şəhərin Narınqala hissəsinin istifadə olunmasını təsdiq edən külli miqdarda maddi mədəniyyət nümunəsi əldə olunmuşdur.

Narınqalanın şərq divarının tədqiqi zamanı III qazıntı sahəsində, xüsusilə 16-21 saylı kvadratlarda XVIII-XIX əsrlərə aid qalın, bəzi yerlərdə qalınlığı 2-2,5 m-ə çatan töküntü, tullantı qatının varlığı müəyyən olunmuşdur.

Narınqalanın içərisində, onun şərqində aparılan arxeoloji qazıntı sahəsində (IV qazıntı sahəsi) XVIII-XIX əsrlərin mədəni təbəqə yatımı da tədqiq edilmişdir. Onun qahnlığı 1a, 2a, 3a, 4a kvadratlarında 10-15 sm təşkil etdiyi halda, 3d kvadratında 2 metrə yaxın idi. Üst mədəni təbəqənin belə yatımı 2c-e, 3c-e, 4c-e kvadratlarında XIX əsrə aid bina qalıqlarının varlığı ilə şərtlənmişdi. Çaydaşı və bişmiş kərpicdən inşa olunmuş həmin binanın 2 otağı və dəhlizinin qalıqları aşkarlanıb təmizlənmişdir. Binanın bünövrəsi çaydaşından əhəngli məhlulla qoyulmuşdur və yükdaşıyıcı divarlardan 20 sm enlidir. Bina arakəsmə divarlarla dəhliz və otaqlara ayrılmışdı. Dəhlizin eni 2,75 m, uzunluğu 8,5 m idi. Dəhlizdən cənub tərəfdəki otaq zirzəmili olub, uzunluğu 8,5 m, eni 5,6 m idi. Otağın döşəməsi taxtadan olub, qalıqları divarda qalmışdır (şəkil 1). Divarlarına suvaq çəkilərək göy boya vurulmuşdu. İkinci otağın yalnız bir hissəsini izləmək mümkün oldu. Digər hissəsi qazıntı sahəsindən kənarda yerləşir. Dəhliz və ikinci otağın döşəməsi 19x19x4 sm ölçüdə bişmiş kərpiclərlə döşənmişdi. Kərpic döşəmənin altında isə tədricedici əhəng qatı qeydə alınmışdır. Döşəmə fraqmentlər halında qalmışdır. Dəhliz və 2 saylı otağın qarşısında, qərb tərəfdə səkiyəbənzər tikili qalığı aşkar edilmişdir. Buraya iri və orta ölçülü çaydaşları tökərək aralarını çınqılla doldurub möhkəmlətmişdilər. Səki üçün, görünür, qala divarından düşmüş ağ puç daşdan da istifadə etmişdilər. Səkidən sağ tərəfdəki divarın küncündə ağac dirəyin yeri qalmaqdadır. Ehtimal ki, tikilinin qərb tərəfə baxan hissəsində eyvan (artırma) olmuşdur. Ətrafdan çox sayda kirəmitin tapılması binanın dam örtüyünün kirəmitdən olmasını söyləməyə imkan verir.

XIX əsrə aid, çaydaşı və bişmiş kərpic parçalarından hörülmüş ikinci tikili qalığı kiçikölçülü olub, görünür, yardımçı təyinata malik idi və birinci binadan 3,9 m şərqdə, Narınqalanın şərq divarının yaxınlığında yerləşirdi (şəkil 2).

XVIII-XIX əsrlər təbəqəsindən xeyli miqdarda şirsiz və şirli saxsı qab fraqmentləri, qəlyan başlıqları, Rusiyada istehsal olunmuş çini qab nümunələri, dəmir və metal nümunələri, şüşə məmulatı və rus pulları tapılmışdır. Qeyd etmək lazımdır ki, bu nümunələrin əksəriyyəti III qazıntı sahəsindən, yəni qala divarının kənarına tökülmüş təbəqədən aşkar olunmuşdur. Həmin əşyaların əksər hissəsinin sınıq olması göstərir ki, Narınqalada yerləşmiş hərbçilər sınmış qab-qacaqları sonradan yuxarıdan aşağıya tullamış, bu ərazini zibilxanaya çevirmişlər. Tullantı

sahəsi daha çox 16-21-ci kvadratları əhatə etmişdir. Burada yalnız aşkar olunmuş qəlyan başlıqları istisna təşkil edir. Belə ki, onlar artıq 8-ci kvadratdan başlayaraq müşahidə olunmuş və 2007-ci ilin arxeoloji qazıntı işləri başa çatdırılanda sayları 27 ədədə çatmışdı.

Qəlyanların sayının çoxluğu, onların müxtəlif ölçülü olması və bəzək elementlərinin zənginliyi göstərir ki, o dövrdə Narınqalada yaşayan əhalinin bir hissəsi qəlyan çəkməyi sevirmiş və bir-birindən fərqlənən qəlyanları öz zövqlərinə uyğun olaraq sifariş verirlərmiş. Hazırlanma tcxnikasına görə qəlyan başlıqları bir-birindən fərqlənir. Onların xarakterik naxışlarla bəzədilməsi, ölçülərinin müxtəlifliyi, ayrı-ayrı quruluşa malik olmaları ustaların məharətindən və incə zövqə malik olmasından xəbər verir. Qeyd etmək lazımdır ki, aşkar olunan qəlyan başlıqlarının hamısı sınıq vəziyyətdədir. Onların saxsısı açıq qəhvəyi, qara və qırmızı rənglidir. Qəlyanlar bir qayda olaraq gildən hazırlanmış, yaxşı təmizlənmiş, yüksək səviyyədə bişirilmişdir (I tablo, şəkil 5,8).

Təqdim etdiyimiz qəlyan başlıqlarının birindən başqa hamısı qəlibdə hazırlanmışdır. Qəlibdən çıxarıldıqdan sonra bəzilərinin üzərində cızma üsulu ilə müxtəlif formada xətlər çəkilmişdir.

Qəlyan başlıqlarını formalarına görə bir neçə tipə ayırmaq olar. 1. Tədricən əyilən qəlyan başlıqları. Onlar üç ədəddir. Onların ikisi kiçiktutumludur. Birinci çəhrayı rəngdədir. Həm tütün doldurmaq üçün olan kasacıq, həm də müştüyün keçirilməsi üçün olan boru hissəsi sınmışdır. İkinci nüsxəyə boya çəkilmişdir. Kasacıq hissə bütövlükdə sınmışdır. Gövdəsi cızma naxışlarla bəzədilmişdir. Üçüncü qəlyan nisbətən böyükdür. Açıq-qəhvəyi rəngdədir. Hər iki tərəfi sınmışdır. Gövdəsinin ətrafı incə naxışlarla bəzədilmişdir. II tipə dirsək formalı qəlyanlar daxildir. Onlar əksəriyyət təşkil edir. Qeyd etmək lazımdır ki, bu qəlyan başlıqlarına vurulmuş bəzək elementlərinin heç biri digərini təkrar etmir. Onlardan üçünə ərəb əlifbası ilə möhür vurulmuşdur. Ehtimal ki, bu möhürlər qəlyanları hazırlayan ustaya məxsusdur. Qəlyanların tütün doldurmaq üçün olan kasacıqlarının bəziləri silindrik, digərləri qıf formasındadır. Qəlyan başlıqlarının üçü digərlərindən fərqlənir. Onlardan biri yaşıl rənglə şirlənməsi ilə diqqəti çəkir. İkinci qəlyan başlığı qırmızı boya ilə örtülmüşdür. Digərlərindən fərqli olaraq oturacağı dairəvi lövhə şəklindədir. Kasacıq hissənin baş tərəfi sınmışdır və silindrik formadadır. Qəlyan nümunələri arasında bir nüsxə Zəyəm daşı deyilən yerli ağ puç daşdan hazırlanmışdır. Altıtilli gövdəsi olan qəlyanın hər iki tərəfi sınmışdır.

Şəmkir şəhər yerində aşkar olunan qəlyan başlıqlarının oxşarları Bakıda, İçərişəhər arxeoloji qazıntılarında da aşkar olunmuşdur (1, s.29-30). Bəzi mütəxəssislər istifadə olunan tütünün Avropadan Rusiyaya, oradan da Azərbaycana gətirilməsi ideyasını irəli sürmüşlər (2, s.83-87). Lakin bizcə, tütün Azərbaycana Osmanlı dövləti tərəfindən gətirilmişdir. XVII-XIX əsrlərdə Osmanlı dövləti həm Avropaya, həm də Azərbaycana Rusiyadan daha yaxın idi. Şəmkirdə aşkar olunan qəlyan başlıqları da qənaətimizcə bu dövrlərə aiddir.

XVIII-XIX əsrlərə aid təbəqədə Rusiyaya aid materialların çoxluğu diqqəti cəlb etməyə bilməz. Müşahidələrimiz göstərdi ki, IV qazıntı sahəsindəki

böyük binadan Rusiyanın işğalçı qüvvələri - hərbçiləri bir müddət istifadə etmişlər.

Məlum olduğu kimi, XVIII-XIX əsrin hüdudlarında Azərbaycanın daxili və beynəlxalq vəziyyəti çox mürəkkəb idi. Xanlıqlara bölünmüş Azərbaycanda xanlıqlar arasında gedən mübarizələr və bunların nəticəsində əmələ gələn siyasi və iqtisadi tənəzzül daha da dərinləşirdi. Bu dövrdə Rusiya Cənubi Qafqazı işğal etmək planlarını reallaşdırmağa, Qafqazı əlavə gəlir mənbəyinə çevirməyə, Xəzər dənizi hövzəsi üzərində ağalığa nail olmağa, Xəzəri daxili dənizinə çevirməyə can atırdı (3, s.14).

Gürcüstanın Rusiyanın himayəsinə qəbul olunduğunu elan edən 1800-ci il 18 dekabr manifestindən sonra imperiya hökuməti Cənubi Qafqazda fəal hərbi müdaxiləyə başladı.

Rusların Şəmkirə ilk gəlişi 1803-cü ilə təsadüf edir. Gəncəni işğal etmək üçün böyük hazırlıq işləri görən Sisyanov həmin il noyabrın 29-da Şəmkirə gəlmiş və buradan hədə-qorxu dolu məktubu Cavad xana göndərmişdi (4, s. 39).

İşğal dövründə Şəmkirin bir daha xatırlanması 1826-cı ilə təsadüf edir. Sentyabrın 3-də general Mədətovun başçılıq etdiyi 3-dən çox batalyon, 12 top, 12 kazak alayı vo 500 gürcü milisindən ibarət dəstə Gəncə istiqamətində hərəkətə başlamış, Şəmkir yaxınlığında baş verən döyüşdə ruslar qalib gəlmişlər. Maraqlıdır ki, XIX əsrin 30-cu illərində Maşarski tərəfindən çəkilmiş rəsmdə döyüşün məşhur Şəmkir minarəsi yaxınlığında baş verdiyi göstərilmişdir. (5). Görünür, Quzey Azərbaycanın işğalı başa çatdıqdan sonra rus qarnizonu şəhərin Narınqala hissəsində XIX əsrin 70-ci illərinədək qalmışdır. Bunu arxeoloji qazıntılar zamanı oradan tapılmış ruslara məxsus məişət əşyaları və 4 ədəd rus pulu sübut edir. Pullar 1821-ci ildə zərb olunmuş 2 qəpiklik, 1832-ci ildə zərb olunmuş 5 qəpiklik, 1853-cü ilə aid 3 qəpiklik və nəhayət, 1873-cü ilə aid 3 qəpiklikdir. Onların reversində Rusiya imperiyasının gerbi həkk olunmuşdur.

Qazıntılar zamanı çox sayda çini qablar tapılmışdır. Onlar əsasən çayniklərdən, nimçə və nəlbəkilərdən ibarətdir. Nümunələr yüksək keyfiyyətlə və nəfis şəkildə hazırlanmışdır. Bu qabların əksəriyyəti «Kuznetsov» çini qablar zavodunun məhsuludur. Kasa tipli qabın birinə «BK» hərfləri olan möhür vurulmuşdur. Nimçə tipli qabın alt hissəsinin ortasında «A» hərfi şəklində qırmızı rəngli möhür vardır (II tablo, şəkil 1).

Çini qabların içərisində oturacağı böyük olan nimçə diqqəti xüsusilə cəlb edir. Qabın içərisində budaqları aşağı sallanmış ağacın altında rəqs edən gənc oğlan və qızın rəsmi çəkilmişdir. Əldə etdiyimiz fraqmentləri yapışdırdıqdan sonra rəqs edən oğlanın təsviri demək olar ki, bütünlüklə bərpa olundu. Təəssüf ki, qızın yalnız başı, ayaqları və boz paltarının ətəkləri salamat qalmışdır. tstifadə olunmuş rənglər ağ və qaradan ibarətdir. Ola bilsin ki, rəsm əsərinin motivi Qərbi Avropa, xüsusilə İtaliya və ya Fransa novellalarından götürülmüşdür (I tablo, şəkil 4).

Şüşə məmulatı əsasən stəkan və çoxlu butulka sınığından ibarətdir.

Nisbətən yaxşı qalmış stəkanın yastı oturacağı, on tilli gövdəsi, qıf formasında bayıra açılan ağzı vardır. Oturacağında 12 ləçəkli gül və ya günəşin

şüasına bənzər ornament qazılmışdır. İçərisində ağ rəngli məhlul qalığı yapışıb qalmışdır.

Flakon tipli şüşə qab yeganə məmulatdır ki, bütünlüklə salamat qalmışdır. Diametri təqribən 3,5 sm, uzunluğu 12 sm olan bu qabın dar boğazı vardır. Dövründə ola bilsin ki, ondan ətriyyat və ya dərman saxlamaq üçün istifadə olunmuşdur (II tablo, şəkil 3).

Rusiyaya məxsus butulka sınıqlarının əksəri qara rəngli və qalın divarlıdır. Çox keyfiyyətlə hazırlanmışdır. Tapılan nümunələrin çoxu alt hissəyə və boğaza aiddir. Onların şorab və ya şampan şüşələri olması şübhə doğurmur (II tablo, şəkil 2).

Metal məmulatlardan diqqəti cəlb edən əsas əşyalar xaç, düymələr, qıfıl və silah hissələridir.

Görünür, xaç rus zabitlərindən birinə mənsub olmuşdur. Boyuna asmaq üçün olan xaçın uzunluğu 2,6 sm-dir.

Qıfıl kifayət qədər yaxşı qalmışdır və yüksək zövqlə düzəldilmişdir.

Müasir qıfıllara oxşarı çoxdur (II tablo, şəkil 5).

Metal düymələr qalxanvari formaya malik olub, arxa tərəfindəki çökəkdə çıxıntı vardır. Görünür, hərbi geyimin vacib elementlərindən biri olmuşdur.

Bir metal əşya tüfəng qundağının arxasına vurulan metal örtüyə bənzəyir. Qundağa bərkitmək üçün kənarlarında 2 ədəd deşik açılmışdır (II tablo, şəkil 6).

XIX əsrə aid dəmir məmulatı da çoxdur. Lakin onların yerli və ya Rusiyadan gətirilmə olduğu haqda qəti bir söz demək mümkün deyil. Onlardan qapı rəzəsi, dəmir badya, müxtəlif forma və ölçüdə mıxlar, cəftə və həncəmaları, nalları qeyd etmək olar.

Qapı rəzəsi (cəftə), iki hissədən ibarət olub, bərkidilən hissənin bir ucu qatlanaraq ilgək formasına salınmış, qapıya geydirilən ucu isə kəsikdə dairəvi formadadır. İkinci hissənin bir tərəfi saat əqrəbi formasında, digər ucu qarmaq formasında hazırlanıb. Cüzi korroziyaya uğramışdır (II tablo, şəkil 7).

Dəmir badyanın hündürlüyü təqribən 25 sm, diametri 21 sm-dir. Yastı oturacağı, bikonik gövdəsi vardır. Boğaz tərəfinin böyük bir hissəsi sınmışdır. Güclü korroziyaya məruz qalmışdır (II tablo, şəkil 8).

Dəmir əşya. En kəsiyi düzbucaqlı olan dəmir çubuqdan kiril əlifbasının «п» hərfi formasında hazırlanmış, bir ucu iti, digər ucu sınmış əşyadır. Görünür, inşaatda və ya məişətdə çənbər kimi istifadə olımmuşdur. Uzunluğu 7,4 sm, eni 7,2 sm-dir. Arxeoloji qazıntıların nəticələri XIX əsrin əvvəllərindən 70-ci illərədək Orta əsr Şəmkir şəhərinin Narınqalasından rus hərbçilərinin istifadə etdiyini, burada rus hərbi hissəsinin yerləşdiyini təsdiqləməyə əsas verir.

## ƏDƏBİYYAT

1. İbrahimov F., Fərhadoğlu K. Bakı, İçərişəhər. I arxeoloji albom. Bakı, 2002, s.54-55.
2. Ахмедов Р. О керамических курительных трубках из средневекового Баку. Известия АН Азерб ССР, сер. история, философия и право. Баку, 1979, №2.
3. Azərbaycan tarixi. 4 cild. Bakı, 2000.
4. Vidadi Umudlu. Şimali Azərbaycanın çar Rusiyası tərəfindən işğalı və müstəmləkəçilik əleyhinə mübarizə (1801-1828). Bakı, 2004.
5. Жизнь генерал-лейтенанта князя Мадатова. Санкт-Петербург, 1837, с.99-104.



Şəkil 1.



Şəkil 2.







**I tablo. Çini qablar və qəlyanlar**




**II tablo. Çini qab, şüşə və metal məmulat**

**Q. A. PİRQULİYEVA**

## *2007-ci ildə Şəmkir qazıntılarından aşkar edilən mis sikkələr haqqında*

Şəmkir şəhər yerində aparılan arxeoloji qazıntılar nəticəsində çox maraqlı maddi mədəniyyət qalıqları aşkar edilmişdi. Bunların içərisində 2007-ci ilin qazıntıları zamanı tapılan numizmatik materiallar ekspedisiyanın rəhbəri T.M.Dostiyev tərəfindən təyin edilmək üçün bizə təqdim olunmuşdur.

Məlum olduğu kimi hər hansı bir tarixi abidənin dəqiq xronoloji çərçivəsini təyin etməyin ən etibarlı mənbəyi sikkə materialıdır. Buna görə də adı çəkilən qazıntılardan tapılan pullar xüsusi əhəmiyyətə malikdir.

Şəmkirin strateji mövqeyi bütün tarixi dönəmlərdə, həmçinin, orta əsrlərdə buranın xarici işğalçıların hücum, döyüş mövqeyinə çevrilməsinə gətirib çıxarmışdı. Bu baxımdan türk-Bizans münasibətlərinin həlli zamanı, ərəb və monqol istilalarında bir çox tarixi mənbələrdə Şəmkirin nə qədər vacib bir məkan olduğu dəfələrlə xüsusi olaraq vurğulanmışdır. Digər tərəfdən, bu yerlərin maddi nemətlərlə bolluğu, təbii gözəlliyi, memarlıq abidələri, insanları haqqında da müəyyən qədər məlumatlar vardır. Ticarət yollarının kəsişdiyi yerdə yerləşən Şəmkir həm də ayrı-ayrı zamanlarda iqtisadi yüksəliş dövrünü yaşamışdı.

Şəmkirdə aparılan arxeoloji qazıntılar zamanı tapılan sikkələr bu şəhərin ticarət əlaqələrinin və pul işinin mövcudluğunu, Azərbaycan şəhərləri arasında xüsusi bir mövqedə olması faktını təsdiqləyir. Şəmkirdən tapılan pullar həm yerüstü materialların arasında, həm də mədəni təbəqə yatımında aşkar edilmişdi.

Yerüstü materiallar arasında aşkar edilən sikkələrin içərisində XIII-XIX əsrlərdə zərb edilən mis pullar vardır. Bunlardan Elxani hökmdarı Abaqa xanın adından, Təbrizdə 671-ci hicri ilində zərb olunan fulus, Rusiya imperiyası tərəfindən dövriyyəyə buraxılan və Azərbaycanda məlum tarixi hadisələrdən sonra əmtəə-pul münasibətlərdə əsas yer tutan, XIX əsr mis qəpikləri misal çəkmək olar. Yerüstü materiallara aid olan pulların ümumi görünüşü numizmatik nöqteyi-nəzərindən məqbuldur, yazılar və digər elementlər təyin edilə biləcək vəziyyətdədir.

Mədəni təbəqələrdən aşkar edilən pul nümunələri içərisində zərb tarixinə görə ən qədimi erkən Abbasilər dövrünə (VIII əsrin ikinci yarısı) aiddir. Çəkisi 0,5 qram, diametri 8-10 mm; Aversində ərəb əlifbası ilə «at-taala» sözü oxunur, kənar çərçivə xətlər və nöqtələrlə yaradılmış şəkildədir. Bu cür ikinci sikkə nominalı ilk Şirvanşahlara aid edilən, çox sonralar kəmərüstü bəzək kimi istifadəsi ehtimal edilən fulusdur.

Araşdırdığımız numizmatik materiallar arasında kəmiyyət etibarilə Atabəylər dövrünün sikkələri üstünlük təşkil edir. Belə pulların sayı 27 ədəddir. Pullar numizmatika elmində məlum «kredit dirhəm» adı altında tanınan mis sikkələrdir. Yeri gəlmişkən qeyd etmək lazımdır ki, Atabəylərin hakimiyyətinin ilk dövrləri tarix elmində «Şərq müsəlman mədəniyyətinin dönüş nöqtəsi» adı altında tanınır. Bu dönüşün çərçivəsinə klassik ədəbi əsərlər, memarlıq abidələri və s. daxil olmaqla yanaşı, həm də «gümüş böhranı» anlayışı daxildir. Böhranın cərəyan etdiyi ölkələrdən biri də Azərbaycan olmuşdur. 100 ildən artıqdır ki, dünya alimləri

tərəfindən «fenomen hadisə» hesab edilən gümüş böhranının səbəbləri və nəticələri öyrənilsə də, hələlik yekun məxrəcə gəlinməmişdir. Azərbaycan üçün bizim fikrimizcə, gümüş böhranının əsas səbəbi iqtisadiyyatın güclənməsi, əmtəə-ticarət münasibətlərinin Avropa ölkələri ilə həyata keçirilməsi, bunun nəticəsi olaraq, buradan gümüş dirhəmlərin ayrıca bir əmtəə kimi xarici ölkələrə daşınması olmuşdu. Nəticədə ölkədə pul çatışmazlığı yaranmışdı. Bu boşluğu aradan götürmək üçün hakimiyyət Şərq ölkələrinin tarixində görünməmiş bir addım atmışdı. Çatışmayan gümüş pulları əvəz edən, tərkibində az miqdarda gümüş olan və əsasən misdən zərb edilən «kredit dirhəmlər» dövriyyəyə buraxmışdı. Atabəylərin hakimiyyəti zamanı bu dirhəmlər rəsmi pul nominalı olaraq həm daxili bazarı, həm də yaxın ölkələr arasında əsas tədavül vasitəsi olmuşdu. Bu cür mis dirhəmlər klassik dairəvi, nəfis formaya malik olan sikkələrdən təkcə tərkibinə görə deyil, həm də formalarına görə fərqlənirdilər. Bunlar düzbucaqlı, dördbucaqlı və ya yarımdairəvi formada kəsilərək, qalınlığı 0,5-0,8 mm, orta çəkisi 4-6 qram arasında müəyyən remedium dəyişikliyi ilə zərb olunurdu. Görünür, sikkələrin tərkibinə qatılan gümüş lazımi yüksək əyara malik olduğu üçün uzun yüzilliklər torpağın altında qalmaqları müqabilində, demək olar ki, korroziyaya uğramamışdır. Elə buna görə də sikkələrin təyini prosesində diqqətimizi digər bir məqam da cəlb etdi. Atabəylərə aid 27 ədəd pulun 14-nün zərb prosesi sona çatdırılmamış və ya elmdə qəbul edilən kimi istehsal civarı vəziyyətindədir. Bu faktın özü bir daha Şəmkir şəhərində yerli zərbxananın mövcud olmasının, onun intensiv iş fəaliyyətini sübuta yetirən faktdır. Tarixdə Azərbaycan Atabəylər dövrünün ilk onilliklərində yığdığı vergi 2 mln dinar təşkil etdiyi faktı məlumdur (2, s.89). Müqayisə üçün qeyd etmək lazımdır ki, əgər Səlcuq hökmdarı Məlikşahın hakimiyyəti illərində təkcə Arrandan və Muğandan 3 mln dinar vergi yığılsa da, 1335-ci ildə cəmi 303 min dinar olmuşdur (1, s.3). Beləliklə, aydın olur ki, əsas vergilər dinarla - yəni qızıl pulla yığılırdı. Bununla da beynəlxalq ticarət əlaqələrində gümüşün çatışmazlığı yaransa da, onu qızıl pul vahidi əvəz edirdi. Deməli ümumilikdə pul böhranından söhbət gedə bilməzdi. Daxili bazarı yerli mis sikkələr, xarici bazarı isə qızıl pullar tam ödəyirdi. Bununla da gümüş böhranı hər hansı bir böhran deyil, yalnız gümüş sikkələrin müəyyən qədər çatışmazlığından ibarət idi. Şəmkir qazıntılarından aşkar edilən Azərbaycan Atabəylərinin pulları buranın güclü inkişafının əsas göstəricilərindən biri hesab edilməlidir. Burada yerli zərbxana olmuşdur. Zərbxananın istehsal etdiyi, zərb yeri məhz Şəmkir olan sikkələr digər ərazilərdən də tapılır. Bu isə öz növbəsində zərbxananın yalnız daxili bazar üçün yox, bütünlükdə Atabəylər dövlətinin pul ehtiyacını ödəyə bilmək statusunu daşıması ehtimalını da ortaya çıxarır. Həmin dövrdə Şəmkirin Atabəylər dövlətinin paytaxtı olmamasına baxmayaraq, burada iqtisadi cəhətdən ciddi bir şəhərin olması, onun geniş ticarət əlaqələrinin mövcudluğu sübuta yetirilir. Bundan başqa, şəhərin yaranma tarixi erkən Abbasilər dövrünə, yəni VIII əsrin ikinci yarısı IX əsrin əvvəli ilə bağlı olması numizmatik materiallar vasitəsilə təsdiqini tapır. Bununla da Şəmkirdən arxeoloji qazıntılar zamanı əldə edilən pul nominalları buranın iqtisadi inkişaf baxımından

öz dövrünün güclü şəhər kimi fəaliyyətinin IX-XII əsrləri əhatə etdiyini sübuta yetirir.

## ƏDƏBİYYAT


1. Лэмбтон Е.К.С. Аспекты расселения - сельджуков-огузов в Иране. // Мусулманский мир. 950-1150. М., 1981.
2. Наумкин В.В, Пиотровский М.Б. Х-ХIТ вв. в истории народов Ближнего и Среднего Востока - "эпоха, трансформации"?. // Мусульманский мир. 950-1150. М., 1981.





**Tablo. Şəmkir şəhər yerində tapılmış mis pullar**

**R.Y. BƏŞİROV**
**N.N. HÜSEYNLİ**

### *Orta əsr Şəmkir şəhərinin qırmızı boyalı küplərinə dair*

2007-ci ildə Şəmkir şəhər yerində aparılan arxeoloji qazıntılar zamanı şəhər sakinlərinin təsərrüfat, məişət və mənəvi həyatı ilə bağlı külli miqdarda müxtəlif təyinatlı maddi mədəniyyət nümunələri əldə olunmuşdur. Maddi mədəniyyət nümunələri arasında saxsı məmulat tam üstünlük təşkil edir. Şirli və şirsiz olmaqla iki böyük qrupa ayrılan saxsı məmulat istifadə təyinatına görə təsərrüfat küplərinə, mətbəx qablarına, süfrə qablarına, gigiyena ilə bağlı qablara, işıqlandırma vasitələrinə ayrılır. Bunların içərisində ərzaq məhsullarının qorunub saxlanmasında böyük əhəmiyyətə malik olan küplərin rolu danılmazdır. Təsərrüfat küpləri arasında qırmızı boya ilə boyanmış, çiyin və boğaz hissəsi ornamental kəmər ilə bəzədilmiş nümunələr böyük əhəmiyyət kəsb edir.

Bildiyimiz kimi, orta əsr şəhərlərinin sənət istehsalında dulusçuluq xüsusi rol oynayırdı. Təsərrüfat və məişətdə saxsı məmulatdan geniş istifadə olunurdu. Bu dövrdə dulus kürələrinin təkmilləşməsi, texnoloji yeniliklər, saxsı məmulatının həm keyfiyyətinin yüksəlməsinə, bədii tərtibatının zənginləşməsinə, həm də yeni dulusçuluq mərkəzlərinin yaranmasına gətirib çıxarırdı. Dövrün şirsiz saxsı məmulatı çeşidinin müxtəlifliyi, forma bitkinliyi, bəsit və mürəkkəb ornamentləri ilə fərqlənir. Cızma, yapma naxışçəkmə üsullarından istifadə olunmaqla yanaşı, möhürlənmə üsulu ilə saxsı qabların üzərinin bəzədilməsi də tətbiq olunurdu. Bəzi təsərrüfat küpləri rənglənərək insan, heyvan, müxtəlif quş rəsmləri və həyat ağac təsvirindən ibarət ornamental qurşaqla bəzədilmişdir. Bütün bu sadalanan əlamətlər orta əsr Şəmkir şəhərindən də yan keçməmişdir. Şirsiz saxsı məmulat arasında 40-dan artıq qırmızı boyalı küp fraqmentləri vardır. Aydın olmuşdur ki, bu qırmızı boyalı küplərin əksəriyyəti qeyri-sabit hərarət rejimində bişirilmiş, gilinin tərkibində qum qarışığı vardır. Əksəriyyətinin üzəri yaxşı şüyrələnmiş, möhürlə çiyin və boğaz hissəsinə ornamental kəmər salmmış və qırmızı boya ilə rənglənmişdir.

Ornamental kəmərdə müxtəlif ov səhnələri, heyvanların bir-birinin ardınca qaçış səhnəsi və heyvanlar arasında ağac təsviri vardır. Çox vaxt naxış yerliyi xırda qabarıq nöqtələrlə canlandırılmışdır (I tablo, şəkil 1-3).

Bir qırmızı boyalı küp fraqmentinin üzərində ornamental qurşaqda ardıcıl düzülmüş müxtəlif heyvan təsvirləri də vardır (II tablo, şəkil 3). Lakin təsvirlərin görünüşü pisdir və izahını vermək çətinləşir. Bu təsvirlər arasına kiçik yaşıl rənglə inkrustasiya yolu ilə xüsusi bəzək vurulmuşdur. Oxşar təsvirlərə Qədim Gəncədən tapılmış qırmızı boyalı küplər üzərində də rast gəlinir. Arxeoloq alimlər bir bolluq, bərəkət gətirən canlı olduğu üçün küplər üzərində keçi təsvirinin xüsusi yer tapdığını qeyd etmişlər (6, s. 38) (şək ,2). Qırmızı boyalı küp fraqmentlərdən birinin üzərində iki quşun üz-üzə dayanması təsviri vardır (II tablo, şəkil 6). Həmin təsvirə Örənqala orta əsr şəhər yerindən aşkarlanmış küp üzərində də rast gəlinir (1, s.76). Bu küplərin də üzəri yaxşı şüyrələnmiş, qırmızı boya ilə rənglənmişdir. Qeyd edilən təsvirlərin izahını

tədqiqatçılar Qafqazda yaşayan qədim tayfaların tibbi biliklərinə əsaslanaraq ölümsüzlük inancının bir rəmzi olduğunu bildirir (3, s. 99). Boyalı küp fraqmentlərindən birinin üzəri iri ornamental qurşaqdan yuxarıda yumru düyməcik formasında xırda daşla inkrustasiya üsulu ilə bəzədilmiş, onun yanında isə baş barmaqla batıq salınaraq, küpə xüsusi naxış vurulmuşdur (I tablo, şəkil 1). Ornamental qurşağa basma üsulu ilə müxtəlif heyvan rəsmlərindən ibarət, bir-birinin ardınca maral təsviri, bir əlində əsa, digər əlində isə quş tutan insan, ondan sonra keçi və quyruğunu geri qatlamış it rəsmləri ilə bəzək vurulmuşdur. Təsvirin yerliyinə çoxlu xırda qabarıq nöqtələr salınmışdır.

Başqa bir iritutumlu təsərrüfat küpünün gövdəsinin fraqmentinin üzərində salınmış iri ornamental kəmərdə bir-birinin ardınca alt-alta iki sıra, basma üsulla vurulmuş heyvan rəsmlərindən ibarət təsvirlər vardır. Rəsmlərdə it, keçi, quş təsvirləri ilə yanaşı, aşağı hissədə bir-birini təqib edən maral, it, keçi təsvirləri də vardır (II tablo, şəkil 4). Fraqment natamam, sınıq halda olduğu üçün təsvirləri tam səciyyələndirmək çətinləşir.

Oxşar heyvan rəsmləri çöl inventar kitabında 394 sayla qeydə alınmış qırmızı boyalı küp fraqmentinin də üzərində vardır. Onun üzəri yaxşı şüyrələnmişdir (I tablo, şəkil 5). Digər qırmızı boyalı küp fraqmentinin üzərinə eni 13 sm olan iri ornamental kəmərdə basma üsulu ilə keçi təsviri salınmışdır (I tablo, şəkil 6). Fraqmentlərin birində ağız hissə içəriyə doğru basılmış, ondan aşağıya doğru hissədə bir-birinə çevrilmiş kəsmə üçbucaq şəkilli naxışlar və onlar arasında bir ədəd qabarıq nöqtə vardır. Naxışlardan aşağıda isə üfüqi xətt boyunca iri çərtmələrdən ibarət bəzək salınmışdır. Bu fraqmentin də üzəri yaxşı şüyrələnmiş və qırmızı boya ilə rənglənmişdir (II tablo, şəkil 5).

Nazik divarlı, qırmızı boyalı küp fraqmentini digərlərindən fərqləndirən cəhət üzərinin yaxşı şüyrələnməsi və üzərində 2 cızma xətlə ornamental kəmər və ortasında xırda dairəciklərlə cızma naxışlar salınmasıdır.

Qırmızı boyalı küp fraqmentlərindən biri üzərində basma üsulla vurulmuş bir neçə bir-biri ilə çarpazlaşan ornamental qurşağın olması ilə diqqəti çəkir. Onların üzərində it və ardınca iri balıq rəsmi vardır (I tablo, şəkil 4).

Üzəri yaxşı şüyrələnmiş, qırmızı boya ilə rənglənmiş küpün 8 fraqmenti tapılıb (II tablo, şəkil 2-3).

Bəzən ornamental kəmər səliqəsiz salındığından, naxışlar zəif düşmüşdür və təsvirləri müəyyənləşdirmək çətindir. Belə fraqmentlərdən birinin üzərində ornamental qurşaqda ardıcıl düzülmüş müxtəlif heyvan təsvirləri vardır. Sadəcə, bu təsvirlər arasına kiçik yaşıl rənglə inkrustasiya yolu ilə xüsusi bəzək verilmişdir. Qırmızı boyalı küplər üzərindəki təsvirləri təhlil edən tədqiqatçılar onları təsviri sənətin bariz nümunəsi adlandırmış, heyvan, balıq, ilan və quş obrazlarının semantik məna kəsb edən, insanı bədbəxt hadisələrdən, qabları isə bədnəzərdən mühafizə edən qoruyucu bir qüvvəyə malik olması haqqında müəyyən mülahizələr söyləmişlər (5, s. 67). Azərbaycanın digər orta əsr şəhərinin, o cümlədən Gəncə, Beyləqan və Dəbildən aşkar olunmuş maddi mədəniyyət nümunələri arasında xeyli boyalı, ornamental qurşaqlarla bəzədilmiş küp nümunələri vardır. Onlarla Şəmkir şəhər yerindən aşkar olunmuş qırmızı

boyalı küplər arasında həm oxşar, həm də fərqli cəhətlər vardır. Şəmkirin qırmızı boyalı küp fraqmentləri daha çox Gəncədən tapılmış qırmızı boyalı küplərlə oxşarlıq təşkil edir (4, s.56).

Orta əsr Gəncə və Beyləqan şəhərlərindən aşkar olunmuş qırmızı boyalı küp nümunələri XI-XII əsrlər üçün xarakterik olduğu halda Şəmkir şəhəri dulusçuluğunda belə qablar daha çox X-XI əsrlər üçün səciyyəvidir.

Yekun olaraq qeyd etmək olar ki, orta əsr Şəmkir şəhər yerindən arxeoloji qazıntılar zamanı tapılmış qırmızı boyalı küplər Arran keramika məktəbinin bariz nümunəsi olub, orta əsr dekorativ-tətbiqi sənətini özündə təcəssüm etdirir (2, s. 17).

Orta əsr Şəmkir şəhəri Arran keramika məktəbinin mərkəzlərindən biri olmuşdur.

## ƏDƏBİYYAT

1. Əhmədov Q.M., Örənqala, Bakı 1962.
2. Əliyev V. Azərbaycanın tunc dövrünün boyalı qablar mədəniyyəti. Bakı 1977.
3. Карахмедова А. Отражение древнего религиозного воззрения в средневековой художественной керамике. // Mingəçevir arxeoloji ekspediyasının 60 illiyinə həsr olunmuş elmi konfransın materialları. Mingəçevir, 2006.
4. Левиатов В.И. Украшения на карсах из старой Ганджи // Изв. АН Аз.ССР, 1945, №8
5. Джафарзаде И.М. Историко-археологический очерк Старой Гянджи. Баку, 1949.



1



2



3



4



5



6

**I tablo. Boyalı küp fraqmentləri**



1



2



3



4



5



6

**II tablo. Boyalı küp fraqmentləri**

**С. ГУСЕЙНОВА**
**В. ГАСЫМОВ**

## *О люстровой керамике из Шамкира*

При археологических раскопках цитадели средневекового города Шамкир на IV участке в числе археологического материала было найдено некоторое количество фрагментов люстровой керамики. По характеристике В.Н.Левиатова «люстры получаются благодаря флуоресценции особых металлических красок, нанесенных на основную непрозрачную массу глазури сосуда; эти основные краски дают один цвет в том случае, если мы наблюдаем проходящие лучи, и другой цвет (сильных металлических отблесков), если наблюдаем отраженные лучи». (4,33)

Найденные в Шамкире фрагменты сосудов условно можно разделить на следующие группы:

1. Расписанные по белому фону золотисто-коричневым люстром;
2. Расписанные темно-коричневым люстром;
3. Расписанные бесцветным люстром.

Исследуемый материал состоит, в основном, из мелких фрагментов небольших пиал, чаш, а также, ваз, украшенных росписью растительного характера.

Среди материалов 1-ой группы наряду с их сходством - монохромной росписью золотисто-коричневым люстром по белому фону, имеются и различия. Так, например, если у определенных экземпляров украшена разделенная на горизонтальные пояски внешняя поверхность сосуда (№409), то №474 (о.1) украшен, как снаружи, так и внутри. А у чашечки №474 (о.2) внутренняя часть сосуда расписана так, что создается впечатление коричневого фона и белой по нему росписи.

Интересны также фрагменты сосудов, с внешней стороны украшенные также, как и вышеперечисленные, горизонтальными поясками со вписанным в них растительным орнаментом, но внутренняя поверхность их полита голубой глазурью, на которой сохранились следы широких вертикальных коричневых полос (№667). Кроме того, если большая часть сосудов этой группы полита глухой глазурью, то №474 (о.2) - блестящей прозрачной глазурью. Большой интерес, как по форме, так и по росписи, представляют изделия 2-ой группы. Фрагменты сложнопрофилированной стенки вазообразного сосуда (№379), напоминающего пчелиные соты, с выпукло-вогнутыми вытянутыми пятиугольными, оконтуренными коричневой полоской ячейками, в каждой из которых на белом фоне чередующийся растительный узор - на внешней поверхности, и цветок - в вогнутых ячейках внутри сосуда. По нашему мнению, сосуд был изготовлен в специальной форме. К этой же группе относится и часть слегка отогнутого наружу широкого сложнопро-филированного венчика чаши, расписанной

темно-коричневым люстром по голубой глазури так, что внутренняя часть сосуда -голубая, а внешняя синие-темно-коричневая с голубыми небрежно выполненными мазками.

Сюда же относим фрагменты стенки небольшой чаши с прямым краем, расписанной по грязно-голубой глазури темно-коричневым люстром, в виде широких и нитевидных концентрических окружностей, разделенных широкими полосами на треугольные сектора, в которые вписаны оконтуренные тонкой полоской треугольники с растительным узором на грязно-голубом фоне (№640). 3-я группа представлена единственным экземпляром. Это обломок прямого края чашевидного монохромного бирюзового цвета сосуда с растительным орнаментом, исполненным техникой «в резерве» под бирюзовой глазурью и покрытого бесцветным люстром (№666).

Что касается технологии изготовления, то имеется достаточное количество информации по изготовлению современных художественных изделий с люстровой росписью. Мы узнаем, что «до нанесения на черепок, люстры представляют собой растворы металлов или оксидов металлов в эфирных маслах. Для приготовления раствора люстра готовят металлические резинаты (смоляно-кислые соли). Их получают сухим путем (сплавлением металлических солей (N0:) со смолой-канифолыо) или же мокрым путем - смешиванием растворимых в воде смоляных мыл с металлическими растворами. В последнем случае получаются нерастворимые в воде резинаты, которые потом высушивают и растворяют в эфирных маслах (скипидаре или нитробензоле). Вспомогательными средствами для нанесения краски служат лавандовое или розмариновое масло».

В настоящее время изготавливают люстры следующих цветов - «бесцветные (висмутовые, глиноземные свинцовые и цинковые), окрашенные (урановые, железные, хромовые, кобальтовые, никелевые, медные, кадмиевые), смешанные и металлические (составленные с серебром, золотом и платиной)».

Обычно «люстр наносится тонким слоем на поверхность белого цвета, например, поверх блестящей прозрачной глазури... или поверх белой блестящей глазури. В основном люстры наносятся кистью».

Определенной температуры обжига у люстра нет, конечная температура определяется изделием, на которое люстр нанесен. Так, для «мягких» майоликовых и фаянсовых глазурей, рекомендуется обжиг при температуре 750-780°С. При правильном обжиге тонкая пленка металла или оксида металла, чем становится люстр, плотно соединяется с подлежащей глазурью и не стирается. По литературным источникам люстровая керамика появилась в IX в., но расцвета своего она достигла в XII - нач. XIII в. Этим периодом датируется и наш материал. Опираясь на исследования специалистов, постараемся определить более узкие хронологические рамки. Специалисты относят роспись на рельефно-модели-рованной поверхности (группа 3) к середине - II пол. XII в. Кистевая роспись (группа 1,2), по их

мнению, предшествует технике резерва. Плотный черепок изделий (группы 1-3) свидетельствует о более раннем, чем конец XII в. изготовлении продукции.

Некоторые материалы 1 группы из Шамкира находят себе аналогию среди материалов средневекового Кирана. Вызывает интерес отсутствие аналогий с материалами близлежащей Старой Гянджи. Общеизвестными центрами по производству люстровой керамики XI - XIII вв. в Иране (5, 177-184) являлись города Рей, Кашан, Султанабад, Саве. В Азербайджане этого типа керамика известна из Байлакана (1,75-76), Старой Гянджи (2, 78-79; 4, 32-34), Кирана (3, 106,107, 109-113); некоторые из которых также претендуют на место локальных центров по изготовлению такой продукции. Так или иначе отнести исследуемый материал к тому или иному производственному центру из-за слабой изученности пока невозможно.

## ЛИТЕРАТУРА

1. Г.М.Ахмедов. Средневековый город Байлакан (на аз. языке), Б., «Элм», 1979
2. ИМ.Джафарзаде. Историко- археологический очерк Старой Ганджи, Б. Изд. АН
Азерб. ССР, 1949
3. Б. И. Ибрагимов. Средневековый город Киран, Б.-М. 2000
4. В. Н. Левиатов. Керамика Старой Ганджи, Б. Изд. Аз ФАН, 1940
5. Т.Х. Стародуб. Люстровая керамика рейского типа конца XII - начала ХШ века
как свидетельство культурных связей Ирана с Азербайджаном и Средней Азией,
см. Культурные связи народов Средней Азии и Кавказа, М., «Наука», 1990
Материалы интернет сайтов
6. http://horss.ru
7. http://www.pottery.ru




**Таблица 1. Люстровая керамика**

**B.Ə. RƏCƏBOVA**

## *Şəmkir şəhər yerində aşkar olunmuş bəzi bəzək məmulatı haqqında*

Azərbaycanın qədim şəhərlərindən biri olan Şəmkir şəhərinin xarabalığı Şəmkirçayın sol sahilində yerləşir. Bu ərazidə müxtəlif illərdə kəşfiyyat xarakterli arxeoloji qazıntı işləri aparılmışdır. Axtarışlar zamanı qədim Şəmkirdən müxtəlif şirli və şirsiz saxsı qab, su tungləri qırıqları, sikkələr, tikili qalıqları, kəhrizlər və s. aşkar edilmişdir.

Xüsusilə 2007-ci ildə Azərbaycan MEA Arxeologiya və Etnoqrafiya İnstitutunun, Mədəniyyət və Turizm Nazirliyinin və Regionların İnkişafı İctimai Birliyinin layihəsi əsasında bu ərazidə aparılan arxeoloji qazıntı işləri daha uğurlu olmuşdur. Belə ki, tarix elmləri doktoru T.M.Dostiyevin rəhbərliyi ilə aparılan arxeoloji qazıntı işləri nəticəsində ərazidən külli miqdarda maddi mədəniyyət nümunələri aşkar olunmuşdur (1). Onların arasında bəzək məmulatı da özünəməxsus yer tutmuşdur. Bəzək məmulatı həm metal, həm də şüşə bəzəklərlə təmsil olunmuşdur. Metal məmulatına üç ədəd başlı sancaq daxildir. Onlardan biri bütöv, digəri isə qırıqlar halındadır. Metaldan hazırlanmış sancaqların hər ikisi oxşardır. Onlardan birinin başlığı təbərzin (şəkil 1,9), digərininki isə dairəvi formada hazırlanmışdı (şəkil 1,11). İynə isə aşağıya doğru getdikcə naziklәşir. Baş hissəsi təbərzin formalı olan sancağın hündürlüyü 10 sm, o biri sancağın hündürlüyü 11 sm-dir. Digər sancaq zoomorf formada hazırlanmışdır. Onun baş hissəsi quş fiquru formasındadır (şəkil 2,14).

Baş hissəsi quş fiquru formasında hazırlanmış sancaqlar Mingəçevir və Beyləqandan da tapılmışdır (2, s. 45).

Qazıntının mədəni təbəqəsi və analoji materiallara əsasən bu sancaqların dövrünü IX-XII əsrlərə aid etmək olar. Ümumiyyətlə, başlı sancaqlar Azərbaycan ərazisi üçün xarakterik olub, ən qədim sancaq növünü təşkil edir. Tunc dövrü abidələrində bu növ sancaqların tapılması onların qədimliyini sübut edir (3, tab. XX). Sonrakı dövrlərə aid sancaqlar Mingəçevirin b.e. əvvəl IV-II əsrlərə aid olan torpaq qəbirlərindən (4, s. 90), Uzuntəpədən (5, s. 37) və küp qəbirlərindən aşkar olunmuşdur. Orta əsrlər dövründə də bu sancaqlar əhali arasında geniş istifadə olunmuşdu. Bu sancaqlar üst paltarlarına bəzək kimi sancılır və baş örtüyünü saça bərkitmək üçün işlədilirdi.

Digər bəzək məmulatı şüşə bilərzik qırıqlarından ibarətdir. Bunların sayı 9 ədəddir. Bilərzik qırıqlarından üç ədədi qara rəngli şüşədən hazırlanıb. Onlardan biri çubuqvari formada (şəkil 1,4), digəri isə lentşəkillidir (şəkil 1,7). Bu bilərzik qırıqlarının formasından müəyyən etmək olur ki, onlar kiçikölçülüdür. Bəzi tədqiqatçılar belə bilərziklərin toxuculuqda istifadə olunması fikrini irəli sürürlər. Lakin bu fikirlər o qədər də əsaslı deyildir. Belə ki, əgər kiçikölçülü bilərziklər toxuculuqda istifadə edilsəydi, tez sınıb sıradan çıxardı. Bu isə sənətkarlar üçün əlverişli deyildi.

Qara rəngli bilərzik qınğının en kəsiyi lentvari olub, içəri tərəfdən bir qədər əzilmişdir (şəkil 1,5). Yaşılımtıl rəngdə olan bilərzik qırıqlarının sayı iki

ədəddir. Onlardan biri nazikvari olub, en kəsiyi dairəvi-dir (şəkil 1,4). Digər bilərziyin en kəsiyi lentvaridir, daxildən üzərində xətlər cızılmışdır (şəkil 1,8). Bilərzik qırıqlarından iki ədədi isə sanmtü rəngdə şüşədən hazırlanmışdır (şəkil 1,1, 2). Şəmkirdən aşkar olunmuş bilərzik qırıqlarının oxşarları Azərbaycanın digər orta əsr şəhərlərindən də tapılmışdır (2, s. 58-90). Şüşə qolbaqların bütöv halda olmaması şüşənin kövrəkliyi və tez sınmasından müəyyən dərəcədə asılıdır. Buna baxmayaraq, ayrı-ayrı şüşə qolbaq qırıqlarının əldə edilən bütöv qolbaqlarla müqayisəsi onların forma və dövrü haqqında müəyyən təsəvvür yaratmağa imkan verir. Bilərziklərin dövrünə gəlincə, onlan X-XII əsrlərə aid etmək olar.
Müxtəlif rəngli şüşə qolbaqları hazırlamaq ustadan xüsusi bacarıq tələb edirdi. Hər bir rəngi almaq üçün onları ayrıca əridir və xammala müxtəlif kimyəvi maddələr qatılırdı. Yaşıl rəngli şüşə nazırlanarkən onun tərkibinə dəmir və mis oksidi əlavə etmişlər. Sarı rəngli xəlitəyə kükürd və daş kömür əlavə etməklə alırdılar. Qara rəngin alınması üçün isə marqans oksidindən istifadə olunurdu.

Bilərziklərin hazırlanma üsulu çox sadə olmuşdur. Onlar əldə dartma, burma üsulu ilə qəlibdə hazırlanırdı. Əldə hazırlanan qolbaq üçün 1200 dərəcə istilik kifayət edirdi. Qəlibdə hazırlanırdısa, daha duru ərinti istifadə olunurdu. 2007-ci il qazıntıları nəticəsində tapılan bəzək məmulatı içərisində gil, sümük, metal və şüşə bəzəklər vardır. Bunlar əsasən sırğa sancaq, düymə və muncuqlardan ibarətdir (şəkil 2). Misdən hazırlanmış sırğa sual işarəsi formasındadır (şəkil 2,9) (inv. 681). Bu növ sırğalar Azərbaycanın XIIl-XIV əsrlərə aid olan abidələri üçün xarakterikdir. Şəmkirdən aşkar olunmuş sırğa isə XI əsrə aiddir. Bu tip sırğalara Avropa və Asiyada köçəri türklərin qəbirlərində daha çox təsadüf edilir. Bütün tədqiqatçılar sual işarəsi formasında olan sırğaları XIII-XV əsrlərə aid edirlər. Sənətşünas N.Rzayev haqlı olaraq göstərmişdir ki, bu növ sırğalar aypara formalı sırğaların davamı olub, özündə yeni elementləri birləşdirmişdir. O, öz fikrini Mingəçevirdən XIII əsrə aid olan sual işarəsi formalı sırğanın tapılması ilə təsdiq edir. Bunu Şəmkirdən tapılmış sırğa ilə də əsaslandırmaq olar.

Digər sırğa isə yaşıl rəngli şüşədən olub, çox kiçik ölçülüdür (inv. 520).

Azərbaycanın digər orta əsr abidələrindən oxşar nümunə demək olar ki, tapılmayıb.

Azərbaycan ərazisində ən qədim sırğa növü tunc dövrünə aiddir. Bu, nazik halqa formasında hər iki tərəfi açıq sırğadan ibarətdir. Bu cür sırğalar bütün dövrlər üçün xarakterikdir. Sırğalar qədim zamanlardan başlayaraq qadın və kişilərin geyimini bəzəyərək bir növ amulet rolunu oynamışdır. Sırğalardan kişilərin istifadə etmələrini bir sıra arxeoloji tapıntılar da sübut edir. Yazılı mənbələr də kişilərin sırğa taxdığını sübut edir. «Dədə Qorqud» dastanında kişilərin qulağına qızıl tənə - «altun küpə» keçirdikləri göstərilir (5. s. 40).

Digər bəzəklər muncuqlardan ibarətdir. Bunların içərisində bir ədəd sümük muncuq da vardır (inv. 693). Onun üzəri incəliklə nöqtəvari naxışlarla bəzədilmişdir (şəkil 2,1). Bu bir növ gözcüklü muncuqların naxışına bənzəyir. Eyni zamanda Şabran, Qəbələ və Beyləqandan tapılmış sümük düymələrin

üzərindəki naxışlar Şəmkirdən tapılmış muncuğun naxışları ilə oxşarlıq təşkil edir.

Məlum olduğu kimi sümükişləmə qədim Azərbaycanda geniş yayılmış sənət növlərindən biri olmuşdur. Sümükişləmə sənətində əsas xammal olan sümük və buynuzdan istifadə edilmişdir ki, bu sümüklər xalqın məişətində xüsusi yer tutan ev heyvanlarının sümüklərini təşkil edirdi. Ağaca nisbətən sümüyün yaxşı qalması bu əşyaların texnologiyasını öyrənməkdə etnoqrafik müşahidələrin əhəmiyyəti böyükdür. Sümüyü istifadə etməmişdən qabaq onu yaxşıca qaynadırlar. Bu zaman bir qədər yumşaldılmış sümüyün kəsilməsi çox çətin olduğundan, onu mişarlayaraq hissələrə ayırırdılar. Deşik açmaqdan ötrü isə daş burğulardan istifadə edilirdi.

Sümük muncuqla yanaşı, gildən hazırlanmış muncuqlar da tapılmışdır. Onların sayı yeddidir. Muncuqlar eyni tərkibli olsa da, onların formaları müxtəlifdir. Onlardan üç ədədi bir qədər iri ölçülü olub, çəlləkvari formaya malikdir (şəkil 2, 6-8). Üzərləri tünd-göy rəngli şirlə örtülmüşdür (inv. 420, 519). Muncuqlardan iki ədədi bir qədər orta ölçülüdür (şəkil 2,5) (inv. 501). Onların diametri 0,5 sm-dir.

Digər iki muncuq kiçikölçülü olub, dairəvi formalıdır (şəkil 2,3). Muncuqlardan bir ədədi uzunsov və ensiz olub, yuxarı tərəfində ip keçirilmək üçün deşik açılmışdır (şəkil 2,4).

Gil muncuqlar Azərbaycanda hələ b.e. əvvəl II-I minilliyə aid qəbir abidələrindən tapılmışdır. Orta əsrlər dövründə də bu muncuq növündən istifadə olunmuşdur.

Şəmkirdən aşkar olunmuş muncuqların və digər bəzək nümunələrinin dövrünü X-XI əsrlərə aid etmək olar.

Beləliklə, aşkar olunmuş bəzək məmulatına əsasən demək olar ki, Şəmkir şəhərində digər sənət sahələri ilə yanaşı, bəzək istehsah da mövcud olmuşdur.

Həmin ərazidə gələcəkdə aparılan arxeoloji qazıntılar bu şəhər haqqında yeni fikirlər söyləməyə əsas verəcək.

## ƏDƏBİYYAT


1. Dostiyev T.M. Şəmkir arxeoloji ekspedisiyasının 2006-cı il hesabatı.
2. Rəcəbova B.Ə. Azərbaycanın orta əsr qadın bəzəkləri (IV-XIII əsrlər). Bakı, Elm,2000.
3. Sadıxzadə Ş.O. Azərbaycanın qədim bəzəkləri. Bakı, İşıq, 1971.
4. Vahidov R.M. Mingəçevir III-VIII əsrlərdə. Bakı, Azərb. EA nəşri, 1961.
5. Kitabi-Dədə Qorqud. Bakı, Azərnəşr, 1962.




**I şəkil. Bəzəklər**




**II şəkil. Bəzəklər**

**Э.Б.ДЖАФАРОВА**

## *Сфероконусы из раскопок городища Шамкир*

При археологических раскопках на средневековом городище Шамкир среди различных предметов из керамики было обнаружено свыше 10-ти образцов сфероконусов. Два фрагмента сфероконуса были найдены в 2006 году в Шахристане. Часть сфероконусов была выявлена в 2007 году в Цитадели крепости на III и IV участках растопочных работ.

Сфероконусы также обнаружены на территории средневековых Азербайджанских городов Баку, Байлакан, Шемаха, Нахичеван, Кабала [1, с.224; 11, с. 29; 17, с.81; 13, с.152, 12, с. 29]. Сосуды из городища Шамкир имеют классическую форму сфероконуса - сферическая верхняя и коническая нижняя часть. Однако от этой основной формы имеются и отклонения, наблюдаются формы цилиндрические и шестигранные с коническим дном. Сфероконусы из Шамкира сделаны из плотной и твердой огнеупорной глины.

Стенки этих сосудов обладают высокой прочностью. Прочность стенок достигалась тем, что на сосуд шла особая керамическая масса или соблюдался режим при обжиге. Цвет сосудов после обжига получался пепельный разных оттенков. Для Шамкирских сфероконусов характерны мутно желтый, оливковые тона. Встречаются коричневые и серые тона. Цвет черепка так же зависит от состава глины, способов изготовления глиняной массы (ленточная или жгутовая техника) и температуры обжига. Исследователями были выдвинуты версии о едином производстве сфероконусов, а затем их распространении на другие территории. Сфероконусы, обнаруженные в Орен-Кала и Баку, опровергли эту версию. В 1955 году в ремесленном районе городища Орен-Кала были открыты гончарные печи, специально предназначенные для обжига сфероконусов. Здесь же были выявлены в большом количестве бракованные фрагменты сфероконусов (1, с.222). Находка на территории «Ичери шехер» в 1966 г. бракованного сфероконуса показывает, что он является продуктом местного производства не привозным, тем более, что поблизости было открыто большое скопление шлака от гончарного производства, указывающее на наличие гончарной печи. (11, с. 174) Сфероконусы с богатым орнаментом в Шамкире не обнаружены. В основном в большинстве встречаются простые, совершенно гладкие сфероконусы.

Также, в Шамкире не обнаружены сфероконусы с клеймами и определенными знаками.

Нами представлены образцы четырех сфероконусов из Шамкира. На одном из представленных сфероконусов Шамкира обнаружена арабская надпись «По приказу» (надпись прочитана Г.Пиргулиевой). Надпись сделана небрежно с боковой части сфероконуса после обжига.

Необходимо отметить, что сфероконусы с похожими надписями были обнаружены на двух сосудах из Дамаска («По высочайшему повелению»). (5, с. 89) В Азербайджане сфероконусы с надписями были обнаружены в Орен-Кала, Кабале, Шемахе, Хараба Гилане (1, с. 222; 9, с. 60, 13, с. 148).

Кроме этого надписи на сфероконусах, сделанные до обжига, известны только в Орен-Кала.

В сечении стенки сосудов неодинаковой толщины в средней части стенки тоньше книзу и кверху утолщаются, наиболее массивный черепок в нижней части конуса.

Некоторые отличия в цвете черепка, орнаментации и форме придают локальные особенности сфероконусам из городища Шамкир. Внешняя поверхность другого сфероконуса в виде вдавленных штампов со знаками расположенными с одинаковым интервалом. Подобные сфероконусы были обнаружены в Ани, Двине, Орен-Калс, Болгарах, Биляре, Средней Азии (7, с. 210; 6, с. 57, 14, с. 45; 5, с.79).

Поверхность сфероконуса цилиндрической формы с граненым рельефным поясом вокруг корпуса, который также служит украшением сосуда.

Размеры сфероконусов Шамкира различной формы. Отверстие в головке от 2 до 5 мм в диаметре. Внешне диаметр корпуса колеблется в пределах 8-10 см и только в некоторых приближается к 12-14 см, толщина стенок от 1,5 до 2 см и небольшая высота 12-14 см. Это определяет совсем незначительную емкость сосудов 0,5 л.

В соотношении с Шамкирскими сосудами сфероконусы из Орен-Калы имеют толщину стенок 0,5 -2мм, высоту от 7,5-до 13 см, наибольший диаметр 8-12 см [1, с. 223]. У сфероконусов из Нахчивана высота 10,4 - 13,5 см, диаметр корпуса 8-12,5 см. толщина стенок 0,9 - 1,8 см, диаметр корпуса 9-12,5 см (17, с. 81). Г.М.Ахмедов сфероконусы из Орен-Кала по цвету обжига делит на ранние (IX-XI вв.) и поздние (XII-XIII вв.) При этом ранние сосуды пористы, а поздние более твердые (1, с. 222). Сфероконусы из Нахчивана отличаются формой, рельефными узорами, техникой изготовления (16, с. 50, 17, с.60). Это отличие проявляется в форме днища и надписях на них. Они также делятся на ранние и поздние.

Сфероконусы выявленные в Хараба Гиляне Б.И.Ибрагимов делит на 2 подгруппы: сфероконические сосуды с раздутым почти шаровидным туловом и сфероконические сосуды яйцевидной формы. (10,с.79)

Емкость Гянджинских сфероконусов в отличии от подобных сосудов из других средневековых городов Азербайджана колеблется от 250 г до 2,6 г. Более крупные обнаружены в Байлакане до 6 л. Среди находок сфероконусов особый интерес представляет сфероконус относящийся к XII в. Этот сфероконус по мнению Р.Дж.Ахмедова преподнесен атабеку Джахан Пехлевану его сыном Кутлуг Инанджем. Сфероконус за исключением короткой горловины и венчика сверху донизу покрыт

штампованным рисунком, имеющим выпуклую и вогнутую фактуру. Среди изображений выделяется всадник крепко державший за узды вздыбленного коня. (2, с. 14) На территории средневекового Баку сфероконусы встречаются довольно редко. Емкость Бакинских сфероконусов колеблется в пределах 0,25-0,35 л. (3, с. 55) Сфероконусы из Баку покрыты насечками, зооморфными изображениями; орнаментация выполнена при помощи специальных штампов (12, с. 30). По мнению Р.Дж.Ахмедова сфероконусы найденные в Баку входят в самостоятельную группу и разделены на два типа: а) остродонные толстостенные сфероконусы с узким горлом серо-зеленого обжига, схожи с оренкалинскими и датируются IX-XI вв; б) штампованный характер орнаментации отличается прекрасно обожженным плотным серо-зеленым каменистым черепком; вся поверхность покрыта насечками и шестилепестковой пальметты в середине вертикальных желобков, напоминающих расходящиеся лучи солнца (3, с. 55). В 1977 г. в Баку было обнаружено два фрагмента сфероконуса с рельефным орнаментом и инкрустаций стекловидной массой голубого цвета.

О назначении сфероконусов в отечественной и зарубежной историографии были выдвинуты различные версии. Одни ученые называют сфероконусы «ртутными сосудами», которые изготовлены из прочной огнеупорной массы. (12, с.258; 7, с. 209)

Другие авторы более основательно отстаивают версию о том, что сфероконусы предназначены для хранения и перевозки различных масел, лекарств, благовоний, ценных жидкостей (1, с. 221; 14, с. 48).

Существует версия о применении сфероконусов в военном деле в качестве разрывных гранат. (8, с. 36; 4, с. 69, 13, с; 6, с. 60) Однако несмотря на существование различных противоречивых версий однозначно говорить о применении сфероконусов невозможно. Можно рассматривать одновременно несколько версий о назначении сфероконусов.

Все авторы рассматривающие версии о назначении сфероконусов едины во мнении, что они относятся к IX-XIII вв.

## ЛИТЕРАТУРА


1. Ахмедов Г.М. Неполивная керамика Орен-Кала IX-XIII вв. МИА СССР № 67, 1959.
2. Ахмедов Р.Дж. Гянджа средневековая (археологическое изучение) Баку, 1988.
3. Ахмедов Р.Дж. Керамика Баку IX-XVII вв., Баку, 1992.
4. Вилинбахов В.Б., Холмовская Т.Н. «Огневое оружие средневекового Китая // Из истории науки и техники в странах Востока, 1960, вып. II.
5. Виноградов 3. Сфероконические сосуды с узким горловым отверстием. // Казанский музейный вестник, 1922, № 2.
6. Вяткин В. Афрасиаб городище былого Самарканда. 1926.
7. Джанполадян Р.М. Сфероконические сосуды из Двина и Ани. // Советская Археология 1958, № 1.
8. Джафарзаде И.М. Историко-археологический очерк Старой Гянджи. Баку, 1949.
9. Джидди ГА. Средневековый город Шемаха IX-XVII вв., Баку, 1981.
10. Ибрагимов Б.И. Средневековый город Киран, Баку-Москва, 2000.
11. Исмизаде О.Ш. О результатах археологического исследования территории «Ичери Шехер» в 1966 г. МКА, т. VIII.
12. Исмизаде О.Ш. Ибрагимов Ф.А. Художественная штампованная керамика средневекового Баку, Баку, 1983.
13. Казиев СМ. Первые итоги археологических разведок на городище Кабала // МКА, 1965, т. VI. 14. Лунин Б.В. К вопросу о функциональном назначении сфероконических сосудов в связи с одним рукописным источником XVI в. // История материальной культуры Узбекистана, 1961, вып 2.
15. Михальченко СЕ. Сфероконусы Поволжья. // КСИИМК 1974, №140.
16. Məmmədov K. Naxçıvan şəhərinin tarixi oçerki. Bakı, 1977.
17. Novruzov Ə. Naxçıvanın orta əsr şarkonusvari qabları, Azərb. SSR EA Xəbərləri (tşf.h.seriyasın), 1986, № 3. Bakı.




**Таблица. Сфераконусы**

C. EMİNLİ
N. LÜDVİQ

## *İdealtəpə abidəsindən aşkar olunan keramika məmulatı*

Şəmkir rayonu müxləlif dövrləri əhatə edən arxeoloji abidələrlə zəngindir. Ərazinin təbii-coğrafi şəraiti burada ta qədim zamanlardan insanların məskən salmasına imkan yaratmışdır. 2006-2007-ci illərdə Azərbaycan-Almaniya-Gürcüstan Beynəlxalq arxeoloji ekspedisiyası Şəmkir rayonunun Qaracəmirli kəndi ərazisində yerləşən İdealtəpə abidəsində arxeoloji qazıntı işləri aparmışdır.

İki tədqiqat mövsümündə çiy kərpicdən tikilmiş "bərabər formatlı" abidənin qalıqları aşkar edilmişdir. Abidənin giriş hissəsi geniş dördbucaqlı kvadrat zaldan və hər iki tərəflərdən ona bitişik kiçik otaqlardan ibarətdir. Əsas giriş zalı dörd sütunlu olmuşdur ki, bunlardan ikisinin sütunaltlıqları yerindəcə (in situ) aşkar edilmişdir. Giriş zalı istiqamətində bir-birindən eyni aralıqda digər iki sütunaltlığı da aşkar edilmişdir. Ehtimal ki, qərb istiqamətinə uzanan sütunlu keçid əsas saray binasına aparan Propilon olmuşdur. Bu tip sütunaltıqları və binanın quruluşu Əhəməni dövrü memarlığı üçün səciyyəvidir (1).

Qazıntılar zamanı inzibati binanın qalıqları ilə yanaşı, müxtəlif növ maddi mədəniyyət nümunələri aşkar edilmişdir. Tapıntılar içərisində saxsı məmulatı mühüm yer tutur. Bu abidə inzibati binanın qalıqları olduğundan, buradan məişət avadanlıqları, o cümlədən saxsı məmulatı nisbətən az tapılmışdır. Maddi mədəniyyət nümunələrinin seyrəkliyini əsaslandıran digər bir səbəb, sonralar həmin yer tərk olunarkən orada fəaliyyət göstərən insanların özləri ilə lazım olan əşyalarını da aparmalarıdır.

Qazıntı sahəsində yerüstü və üst qatlardan tapılmış orta əsrlərə aid fraqmentlər və Q36 kvadratında qoyulmuş şurfun alt qatlarından aşkar edilən Kür-Araz mədəniyyətinə aid bir neçə qara rəngli cilalı qab parçalarından (2) əlavə digər saxsı məmulatının böyük əksəriyyəti abidə ilə həmdövrdür. Qazıntı sahəsində orta əsrlər və Kür-Araz mədəniyyətinə aid saxsı parçaları aşkar olunsa da, həmin dövrlərə aid heç bir yaşayış yeri qalıqları qeydə alınmayıb. Tapıntılar o dövr üçün səciyyəvi olan qabların müxtəlif ölçüdə hissələrindən ibarət olsa da, bir çox hallarda onların tiplərini müəyyənləşdirmək mümkün olur. Saxsı məmulatı iri təsərrüfat küpləri və küpələr, dar və enli boğazlı qablar, kasa və s. ibarətdir. Saxsı məmulatı təkcə tiplərinə görə deyil, həmçinin, tərkibinə, rənginə və bədii tərtibatına görə də fərqlənirlər. Onların tərkibinə müxtəlif qatışıqlar əlavə olunmuşdur. Qablar əsasən açıq-qırmızı, tünd və açıq-sarı, qəhvəyi rəngdədir. Saxsı məmulatı həm dulus çarxında, həm də əldə dulus çarxı tətbiq olunmadan keyfiyyətli hazırlanmışdır. Aşkar olunan saxsı məmulatı içərisində təsərrüfat küplərinin müxtəlif hissələri ölçülərinə görə digər qablardan seçilir. Küplər digər qablardan daha böyük olsalar da, ölçüləri fərqlidir. Küplərin əsasən ağızlarının kənarı, boğaz və bəzi hallarda gövdə hissələri batıq və rombvari çərtmələrlə

naxışlanmışdır. Binanın döşəməsindən aşkar olunan iri təsərrüfat küpünün ağız hissəsi daha çox diqqəti cəlb edir. Açıq-qırmızı rəngdə olan bu küpün ağzının kənarları enli və xaricə açılır. Küpün ağzının kənarları və boğaz hissələri iri təsərrüfat qabları üçün xarakterik olan batıq və çəpinə çərtmələrlə naxışlanmışdır. Küp ağzının düz və enli hissəsində bir nöqtədən ətrafa doğru üç istiqamətdə genişlənən dərin cızma xətlər vardır. Həmin cızma xətlər küpün ağız və boğaz hissələrində təsvir olunmuş naxışlarla ümumi kompozisiyaya uyğun gəlmədiyindən, ehtimal ki, bunlar xüsusi işarə məqsədi daşımışdır.

Nisbətən kiçik ölçülü qablar çox zərif və yüksək zövqlə hazırlanmışdır. Belə qabların üzəri çox vaxt açıq sarı rəngli anqobla örtülərək cilalanıb. Bu cür qablara Qəbələnin ellin dövrü təbəqəsində də təsadüf edilir. Kiçik ölçülü qabların ağzının kənarı, boğaz hissəsi, adətən, dalğavari cızma naxışlarla, gövdəsi isə düz paralel cızma xətlərlə bəzədilmişdir.

Saxsı məmulatı içərisində piyalələr çoxluğu və müxtəlifliyi ilə seçilir. Onlar açıq-qırmızı, tünd-sarı və qəhvəyi rəngdədir. Qəhvəyi rəngdə olan piyalələr sayca üstünlük təşkil edir. Onların üzəri yaxşı cilalanmışdır. Belə piyalələrin ağzının kənarı xaricə açılmış və gövdəsi qabarıq hazırlanmışdır. Əsasən qab ağzının kənar və oturacaq hissələrinin fraqmentlərindən ibarət olan bu kimi piyalələr əhəməni dövründə geniş yayılmış metal camları xatırladır (3). Belə saxsı oxşatmalar bizə Qazax rayonu Sarıtəpə (4), Şərqi Gürcüstanın Kvemo Kedi (5) və Qumbati (6) əhəməni dövrü abidələrindən məlumdur. Bu tip saxsı camların ilkin variantları e.ə. V əsrin sonlarına təsadüf edilir (7) (tablo I).

Tapıntılar içərisində keyfiyyətli bişirilmiş açıq-qırmızı və qırmızı rəngli, üzəri düz və dalğavarı dərin cızma xətlərlə naxışlanmış qablar xüsusi qrup təşkil edir (tablo II). Bu kimi saxsılar İdealtəpədən düz xətt üzrə 100 km məsafədə yerləşən Şərqi Gürcüstan ərazisində Kvemo Kedi (8) və Alazan çayı vadisində yerləşən digər həmdövr olan Qumbatı (9) abidələrindən aşkar edilən materiallarla yaxınlıq təşkil edir. Kvemo Kedidən aşkar olunan materiallar üçün səciyyəvi olan, adətən bayır tərəfdən ağzının kənarlarında tək və dalğavari cızmalarla naxışlanmış qablar İdealtəpədə də təsadüf edilir. Bu oxşarlıqların olması hər iki abidənin, həm Kvemo Kedi, həm də İdealtəpənin eyni dövrə aid edilməsi ilə əlaqədardır. İdealtəpədən aşkar olunan saxsı məmulatının bir qismi inzibati mərkəzin öz əhəmiyyətini itirdikdən sonrakı dövrlərdə də burada insanların yaşadığı bir vaxta aid edilir. Propilonun otaqlarında döşəmənin üzəri 10-20 sm qalınlıqda yanmış torpaq və kül qatı ilə örtülmüşdür. Bu kül qatı ehtimal ki, bir qədər sonra məskunlaşmış vaxta təsadüf edir. Kül qatı içərisindən də saxsı qabların ağız, divar, qulp və oturacaq hissələrindən ibarət fraqmentlər tapılmışdır. Bu fraqmentlər ikinci dəfə oda düşdüyündən yanmış və həqiqi rənglərini itirmişlər. Fraqmentlərin bəzilərinin üzəri cızmalarla və boya ilə naxışlanmışdır.

Arxeoloji qazıntılar zamanı aşkar olunmuş saxsı məmulatı içərisində boya naxışlı qab parçaları da diqqətəlayiqdir. Bu fraqmentlərin böyük əksəriyyəti qabın divar hissələrindən ibarətdir (tablo III). Qəhvəyi, tünd-qırmızı və ağ rəngli boya ilə çəkilmiş naxışlar əsasən açıq qırmızı, narıncı və tünd-sarı qablar

üzərində tətbiq edilmişdir. Boya ilə naxışlanmış hər iki tip saxsı parçalarına bəzən birgə, bəzi hallarda isə ayrıhqda təsadüf edilirdi.

Ağ boya ilə paralel düz xətlərdən ibarət olan naxışlar qırmızı və narıncı rəngli qablar üzərində tətbiq edilmişdir. Qırmızı, narıncı və sarı rəngli qablar üzərində bu cür naxışlanmış qablar Şərqi Gürcüstan ərazisində Kür, İori və Alazan çayları vadisi boyu sahələrdən aşkar edilmiş və e.ə. IV əsrin sonu və e.ə. II əsrlərə aid edilir (10). Kür çayı vadisində bu tip saxsılar Samadlo və ya Zixiaqora abidələrindən məlumdur (11). Lakin Alazan çayı vadisində bu tip saxsılar, həmçinin, qəbir abidələrindən, aşkar edilib (12). Azərbaycan ərazisində ağ boya ilə naxışlanmış qablar bizə yalnız Şəmkir rayonu ərazisindən məlumdur. Lakin bu materiallar hələ çap olunmayıb.

Qəhvəyi və ya tünd-qırmızı rəngli boya ilə naxışlanmış, açıq qırmızı və narıncı rəngli, nazik divarlı saxsı məmulatı keyfiyyətli bişirilmişdir. Bu saxsıların üzəri yaxşı hamarlanmış, səthinə bozumtul-sarı və açıq-narıncı anqob çəkildikdən sonra boya ilə naxışlanmışdır. Bunlar əsasən düz və çarpaz xətlərdən, nöqtələr və qarmaqvari naxışlardan ibarətdir. Qəhvəyi və ya tünd-qırmızı boya ilə həndəsi naxışlardan ibarət olan saxsı məmulatı bizə Azərbaycan ərazisində e.ə. I minilliyin sonlarına aid qəbir abidələrindən məlumdur (13). Lakin bu qablar üzərindəki naxışlar İdealtəpə abidəsindən aşkar edilən saxsı məmulatından fərqlidir. İdealtəpə abidəsindən aşkar olunan boya naxışlı qablara oxşar tərzdə qablar Şəmkir rayonunun digər ərazilərindən də tapılmışdır. Lakin bu materiallar hələ nəşr olunmayıb. İdealtəpə abidəsindən aşkar edilən bu cür qablar Şərqi Gürcüstan ərazisində aşkar edilən qablarla yaxınlıq təşkil edir. Şərqi Gürcüstan ərazisində qəhvəyi və tünd-qırmızı boya ilə həndəsi naxışların tətbiq olunma ənənəsi e.ə. V əsrin sonlarına təsadüf edir. Əsasən küpələr üzərində tətbiq olunmuş üçbucaq ornamentli məmulatların böyük əksəriyyəti qəbirlərdən aşkar edilmişdir (14). E. ə. IV əsrin sonu - III əsrin əvvəllərindən Şərqi Gürcüstan ərazisində Samadlo üslublu inkişaf etməyə başlayır. Bu cür materiallar içərisində artıq boya ilə çəkilmiş heyvan və insan təsvirlərinə, həmçinin, çarpaz xətlər və dolamalara təsadüf etmək olur (15). Şərqi Gürcüstan ərazisində Samadlo üslubu boya naxışlı qablara ağ boya xətlər çəkilmiş qablarla birlikdə təsadüf edilir (16). Cənubi Qafqaz ərazisində əhəməni arxitekturasına oxşar memarlığı, malik Sarıtəpə və Qumbati abidələrində boya ilə naxışlanmış saxsı məmulatına təsadüf olunmamışdır. Əhəməni dövrünə aid digər ərazilərdə, xüsusən də cənub-qərbi İran ərazisində də boya ilə naxışlanmış qablara təsadüf edilimir. Lakin bir qədər sonrakı horizontlarda artıq boya ilə naxışlanmış qablar aşkar edilir (17). Ümumiyyətlə, İdealtəpə abidəsindən aşkar edilən saxsı məmulatını aralarında qısa bir zaman fərqi olan iki dövrə bölmək olar. Birinci mərhələ inzibati binanın fəaliyyəti ilə bir vaxta, e.ə. V əsrin sonları və IV əsrin əvvəllərinə aid etmək olar ki, saxsı məmulatı digər - Sarıtəpə, Qumbati və Kvemo Kedi həmdövr abidələri ilə yaxınlıq təşkil edir. İnzibati bina öz əhəmiyyətini itirdikdən sonra burada həyat tamam və ya dərhal kəsilməmişdir. Sonrakı mərhələ qısa bir vaxtda mövcud olmuş, e.ə. IV əsrin sonları - III əsrin əvvəllərinə təsadüf edir.

Tapıntılar içərisində kirəmit qalığma da təsadüf olunmuşdur. Xatırladaq ki, Azərbaycan ərazisində e. э. Ill əsrdən başlayaraq kirəmitdən istifadə edilməyə başlamlmışdır. Qafqaz Albaniyası ərazisindən aşkar edilmiş kirəmitlər İ.A.Babayev tərəfindən kifayət qədər tədqiq olunmuş və müəyyən edilmişdir ki, həmin dövrdə kirəmitlərdən ictimai binaların dammı örtmək üçün istifadə etmişlər (18). İdealtəpədən aşkar edilmiş kirəmit parçalarını hələlik təkcə Azərbaycanda deyil, bütün cənubi Qafqazda ən qədim nümunələr saymaq olar.

İdealtəpədən aşkar olunan maddi mədəniyyət nümunələrini və xüsusən də saxsı məmulatını onunla həmdövr olan Sarıtəpə və Gumbati abidələrindən məlum olan materiallarla müqayisəli təhlili əsasında həmin abidəni e. ə. V-IV əsrlərə aid etmək olar. Gələcək tədqiqatlar nəticəsində Qaracəmirli kəndi ərazisindən aşkar ediləcək abidələr həmin dövrün hərtərəfli öyrənilməsinə və işıqlandırılmasına imkanlar yaradacaq.

## ƏDƏBİYYAT


1. Babaev İ.A., Gagoshidze İ., Knauss F.S. An Achaemenid "Palace" at Qarajamidi (Azerbaijan). Preliminary Report on the Excavations in 2006 // AncCivScytSib 13, 2007, 31-45; Knauss F.S., Ludwig N., Mehnert G., Sens U., Wicke D. Ein Perserbau auf dem ideal Tepe bei Karacamirli // ARTA 2007.002. p. 1-51.
2. Lordkipanidse O. Archädologie in Georgien. Von der Alsteinzeit bis zum Mitlelalter (Weinheim 1991), s. 43-54.
3. Abkasi-Khavari M. Die achädmenidischen Metallschalen // AMİ n.F. 21, 1988, p. 91-137.
4. Нариманов И.Г. Находки баз колонн V-IV вв. до н.э. в Азербайджане // СА, 1960, №4. с. 162-164, şəkil 3.
5. P'ic'xelauri K., Mamaiasvili N. Die Ausgrabungen der Jahre 1963-1964 in der eisenzeitlichen Metallwerkstatt Kvemo Kedi // EurAnt 10, 2004, s. 147 169, şəkil 17,3.
6. Furtwädngler A. Archaologische Expedition in Kachetien 1994 // EurAnt 1,1995, s. 200-202, şəkil 17-18.
7. Нариманишвили Г.К. Керамика Картли V-I вв. до. н.э. Тбилиси: 1991, с. 47-50.
8. P'ic'xelauri K. Asmosavlet' sak'art'velos tomt'a istoriis jirit'adi problemebi. Tbilisi: 1973. s. 86-93; Furtwänglcr A.E., Ludwig N. Archaologische Expedition in Kachetien 2002. Ausgrabungen in Kvemo Kedi // EurAnt 10, 2004, s. 171-197; P'ic'xelauri K., Mamaiasvili N. Die Ausgrabungen der Jahre 1963-1964..., s. 147-169.
9. Furtwdngler A. Archaologische Expedition in Kachetien 1994//EurAnt 1, 1995, s. 195-203; Furtwängler A., Picxelauri K. Ausgrabungen in Gumbati (Kachetien) 1994, Georgica 18, 1995, 23-31; Furtwänglcr A., Knauss F., Archdologische Expedition in Kachetien 1995 // EurAnt 2, 1996, S.369-370; Furtwängler A. Picxelauri K. Ausgrabungen in Gumbati (Kachetien) 1995,

Georgica 19, 1996,58-65; Furlwängler A.E., Knauss F. Archaologische Expedition in Kachetien 1996. Ausgrabungen in den Siedlungen Gumbati und Ciskaraant-Gora // EurAnt 3,1997, s. 353-354.
10. Пицхслаури К.Н. Памятники второй половины I тысячелетия до. н.э. на территории Кахети // СА, 1977, № 3, с. 225-228; Гагошидзе Ю. Самадло. Археологические раскопки. Тбилиси: 1979, с. 78-80; Нариманишвили Г.К. Керамика Картли..., с. 80-83.
11. Гагошидзе Ю. Самадло. Каталог. Тбилиси: 1981, табло: 8,79; 13,203; 23,295.296; 24,301.302; 35,500; 47,696. 698; 53,773; Macharadze S. Neuc Funde aus Zichia-Gora //АМИТ 32, 2000, s. 143-158.
12. Пицхелаури К.Н. Памятники второй половины..., с. 225-228.
13. Голубкина Т.Н. О зооморфной керамике из Миигечаура // МКА 11,1951, с. 103-139; Казиев СМ. Археологические раскопки в Мингечауре. Альбом кувшинных погребений. Баку: 1960, табло 8, 1-3; 11.
14. Davlianije C. K'vemo K'art'lis (T'rialet'is) kultura jv. c. I at'ascleulis meore naxevarsi. T'bilisi: 1983, tablo 13; Narimanishvili G. Die Keramik Kartlis (İberiens) in achaimenidischer und postachaimenidischer Zeit // AMİT 32, 2000, s. 227-231; Narimanishvili G., Satberasvili V. Jv. V-I ss-is cit'lad moxatuli keramika K'art'lidan (stilisturi analizi, k'ronologiis sakit'xi), Jiebani 9, 2002, s. 54-55, tablo 1; Narimanishvili G., Shatberashvili V. The Red-Painted Pottery ol" Achaemenid and Posl-Achaemenid Periods from Caucasus (Iberia). Stylistic Analysis and Chronology // AncNearEastSt, 41, 2004, s. 120-166.
15. Гагошидзе Ю. Самадло. Археологические..., с. 76-79; Narimanishvili G. Die Keramik Kartlis (iberiens) in achaimenidischer und postachaimenidischer Zeit // AMİT 32,2000, s. 234-241; Narimanishvili G., Satberashvili V. Jv. V-I ss-is cit'lad moxatuli..., s. 55-56. tablo 3-5.
16. Гагошидзе Ю. Самадло. Археологические..., с. 78; Xundaje N. Elinisturi xanis t'et'rad moxatuli keramika Up'lisc'ixidan, Narkvevebi 2, 1996, s. 169-172; Maxaraje Z. Axali agmoe'enili C'ixiagoraze, Jiebani 4, 1999, s. 57 66.
17. Kroll S. Nordwest-Iran in Achaimenidischer Zeit: Zur Verbreitung der Classic Triangle Ware // AM1T 32, 2000, s. 135.
18. Бабаев И.А. Античная черепица Кавказской Албании // СА, 1974, № 2, с. 48-59.



K 06 Q 34 - 11 a



K 06 Q 34 - 12 a



K 06 Q 35 - 10 a



K 06 Q 35 - 13 a



K 06 Q 34 - 34 a



Tablo. M 1:2 K 07 R 34 - 18 a



K 06 Q 35 - 8 a



K 07 Q 34 - 1 a



K 06 Q 35 - 8 a



K 06 Q 36 - 11 a



K 07 P 34 - 2 c

II Tablo.

M 1:2





**III tablo.**

## M.N. RƏHİMOVA

### *XX əsrin son rübü - XXI əsrin əvvəlində Şəmkir bölgəsinin arxeoloji tədqiqinə dair*

Şəmkir bölgəsinin əlverişli təbii-coğrafi şəraiti bu ərazinin çox erkən məskunlaşmasını şərtləndirmiş, hələ eneolit dövründə bölgədə erkən əkinçi - maldar qəbilələr yurd salmış, burada tunc və dəmir dövrlərində, eləcə də sonrakı dövrlərdə intensiv həyat olmuşdur. Bütün bunlar öz əksini bölgənin çoxsaylı, müxtəlif tipli arxeoloji abidələrində tapmışdır.

Bölgənin arxeoloji abidələrinin öyrənilməsində XX əsrin 70-80-ci illərində və XXI əsrin ilk onilliyində aparılmış tədqiqatlar mühüm bir mərhələni təşkil edir. 70-80-ci illərdəki geniş miqyaslı arxeoloji axtarış və qazıntılar Şəmkir rayonu ərazisindəki yeni tikintilər ilə bağlı idi. Şəmkir SES-ın inşaatı ilə əlaqədar Kür çayı sahili boyunca yerləşmiş arxeoloji abidələrin su altında qalmaq təhlükəsi ortaya çıxmışdı. Qısa zaman kəsiyində arxeoloji axtarışlarla mövcud abidələr müəyyənləşdirilib tədqiqata cəlb olunmalı, elm üçün xilas edilməli idi. Qarşıda duran məqsədə nail olmaq üçün 1974-1979-cu illərdə yeni tikinti sahəsində məqsədyönlü, sistemli çöl tədqiqatları aparılmış, onlarla abidə qeydə alınaraq əsaslı qazıntılarla öyrənilmişdir. Belə abidələr sırasında eneolit dövrünə aid Keçili yaşayış yerini, tunc dövrünün müxtəlif mərhələlərinə aid qəbir abidələri (Osmanbozu, Qaracəmirli kurqanları, Keçili kəndi yaxınlığında qəbirlər), son tunc dövrünə aid Bitdili yaşayış yerini, alban dövrünə aid Alıqoca, II Keçili, Qanlıtəpə, Həsəntəpə, Tülkütəpə, Sarıtəpə, Saqqızlı, Üzümlütəpə yaşayış yerlərini, Bitdili və Daşbulaq küp qəbirlərini misal gətirmək olar (1,2,3,4,5). Şəmkir SES-ın bəndinin inşaatı zamanı Qara Musanın yataq yeri adlı təpədə aşkarlanan qədim qəbiristanlıqda 1978-1983-cü illərdə aparılan arxeoloji qazıntılar da uğurlu olmuş, arxeoloq Qələndər Aslanov burada e.ə.VII-IV əsrlərə aid 44 torpaq qəbrini tədqiq etmişdir. Tədqiq olunan abidələrin bəziləri Azərbaycanın qədim tarixinin ümdə problemlərinin həlli üçün böyük elmi əhəmiyyət kəsb edən faktiki materiallarla əlamətdar olmuşdur. Misal üçün, erkən tunc dövrünə aid Osmanbozu kurqanı istər konstruksiyası, istərsə də dəfn adətinə görə o zamana qədər Azərbaycanda tədqiq olunmuş kurqanlardan fərqlənmişdir. Arxeoloji qazıntı nəticəsində bu kurqanda 34 nəfərin dəfn edildiyi müəyyən edilmişdir (4). Son tunc dövrü Bitdili yaşayış yerində də arxeoloji qazıntılar uğurlu olmuş, burada "dulusçular məhəlləsi" aşkarlanaraq tədqiq edilmişdir (6). Qələndər Aslanovun tədbiq etdiyi dəmir dövrü torpaq qəbirlərindən əldə olunmuş arxeoloji materiallar isə bölgənin, bütövlükdə isə Azərbaycanın Ön Asiya ölkələri, eləcə də skif tayfaları ilə iqtisadi-mədəni əlaqələrinə dair dəyərli maddi dəlillər hesab oluna bilər ( 7). Şəmkir rayonunda Yenikənd SES-ın inşaatı ilə əlaqədar Kür çayının suları altında qalacaq abidələri elm üçün xilas etmək məqsədi ilə 1985-1989-cu ildə Qaracəmirli kurqan qrupunda, Bulaqbaşı abidələr kompleksində, orta əsr Muncuqlutəpə yaşayış yerində geniş arxeoloji qazıntı işləri aparılmışdır. Orta tunc dövrünün dəfn adətlərini, eləcə də həmin dövrdə bölgə ərazisində məskunlaşmış tayfaların

sosial-iqtisadi və etnomədəni durumunu səciyyələndirmək baxımından Qaracəmirli kurqanları böyük elmi dəyərə malikdir. Qaracəmirli kurqan qrupunda Qardaşxan Aslanov iki, Fatma Abasova bir, Münəvvər Hüseynova və İdris Əliyev üç kurqanda arxeoloji qazıntı apararaq orta tunc dövrünə aid zəngin arxeoloji materiallar əldə etmişlər. Xüsusilə saxsı məmulatı arasında az təsadüf olunan, orjinal forması ilə fərqlənən saxsı qab nümunələri diqqətəlayiqdir. Münəvvər Hüseynova həm də 1977-ci ildə qeydə alınmış, Qaracəmirli kəndi yaxınlığındakı antik və ilk orta əsrlərə aid Alıqoca yaşayış yerində tədqiqatlar aparmışdır (8). Bu yaşayış yerinin şimal-şərqində katakomba tipli qəbir də tədqiq edilmişdir. Bulaqbaşı abidələr kompleksinə daxil olan Sarıtəpə, Qanlıtəpə yaşayış yerlərinin və Sarıtəpədəki torpaq qəbrin qazıntısı alban mədəniyyətinin tədqiqi üçün zəngin faktik material vermişdir (9). Bölgə ərazisində keçən əsrin 80-ci illərinə qədər xeyli orta əsr abidəsi qeydə alınsa da, onların heç birində geniş miqyaslı arxeoloji tədqiqatlar aparılmamışdı. 1985-88-ci illərdə Yenikənd SES-ın inşaatı ilə əlaqədar orta əsr Muncuqlutəpə yaşayış yerində 750 kv. m sahədə arxeoloji qazıntılar aparılmışdır. Arxeoloji qazıntı nəticəsində sənətkarlar məhəlləsi, istehsal və məişət tikililəri, monumental tikililərin mövcudluğundan xəbər verən sütunaltlığı, xeyli miqdarda müxtəlif təyinatlı maddi mədəniyyət nümunələri tapılmışdır (10,11). Daş sütunaltlığı üzərindəki kufi xətli kitabə sütunaltlığının XI əsrə mənsubluğunu müəyyənləşdirməyə imkan vermişdir. Bunu da xatırladaq ki, kiçik şəhər tipli yaşayış məskənlərinin xarabalıqları Azərbaycanda zəif öyrənilmişdir və Muncuqlutəpə bu tip abidələrdən arxeoloji qazıntılarla tədqiq edilən ilk abidədir. Şübhəsiz ki, bu nöqteyi-nəzərdən Muncuqlutəpə qazıntıları təkcə məhəlli əhəmiyyətə malik olmayıb, həm də Azərbaycanın şəhər tipli iri yaşayış yerlərinin öyrənilməsində böyük elmi əhəmiyyətə malikdir. Keçən əsrin 70-80-ci illərində Şəmkir bölgəsində aparılan arxeoloji qazıntılar tədqiqatçıların sərəncamına zəngin faktik materiallar verməklə təkcə bölgənin tarixi üçün deyil, bütövlükdə Azərbaycanın qədim və orta əsrlər tarixinin ümdə problembrinin həlli üçün mötəbər mənbə olmuşdur.

XX əsrin son onilliyində digər elm sahələrində olduğu kimi Azərbaycan arxeologiya elmi də keçid dövrünün çətinliklərini yaşamış, çöl tədqiqatları məhdudlanmış, bölgə ərazisində arxeoloji qazıntılar müvəqqəti dayandırılmışdır. Bu illərdə əvvəllər əldə olunmuş arxeoloji materialların hərtərəfli öyrənilməsinə, təhlil və ümumiləşdirilmələr aparılmasına diqqət artırılmış, yekun olaraq bir neçə elmi əsər işıq üzü görmüşdür.

Sabitliyin bərqərar olması, müstəqil Azərbaycan dövlətinin möhkəmlənməsi, ölkənin sosial-iqtisadi tərəqqisi arxeoloji çöl tədqiqatlarını bərpa etməyə imkan vermiş, son bir neçə ildə bölgə ərazisində bir sıra abidələrdə arxeoloji qazıntılar aparılmışdır. Bakı-Tbilisi-Ceyhan neft boru kəmərinin və Cənubi Qafqaz boru kəmərinin inşaatı ilə əlaqədar boru kəmərləri keçən ərazilərdə, o cümlədən Şəmkir rayonunda arxeoloji axtarışlar aparılmış, kəmərlərin dəhlizindəki yaşayış yerləri və qəbir abidələri qeydə alınaraq tədqiq olunacaq abidələr siyahısına salınmışdır. 2004-2005-ci illərdə həmin arxeoloji abidələr geniş miqyaslı qazıntılarla hərtərəfli tədqiq olunmuşlar. Belə abidələr

arasında Zəyəmçay nekropolunu, Keçili kəndi yaxınlığındakı tunc dövrü kurqanını, Caparlı kəndi yaxınlığında antik - ilk orta əsr arxeoloji kompleksini, orta əsr Daşbulaq yaşayış yerini göstərmək olar. Zəyəmçay nekropolunda son tunc dövrünə mənsub 130 qəbir tədqiq olunmuşdur. Tədqiq olunmuş qəbirlərin böyük əksəriyyətinin fərqləndirici xüsusiyyəti üzərlərində çaydaşlarından qurulmuş örtüyün olmasıdır. Çaparlı son antik - ilk orta əsrlər abidəsi Qafqaz Albaniyasının maddi və mənəvi mədəniyyətinin tədqiqi baxımından böyük əhəmiyyət kəsb edir. Burada arxeoloji qazıntılar zamanı II - III əsrlərə aid istehsal tikililərinin qalıqları, IV - V əsrlərin xristian məbədinin xarabalıqları, ilk orta əsrlərə aid küp və torpaq qəbirlər aşkarlanmışdır. Orta əsr Daşbulaq yaşayış yeri, heç şübhəsiz ki, orta əsr Şəmkir şəhərinin nahiyəsinə daxil olan kəndlərdən birinin xarabalıqlarıdır. Arxeoloji qazıntılar zamanı Daşbulaq yaşayış yerində 18 təndir, 23 təsərrüfat quyusu üzə çıxarılıb öyrənilmişdir. Diqqətj cəlb edən cəhət bu quyularda arxeoloji materiallara daha çox rast gəlinməsidir. Yaşayış yerindən tapılmış maddi mədəniyyət nümunələri IX - XI əsrlər üçün səciyyəvi olub, orta əsr Şəmkir şəhərinin arxeoloji materialları ilə oxşarlıq təşkil edir.

Son illər rayon ərazisində beynəlxalq arxeoloji ekspedisiyalar da uğurla fəaliyyət göstərir. 2001-ci ildə Amerika-Azərbaycan arxeoloji ekspedisiyası orta əsr Şəmkir şəhər yerində kəşfiyyat xarakterli çöl tədqiqatları aparmışdır. Artıq iki ildir ki, Azərbaycan-alman-gürcü beynəlxalq arxeoloji ekspedisiyası Qaracəmirlidə dəmir dövrünə aid çox maraqlı bir abidədə uğurla tədqiqat aparır. Burada sütunlu nəhəng bir sarayın qalıqlarının təmizlənməsinə başlanmışdır. 2006-2007-ci illərdə orta əsr Şəmkir şəhər xarabalıqlarında aparılmış arxeoloji qazıntılar xüsusilə uğurlu olmuş, Orta əsr Azərbaycan şəhərini və şəhər mədəniyyətini dərindən tədqiq etmək üçün çox zəngin maddi mədəniyyət nümunələri əldə edilmişdir. 2006-cı ildə Şəhristanda yalnız kiçik stratiqrafik qazıntı aparıldığı halda, bu il Azərbaycan MEA Arxeologiya və Etnoqrafiya İnstitutunun Azərbaycan Mədəniyyət və Turizm Nazirliyi, Regionların İnkişafı İctimai Birliyi ilə birgə layihəsi üzrə Şəmkir şəhər yerinin Narınqalasında geniş miqyaslı arxeoloji qazıntılar aparılmış, maraqlı elmi nəticələr əldə olunmuşdur.

Beləliklə, yuxarıda qeyd olunanlardan göründüyü kimi Şəmkir bölgəsi abidələrlə zəngin bir diyardır. Burada XX əsrin son rübü - XXI əsrin əvvəllərində aparılmış qazıntılar Azərbaycan arxeologiyasını təkrarolunmaz maddi mədəniyyət nümunələri ilə zənginləşdirmişdir. Ümidvarıq ki, Azərbaycan MEA Arxeologiya və Etnoqrafiya İnstitutunun hazırda nəşrə hazırlanan altı cildlik Azərbaycan arxeologiyası monoqrafik əsərində Şəmkir bölgəsinin arxeoloji abidələri öz layiqli yerini tutacaqdır.

## ƏDƏBİYYAT


1. Кесаманлы Г.П., Гусейнова М.А., Джафаров Г.Ф., Кашкай СМ., Асланов Г.Г. Новые памятники в районе строительства Шамхорской ГЕС. // Археологические открытия 1975 г. Москва, 1976 .
2. Кесаманлы Г.П., Джафаров Г.Ф. Работы в зоне строительства Шамхорской ГЕС. // Археологические открытия 1976 г. Москва, 1977 .
3. Кесаманлы Г.П., Джафаров Г.Ф. Раскопки на поселении Битдили. // Археологические и этнографические изыскания в Азербайджане (1976 г.). Баку, 1979.
4. Кесаманлы Г.П., Джафаров Г.Ф., Бабаев И.А. Работа Шамхорского района. // Археологические открытия 1977 г. Москва, 1978 .
5. Кесаманлы ГЛ., Джафаров Г.Ф., Гусейнова М.А., Асланов Г.Г. Археологические работы в зоне строительства Шамхорской ГЕС. // Археологические и этнографические изыскания в Азербайджане (1975 г.). Баку, 1978.
6. Кесаманлы Г.П. Раскопки на поселении Битдили. //Azərbaycan arxeologiyası və etnoqrafiyası, 2003, 2.
7. Асланов Г.Г. Шамхорский могильник. Баку, 1986.
8. Гусейнова М.А., Алиев И.Н. Раскопки на поселении Алыгоджа Шамхорского района. // Azərbaycanda arxeologiya və etnoqrafiya elmlərinin son nəticələrinə həsr olunmuş elmi konfransın materialları. Bakı, 1992.
9. Abbasova F. Bulaqbaşı abidələri. Bakı, 2003.
10. Алиев А.А. Исследования городища Мунчуглутепе. // Археологические открытия 1985 г. Москва, 1987.
11. Алиев А.А., Асадов В.А., Аббасова Ф.А. Работы Еникендской экспедиции. // Археологические открытия 1986 г. Москва, 14XS.

**H.F.CƏFƏROV**

## *Şəmkirin qədim arxeoloji abidələri*

### *(1974-1979-cu illərin arxeoloji tədqiqatlarının nəticələri)*

XX əsrin 70-ci illəri Azərbaycanın sosial-iqtisadi, ictimai inkişafının şanlı səhifələri idi. Ulu öndər Heydər Əliyevin 1969-cu ildə Azərbaycan rəhbərliyinə təyin olunmasından sonra dövlətçiliyin, iqtisadiyyatın bütün sahələrinin, elm, təhsil, mədəniyyətin əvvəlki onilliklərdə görünməmiş bir sürətlə inkişafı Sovetlər birliyinin tərkibində olan başqa respublikalar üçün nümunə göstərilirdi. 70-ci illərdə bir-birinin ardınca bütövlükdə xalq təsərrüfatının, onun tərkib hissəsi olan kənd təsərrüfatının inkişafı üçün SSRİ-nin ən yüksək hakimiyyət dairələrində qəbul olunmuş dörd mühüm qərar Azərbaycana əlavə kapital qoyuluşu, əlavə iş yerlərinin açılması, ən yeni infrastrukturların yaradılmasına imkan verdi. Həmin illərin epoxal tikililərindən biri də Şəmkir Su Elektrik Stansiyasının inşası idi. Su anbarı, stansiya və onun infrostrukturlarının yerləşəcəyi ərazidə geniş torpaq işlərinin aparılması zəruriliyi həmin rayonun ətraflı öyrənilməsini, kompleks tədqiqatlar aparılmasını zəruri etmişdi. Həmin rayonda fəaliyyət göstərməli olan strukturlardan biri də Azərbaycan SSR Elmlər Akademiyasının müvafiq institutları, o cümlədən Tarix İnstitutunun yenicə təşkil olunmuş Arxeologiya və Etnoqrafiya Sektoru olmuşdur. 1974-1978-ci illərdə Sektora Azərbaycanın arxeologiya ixtisası üzrə ilk elmlər doktoru Qara Əhmədov, sonrakı illərdə isə görkəmli elm xadimi, əvəzsiz təşkilatçı və böyük insan Arif Abbasov başçılıq etmişdir.

Şəmkir arxeoloji ekspedisiyasının rəisi t.e.n. H.P.Kəsəmənli (1974-1977), t.e.d. prof. H.F.Cəfərov (1978-1979-cu illər) olmuşlar. 1978-ci ildən ekspedisiya üç dəstədən ibarət olmuşdur. Müvafiq olaraq dəstələrə H.Kəsəmənli, H.Cəfərov və Q.Aslanov başçılıq etmişdir. Axırıncı dəstənin fəaliyyətə başlaması da Hətəm Kəsəmənli və Hidayət Cəfərovun xidməti sayəsində mümkün olmuşdur. Kür çayının sol sahil zonasında kəşfiyyat işləri zamanı aşkar olunmuş, e.ə. VII-VI əsrlərə aid nekropolda qazıntı işlərinin təxirə salınmasının mümkünsüzlüyü, əlavə arxeoloji dəstənin yaradılmasını zəruri etmişdir.

Şəmkir arxeoloji ekspedisiyasının rəisi t.e.n. H.P.Kəsəmənli (1974-1977), t.e.d. prof. H.F.Cəfərov (1978-1979-cu illər) olmuşlar. 1978-ci ildən ekspedisiya üç dəstədən ibarət olmuşdur. Müvafiq olaraq dəstələrə H.Kəsəmənli, H.Cəfərov vo Q.Aslanov başçılıq etmişdir. Axırıncı dəstənin fəaliyyətə başlaması da Hətəm Kəsəmənli və Hidayət Cəfərovun xidməti sayəsində mümkün olmuşdur. Kür çayının sol sahil zonasında kəşfiyyat işləri zamanı aşkar olunmuş, e.ə. VII-VI əsrlərə aid nekropolda qazıntı işlərinin təxirə salınmasının mümkünsüzlüyü, əlavə arxeoloji dəstənin yaradılmasını zəruri etmişdir. Ekspedisiyanın rəisi Hidayət Cəfərovun təklifi ilə həmin dəstəyə rəhbərlik Qələndər Aslanova həvalə olunmuşdur. Bütövlükdə XX əsrin 70-80-ci illərində arxeoloji ekspedisiyalar Azərbaycanın əksər regionlarında geniş tədqiqat işləri

aparırdı. Gəncə-Qazax (rəhbəri İdeal Nərimanov), Tovuz (rəhbəri Rəhim Vahidov) ekspedisiyaları Azərbaycanın qərb bölgəsinin tədqiqi sahəsində uğurlar qazanmış. Şəmkir tədqiqatları aparılan tikinti işlərinin zərurətindən doğsa da, əslində, planlı xarakter daşıyaraq qanunauyğunluqla bağlı olmuşdur. Şəmkir ekspedisiyasının həmin vaxt aşkar etdiyi abidələr eneolit dövründən orta əsrlərə qədərki geniş tarixi diapazonu əhatə etmişdir.

Eneolit dövrü Keçili kəndi yaxınlığında aşkar olunmuş yaşayış yeri əsasında öyrənilmişdir (1975-ci il). Tədqiqat işləri gedişində möhrədən hörülmüş yaşayış binası və təsərrüfat tikililəri qalıqları, habelə çoxsaylı maddi-mədəniyyət nümunələri əldə olunmuşdur. Müxtəlif tipli, gili saman qatışıqlı keramika nümunələri eneolitin son mərhələsi üçün xarakterik əlamətlərə malikdir. Nümunələr içərisində dəvəgözü və çaxmaqdaşından əmək alətlərinə, istehsal tullantılarına təsadüf olunmuşdur[2]. Abidədə yalnız bir dəfə, kəşfiyyat xarakterli qazıntı işləri aparıldığı üçün onun stratiqrafiyası və ümumi sahəsi haqqında dəqiq məlumat verməк çətinlik yaradır. Ekspedisiyanın tədqiqatlarında ilk tunc dövrü kurqanlarında aparılan qazıntılar xüsusi yer tutmuşdur. 1976-cı ilin kəşfiyyat axtarışları gedişində, Şəmkir SES bəndi inşa olunacaq zonada, «Osman bozu» adlı yerdə daş və torpaq örtüklü kurqanlar qeydə alınmışdır. Hündürlüyü 1-2 m, diametri 10-20 m arasında olan kurqanlardan üçü ilk tunc dövrünə, biri son tunc, ikisi kenotaf tipli abidələr sırasına daxil olmuşdur. İlk tunc dövrü kurqanları 1977 (1 saylı)[3] və 1978-ci (4 və 5 saylı)[4] illərdə öyrənilmişdir. Kurqanlar torpaq qatışıq daş örtüklü olmuşdur. Kurqanaltı qəbirlər düzbucaqlı quruluşlu, dromos tipli giriş qapılı konstruksiyaya malik idi. Divarlar uzununa bölünmüş ağac tirlərlə bərkidildiyindən, «taxta qutu» qəbirlərini xatırladırdı. Hər üç kurqanda ölüyandırma (kremasiya) və kollektiv dəfnetmə mərasimi müşahidə olunmuşdur. Əgər 1 saylı kurqanda qəbir kamerasının girişi şərq divarı önündə şaquli basdırılmış yastı sal daşla qeydə alınmışdısa, 4 və 5 saylı kurqan qəbirlərində kənarları sal daşla (əhəngdaşı) üzlənmiş dar dəhliz (koridor-dromos) giriş rolunu oynamışdır. Hər üç kurqanın qəbir kamerası iri çaydaşları ilə doldurulduğu üçün qəbir avadanlığını təşkil edən müxtəlif tipli keramika nümunələri xırda hissələrə parçalanmışdır. Keramika nümunələri ilk tunc dövrü üçün xarakterik olan bikonik quruluşlu küpələr silindrik boğazlı küpəciklər, şarşəkilli gövdəyə malik, qaramtıl və ya qırmızı rəngli küpələr, cam və xeyrələrdən ibarətdir. Keramika nümunələrinin çox hissəsinin səthi anqoblu olub, tək və ya qoşa lentvari qulplarla təchiz edilmişdir. Qablar Kür-Araz ilk tunc dövrü mədəniyyətinin erkən dövrü üçün xarakterik əlamətləri (qalın oturacaq, lentvari qulplar, anqoblama, saya səth və s.) əks etdirir. Bu tip kurqanlara Azərbaycanın Qarabağ (Xankəndi, Borsunlu), Gəncəbasar, Şəki, Qəbələ bölgələrində də təsadüf olunması Azərbaycanda e.ə. III minilliklərdə yaşamış tayfalarm etnik-mədəni bağlılığını şərtləndirən amil kimi qiymətləndirilməlidir[5]. Osman bozu kurqanları (Şəmkir) bir tərəfdən Şəki-Qəbələ, digər tərəfdən isə Gəncəbasar və Qarabağ bölgələri arasındakı boşluğu doldurmaq baxımından mühüm rol oynamışdır. Xatırladaq ki, 1988-ci ildə Şəmkir arxeoloji ekspedisiyasının tədqiqatları (ekspedisiyasının rəisi t.e.d. Rəşid Göyüşov) gedişində Osman bozu kurqanlarının analoji nümunəsi aşkar

olunmuşdur. Həmin il ekspedisiyanın fəaliyyətini yoxlayan komissiyanın tərkibində (rəhbəri Arxeologiya və Etnoqrafiya İnstitutunun direktoru, t.e.d. Arif Abbasov idi) iştirak edən bu sətirlərin müəllifi kurqanın qazılma metodu ilə bağlı ekspedisiya üzvlərinə məsləhət vermişdir.

Orta tunc dövrü abidəsi. 1974-cü ildə Hətəm Kəsəmənli tərəfindən Kürün sağ sahil zonasında Keçili eneolit dövrü yaşayış yerinin şimal-şərq hissəsində (1,5 km. məsafədə) aşkar olunmuş torpaq qəbirdən ibarət olmuşdur. Abidə e.ə. XVIII-XVII əsrlərə aid edilmişdir. Son tunc dövrü abidələri. «Bitdili» yaşayış məskəni və Osman bozu adlı yerdə öyrənilmiş kiçik kurqanla təmsil olunmuşdur. «Bitdili» yaşayış yerində çalışacaq fəhlə və qulluqçular üçün Şəmkir SES-də salınan «Kür» qəsəbəsi inşa edilərkən aşkar olunmuşdur. Çoxmərtəbəli yaşayış binalarının birinin özülü qazılarkən məişət qalıqları ilə zəngin mədəni qədim təbəqələr açılmış, bu haqda Elmlər Akademiyasına məlumat verilmişdir.

Tədqiqatlar nəticəsində e.ə. XII-XI əsrlərə aid yaşayış yerində çoxsaylı tikinti qalıqları, təsərrüfat tikililəri və quyular, saxsı qabları bişirmək üçün ikiyaruslu odlama kamerası və odluqları yaxşı qalmış sobalar, çoxlu miqdarda maddi-mədəniyyət nümunələri əldə olunmuşdur. Nəzərə alsaq ki, bu abidə Şəmkir bölgəsində son tunc dövrünə aid öyrənilmiş yeganə yaşayış məskəni idi, onda bu tədqiqatların пə qədər böyük əhəmiyyət kəsb etdiyini başa düşmək çətin olmaz.

Arxeoloqlara bəllidir ki, müəyyən səbəblər üzündən son tunc dövründə stasionar yaşayış məskənlərinin say nisbəti az olmuşdur. Mingəçevir, Xanlar və Babadərviş abidələri istisna olmaqla Azərbaycanın Qərb zonasında belə yaşayış məskənlərinə demək olar ki, təsadüf olunmamışdır. Yeri gəlmişkən qeyd etməliyik ki, son illərdə bu sahədə müsbət mənada xeyli dəyişikliklər var. Gənc arxeoloqlar bu dövrün bir sıra abidələrini aşkar etmişlər. Son tunc dövrünə aid başqa bir abidə 1979-cu ilin tədqiqatları gedişində aşkar olunmuş kiçik ölçülü torpaq kurqanı olmuşdur. Kurqanaltı düzbucaqlı qəbirdə bükülü vəziyyətdə dəfn (inqumasiya, tək) və saxsı qablardan, habelə tunc yaylı fibulardan ibarət maddi qalıqlar tapılmışdır.

Bizim fikrimizcə, Osman bozunda 1978-ci ildə aşkar olunmuş daha iki abidəni də tunc dövrünə aid etmək olar. Doğrudur, bunun üçün əlimizdə maddi-mədəniyyət qalıqları (keramika, məişət əşyaları, silah nümunələri və s.) yoxdur. Lakin kurqan tipli abidələrin tunc dövründə meydana gəlməsi faktını əsas götürərək fikrimizin yalnış olmamasını demək olar.

Bu abidələr bir tərəfdən (qərbdən) 1 saylı Osman bozu kurqanı, şərq tərəfdən isə 4 və 5 saylı kurqanlarla sərhədlənmişdir. Diametri 25 m. və 15 m., hündürlüyü 2,5 m və 1 m. olan torpaq örtüklü kurqanlardan böyüyünün ətrafı sal əhəngdaşı lövhələri ilə əhatələnmiş kromlexi xatırladırdı. Diqqətlə aparılan təmizləmə işləri gedişində dəfn qalığı və maddi-mədəniyyət nümunələrinə təsadüf edilmədi. Biz elə həmin vaxt belə qənaətə gəldik ki, həmin kurqanlar «kenotaf» tipli abidələr olmuşdur. Hərçənd ki, abidələrdə maddi qalıqların tapılması bizi mütəəssir etmişdi. Lakin elə o vaxt yazmışdıq ki, maddi qalıqların olmaması da bir nəticədir və onu izah etmək lazımdır. Biz bu nəticəni də elmi

cəhətdən əsaslandıra bilmişdik. Orta əsrlərlə bağlı fəaliyyət dairəmiz 1975-ci ildə indi bizi ətrafına toplanmağa vadar etmiş məşhur Şəmkir şəhər yerinin viziual tədqiqi ilə məhdudlanmışdır. Biz həmin ilin hesabatında bu abidə haqqında geniş məlumat verərək ictimaiyyətin diqqətini bu klassik Azərbaycan şəhərinin o vaxtkı durumuna yönəltdik, abidənin qorunmasının vacibliyini vurğuladıq. O vaxt yerli əhaliyə izah etdik ki, şəhərin qala hasarının, yaşayış binalarının daşlarını söküb yerində pəyə tikməsinlər və s.

Biz şadıq ki, indi Şəmkir şəhər yerində geniş miqyaslı tədqiqatlar aparılır.

Şəmkir arxeoloji ekspedisiyasının 1974-1979-cu illərdə apardığı tədqiqatların qısa xülasəsi bunlardır. Biz öz üzərimizə düşən vəzifələri son dərəcə məsuliyyət hissi ilə yerinə yetirmişik. Çətin şəraitdə, məişət qayğıları həll olunmadan, minik vasitəsiz, maliyyə qıtlığı içərisində çox iş görmüşük. Tədqiqatların nəticələri müxtəlif elmi məqalələrdə, kitablarda, konfrans və simpoziumlarda əks olunub. Bizim ardımızca başqa ekspedisiyalar fəaliyyət göstərmişdir. İndi də bu axtarışlar davam edir. Nəsillər bir-birini əvəz edir, yeni elmi qüvvələr meydana gəlir. Bu təbii prosesdir. Lakin biz istərdik ki, yeni tədqiqatçılar Şəmkirin ilkin tədqiqatçılarının müsbət keyfiyyətlərini yeni müstəvidə davam etdirsinlər.

## ƏDƏBİYYAT


1. Г.Г.Асланов. Шамхорский некрополь. Баку, Элм, 1986, стр. 3-11.
2. Кесаманлы Г.П., Джафаров Г.Ф. Новые материалы в районе строительства Шамхорской ГЭС. АО СССР за 1975г., МЛ 976, стр. 502.
3. Кесаманлы Г.П., Джафаров Г.Ф., Бабаев И.А. Раскопки Шамхорского отряда Шамхорской археологической экспедиции (1977 г.) АЭИА (1977г.), Баку, 1981, стр. 7-11; Они же. Работы Шамхорского отряда. АО в СССР за 1977г. М., 1978, стр.598.
4. Джафаров Г.Ф., Кесаманлы Г.П. Раскопки Шамхорской археологической экспедиции (1978 г.) АО в СССР за 1978г. М., 1979, стр. 514-515. Он же. Работа Шамхорской археологической экспедиции. Археологические и этнографические исследования в Азербайджане (1978 г.) Баку, 1982, стр. 9-11.
5. Cəfərov H.F. Azərbaycan e.ə. IV minilliyin axırı-I minilliyin əvvəllərində. Bakı, «Elm», 2000, səh. 33.
6. Кесаманлы Г.П., Джафаров Г.Ф. Работы в зоне строительства Шамхорской ГЭС. АО в СССР за 1976г. М., 1977, стр. 492. Он же. Раскопки на поселении Битдили. Археологические и этнографические изыскания в Азербайджане в 1976 г. Баку, 1979, стр. 8-11.

**N.Ə.MÜSEYİBLİ**
**G.K.AXUNDOVA**

## *Hacıvəlilər nekropolundan tapılmış arxeoloji materiallar*

Şəmkir rayonu Azərbaycanın arxeoloji abidələrlə zəngin olan bölgələrindən biridir. Bu ərazi əlverişli təbii-coğrafi şəraiti, münbit torpaqları ilə qədim zamanlardan insanların diqqətini cəlb etmişdir. Burada eneolit dövründən başlayaraq son orta əsrlərə qədər bütün mərhələlərə aid yaşayış yerləri və dəfn abidələri aşkar edilərək öyrənilmişdir.

BTC neft və CQ qaz kəmərlərinin çəkilişi ilə əlaqədar AMEA Arxeologiya və Etnoqrafiya İnstitutunun ekspedisiyası Şəmkir rayonu ərazisində 2001-2005-ci illərdə çoxlu arxeoloji abidələr aşkar etmiş, kəmərlərin dəhlizinə təsadüf edən abidələrdə arxeoloji qazıntılar aparılmışdır. Həmin arxeoloji qazıntı zamanı ətraf ərazilərdə axtarış işləri aparılmış və müxtəlif dövrlərə aid yeni arxeoloji abidələr aşkar edilmişdir. Belə abidələrdən biri Kür çayı üzərində tikilmiş Şəmkir su anbarının sağ sahilində yerləşən Hacıvəlilər nekropoludur.

Hacıvəlibr nekropolu 2003-ci ildə Bayramlı kənd sakini Ələkbərov Şahlar Kamil oğlunun verdiyi məlumat əsasında qeydə almmışdır. O, bu nekropoldakı dağılmış qəbirlərdən arxeoloji materiallar toplayaraq bizə təhvil vermişdir. Bunun üçün ona öz təşəkkürümüzü bildiririk. Təəssüflə qeyd etmək lazımdır ki, bilavasitə su anbarının sahilində yerləşən nekropol hər il dağıntılara məruz qalır. Belə ki, ilin müəyyən fəsillərində anbardakı suyun səviyyəsi artırılır və nekropol Kür sularının altında qalır. Sonra su çəkilən zaman qəbirlərin üstü yuyularaq açılır. Aşkara çıxmış saxsı qablar "qızılaxtaran" bəzi yerli sakinlər tərəfindən dağıdılır. 2003-2005-ci illərdə həyata keçirilən arxeoloji səfərlər zamanı nekropolun ərazisindən dağıdılaraq yerin səthində səpələnmiş çoxlu sayda maddi mədəniyyət qalıqları toplanmışdır.

Hacıvəlilər nekropolunun sahəsi bir neçə hektarı əhatə edərək su bəndinin sahili boyu uzanır. Çox ehtimal ki, abidənin bir hissəsi həmişəlik suyun altında qalmışdır. Abidədən toplanmış arxeoloji materiallar əsasən e.ə. II minilliyin sonu I minilliyin əvvəllərinə aiddir. Lakin burada həm də antik dövrə aid saxsı qab nümunələrinə də rast gəlinmişdir. Antik dövr materiallarına nekropolun əsasən şərq hissəsində təsadüf olunur. Belə tapıntılar nekropolda uzun müddət dəfnlərin icra olunduğunu söyləməyə əsas verir. Bununla belə nekropolda son tunc - ilk dəmir dövrü materialları mütləq üstünlüyə malikdir.

Abidədə arxeoloji qazıntılar aparılmasa da, buradakı qəbirlərin növü haqqında müəyyən mülahizələr söyləmək mümkündür. Belə ki, Kür çayının yuyub açdığı qəbirlərin üst örtüyündə çaydaşlarının sıx cəmləşməsi diqqəti cəlb edir. Belə xüsusiyyətlərinə görə həmin qəbirlər Zəyəmçay nekropolunun daş örtüklü qəbirlərinin üst quruluşunu xatırladır. Hacıvəlilər nekropolunun arxeoloji materialları da bütün xüsusiyyətləri ilə coğrafi baxımdan yaxın məsafədə (10 km) yerləşən Zəyəmçay nekropolunun tapıntıları ilə oxşarlıq təşkil edib onunla eyni

dövrə aiddir. Lakin əsaslı arxeoloji qazıntılar aparılmadan Hacıvəlilər abidəsinin qəbirlərinin quruluşu barədə dəqiq nəticəyə gəlmək mümkün deyil.

Nekropoldan toplanmış keramika məmulatı (I tablo) müxtəlif növ saxsı qablar və ya onların hissələrindən ibarətdir. Bunlar xeyrə, qazan, küpə, bardaq, kuzə, nehrə və s. tipli qablardır. Xeyrə və küpələr qara rəngdədir. Digər qablar tünd-boz rəngdə bişirilib. Bütün qabların gilinin tərkibində narın qum qatışığı müşahidə olunur. Nümunələrinin hamısı dulus çarxında hazırlanmışdır. Onların səthi sığallanıb, bəzi hallarda isə zəif cilalanmış, son tunc - ilk dəmir dövrünün naxışlama üslubuna uyğun olaraq çərtmələrlə, kəsmə - kanalvari və dalğavari xətlərlə, cilalama yolu ilə bəzədilmişdir. Bütövlükdə, Hacıvəlilər nekropolunun saxsı məmulatının naxış motivləri çox da zəngin deyildir.

Küpələr tünd boz rəngli olub qabarıq və uzunsov gövdəlidirlər (I tablo, şəkil6-7). Əldə edilən nümunələrdən birinin çiyin hissəsində iki qulpu vardır. Həmin qulplarla eyni səviyyədə qabı iki paralel kəsmə xətt əhatələyir. Xəttlərin arasındakı sahədə bir dalğalı xətt çəkilmişdir (I tablo, şəkil 6).

İri həcmli küpələrdən fərqli olaraq kiçik ölçülü küpələr əsasən tünd boz rəngdədirlər. Onların gövdəsi bir qayda olaraq bikonik formalıdır. Silindrik boğazlı bu küpələrin ağız kənarı köbəli olub, azacıq xaricə meyllidir. Onların çiyin hissəsini qoşa kəsmə əhatələyir. Oturacaqları yastıdır (I tablo, şəkill-4). Belə küpələr Zəyəmçay nekropolunun qazıntıları zamanı da aşkar edilmişdir. Dopular tünd rəngli olub qalın və düz oturacağa malikdirlər. Onların ağız kənarı azacıq köbəli olub xaricə meyllidir. Zəyəmçay nekropolunda olduğu kimi Hacıvəlilərdən əldə edilmiş dopuların heç biri naxışlanmamışdır (I tablo, şəkil 5).

Bəzək əşyaları içərisində müxtəlif növ muncuqlar sayca üstünlük təşkil edir. Bunlar qırmızı əqiqdən ikitərəfli deşmə üsulu ilə hazırlanmış şar formalı, çəlləkvari, uzunsov, diskşəkilli muncuqlar (II tablo, şəkil 1, 2), ağ pasta və kauri (qamıyarıq) muncuqlardır (II tablo şəkil 1, 3, 6). Muncuqlardan biri yastı-düzbucaqlı formalıdır. Tünd boz rəngli bu muncuğun yan tərəfdən üç ədəd deşiyi vardır. Onun yalnız bir səthi kəsmə üsulu ilə çəkilmiş kiçik dairələrlə və onların arasından keçən xətlərlə naxışlanmışdır (II tablo, şəkil 6). Digər bəzək əşyaları tuncdan hazırlanmış qolbaqlar, üzüklər, müxtəlif tipli asmalar, sancaqlar və s. ibarətdir. Onlar dairəvi kəsikli tunc məftildən və yastı tunc lövhələrdən hazırlanmışdır (III-IV tablolar). Abidədən tapılmış bəzək əşyalarının analoqları Hacıvəlilərlə həmdövr Mingəçevir (7, tablo XVII-XXI), Gədəbəy (4, tablo 58, 60 və s.), Daşkəsən (10, tablo 16), Qarabağ (1, tablo 60, 83), abidələrindən, o cümlədən Şəmkir (8, şəkil 16) və Zəyəmçay nekropollarından və s. abidələrindən məlumdur.

Kauri tipli muncuqların vətəni Hind okeanı və Qırmızı dəniz hesab edilir (9; s. 60). Hacıvəlilərdən tapılmış belə muncuqlar bölgənin qədim əhalisinin Yaxın Şərq və Cənubi Asiya ölkələri ilə iqtisadi-ticarət əlaqələrinin olduğunu sübut edir. Tapılan materiallardan biri möhür kimi istifadə edilmiş əşyadır. Üstü rombvari naxışlarla bəzədilmiş bu möhürün yastı, işlək üzündə hansısa təsvir olmuşdur. Lakin təsvir çox pis saxlandığından onun məzmunu barədə dəqiq fikir söyləmək mümkün deyil (II tablo, şəkil 7). Silahlar tuncdan hazırlanmış

xəncərlər, nizə ucluqları, ox ucluqları, bıçaqlar ilə təmsil olunmuşdur. Xəncərlərin (V tablo, şəkil 1-4) ölçüləri çox da böyük deyildir. Onlardan bəzilərinin dəstəyinin sonluğuna şəbəkəli - kəsməli başlıqlar keçirilmişdir. Tiyənin dəstəklə birləşdiyi hissədə bərkitmək məqsədilə vurulan mıxçalar üçün deşiklər vardır.

Bundan əlavə, tiyənin ağac dəstəyə keçirilən arxa hissəsinin sonluğundakı deşikdən kiçik mismar keçirilmişdir. Digər bir ədəd kiçik xəncərin də dəstəyə bərkidilməsi üçün belə üsuldan istifadə edilmişdir (V tablo, şəkil 2). Xəncərlər bir-birindən ölçülərinə və çiyin hissənin forması baxımından fərqlənir. Bəzi xəncərlərdə çiyin düz, digərlərində isə mailidir. Ox ucları uzun saplaqlı, yarpaq formalı, sallaq qanadlıdır (V tablo, şəkil 5).

Bir ədəd nizə ucluğu aşkar edilmişdir. Yarpaqşəkilli bu nizə ucluğunun ağaca birləşən arxa hissəsi boruvaridir. Bu nizə ucluğu son tunc - ilk dəmir dövrü analoji silahlarından bir qədər kiçik ölçülüdür. Onun uzunluğu 12,5 sm-dir (V tablo, şəkil 8). Hacıvəlilərdən tapılmış silah nümunələrinin analoqlarına Xocalı-Gədəbəy mədəniyyətinin digər abidələrində, Gədəbəydə (4, tablo 31, 51, 54, 63), Daşkəsən abidələrində (10, tablo 17), Mingəçevirdə (7, tablo XIV-XV), Qarabağ (1, tablo 97), Gəncəçay (5, tablo 14, 16), Zəyəmçay və Şəmkirçay hövzələrində (6, tablo XI, XXII), Zəyəmçay nekropolunda (3, tablo VI) və s. abidələrdə rast gəlinmişdir. Aşkar edilmiş arxeoloji materiallar içərisində tuncdan hazırlanmış bir neçə kəsici alət diqqəti cəlb edir. Onların bir sonluğu ağac dəstəyə bərkidilmək üçün saplağa malikdir. Həmin saplağın ortasında mismar keçirilməsi üçün deşik vardır. Alətin digər sonluğu haçaşəkilli tamamlanır. Hər iki tərəfi və haçaşəkilli sonluğu kəsicidir. Ortası hər iki üzdən qabarıqdır. Onların maksimum uzunluğu 13,5 sm, eni 4 sm-ə qədərdir (V tablo, şəkil 6-7).

Belə alətlər Gəncəçay hövzəsində, Gədəbəydə, Qarabulaq nekropolunda (Füzuli rayonu), Qarabağın dağlıq hissəsində (5, s.91, tablo 1), Mingəçevirdə (7, tablo XII) aşkar edilmişdir. Onların təyinatı, hansı məqsədlə istifadə edilməsi barədə elmi ədəbiyyatda yekdil fikir yoxdur. İ.Nərimanov belə alətləri bıçaq hesab edir (5, şəkil 91). Onların xəzdərili heyvanların ovlanmasında istifadə edilməsi, ov zamanı xəzin çox zədələnməməsi üçün bu alətlərin sonluğunun iti hazırlanmaması kimi fikirlər (7, s. 77) heç bir halda özünü doğrultmur. Q.Aslanov, R.Bahidov və Q.İonenin fikrincə, bunlar yüngül doğrayıcı alətlərdir (7, s. 77). Sonuncu fikir həqiqətə daha yaxın olsa da, bu əşyaların əmək aləti və ya silah növü olması, onların iş prinsipi barədə indi qəti fikir söyləmək çətindir.

Diqqəti cəlb cdən tapıntılardan biri tuncdan hazırlanmış diskşəkilli əşyadır (IV tablo. şəkil 9). Onun diametri 7,5 sm-dir. Tökmə üsulu ilə hazırlanmış bu diskin yalnız bir üzündə müxtəlif naxışlar və mərkəzdə ilgək vardır. Bütün naxışlar qabarma şəklindədir. Onlar üç ədəd konsentrik çevrələr və onların arasındakı müxtəlif təsvirlərdən ibarətdir. Birinci və ikinci çevrələr arasında sahəni 23 ədəd düzbucaqlı doldurmuşdur. Hər bir düzbucaqlının ortasında bir nöqtə vardır. İkinci və üçüncü çevrələri 9 ədəd üçbucaqlar birləşdirir. Diskin bu təsvirləri ümumilikdə günəşin simvolunu xatırladır. Buradakı təsvirlərin ibtidai

təqvimlərlə bağlı olması istisna deyil. Bu əşyanın özü isə çox ehtimal ki, at bəzəyidir.

Haqqında bəhs edilən bu diskşəkilli əşyanın ən yaxın analoqu şimal-şərqi Qafqazın IV-V əsrlərə - hun dövrünə aid kurqanlardan birində aşkar edilməsidir (6a. s.178, şəkil 59.N°2). Həmin kurqandan tapılmış diskşəkilli tunc əşya ümumi xüsusiyyətləri ilə Hacıvəlilər diski ilə eyniyyət təşkil edir. Onun üzərində üç konsentrik dairə çəkilmiş və ortasında ilgək düzəldilmişdir. Onun da birinci və ikinci çevrələri arasındakı sahədə 23 ədəd düzbucaqlı vardır. Lakin həmin diskin ikinci və üçüncü çevrələri arasındakı sahə boşdur. Hacıvəlilər diski yerüstü aşkar edildiyindən, onun hansı dövr qəbrinə aid edildiyini söyləmək çətindir. Ola bilsin ki, bu disk də antik və ya ilk orta əsrlər dövrünə aiddir.

Əldə edilən bütün tunc məmulatının demək olar ki, hamısının saxlanma səviyyəsi qənaətbəxşdir.

Nekropoldan tapılmış materialların bir qrupunu məişət əşyaları təşkil edir. Bunlar daşdan hazırlanmış iy başlıqları (VI tablo, şəkil 1-2), tuncdan hazırlanmış sancaq (VI tablo, şəkil 3), bizlər (VI tablo, şəkil 4-5) və iynədir (VI tablo, şəkil 7). Bizlər dördüzlü düzəldilmişdir. İynə dairəvi kəsikli, sancaq bir qədər yastı məftildən hazırlanmışdır. Sancağın baş tərəfində ilgək düzəldilmişdir. Məişət əşyalarının ən yaxın paralelləri Xocalı-Gədəbəy mədəniyyəti abidələrində geniş təmsil olunmuşdur.

Göründüyü kimi Hacıvəlilər nekropolu Azərbaycanın e.ə. II minilliyin sonu - I minilliyin əvvəlinə aid ən zəngin abidələrdən biridir. Burada eyni zamanda sonrakı dövrlərin qəbirləri vardır. Abidənin müntəzəm şəkildə dağıntılara məruz qaldığını nəzərə alaraq orada tez bir zamanda arxeoloji qazıntıların aparılması olduqca vacibdir. Məhz arxeoloji qazıntılar nəticəsində Hacıvəlilər nekropolundan Azərbaycanın qədim dövr tarixinin bir sıra mühüm məsələlərinin öyrənilməsi üçün çoxsaylı, dəyərli materiallar əldə etmək mümkündür.

## ƏDƏBİYYAT


1. Cəfərov H.F. Azərbaycan e.ə. IV min. axırı -I min. əvvəllərində. Bakı - 2000.
2. Müseyibli N.Ə. Zəyəmçay nekropolunda arxeoloji qazıntılar. Azərbaycan arxeologiyası və etnoqrafiyası. № 2. Bakı - 2004.
3. Müseyibli N.Ə. Hacıvəlilər nekropolu. 2003-2004-cü illərdə aparılmış arxeoloji və etnoqrafik tədqiqatların yekunlarına həsr olunmuş elmi sessiyanın materialları. Bakı - 2005.
4. Nagel V., Ştrommenger Y. Qalakənd. Bakı - 1999.
5. Nərimanov İ. Gəncəçay rayonunun arxeoloji abidələri. Bakı - 1958.
6. Xəlilov C.Ə. Qərbi Azərbaycanın tunc dövrü və dəmir dövrünün əvvəllərinə aid arxeoloji abidələri (Şamxor və Zəyəm çayları hövzələri). Bakı - 1959.
6a. Абрамова М.П. Курганные могильники Северного Кавказа первых веков нашей эры. Северный Кавказ и мир кочевников в раннем железном веке. Москва-2007.
7. Асланов Г.М., Ваидов Р.М., Ионе Г.М. Древний Мингечаур. Баку - 1959.
8. Асланов Г.Г. Шамхорский могильник. Баку- 1986.
9. Джафаров Г.Ф. Связи Азербайджана со странами Передней Азии в эпоху поздней бронзы и раннего железа. Баку - 1984.
10. Кесаманлы Г.П. Археолгические памятники эпохи бронзы и раннего железа Дашкесанского района. Баку - 1999.


0 1 2 3
1
0 1 2 3
2
0 1 2 3
3
0 1 2 3
4
5
0 3 6 9
6
7
0 3 6 9


1
2
0 1 2 3
3
0 1 2 3
4
0 1 2 3
5
6
0 1 2 3
7
0 1 2 3
0 1 2 3


0 1 2 3
1
2
3
4
5
0 1 2 3
6
7
8
0 1 2 3
9
10
11
12
13
14
15
0 1 2 3


1
2
3
0 1 2 3
4
5
6
7
8
9
0 1 2 3


1
2
3
4
0 1 2 3
0 1 2 3
5
6
7
8
0 1 2 3
0 1 2 3


1
0 1 2 3
2
0 1 2 3
3
4
0 1 2 3
5
6
7
0 1 2 3

**М.А.ГУСЕИНОВА**
**И.Н.АЛИЕВ**

## *Среднебронзовые курганы с. Гараджамирли Шамкирского района Азербайджана*

В сентябре - октябре 1989 года Шамхорским отрядом Гянджа-Казахской экспедиции проводились археологические раскопки близ с. Гараджамирли. Вдоль южного берега Куры в междуречье Шамкирчая и Гянджачая было обнаружено несколько курганов. Ранее здесь были исследованы три кургана, два из которых раскопаны Г.М.Аслановым и один Ф.Аббасовой. Территория расположения курганов была сильно потревожена землеройными работами, и фактически выявление новых памятников представляло большие трудности. Однако при осмотре этой территории в 1989 году удалось выявить следы срытой каменной насыпи курганов и начать их исследование.

Было раскопано три кургана. Учитывая однородность материальной культуры и хронологические рамки этих курганов, считаем целесообразным дать их нумерацию, соответственно обозначив курганы №1,2 (раскопки Г.М.Асланова), №3 (раскопки Ф.Аббасовой) и №№ 4,5,6 - исследованные нами.

Курган №4 имел прямоугольную камеру (6,5х3,1х1,3м), ориентированную по СЗ-ЮВ. Раскопки кургана №4 начаты с разбора плотного каменного навала, очертания которого по мере углубления расширялись и имели овальную форму длиною 8, шириною 4 м.

На глубине 0,3-0,4 м в каменной насыпи у северного ее края обнаружен сильно разрушенный череп человека с зеленоватым налетом на костях. Там же обнаружены прогнившие куски вертикально установленного бревна, наблюдаемого до глубины 0,8 м от верха насыпи. Они обнаружены в средней части продольной северовосточной стены.

Судя по скопившейся на дне камеры земле до 0,5-0,7 м вокруг и внутри сосудов, по высоте обвалившейся у стены земли, можно говорить о том, что настил из бревен держал насыпь довольно долго.

Прямоугольная большая камера (6,50х3,10 м) была вырыта в плотном глинистом грунте. Глубина ее 2 м от края ямы. Стены обмазаны с помощью пучка веток, оставляющих грубый царапающий след. В некоторых местах глина сглажена очень тщательно и гладко. Поверх такой обмазки сделана побелка, сохранившаяся очень хорошо по закругленным нижним углам. В верхних частях эта обмазка обвалилась и лежала на земле. На высоте 1,3 м от дна, в продольных стенах камеры видны места с мелкой сыпучей землей, заполнившей пустые места от сгнивших бревен (диам. 25-30 см). В каждой из продольных стен их семь. На них, очевидно, было установлено покрытие, державшее тяжелую насыпь. Северо-западная треть камеры имела небольшое возвышение в виде ложа, на котором лежали

костяки двух погребенных, ориентированных головой на северо-запад с сильно скорченными накрест ногами. Кости их лежали одни на других с небольшим смещением верхнего скелета вправо. Около черепов лежали заколки для волос. Отсутствие зубов мудрости говорит о юном возрасте погребенных. Бусы лежали у ног погребенных вокруг сосудов, установленных в ряд у нижнего края ложа, что позволяет думать, что они были захоронены сидячими. Часть бус обнаружена между ребрами. Костяк левого захоронения частично покрывал костяк барана, лежащего за его спиной, и это обстоятельство также в пользу сидячего положения захороненных. Украшения волос — бронзовые заколки были над головой второго погребенного примерно в 0,5 м в средней части стены камеры. Между черепами погребенных найдены налобная лента из серебра, небольшая подвеска и пластинчатые фрагменты из того же металла. За костяками вдоль стены стояли сосуды. Маленький сосуд над головой второго погребенного лежал опрокинутым. В западном углу камеры лежали костяки трех баранов.

Остальные две трети камеры были заставлены сосудами (тт. I, 1-13; II, 1-5; III, 1-14;IV, 1-41), особенно плотно вдоль продольных стен средней части. По их снятии были обнаружены следы шести кострищ на дне камеры, пепел и угли которых были равномерно рассеяны по дну этой части камеры. На месте кострища у ложа ближе к средней части юго-западной продольной стены были обнаружены бронзовые пластинки, лежавшие большим овалом. Пластинки свернуты в 2,5 оборота в виде прямоугольников и треугольников. Лежали они на расстоянии примерно 3-5 см друг от друга, имели по две бусины у краев и были как бы нанизаны на два ремешка. Около сосуда № 21 у кострища (4) найдены две бронзовые пряжки в виде трубок. На кострище в средней части камеры ближе к юго-восточной стене найдены берцовая кость крупного животного, рядом у кострища череп кабана. На кострище (6) в углублении средней части северо-восточной продольной стенки стояла курильница.

Юго-восточная треть камеры в средней части не имела сосудов. Два крупных сосуда стояли по углам. Сосуд в восточном углу с изображением козлов был наполнен пеплом с запахом камфоры. Между сосудами симметрично уложены черепа двух лошадей. Всего в кургане № 4 обнаружен 41 сосуд.

Примерно в 100 м к Ю-З от кургана № 4 находился курган № 5. Поверхность кургана выделяется скоплением плотно утрамбованных камней и обожженной красноватой землей между ними. Диаметр навала примерно 4 м.

Курган №5. Камера прямоугольной формы (7,1х3,1х1,3), ориентирована по оси З-В. Перекрытие камеры, судя по остаткам дерева, частью обуглившихся, частью истлевших, состояла из 7 бревен. В западной трети камера стены и часть северной, раскалены до красна с самого верха ямы. Здесь наибольшее скопление угля, пепла. В западной ее части северной

продольной стены сохранились следы обгоревших концов 3-х бревен. Следы сгоревшего и обвалившегося клипом бревна сохранились и в западной поперечной стене. Очевидно, кострище было разведено в западной его части настила.

В продольных стенах камеры наблюдаются отверстия 7 бревен на уровне 1,30 м от дна. 4 бревна покрытия огню подвержены не были, они не обрушились с самого начала и сохранили настил. Стены камеры грубо обмазаны и затерты царапающим предметом, поверх побелены. На побелке роспись красной охрой, мелкий рисунок которой неопределим. Такая обработка стен хорошо сохранилась по округлым (нижним) углам и в центре северной стены в углублении за алтарем.

Сосуды и весь инвентарь занимали большую половину восточной части камеры; только три небольшие миски лежали на западной возвышающейся части ложа, длина которого 3,10 м, ширина также 3,10 м, высота 0,60 м.

В центре камеры находился разбитый сосуд с фигурками птичек на высоте примерно 30 см выше уровня дна. Очевидно, что он находился на настиле и рухнул позже вместе с ним, когда слой земли в камере уже покрывал остальные сосуды. Одна из птичек была на дне в сгоревшей части камеры у края ложа, фрагмент другой был найден в верхних слоях насыпи в юго-восточном углу камеры.

Остальные сосуды стояли на дне камеры. В средней части в углублении стены находился глиняный алтарь в виде усеченной пирамиды на овальном выступающем основании. Он был изготовлен из плохо обожженной глины и потому сильно разрушен. Поверхность его украшена пересекающимися линиями и рисунками колес. Перед ним находился сосуд в форме дольки ореха. Другой алтарь в форме конуса был обнаружен восточнее также у северной стены. Между алтарями лежали три миски одна в другой, два сосуда с поддонами, костяк лошади без черепа и череп кабана. Один из сосудов с поддоном художественного изготовления имеет на поверхности рельефные налепы в виде шпалок. Поверхность его отличается антрацитовым блеском.

На дне камеры в том положении, как они использовались при запряжке, уложены бронзовые детали колесницы - пара удил с двумя рогатковидными предметами - уключинами для пропускания ремней управления при каждом из них. Роговидные концы уключин сходятся в разных плоскостях. Между ними как бы на дышле колесницы - бронзовое колесо с колокольчиком в виде фигурки оленя, предмет в виде плоского полудиска с плоской рукояткой и орнаментом на плоскостях. Он лежал горизонтально на краю миски и мог сохранить такое неуравновешенное положение, только имея длинное древко.

Предметы запряжки, костяк лошади, изображение колес на алтаре и полудиске, модель колеса с колокольчиком завершаются еще одним свидетельством существования колесницы - изображением колес и всей

колесницы на сосуде № 4, стоявшем на краю ложа у северной стены. Он украшен орнаментом в два фриза. На верхнем фризе - четыре больших колесницы, запряженные оленем, на нижнем фризе - свастика, лошадь, меандры, крюки. Около этого сосуда кроме бус найдены две бронзовые пряжки из полых трубочек, таких же, как в кургане № 4. Аналогичные им найдены в ургане Лори-Берда (3,табл., VIII, 20, 22).

Всего в кургане № 5 обнаружен 31 сосуд (тт. V, 1 -4; VI, 1 -6; VII, 1-11; VIII, 1-12; IX, 1-22).

Керамика чрезвычайно совершенна и представлена наряду с привычными, также редко встречающимися формами. Из обычных форм многочисленны миски, небольшие кувшины с округлым туловом и широким горлом, крупные кувшины с широким горлом и яйцевидным туловом, большие шаровидные кувшины с коротким горлом. Из редких форм достаточно широко представлены курильницы, сосуды в форме дольки ореха, чаши с высокими поддонами. Совершенно оригинальными являются алтари, сосуды с фигурками птиц, подставка-мангал, овальный глиняный котел с имитацией бронзовых заклепок.

По характеру весь керамический материал разделяется на две группы: на керамику с черноокрашенной поверхностью и желто-серую керамику. Вся керамика изготовлена от руки.

Черноокрашенная керамика большей частью имеет хорошо обожженный черепок, тонкоотмученную глину с небольшими римесями. В изломе черепок серый. Керамика с желто-серым черепком имеет глину грубую с крупными примесями, плохо обожжена. Сосуды крошатся в изломах. Горшки имеют на тулове полосы гребенчатым предметом, как бы зачесанную поверхность, по плечикам косые ногтевые насечки. Из этой же глины изготовлены подставка - мангал и овальный котел.

Черноокрашенная керамика богато орнаментирована, причем орнаменты по мотивам, стилю, технике изготовления и размещению однообразны независимо от форм сосудов. Мотивы орнаментов - зигзаги, меандры, полосы, углы, волнистые линии, крюки, шевроны, роговидные уключины, свастика, древо жизни, кольцевые штампы и др. Крюки, уключины и шевроны - это виды орнамента, которые в период поздней бронзы не встречаются, а характеризуют керамику средней бронзы. Исключение составляет сосуд из кургана 5/12 на правом берегу Гянджачая [14; 7, табл. II, 11], относящийся к переходному периоду от средней к поздней бронзе. Примечательно появление изображений животных — козлов, оленей, лошади. По стилю эти изображения статичны, стилизованы с чертами натуралистично сти.

Рисунки выполнены зубчатым инструментом, оставляющим ряды одинаковых в каждом ряду оттисков. Число рядов от двух до четырех. Судя по оттискам, это палочка с зубьями (гребенка), что видно по исполнению зигзаговых изгибов. На некоторых сосудах оттиски затерты белой пастой. Размещены рисунки только на плечиках ниже горловины в один-три ряда и

охватывают также широкую часть корпуса. Рисунки животных изображены в профиль и обращены вправо.

На корпусе некоторых крупных сосудов имеются рельефные валики по широкой части тулова или на плечиках. Ручки и налсиы в виде шпалок на сосудах единичны. Широко представлены налепы в виде стаканчиков и втулок, приспособленных для скульптурных фигурок птиц. Характерные черты сосудов - это строгая форма, лощение по черной поверхности, контраст белой пасты, богатый орнаментальный убор в виде фризов.

Необходимо особо остановиться на редких формах. В первую очередь - это большие кувшины с тремя или четырьмя рожками — налетами отдельно изготовленных стаканчиков, установленных на плечике и соединенных с корпусом отверстием. Скорее эти сосуды использовались для воскурения ароматических веществ или смешивания жидкостей во время исполнения ритуалов. Вообще следы горения обнаруживаются и на других таких сосудах. Интересны два сосуда с полыми конической формы поддонами и одинаковой формой корпуса в виде чаши. Один из них великолепного лощения имеет по корпусу рельефные налепы в виде шпалок и напоминает сосуды из курганов № 1 и № 2 Ханлара [5, 6], № 2 Ходжалы [12]. Другой сосуд имеет матовую черную поверхность и круглую ручку. Оба сосуда декорированы зубчатым орнаментом без пасты. Редкие сосуды в форме дольки грецкого ореха удревляют курган до времени средней бронзы. Такой формы сосуд найден в Кызыл-Ванке [13], но с расписной поверхностью. Обнаружены они также в Лори-Берде [3, табл. XI, 3,4,5,6]. Орнаментация сосуда крюками архаична и в позднюю бронзу уже не встречается. Не имеют себе аналогий два алтаря - пирамидальной и конической формы. Оба суживаются кверху, имеют круглое массивное основание. Оба оригинально орнаментированы и очевидно, связаны с огненным ритуалом.

Алтарь с пирамидальным корпусом находился в средней части северной продольной стены, которая в этом месте заглублена, имеет треугольные отверстия в корпусе и поддувало. Поверхность конического алтаря сильно разрушена, но видно изображение человека, оленя, лука и стрелы. В обоих обнаруживаются остатки пепла. Таким образом, в керамическом комплексе курганов № 4 и № 5 Гараджамирли выявляются две разнородные керамические группы с характерными формами, орнаментами, глиной, обработкой поверхности.

Об особенностях немногочисленной серо-желтой керамики говорилось выше. Керамика же с черной лощеной поверхностью богато украшена и заслуживает того, чтобы особо остановиться на ее орнаментации.

По нашим наблюдениям черная поверхность этих сосудов не результат задымления, как считали прежде, а получалась, очевидно, за счет

нанесения черной краски, что видно по отекам на внутренних краях венчика.

Орнаменты черноокрашенной лощеной керамики расположены на верхней половине корпуса в несколько фризов - стилизованные рисунки животных, геометрические фигуры, космические знаки. Рисунки животных - козлов, оленей, лошади выполнены статично, корпус пририсован лаконично рядом полос. Выражены такие особенности, как хвост, колени, копыта, морда, подчеркнутой пропорцией исполнены рога. Рисунок тела лошади исполнен в Другой манере - тело его пририсовано в виде треугольных фигур. Мотивы и стиль орнаментов связывают эту керамику с позднебронзовой керамикой Гянджачайской зоны. Исключение составляют только крюки и шевроны.

К раннему времени относится такая черта орнаментов, как техника нанесения рисунка. Рисунки исполнены зубчатым предметом в несколько рядов зубьев. По нашим наблюдениям это не зубчатый колесик, как считалось прежде. Это зубчатый штамп в виде маленькой гребенки с двумя-четырьмя зубчиками, оставляющими оттиски линий разных форм. Углубления от зубчиков в некоторых случаях заполнены пастой.

Таким образом, размещение, стиль, набор мотивов, использование пасты позволяют эту керамику хронологически связывать с последующей позднебропзовой, и, учитывая отличия от последней в некоторых архаичных орнаментах и способы орнаментации, считать се более ранней, чем позднебронзовая и последующей среднебронзовой развитого этапа. Таким образом, по характеру эта керамика может быть отнесена к позднему этапу средней бронзы. Бронзовый инвентарь курганов своеобразен. Из бронзы изготовлены предметы украшения в виде проволок и поясных пластин, а также детали колесничной запряжки.

Это парные пряжки из бронзовых полых трубочек, скованных по краям пластинами, четыре массивных четырехгранных кольца с заходящими в разных плоскостях утонченными роговидными концами, посаженные на плоские четырехгранные стержневидные основания с отверстиями для закрепления в деревянной основе. Такие предметы изображены в запряжках XV в. до н. э. [2, табл. 1,6]. Далее, крупное украшение, представляющее собой четырехгранный обруч с противоположно расположенными отверстиями для спиц, закрепленных гвоздиками. В центре пересечения спиц круглая пластинка. Обруч имеет якоревидное основание для подвижного положения в деревянной основе и украшен сверху крупной полной фигуркой оленя, служавшей колокольчиком. Основание фигурки оленя устроено подвижно так, что фигурка вращалась при движении. Тот факт, что фигурка оленя исполнена с хомутом на шее, свидетельствует о том, что запряжка оленя в колесницу не символическое изображение, а реальность. По древним индийским мифам [13а] известно, что оленя запрягали в колесницу. Это говорит о восточном пути проникновения таких колесниц и вместе с андроновского типа керамикой

указывает на проникновение этого явления из Южной Сибири. О том же говорит и изображение лошади под рисунком оленя. Для Южной Сибири было характерно слияние образов оленя и лошади, как это наблюдалось па каменных стелах, а позже в Пазырыкских курганах [10; 18, 8; 9].

Две пары удил из кургана № 5 изготовлены из сложенного вдвое и скованного пучка медной проволки. Видимо, также к колесничному убору относится плоское украшение в виде полудиска с плоской рукояткой. На обеих плоскостях имеются украшения в виде дисков и орнаментированных полос. Оно имело длинное древко.

Из металлических предметов следует также указать на обнаруженные налобную ленту, дисковидную маленькую привеску с ушком и неопределенной формы обломки пластинчатого украшения из неопределенного металла с фиолетовой патиной. Из стекла и пасты изготовлены бусины зеленого и синего цвета. Они круглой и продолговатой, несколько расширенной в средней части формы. Есть бусины из стеклянных жгутов, фрагмент пастовой цилиндрической бусины - печати (?), глазчатые бусины. Изделия из камня представлены в виде трубчатой формы бусин и плоских отполированных привесок. Одна каплевидной формы, изготовлена из талька (?) и оставляет пишущий след. В обоих курганах значительны костные остатки. Они найдены в виде целых костяков, отдельно уложенных черепов, что связано с культом этих животных (лошади, кабана, барана), а также разрозненно в виде пищи внутри и на кострищах. Курган № 6 расположен примерно в 500 м к юго-западу от кургана №5.

Поверхность каменного скопления неровная, бугристая. Среди камней обнаружено множество средневековой керамики, в том числе с зеленой глазурью, фрагмент стеклянного витого браслета. Это внушало недоверие к предположению о принадлежности каменного навала диаметром до 5 м среднебронзовому кургану. Диаметр насыпи кургана на этом уровне составляет около 7-8 м. В верхних слоях насыпи, внутри кургана вперемешку с камнями обнаруживались фрагменты верхних частей сосудов и было очевидно, что средняя часть камеры кургана была разрыта. Здесь на уровне 0,8-0,85 м от края камеры среди камней найдены трубчатые кости, человеческого костяка очень плохой сохранности. Здесь же кусочки угля, земля, смешанная с пеплом. Вдоль южной стенки в средней части найдено обуглившееся поленце, под ним черепные кости крупного животного верблюда (?) и лопаточная кость, рядом две бусины - красная сердоликовая (коралл?) шаровидная и плоская из раковины.

Восточная часть камеры обставлена сосудами вдоль северной и южной стенки, которые относительно хорошо сохранились и были обильно посыпаны красной охрой, а также середине и в средней части восточной поперечной (тт. X, 1-9; XI, 1-11; XIII, 1-13). Из 22 сосудов, найденных в погребении, примечательны оригинально орнаментированная крупная чернолощеная маслобойка и сосуд с утолщенным дном, сквозь который

проходят два продольных отверстия для подвешивания. Необычен низкий сосуд с вертикальной ручкой на крае венчика. На уровне дна сосудов обнаружены маленькие фигурки птиц-уток, гусей (лебедей?), а также собак (лисиц?). Фигурки окрашены в красный цвет. Фрагмент одной птички найден внутри сосуда. На плоском крае маленьких кувшинов обнаружены отверстия, в которые очевидно вставлялись фигурки птиц и животных, насаженные на деревянные черешки. Один из сосудов, также крашеный, с красно-малиновой росписью, к сожалению, в мелких обломках.

Камера была длиной 5,60 м, шириной 2,60 м, глубиной 1,40-1,70 м. Ориентирована по длинной оси - восток-запад. Вдоль продольных стен на высоте 0,70-0,80 см от дна в восточной части были найдены по два с каждой стороны отверстия от сгнивших бревен перекрытия, однако, они расположены не напротив друг-друга, а наискосок. Погребальная яма со всеми характерными особенностями имеет общие черты для изученных нами погребальных памятников этого могильника. Однако керамика отличается, во-первых, использованием кольцевых и сетчатых штампов. Поверхность некоторых сосудов имеет антрацитовый или металлический блеск, как на сосудах со штампованной орнаментацией, связываемой с керамикой Нузи, Алалахи и Трои, датируемых XVI-XV вв. до н. э. [15, с.94-96].

В керамическом комплексе имеется крашеный сосуд и красноокрашенные фигурки животных. Кроме известных форм, найдены новые - маслобойка (впервые для погребальных памятников этого времени), треножные миски, кувшинчики. Треножные сосуды найдены в сходных памятниках Шеки и датированы XVI в. до н. э. [1]. Возможно, часть особенностей связана с социально-имущественным различием захороненных, но обильное посыпание сосудов охрой, крашеные керамические изделия могут объясняться хронологическим фактором. Эти особенности не характерны для прежде изученных здесь памятников и встречаются в комплексах, датированных более ранним временем.

Таким образом, курган № 6 относится к исследованной группе памятников с. Гараджамирли, но хронологически более древний. Он может датироваться XVI в. до н. э., тогда курганы как № 4 и № 5 датируются XVI-XV вв. до н. э. Погребальные памятники Гараджамирлинского могильника, восполняя пробел в изучении памятников средней бронзы, позволяют связать в генетически связанные звенья погребальные памятники эпохи бронзы Западного Азербайджана, утверждая преемственность культуры этой области в эпоху бронзы. Эти курганы составляют генетическое звено между погребальными памятниками предшествующего времени (курганы Османбозу там же в Шамкирском районе), и последующего позднебронзового периода, известными в зоне Гянджачая. Промежуточное их положение в кругу этих памятников определяется рядом характерных черт.

Курганы Гараджамирли по форме погребальной конструкции и обряду - большая прямоугольная грунтовая яма, бревенчатый накат, огненный ритуал с каменным завалом, каменная насыпь шапки кургана, использование охры - и другим чертам продолжают традиции предшествующей культуры.

Использование белой пасты на черных сосудах, размещение и мотивы орнаментов керамики, бревенчатый накат ямы, окрашивание ее стен, огненный ритуал с каменным завалом гробницы сохраняются в погребальных памятниках долины Гянджачая в позднебронзовую эпоху.

Мотивы, способ орнаментации и формы сосудов возводят курганы Гараджамирли в круг¯ памятников узерликтепинского типа (средняя бронза). Появление пасты и некоторых мотивов гянджачайской позднебронзовой орнаментации (изображение козлов, например, деталей орнаментального поля и др.) позволяет определить хронологическое место этих курганов на рубеже средней и поздней бронзы (XVI-XV вв. до н.э.). Датирующим фактором может считаться и орнамент в виде шевронов [табл. 1.2; 20] и висячих крюков, [табл. I, 3; 16, 18, 19, 20, 22, 30], имеющихся на сосуде в виде дольки ореховой скорлупы. Этот орнамент сосуда никак не вписываются в эпоху поздней бронзы и старше XV в. до н. э. К числу древних относится и орнамент в виде висячих уключин.[т.29]

Обнаруженные в погребениях материалы позволяют говорить о раннем использовании лошади и колесницы на территории Азербайджана, что является свидетельством специализированного полукочевого скотоводства, высокого уровня ремесла, техники, искусства и идеологии.

Вопросы хозяйства и занятий древнего населения освещаются многими чертами этих памятников. Металлообработка и высоко-художественные изделия, предметы колесничного убора свидетельствуют о высоком уровне производства, о развитых формах хозяйства. Обнаружение костяков мелкого рогатого скота, коней, колесницы говорит о развитом отгонном скотоводстве, отражающем, в конечном счете, уровень развития общественного уклада. Отгонное скотоводство отражает эпоху специализации племен на отдельных видах хозяйства. Использование лошади в таком хозяйстве как гарант его подвижности свидетельствует о развитой форме скотоводства.

Многочисленность керамики, ее габариты, однако, говорит о том, что эти подвижные по характеру племена не были кочевыми. Эти племена были полукочевыми, обитавшими, видимо, в ареале, близком к этим зимним пастбищам в долине Куры. Летними откочевками могли быть ближайшие предгорья Малого Кавказа. Результаты спектрального анализа бронзовых предметов [17] из курганов показали, что только 5 из 15 исследованных изделий могут быть продукцией местного производства. В составе металла этих изделий обнаружено золото, что характерно для руды из Кедабекского рудника. Это заколка, фигурка оленя, две уключин, навершие в виде полудиска. Остальные предметы могут быть привозными,

поскольку в составе имеют олово, привозимое извне. Очевидно, привозными являются пряжка и сережка, изготовленные из чистой меди, по чистоте, не уступающей получаемой методом электролиза в современных условиях [7,52], что свидетельствует о принадлежности предметов обществу, владеющему высокими технологиями производства меди. Это самые древние такие удила на Кавказе, свидетельствующие о раннем использовании лошади в запряжке (XVI-XV вв. до н. э.).

Керамические изделия выполнены без гончарного круга. Они совершенны и изысканны по форме. Наблюдается совершенный технический уровень обжига. Черепок прочный, хорошо и ровно обожженный. Глиняное тесто хорошо отмучено, добавки песка соответствуют уровню хорошего качества черепка для водоустойчивости и отсутствия флюсов. Высока техника обработки поверхности сосудов. Они лощены до блеска и обработаны черной краской снаружи. Эта прежде неизвестная, технически совершенная высокохудожественная керамика указывает на высокий уровень гончарства в эпохи средней бронзы.

Изделия, являющиеся частями двуупряжной колесницы, изображения колесницы и колес на сосудах, модель колеса в составе предмета, завершающегося фигуркой оленя с хомутом на шее - это свидетельства самого раннего использования колесницы на территории Азербайджана. В области технического развития эта находка предполагает высокий уровень обработки дерева, кожи, металла. Использование колесницы предполагает развитие коневодства и тренинга лошадей, обучение и приручение их к упряжке. Все это вместе значит, что культурно-технический уровень общества соответствовал уровню цивилизации Переднсазиатского мира. Наличие колесниц определяет также новый уровень социальных отношений в обществе. Колесницы могли быть принадлежностью только богатых представителей общества, следовательно, указывают на значительную имущественную и социальную дифференциацию общества. Можно говорить о том, что древнее общество находилось в преддверии образования классового общества с выделившейся знатью, составляющей воинство полукочевых племен, населявших территорию Азербайджана в эпоху средней бронзы.

Материалы курганов №№ 4, 5, 6 представляют собой ценный исторический источник по культуре средней бронзы Азербайджана, этого малоизученного периода - конца эпохи средней бронзы на территории Азербайджана.

## ЛИТЕРАТУРА

1. Ахундов Т.И. Курган с "самоваром" эпохи бронзы. "Azərbaycan arxeologiyası və Etnoqrafiyası", Bakı 2003, 3-4, с. 53-60.
2. Горелик И.В. Боевые колесницы Переднего Востока Ш-П тыс. до н.э. Сб. Древняя Анатолия, М., Наука, 1985, с. 183-202, табл.1, 6.

3. Деведжян С.Г Лори-Берд. Результаты раскопок 1969-1973 гг. Ереван, 1981.
4. Гуммель Я.И. Археологические очерки. Баку, изд. АзФАН СССР.
5. Гуммель Я.И. Большой курган №2 около Ханлара. НАИИ АН Азерб. ССР, инв. №636, 996.
6. Гуммель Я.И. Погребальный курган (№ 1) около Еленендорфа в Азербайджанской ССР. Баку, Аз.ГНИИ, 1931, 55 с.
7. Гусейнова М.А. Керамика Восточного Закавказья эпохи поздней бронзы и раннего железа (XIV-IX вв. до н. э.). Баку, "Elm", 1989, 127 с.
8. Гусейнова М.А. О конских захоронениях Азербайджана эпохи поздней бронзы и раннего железа. "Azərbaycan arxeologiyası və Etnoqrafiyası”, Bakı 2003, səh. 59-64.
9. Гусейнова М.А. Предметы культа и символы власти в памятниках материальной культуры Азербайджана эпохи поздней бронзы и раннего железа. "Azərbaycan arxeologiyası və Etnoqrafiyası". 3-4, 2000.
10. Киселев СВ. Древнейшая история Южной Сибири. М., изд-во АН СССР, 1951, с. 14-21,с. 642, LXIV табл.
11. Кушнарева К.Х. Поселение эпохи бронзы на холме Узерликтепе около Агдама. МИА СССР, 1959, № 67, с. 388-430.
12. Кушнарева К.Х. Ходжалинский могильник. ИФЖ, Ереван, 1970, № 3 (50), с. 109-124.
13. Мещанинов И.И. Краткие сведения о работах археологической экспедиции в Нагорный Карабах и Нахичеванскии край, снаряженной в 1926 г. Обществом изучения Азербайджана. Сообщения ГАИМК. Л., 1926, т. И, с. 217-240.
14. Отчет Императорской археологической комиссии за 1899 год. Производство археологических исследований в Елизаветпольской губернии. СПб, 1902, с. 57-100, курганы 3/10 и 5/12 близ Ханлара на правом берегу р. Гянджачай.
15. Пицхелаури К.Н. Основные проблемы Восточной Грузии в XV-VII вв. до н. э. Тбилиси, Мецниереба, 1973, с.224.
16. Погребова М.Н. Иран и Закавказье в раннем железном веке. М.,Наука 1977,
с.183.
17. Рагимова М.Н., Гасанова А.М. К историко-аналитическому исследованию металлических изделий из курганных погребений в Шамхорском районе. "Azərbaycan arxeologiyası və Etnoqrafiyası", Bakı, 2003, II, s. 52-54.
18. Руденко СИ. Искусство Алтая и Передней Азии (середина 1 тыс. до н. э.). с. 64, XVIII табл.
19. Темкин Э.Н., Эрдман В.Г. Мифы древней Индии. М., Наука, 1982, с.270.


1
2
7
3
4
8
5
6
9
10
11
12
13


1
2
3
4
5


1
2
3
5
0 4 8
11
4
6
0 4 8
7
0 4 8
10
11
8
9
13
14


1
2
3
4
5
6
7
8
9
10
11
12
13
14
15
16
17
18
19
20
21
22
23
24
25
26
27
28
29
30
31
32
33
34
35
36
37
38
39
40
41


1
2
3
4
5


1
2
3
4
5
6
0 4 8


1
2
3
4
5
6
7
8
0 4 8
9
10
11
12


1
2
3
4
5
6
7
8
9
10
11
12
12
13


2
3
4
5
6
7
1
9
10
8
11
12
13
14
15
16
17
18
20
19
21
22


1
2
3
4
5
6
7
8
9


1
2
3
4
5
6
7
8
9
10
11


1
2
3
4
5
6
7
8
9
10
11
12
13

## Ş.N. NƏCƏFOV

### *Zəyəmçay nekropolunun daş örtüklü qəbirləri haqqında*

2003-cü ildə Şəmkir rayonu ərazisində, Zəyəmçayın sağ sahilində yerləşən son tunc-ilk dəmir dövrünə aid nekropolda aparılan arxeoloji qazıntılar Zəyəmçay hövzəsinin tədqiq edilən qəbir abidələri sırasmı daha da zənginləşdirmişdir. (7; 8. 58). Bu abidə Bakı-Tbilisi-Ceyhan neft və Cənubi Qafqaz qaz kəmərləri marşrutuna daxil olduğundan. AMEA Arxeologiya və Etnoqrafiya İnstitutu və BTC şirkətinin əməkdaşları tərəfindən burada təxirəsalınmaz arxeoloji qazıntı işləri aparılmışdır (1, 163).

Zəyəmçay nekropolunun kəmər marşrutları keçən eni 24 m, uzunluğu 100 m olan sahəsində və nekropoldan 300-400 m şərqdə yerləşən "Sarı rəmə" yaşayış yerinin 1200 kv.m sahəni əhatə edən 44 m-lik zolağında arxeoloji qazıntı işləri 2003-cü ilin aprel ayının 15-dən noyabr ayının 20-dək cəmi 45 günlük fasilə ilə aparılmışdır ([1,163; 2, 311; 6, 5; 8, 58).

Zəyəmçay nekropolu abidədən şərq və cənub-şərqdə yerləşən, yerli əhali tərəfindən «Sarı rəmə» və ya «Yataq rəməsi» («rəmə» sözü yerli dialektdə «təpə» mənasını verir) adlandırılan təpənin üstündəki son tunc-ilk dəmir dövrünə aid, ümumi sahəsi təqribən 6 ha-dan artıq olan yaşayış məskəninin qədim sakinlərinə məxsus olmuşdur. Həm yaşayış yerindən, həm də nekropoldan əldə edilən arxeoloji materiallar Zəyəmçay nekropolunda 6-7 əsr ərzində dəfnlərin icra olunduğunu söyləməyə imkan verir (1, 164; 7, 15; 8, 58).

Bir sıra fərqli, lokal dəfn adətlərinə malik olan Zəyəmçay nekropolunun qəbirləri Azərbaycanın digər həmdövr qəbir abidələrindən tipinə, quruluş və xarakterinə görə seçilsələr də, arxeoloji materiallarının xüsusiyyətləri baxımından qətiyyən fərqlənmir (1, 164). Zəyəmçay nekropolunun yerləşdiyi sahənin torpaq qatı narın qum və gil qatışıq şoran torpaqdan və bəzi yerlərdə sadəcə çınqıllıqdan ibarətdir. Qeyd etdiyimiz bu torpaq bəzi yerlərdə 10-15, hətta 20 sm qalınlığında daşlaşmış, bərkimiş gil qatı ilə kəsilir (7, 15). Buna uyğun olaraq qəbirlər 2,5 m-ə qədər müxtəlif dərinliklərdə aşkar edilmişdir. Zəyəmçay nekropolundakı qəbirlərin yerüstü əlaməti yerin səthində az hallarda orta həcmli (15x25; 20x30) çaydaşlarının dairə formalı düzümü və ya nizamsız qoyuluşudur. [8, 58], [şək. 2.(1)]. Bəzi daş örtüklü qəbirlərin üst daşları tamamilə görünsə də, bəzilərinki görünmür. Onların üzərini müxtəlif qalınlıqlı torpaq təbəqəsi örtmüşdür. Amma bəzi qəbirlər də var ki, (torpaq qəbirlər) onların üst daşları ürnumiyyətlə yoxdur. [6]. Qəbirlərin bir neçəsinin orta hissəsində dairə formasında düzülmüş daşların ortasında qəbir torpağının çökərək batıq əmələ gətirməsi də müşahidə olunmuşdur (qəbir M-45, 65 ,9,45 və s.), [6, 54-55, 73].

Zəyəmçay nekropolu çoxqatlı deyildir. Əvvəlki qəbrin üstündə sonradan başqa bir qəbrin salınması faktı qeydə alınmışdır [8, 59]. Bunlar 98 və 103 №-li qəbirlər idi [6, 99-100, 103-104]. Nekropolun yerləşdiyi alçaq təpənin üstündə qəbirlər bir-birinə yaxın məsafədə olub çox sıx yerləşdirilmişdir [8, 59]. Onların

arasındakı məsafə 2,20-0,50 sm arasında dəyişir. Nekropolun ən yaxın qəbirləri 36 və 39 №-li torpaq qəbirlər olmuşdur.

36 №-li torpaq qəbrin şərq qurtaracağına bitişik, onunla eyni dərinlikdə (95 sm) qazılmış 39 №-li bu qəbrin üstü də eyni torpaqla örtülmüşdür. Qəbirlərin avadanlıqları arasında ən yaxın məsafə 20 sm olmuşdur [6, 38-40, 42-46].

Yuxarıda qeyd etdiyimiz kimi nekropolun bəzi qəbirlərinin konkret sərhədləri olan kameraları mövcud deyildir. Bu baxımdan qəbirləri iki qrupa ayıra bilərik: kameralı və kamerasız qəbirlər. Əslində, bütün qəbirlər qurularkən konkret kameraya malik olmuşdur. Yəni, mərhum dəfn olunarkən avadanlıqlarıyla birlikdə onun üçün ayrılmış sahədə (əgər kamera demək mümkündürsə) müxtəlif vəziyyətlərdə qoyulmuş, üzərini isə daşla, çınqıl qarışıq torpaqla örtmüşlər. Qəbir kameralarının konkret sərhədlərinin izlənilməsinin çətinliyi isə yalnız bir amillə - nekropolun torpağı ilə bağlıdır. Təbii çınqıl təbəqəsində qazılmış və üzəri elə həmin çınqıllı torpaqla da örtülən qəbir kamerasının sərhədlərini dəqiq təyin etmək mümkünsüzdür.

Nekropolun belə kamerasız qəbirlərinin sayı təxminən 50-yə yaxındır [6]. Onlar eyni prinsip üzrə qurulmuş, sonra isə üstü və ətrafı tutduqları sahəyə müvafiq olaraq çaydaşları, çınqıl, qum qarışıq torpaqla örtülmüşdür [7, 15].

Nekropolun kamerasız qəbirlərindən bəziləri qarət olunmuş, dağıdılmışdır. Belə qəbirlərə 14, 15, 30, 59, 60, 79, 94, 105 və s. qəbirləri misal göstərə bilərik [6, 19-22, 32, 65-69, 85, 95-96, 105-108]. Qarət zamanı qəbrin kamerasının sərhədləri də itib-batmış, üstünün daş örtüyü isə kobud, səliqəsiz formada yenidən qurulmuşdu [şək. 1. (2)]. 0,45 sm dərinlikdən aşkar edilən 28 №-li daş örtüklü qəbrin isə talan olunmasma baxmayaraq, kamerasmm sərhədləri izlənilirdi [6, 31].

Öz dövründə talanmış, qarət olunmuş qəbirlər, adətən, zəngin qəbirlər sayılırdı. Bu qəbirlərdə tayfanın nüfuzlu, adlı-sanlı və dövlətli adamları böyük təmtəraqla dəfn edilirdilər. 105 №-li qəbrin qazıntısı zamanı bu faktın şahidi olduq. Skelet dağıdılmış, tam nizamsız vəziyyətdə idi. Onun üstündəki və ətrafındakı saxsı qablar sındırılmış və bütün kameraya dağılmışdı. Bu qəbirdən cəmi 2 ədəd salamat qab aşkar edildi. Qalan 20-dən çox saxsı qab isə qırıq vəziyyətdə idi [6, 105-108].

Lakin elə qəbirlərə da rast gəlinir ki, onların avadanlıqlarının həddindən çox kasıb və cüzi olması burada talançılıq və qarətin həyata keçirilməsini şübhə altına qoyur. Buradan belə bir nəticə çıxaran V.Belk və A.A.İvanovski qeyd edirlər ki, bu hal çox ehtimal ki, dəfn adəti ilə bağlı olmuşdur [3; 9]. Yəni daşa inamla bağlı olaraq dəfn mərasimində ətrafına avadanlıqları düzülmüş və qəbir kamerasına qoyulmuş mərhumun üstünə çoxlu çaydaşı tökmüşlər. Bunun nəticəsində qəbirdəki avadanlıq tamam yararsız hala düşmüşdür. Amma belə olduqda qəbir kamerasının sərhədlərinin itməsi şübhəli görünür. Digər tərəfdən, ayin mərasimindən sonra meyitin sümükləri pərakəndə hala düşə bilməzdi. Deməli, bu tip kamerasız qəbirlər yalnız qarət və dağıdılma nəticəsində öz sərhədini itirmişdir. Digər tərəfdən isə qarətçilərin qismətinə bəzən kasıb qəbirlər çıxdığından onların da dağıdılması bizə təəccüblü gəlməməlidir.

Nekropolun kamerası bilinməyən qəbirlərinin bəziləri daş örtüklü, bəziləri isə torpaq qəbirlərdir [6].

Kamerası müəyyən qədər və tamamilə aydın bilinən qəbirlər isə nisbətən qumlu-torpaqlı yerdə qazılmış və ya üstünə sarı, adi və qumlu torpaq tökülərək basdırılmış qəbirlərdir [6]. Qəbir kamerasına tökülən bu torpaq ətrafın çınqıl təbəqəsindən kəskin seçildiyi üçün zaman keçdikcə bu fərq aradan çıxmamışdır. Ona görə də bu qəbirlərin kamerasının dəqiq sərhədlərini izləmək mümkündür. Zəyəmçay nekropolunun qəbirlərinin dərinlik ölçüsündə heç bir uyğunluq yoxdur. Belə ki, qəbirlər müxtəlif dərinliklərdən aşkar edilmişdir. Ehtimal etmək olar ki, bir sıra hallarda dərinliyin müxtəlifliyi torpağın xüsusiyyətləri ilə bağlıdır [7, 15]. Baxmayaraq ki, bu halda da bir-birinə çox yaxın yerləşən qəbirlərin dərinliyində xeyli müxtəliflik nəzərə çarpır. Bütün bunlara rəğmən qəbirlərin dərinlik ölçülərində müəyyən hədd izləmək mümkündür. Nekropoldakı qəbirlərin əksəriyyəti 0,50 sm - 1 m 20 sm arasındakı dərinlikdən aşkar edilmişdir [6]. Nekropolun on dərin qəbri 2 m dərinlikdən (qəbir №17), ən dayaz qəbirləri isə 10 sm (qəbir №29) və 20 sm dərinlikdən (qəbir №33) aşkar olunmuşdur. Ən yüksək dərinlik 27№-li (2 m), 1 16№-li (2 m 27 sm) və 117 №-li (2 m 32 sm) daş örtüklü qəbirlərdə qeydə alınmışdır [6, 30-32, 36-37, 116-123]. Nekropolun yerləşdiyi təpənin üstünü min illər ərzində yağış və qar suları yumuş və bunun nəticəsində qəbirlərin bir çoxu torpağın üst qatında (10-20 sm) qalmışdır. Buna görə də onların üstündə qurulmuş çaydaşları ətrafa tökülmüşdür. Lakin həmin qəbirlərdə saxsı qabların üstünə qoyulmuş bir və ya bir neçə qat çaydaşları bu günə qədər qalmışdır [7, 15].

Nekropolun qəbirlərinin uzunluğu az hallarda 2,5 m-dən artıq, yaxud da 1 metrdən kiçik olurdu. Təxminən 80-dək qəbrin uzunluq ölçüsü belə olmuşdur. Onların eni isə əsasən 0,70-1,20 sm arasında dəyişir [6]. Nekropolun ən böyük ölçülü qəbri 31 №-li daş örtüklü qəbir olmuşdur. 30 sm dərinlikdə aşkar olunan bu qəbrin kamerasının ölçüsü 2,45x3,10 m idi. Çox böyük həcmə malik olmasına baxmayaraq, qəbirdən yalnız 5 ədəd saxsı qab və bir insan skeleti aşkar olunmuşdur [6, 32-33]. Ölçüsünə görə nekropolun ən kiçik qəbirləri isə 13 və 53№-li torpaq qəbirlər olmuşdur. 13№-li qəbirdə (ölçüsü 40x40 sm) cəmi 4 ədəd dağıntıya məruz qalmış və əvvəlki formalarını bir qədər itirmiş gil qab [6, 18-19], 53№-li qəbirdə (ölçüsü 30x40 sm) isə yenə dağılmış vəziyyətdə yalnız 2 ədəd gil qab aşkar edilmişdir [6, 61].

Nekropoldakı qəbirlərin ölçübrinə münasibətdə kifayət qədər əsası olan daha bir hal da izlənilir. Bəzən kamerası böyük ölçülü qəbirlər daha kasıb avadanlıqla (qəbir №14, 17, 18, 21, 22 və s.), bəzən isə kamerası kiçik ölçülü qəbirlər daha zəngin avadanlıqla (qəbir №41, 45, 102 və s.) müşayiət olunur [6, 19-20, 22-24, 26-27, 47-51, 54-55, 101-103], [şək. 1. (1,3)]. Nekropoldaən zəngin avadanlıqlı qəbirlər 8, 39, 41, 60, 72, 95, 102, 105, 111, 116, 117, 120, 123 №-li qəbirlər, ən kasıb avadanlıqlı qəbirlər isə 12, 13, 14, 16, 20, 21, 28, 34, 47, 54, 65, 75, 79, 90, 93, 100, 125 və s. №-li qəbirlər olmuşdur [6], [şək. 3 (1)]. Kasıb avadanlıqlı qəbirlərdə yalnız 2, 3, 4 ədəd gil qabdan başqa heç bir şey aşkar olunmadığı halda, zəngin qəbirlərdən bəzən hətta 24 ədəd (qəbir №28, 105) saxsı

qab, çoxlu pasta, şüşə, əqiq, muncuqlar kauri tipli balıqqulaqları, tuncdan bəzək əşyaları, silahlar və s. aşkar olunmuşdur [6,11-14, 105-108]. Burada isə artıq cəmiyyət həyatında baş verən ictimai-iqtisadi təbəqələşmənin də rolunu görmək lazımdır. Qeyd etdiyimiz dövrdə Azərbaycanda sinifli cəmiyyətin tədricən təzahürü Zəyəmçay hövzəsinin qədim sakinlərinin də həyatında müşahidə olunmaqda idi.

Zəyəmçay nekropolunda iki növ qəbir abidələrinə rast gəlinir: daş örtüklü və torpaq qəbirlər. Nekropoldakı qəbirlərin növlərini yalnız qəbirüstü örtüyün xarakterinə uyğun olaraq fərqləndirmək mümkündür [8, 58].

Nekropoldakı 130 qəbrin 87-nin üzəri çay daşlarından formalaşdırılmış qəbirüstü örtükdən ibarətdir [şək.2. (1)]. Qəbir avadanlığının və meyitin ətrafına düzülmüş və üstündə ucaldılmış çaydaşlarından ibarət belə örtüklərin hündürlüyü 20-25 sm-dən tutmuş 1 m-dən artıq olmaqla birbaşa yerin səthindən başlamışdır [8, 58]. Kurqan tipli bu örtüyün daşlarının bir-birinə bərkidilməsi hallarına da rast gəlinir. [şək. 2. (1)]. Həmin çay daşları möhrə və ya qara qum qatışıq gil məhlulla bərkidilmişdir [7, 15]. Dəfn zamanı istifadə edilən çay daşları heç şübhəsiz yaxınlıqdakı Zəyəm çayının dərəsindən gətirilmişdir. Qazıntı zamanı bir neçə yerdə belə daşların yığımı aşkar edilmişdir. Görünür, qədim insanlar müntəzəm şəkildə dəfnlərin həyata keçirilməsini nəzərə alaraq buraya ehtiyat daşlar toplamışlar [8, 58].

Qeyd etdiyimiz bu xüsusiyyətlərinə, əsasən də başlıca fərqləndirici xüsusiyyət kimi onların çaydaşlarından qurulmuş örtüyünün hündür olmasına görə tədqiqatçılar bəzən Zəyəmçay nekropolunda qazılan qəbirlərin böyük əksəriyyətini bu vaxtadək Azərbaycanda və bütövlükdə Qafqazda analoqu olmayan qəbir tipləri hesab edirlər [1,163; 7, 15].

Son tunc-ilk dəmir dövründə Azərbaycanda mövcud olan daş qutu, torpaq qəbirlərin quruluş və xüsusiyyətləri ilə Zəyəmçay nekropolunun qəbirlərinin xüsusiyyətləri tamamilə fərqlidir. Birincisi, bu qəbirlərin nə daş qutular kimi üst və yan sal daşları, nə də kromlexli daş qutular kimi dik basdırmaqla konsentrik dairə yaradılmış uzun daş düzümü vardır. İkincisi nekropolun hətta torpaq qəbirləri belə seyrək çay daşlarından ibarət örtüyə malikdir. Zəyəmçay nekropolunun bu qəbirlərini daş örtüklü qəbirlər adlandırmaq fikrimizcə daha məqsədəuyğun və daha düzgündür [7, 15; 8, 59]. Əlbəttə ki, qəbirlərin bu konstruksiya ilə qurulması və tikinti materialı kimi çaydaşından istifadə edilməsi isə yalnız təbii-coğrafi şəraitlə bağlı olmuşdur. Çünki bu ərazidə daş qutular qurmaq üçün lazımi tikinti materialı - iri sal qaya parçaları olmamışdır. Daş örtüyün qurulmasında istifadə edilən materialı - çay daşını isə qədim insanlar çox asanlıqla daha yaxın məsafədən - Zəyəm çayının dərəsindən gətirmişlər.

V. Belkin və A.A. İvanovskinin qazıntıları zamanı çaydaşlarından qurulmuş daş qutulara da rast gəlinmişdir [3; 9]. Lakin onların divarları Zəyəmçay nekropolunun qəbirlərindən fərqli olaraq, çaydaşı ilə dörd tərəfdən hörgü formasında tikilir və üzəri sal daşla örtülürdü. [4, 60]. Zəyəmçay nekropolunun qəbirləri isə torpaqda dairəvi və ya oval formada qazılmış yerə

qoyulan meyit və avadanlığın üstündə ucaldılmış torpaq, çınqıl qarışıq çaydaşlarından ibarət olmuşdur. Hətta bəzi qəbirlərin konkret sərhədləri olan kameraları mövcud deyildir. [6]. Torpaqda dairəvi və ya oval formalı yer qazılmış və onun döşəməsi bəzən gil qum qatışıq bərk məhlulla 8-10 sm qalınlığında suvanmışdır. Məsələn, 56 №-li qəbirin döşəməsi 5-6 sm qalınlığında gil qatı ilə suvanmışdır [6, 62-63]. 57 №-li daş örtüklü qəbir 60 sm dərinlikdən aşkar edilmiş, döşəməsi isə 4-5 sm qalınlığında gil qatışıq məhlulla suvanmışdır [6, 63]. 70 sm dərinlikdən tapılmış 58№-li torpaq qəbirin üstü qum qatışıq sarı torpaqla basdırılmış, döşəməsi isə nazik gil qatı ilə suvanmışdır. Döşəmədən altda qum qatı yerləşir [6, 64]. Belə döşəməyə meyit və saxsı qablardan ibarət avadanlıq çox səliqə ilə qoyulmuş, sonra isə onların üstü və ətrafı tutduqları sahəyə müvafiq olaraq çaydaşları ilə örtülmüşdür [7, 15]. Ümumiyyətlə, bu tip qəbirlərdə ölü sadəcə olaraq yer səthindən müəyyən qədər çökək olan hissədə basdırılır, üzərinə və yanına avadanlıq düzülür və daşlarla örtülürdü. Belə qəbir tiplərini xəndəksiz kurqan tipinə aid edən F.Muradovaya görə, qəbirlərin çox dayazda yerləşməsi və yağış sularının buraya yol tapması skletin, hətta gil qabların belə tez sıradan çıxmasına səbəb olmuşdur [5, 26].

Yalnız Şərqi Gürcüstanda qazılmış, son tunc dövrünün ilk mərhələsinə (e.ə. XIV-XIII əsrlər) aid Madnisçal nekropolunda və Mtsxeta yaxınlığındakı nekropolda Zəyəmçay nekropolu qəbirlərinin oxşarlarına rast gəlinir. Təkcə Şərqi Gürcüstanda son tunc dövrünə aid aşkar edilən yüzədək nekropolda müxtəlif vaxtlarda qazıntılar aparılsa da [10, 22], onların heç birində yuxarıdakı abidələri çıxmaq şərtilə Zəyəmçay nekropolunun qəbirləri ilə oxşarlıq təşkil edən qəbir abidələrinə təsadüf olunmamışdır. Lakin Madnisçal nekropolundakı belə qəbirlərin çaydaşlarından ibarət üst örtüyü də hündür deyildir [8, 59]. M.N.Tuşuşvili Madnisçal nekropolunun bu qəbirlərini üstünə çay daşları tökülmüş torpaq qəbirlər hesab edir [11, 167-168].

Zəyəmçay nekropolunun üst örtüyünün daşlardan ibarət qəbirləri barədə, bu fikirləri söyləmək olmaz. Nekropoldakı qəbirlərin örtüyü sadə daş yığımı deyil, bir növ tikili xarakteri daşıyır [şək. 2. (1)]. Torpaq, qum və ya xalis çınqıl qatında qazılmış bu qəbirlərin üstünün çaydaşları ilə qurulması dəfn adətinin zəruri amili kimi icra edilmişdir [8, 59],

Şərqi Gürcüstanda, Mtsxeta yaxınlığında Bakı-Supsa neft kəmərinin çəkilişi ilə əlaqədar son tunc - ilk dəmir dövrünə aid 42 qəbir abidəsi qazılmışdır. Bəzi istisnalarla buradakı qəbirlərin demək olar ki, hamısı daş örtüklü qəbirlər olmuşdur [8, 59]. Görünür, son tunc-ilk dəmir dövründə Qərbi Azərbaycan və Şərqi Gürcüstan ərazisində - Kür çayının orta axını hövzəsində yaşayan qədim tayfaların dəfn adətlərində daş örtüklü qəbirlər müəyyən yer tutmuşdur [8, 59]. Zəyəmçay nekropolundakı daş örtüklü qəbirlərin bəzilərinin üstü yerləşdiyi dərinlikdən asılı olaraq aralarına torpaq tökülmüş bir neçə qat daşla örtülmüşdür [6]. Onlar arasında 2 (qəbir №19, 31, 45, 64, 75, 80, 81 və s.), 3 (qəbir № 65, 66, 116 və s.), 4 (qəbir № 27) və hətta 5 qat (qəbir №67) daş düzümünə malik qəbirlərə təsadüf olunmuşdur. 68 №-li daş örtüklü qəbirdə isə qəbir kamerasının üzərində 8 lay daş düzümü qeydə alınmışdır. Bu qəbir 1,6 m dərinlikdə

qazılmışdır. Qəbirüstü daş örtüyünün ağırlığından saxsı qabların əksəriyyəti sınıb dağılmışdır [6, 75-76]. Qalan 74 daş örtüklü qəbrin hamısı cəmi 1 və 2 qat daş düzümündən ibarət örtüyə malikdir. Daş düzümü 2 və daha çox olan qəbirlərin quruluşunda və arxeoloji materiallarında heç bir fərq yoxdur [6]. Əsas fərq daş düzümü daha çox olan qəbirlərin daha dərindən aşkar olunmasındadır. Onların bəzilərini ətraflı nəzərdən keçirək:

0,40 dərinlikdə aşkar edilən 27 №-li qəbrin üst hissəsindəki daş düzümünün d=2 m-ə yaxın idi. Daş düzümü 2 m dərinlikdə aşkar edilən qəbir kamerasının üstünə dörd qat düzülmüşdü. Belə ki, yuxarıda qeyd olunan kimi 1-ci daş düzümü qatı 2 m diametrində 0,40 m dərinlikdə, 2-ci daş düzümü qatı 0,80 m, 3-cü daş düzümü qatı 1 m 20 sm, 4-cü daş düzümü qatı isə 1,80 m dərinliklərdə aşkar edildi. 4-cü daş düzümü qatı aşkar edildikdən sonra daşların yanından və altından gil qab nümunələri aşkar edildi. Gil qab nümunələri 1 ədəd darağızlı iri küpə və 2 ədəd qara rəngli küpə ilə təmsil olunurdu ki, onlar da dəfn olunanın baş hissəsində qoyulmuşdu. Skelet qəbir kamerasının mərkəzində çox pis vəziyyətdə qərb-şərq istiqamətində idi. Skeletin qəbirdə olması təxmini olaraq müəyyənləşdirildi. Skeletin tapıldığı sahədən tuncdan hazırlanmış asma bəzək əşyaları, iri və kiçik tunc düymələr və əqiqdən hazırlanmış bir neçə muncuq tapıldı. Qəbrin ölçüləri 2 m x 1,30 m olub, dərinliyi 2 m idi [6, 30-31].

0,65 m dərinlikdə 64 №-li qəbrin 1-ci daş düzümü aşkar edildi. Daşların arasından şimal hissədə bir ədəd qara rəngli, geniş gövdəli piyalə tipli qab tapıldı. Daş düzümü təxminən 1,70 m diametrində idi. Bu daş düzümü götürüldükdən sonra lm 10 sm dərinlikdə 2-ci daş düzümü aşkar edildi. Bu daş düzümü isə 1,30m x lm ölçüdə idi. Daş düzümünün şimal hissəsində bir ədəd bardaq tipli gil qab qoyulmuşdu. Bu daş düzümü də götürüləndən sonra, bardaq formalı qabın altından iritutumlu küpə, çox pis qalmış skelet və bir neçə çaydaşı aşkar edildi. Daşların yanından 1 ədəd tunc qolbaq və əqiqdən hazırlanmış bir neçə muncuq tapıldı. Qəbir kamerasmın ölçüləri 1,40 x 1 m olub, dərinliyi 1,25 m idi [6, 72]. 67 №-li qəbir:

0,25 m dərinlikdə iri və kiçik çaydaşlarından ibarət böyük bir sahəni - təxminən şimal-cənub istiqamətində 3,35 m, şərq-qərb istiqamətində isə 2,70 m sahəni tutan daş düzümü aşkar edildi. Bu daşlar gotürüldükdən sonra 0,85 m dərinlikdə 2 m 15 sm diametrində ikinci daş düzümü, onlardan sonra isə 1,35 m dərinlikdə 1,10 m diametrində üçüncü daş düzümü aşkar edildi. O 0,20-0,35 m enində dairəvi formada düzülməklə orta hissəsi boş idi. Həmin daş düzümü götürüldükdən sonra, 1 m 50 sm dərinlikdə 1 m 90 sm diametrində dördüncü daş düzümü aşkar edildi. O da dairəvi düzülmüşdü, orta hissə bəzi yerlərdə tam boş, bəzi yerlərdə isə çınqıllı daşlarla doldurulmuşdu. 4-cü daş düzümü götürüldükdən sonra 1 m 60 sm dərinlikdə çox da iri olmayan çaydaşlarından ibarət 5-ci daş düzümü aşkar edildi. Daşların ətrafında şimal və cənub hissələrdə küpə tipli gil qablar aşkar edildi. Daşlar götürüldükdən sonra 1 m 75 sm dərinlikdə insan skeleti tapıldı. Skelet çox pis saxlandığından onun forma və istiqamətlərini təyin etmək mümkün olmadı. Qəbir kamerasının şimal-qərb tərəfində bir ədəd qəhvəyi rəngli obsidian tapıldı. Bundan başqa qəbir kamerasından beş ədəd gil qablar

tapıldı. Qəbrin ölçüləri 1,55x1,05 m olub, dərinliyi 1,80 m idi [6, 74-75]. Çoxqatlı daş düzümlərinə malik qəbirlərin bəzilərinin daş düzümünün diametri üstdə böyük olub, aşağı qat daş düzümlərində kiçilir. Məsələn 27, 64, 67 və s. №-li qəbirləri göstərə bilərik [6, 30-31, 72, 74]. Bəzən isə əksinə olur. Yəni üstdə daş düzümünün diametri kiçik, aşağı qatlarda isə böyük olur (31, 45, 65 №-li qəbirlər), [6, 32-33, 54-55, 73]- 66№-li qəbirdə isə 1-ci, 2-ci və 3-cü qat daş düzümlərinin hamısının diametri eyni (2,80x1,50) olmuşdur [6, 73]. Daş örtüklü qəbirlərin daş düzümlərinə müxtəlif formalarda rast gəlinmişdir. Qəbirlərin bəzilərinin istər üst, istərsə də alt qatlarındakı daş düzümləri dördkünc və dairəvi formadadıdr. Üst-üstə şaquli şəkildə çaydaşlarından qurulmuş bu daş düzümlərinin forması çox güman ki, dəfn adəti ilə bağlıdır. Bəzən elə qəbirlərə rast gəlinir ki, üst qatda nisbətən dördbucaqlı formada qurulmuş daş düzümü 2-ci və ya 3-cü qatlarda dairəvi forma alır [6]. Hər halda daş düzümlərindən ibarət örtüyə əsasən dairəvi formalarda çox rast gəlinir. Digər bir tərəfdən onu da qeyd etmək lazımdır ki, kameralı qəbirlərdə bu daş düzümünün dairəsi kameranın sərhədlərindən kənara çıxır. Yəni daş örtük konkret olaraq qəbir kamerasının mövcud olduğu sərhədləri də əhatə etməklə bəzən böyük, bəzən də çox xırda daşlardan ibarət kiçik ölçüdə qurulurdu. Məsələn, 116№-li qəbrin kamerasının ölçüsü 2 m x 1,65 m olsa da, onun üst daş düzümünün ölçüsü 3,14x1,85 m olmuşdur. 45 №-li qəbrin kamerasının ölçüsü isə 1,90 m x 1,10 m olsa da, üzərindəki daş örtüyün ölçüsü 1,85 x 1,10 m olmuşdur [6, 54- 55, 116-117].

Zəyəmçay nekropolunda bir neçə qəbrin üst örtüyü çaydaşlarının aypara şəklində düzümündən ibarət olmuşdur [8, 58-59]. 110, 111, 112 №-li qəbirlərin üst daş düzümü qismən ayparanı xatırladır [6, 110-114]. 119 №-li qəbrin üst örtüyü isə tamamilə aypara formasındadır [6,125-127]. Bu fakt isə dəfn adətlərində astral inamlara bağlılığın varlığını sübut edən faktdır.

## ƏDƏBİYYAT


1. Abbasov A.A., Müseyibli N.Ə. Zəyəmçay nekropolunun bəzi dəfn adətləri // Azərbaycan arxeologiyası və etnoqrafiyası, 2003, II.
2. Ağayev Q.H., Müseyibli N.Ə. Zəyəmçay abidəsində 2003-cü ildə aparılan arxeoloji tədqiqatlar // Azərbaycan arxeologiyası və etnoqrafiyası, 2003, II.
3. Hagel V. ŞtrommengerY. Qalakənd (Cənubi Qafqazın Kirovabad (Yelizavetpol) ərazisində erkən dəmir dövrünün arxeoloji tapıntıları). Bakı: Diplomat, 1999.
4. Xəlilov C.Ə. Qərbi Azərbaycanın tunc dövrü və dəmir dövrünün əvvəllərinə aid arxeoloji abidələri. (Şamxor və Zəyəm çayları hövzələri). Bakı: Azərb. SSR EA nəşriyyatı, 1959.
5. Muradova F.M. Qobustan tunc dövründə. Bakı: Elm, 1979.
6. Müseyibli N. Ə., Ağayev Q. H., Kvaçidze V. A. Zəyəmçay nekropolunda BTC və CQBK arxeoloji ekspedisiyası tərəfindən 2003-cü ildə apanlmış arxeoloji qazıntı işlərinin elmi hesabatı. Bakı, 2003.
7. Müseyibli N.Ə., Ağayev Q.H. Zəyəmçay nekropolu Azərbaycanda yeni növ abidədir. «Elm» qəzeti, Bakı, 2003, 20 iyun.
8. Müseyibli N.Ə. Zəyəmçay nekroplunda arxeoloji qazıntılar // Azərbaycan arxeologiyası və etnoqrafiyası. 2004, № 2.
9. Ивановский А.А. По Закавказью // МАК, М.: 1911, вып.УИ, с.85-184, XVI табл.
10. Пицхелаури К.Н. Восточная Грузия в конце бронзового века. Труды Кахетской археолог, экспед. III, Тбилиси: Мецниереба, 1979.
11. Тушушвили Н.Н. Маднисчальский могильник. Тбилиси: Мецниереба, 1972.




**Şəkil I. Şəmkir r-nu, Zəyəmçay nekropolu: 1-18№-li daş örtüklü qəbir, 1-30 №-li daş örtüklü qəbir, 3-45 №-li daş örtüklü qəbir.**




**Şəkil II. Şəmkir r-nu, Zəyəmçay nekropolu: 32 №-li daş örtüklü qəbir.**




**Şəkil III. Şəmkir r-nu, Zəyəmçay nekropolu: 1-123 №-li daş örtüklü qəbir, 2-126 №-li daş örtüklü qəbir.**

## В.А. КВАЧИДЗЕ

### *Погребальный обряд Заямчайского некрополя Шамкирского района (Раскопки 2003-го года)*

В июле месяце 2003 года продолжались работы в западной части раскопа с уклоном в сторону реки Заямчай. Продолжены зачистки некоторых могил, ранее выявленных в центральной части площади раскопа (с его северной стороны). С южной стороны раскопа был вскрыт почвенный покров по всему пространству раскопа на 1,5 метра шириной. Начата расчистка с восточной стороны раскопа. Было раскопано и расчищено 11 погребений (68, 82, 84, 85, 86, 89, 91,93,18,88,95).

Погребения выявлены на разных глубинах, начиная с 25-30 см от дневной поверхности и до 1 метра 80 см (погребение №84). Все погребения перекрыты в несколько слоев речным камнем разного размера. Некоторые погребения были перекрыты горизонтально в 8 слоев выложенных камнями разной конфигурации. Подобные погребения характерны для всей этой зоны Азербайджана (Гянджа, Шамкир, Казах и т.д.), охватывая соседние территории Грузии и Армении, характерные для эпохи конца бронзы и начала железа (1;2)

Все погребения не имеют четких границ ям, ибо грунт, состоящий из иловых речных отложений, а также слоев речного гравия не позволяет их выявить. Границы погребений определялись перекрывающей их каменной кладкой. Дж.Л.Халилов отмечал, что эти погребения бывают малозаметными, иногда их выдают скопления камней после дерна и глубина их ям бывает неглубокой. Состояние костяка погребенных плохое, только некоторые могилы имели черепа и остатки костяка. Как правило, кости погребенных тут же рассыпаются в пыль, а многие могилы их почти не имеют и содержат только инвентарь. Основным инвентарем погребений является черночерепковая посуда разных форм, видов и размеров. Основной декор посуды - это гравированные неглубокие ровные концентрические линии по горизонтали тулова сосудов, а также волнистые линии и отдельные насечки. Характерной особенностью для керамики данного раскопа являются насечки по краю днища сосудов, направленные косо влево, или вправо, иногда радиально. Очевидно, они имели отношение к солнцу, огню и имели магическое назначение - сохранение сосуда, пищи в нем, сохранения огня.

Некоторые экземпляры посуды орнаментированы гравированными линиями или с помощью лощения в виде треугольников, перекрещенных линий, удлиненных треугольников-лучей, направленных, как правило от горловины вниз к поддону сосуда. Представляет интерес чаша на трех ножках из погребения №68. Черночерепковая чаша-ваза диаметром 15 см на дне имеет интересную композицию, состоящую из треугольников, занимая всю поверхность дна, разделенная на три секции, состоящих из ряда

треугольников, симметрично, оставив в центре свободный треугольник; другие заполнены точечными углублениями. Очевидно, чаша-ваза имела ритуальное назначение, связанное с увеличением урожая на нолях (Табл. I, рис1).

Вся керамическая посуда из погребений синхронная, очевидно, охватывает период XIII-VIII века до н.э. В основном она представлена в виде кувшинов с узким и широким горлышком с плоским дном и четко выраженным туловом, широкогорлыми котлами с отогнутым прямым или овальным венчиком, небольшими кувшинчиками-молочниками с вытянутой и расширенной горловиной. Встречаются высокохудожественно выполненные по форме небольшие сосуды, а также чаши и тарелки с разным профилем венчика с ручками и без них. Вся эта посуда присутствует в погребениях, в виде набора разнообразных сосудов. Топографию расположения в каком-то порядке уловить невозможно, ибо они вскрыты на разных уровнях, иногда врезаются одно погребение в другое. Погребение №68 (Табл. 1, рис 2).

Над погребением было вскрыто восемь слоев каменной кладки и только после выемки восьмого слоя в западной части кладки показались керамические сосуды, а восточнее вскрылась одна кость.

При полном вскрытии были отмечены беспорядочно расположенные отдельные кости в северо-восточной части погребения на грунте из речной гальки. Глубина подкладки погребенного около 1 м 60 см. Погребальный инвентарь состоит из сосудов, часть которых раздавлена. Четыре сосуда находились в северо-западной части погребения, небольшой сосуд в центре и, восточнее, на некотором расстоянии два (см. табл.1, VIII). Погребение №82 (Табл. Т, рис. 9).

Погребение было вскрыто после удаления пятого слоя камней.

Был обнаружен костяк головой направленный на запад в сильно скорченном состоянии на правом боку. У изголовья находился кувшин с узким горлышком и биконической формой тулова, с насечками на плечиках. Второй сосуд - широкогорлый котел раздавлен. Другого инвентаря в погребении не обнаружено.

Погребение №84 (Табл.И, рис. 1 )

Первый слой вскрытый в западной части раскопа у северо-западного угла, на склоне каменной кладки площадью 5 м х 3,4 м., напоминает фигуру с четырьмя заостренными углами, направленными почти точно на четыре части света: «Юг - Север - Восток -Запад». Случайна ли каменная кладка четырехчастной формы, напоминающая сложный крест?

Тураев писал, что мир имеет четыре направления, человек находится в центре. Защитив себя с четырех сторон, он оказывается в безопасности. Земля в шумерских и аккадских текстах предстает как плоскость с четырьмя ориентирами - сторонами. (4). С образом пространства как четырехсторонней фигуры можно связывать широко распространенные квадратные, ромбические и крестообразные мотивы в изобразительном

творчестве древних земледельцев Передней и Средней Азии. В центре этой композиции кладка камней отсутствует, как бы открытое пространство, в ось композиции которой обычно вставлялся столб или находилось дерево. Квадратные, ромбические и крестообразные фигуры чрезвычайно широко распространены в среде как древних, так и современных традиционных земледельческих культур. Распространенность представлений о четырех сторонах света у разных народов отмечал Абу Бируни. После зачистки нескольких слоев горизонтальной кладки камней на глубине около 1,70 м. в слоях речной гальки выявлено погребение. Костяк не сохранился, хотя его признаки имеются - мелкие остатки костей.

Инвентарь погребения состоит исключительно из керамических предметов в количестве 9 сосудов. Среди них два кюпа - кувшин черночерепковый с белым налетом (природным) и кувшин с узким горлышком, хорошо сохранились.

1. Кюп-кувшин черночерепковый, грушевидной формы. Тулово с двумя профилирующими выступами, образующими полосу по плечику сосуда выше двух лентообразных ручек направленных от плечиков к середине тулова кюпа. Вверху ширина ручки - 8 см, внизу - 6 см. Высота кюпа - 47 см, диаметр тулова - 35 см. Диаметр горловины - 14,5x11,5 см. Горловина выступает от венчика профилированным пояском в 12 см. Диаметр дна - 12 см.

2. Черночерепковои кувшин с узким горлом тулово, грушевидной формы. Под горловиной изгиб в 5,5 см. Диаметр горловины - 13x8,5 см. Высота кувшипа=40 см. Диаметр тулова 31 см.

3. Черночерепковый широкогорлый кувшин раздавлен. Диаметр горла - 23 см. По плечику орнаментирован двумя горизонтальными линиями и под ними по окружности тулова косые насечки.

4. Небольшой сосуд в виде вазы или «молочная крынка». Высота 16 см; диаметр тулова - 12 см, диаметр горловины 7,5 см, днища плоского - 6,8 см.

5. Черночерепковый сосуд с сужающейся горловиной, из под венчика которого начинается тулово, резко почти горизонтально. По тулову идут профилированные валики по окружности образуя пояс шириной 6,2 см. Диаметр горловины-11-12 см, диаметр дна - 9,5 см.

Остальная посуда сильно разрушена. Расположена вся посуда по линии направления Запад-Восток, очевидно в таком положении находился и погребенный костяк. Погребение №85 (Табл.II, рис.85)

Погребение выявлено в центральной части уже вскрытого слоя раскопа, где были обозначены ряды камней, частично нарушенные. При открытии погребения костяк не обнаружен. По краю погребения в четырехугольнике было расположено 11 керамических сосудов, занимавших площадь примерно 60x70 см. Среди керамической посуды чаши-миски, кувшины с широким и узким горлышком. Большой интерес представляет один из хорошо сохранившихся - кувшин 1 - кувшин

черночерепковый в форме близкой к бочёнку, имеющий почти одинаковый диаметр горловины и плоского дна -12 см. Высота - 23,8 см; диаметр тулова 20 см. Под венчиком, отогнутым во внешнюю сторону, выделяется поясок шириной - 16 см, направленный почти горизонтально к ручкам, расположенным на плечиках сосуда. Ручки - горизонтальные выступы края с тремя овалами и тремя сквозными, вертикально направленными отверстиями. От уровня ручек до середины тулова имеется орнаментация в виде лощенных удлиненных острых треугольников, острием направленных к днищу, окружающих тулово по всему диаметру.

2. Кувшин черночерепковый с узким горлом и с одной ручкой круглого сечения. От венчика до плечиков тулова - 6,5 см. Тулово шаровидной формы, диаметр которого 21,5 см; диаметр плоского дна - 10 см; диаметр горловины -6,5 см. Высота сосуда - 24,5 см. По тулову на уровне соединения ручки имеются лощенные (темнее) треугольные удлиненные лучи, острием направленные к поддону.

3. Кувшин черночерепковый с грушевидной формы туловом, с широкой горловиной, дном-15,4х11,7. Венчик слегка приподнят и отогнут наружу. От него начинается тулово. Высота сосуда 24,5 см; диаметр тулова - 25 см; диаметр дна - 11 см. По тулову выше середины нанесен орнамент в виде пересекающихся крест на крест линий, замкнутых сверху и снизу двумя гравированными линиями; сверху над этим пояском по всему диаметру тулова нанесены вдавленные углубления в виде зёрен.

4.5. Чаши - миски того же теста и цвета

4- высота- 9 см, диаметр - 26,5. У основания пояска выступ-ручка треугольной формы со сквозным, вертикального направления отверстием.

5- диаметр венчика - 33 см; Высота - 10 см; диаметр днища -13 см.

6. Черночерепковый котел - кувшин с широкой горловиной. Высота - 17 см, диаметр горловины - 27x22,3 см, диаметр дна - 10 см. Венчик отогнут наружу.

7. Сосуд полностью раздавлен и разрушен. Венчик горизонтально отогнут и профилирован.

8. Черночерепковый сосуд с широкой горловиной также раздавлен и полностью рассыпался, почти не подлежит реставрации и восстановлению.

9. Черночерепковый неравномерного обжига с розовыми пятнами черепка. Диаметр тулова - 24 см, высота —17 см; диаметр горловины - 23x18 см. Орнаментирована двумя горизонтальными линиями и над ними косые насечки.

10. Черночерепковая чаша с выступающей одной ручкой с одним сквозным отверстием, под углом вертикально направленным. Высота —18 см, диаметр венчика горловины - 28 см.

11. Небольшой черночерепковый сосуд с отогнутым наружу овальным венчиком. Диаметр горла — 7 см. Диаметр тулова -13 см, высота-9 см.

Погребение №86 (Табл.II, рис3)

Погребение небольшое по размеру 50х60 см, где в камне было зажато пять керамических сосудов. Костяк погребенного не выявлен.

Погребальный инвентарь

1.2. Два сосуда похожие и отличаются расположением и направлением ручек. У первого ручка направлена горизонтально от тулова. У левого соединения ручки сосочек со сквозным отверстием. Высота - 24 см; диаметр тулова 21 см; диаметр горловины -12 см.

Второй имеет ручку круглого сечения от венчика сосуда до плечиков тулова. Высота такая же, как у первого - 29 см; диаметр тулова -21,5 см, на метр горловины - 9 см; диаметр дна - 9 см.

3.4. Две чаши небольшие неглубокие, похожие. Венчик профилированный с верхним пояском, после чего тулово чаш резко изгибается к днищу. Высота их - 10см первого, второго - 8 см.

5. Сосуд в виде небольшого горшка с профилированным венчиком. Высота -14 см; диаметр тулова - 27 см; диаметр горловины -18 см. На плоском дне, по окружности (краю) нанесены короткие насечки. Погребение №89

Погребение полуразрушенное на небольшой глубине от дневной поверхности - 40 см. Имелись следы костяка, плохо выраженные. Инвентарь погребения состоит из трех керамических сосудов и одного разжемного браслета круглого сечения, диаметром 0,4 см.

1. Небольшой вазоподобный керамический черночерепковый сосуд «крынка для молока». С грушевидной горловиной и раструбом к венчику горловины. Диаметр горловины - 7,8 см. Диаметр тулова -12,5 см., высота - 18 см; диаметр днища 5,7 см. По тулову проходит гравированная двойная линия наверху, внизу одна.

2. Черночерепковый котел - кувшин. Высота - 21 см. Диаметр тулова 29-30 см., диаметр отогнутого венчика горловины - 29х19 см; ширина венчика 2 см; диаметр днища - 9 см. Сосуд раздавлен.

3. Черночерепковый с серыми проемами, неравномерного обжига, кувшинчик с обломанным венчиком горловины; диаметр тулова - 9,5 см; диаметр днища - 6 см. Беспорядочно по плечикам тулова нанесены насечки по всей окружности сосуда.

Погребение №91 (Табл I, рис. 5)

На новой площадке было раскрыто полуразрушенное погребение с четырьмя керамическими предметами без костяка.

Погребальный инвентарь

1. Черночерепковая тарелка диаметром по венчику - 27 см; дно диаметром-8,5 см. Имеет кольцевой поддон с насечками, направленными влево, косо.

2. Небольшой кувшин с одной ручкой круглого сечения. Венчик обломан и его невозможно воспроизвести. Высота - 14 см; диаметр тулова - 14-15 см.

3. Небольшая черночерепковая чаша, по венчику диаметр - 15 см. Дно имеет кольцевой поддон, по краю которого нанесены насечки. Диаметр поддона - 6,8 см. Высота- 5 см.

4. Днище уже обломанного и положенного в могилу сосуда, диаметр которого - 10 см с насечками, по окружности дна нанесенными косо в правую сторону.

То, что в могилу положен обломок дна сосуда на котором имеются нанесенные по кругу насечки, олицетворяющие как бы «ходящее солнце», говорит о магическом предназначении данного предмета. Погребение №93 (Табл.1, рис7)

Полуразрушенное погребение с тремя полуразрушенными керамическими предметами не поддающимися описанию. Погребение №92 (Табл.И, рис8)

Погребение четко ограничено каменной кладкой округлого вида, небольшие. В камнях зажата керамическая посуда из шести предметов. Костяк отсутствует.

Погребальный инвентарь состоит только из керамических предметов

1. Керамический сосуд черночерепковый. Высота - 20 см; диаметр тулова -14 см; диаметр венчика - 8 см. С одной ручкой круглого сечения.

2. Небольшая керамическая чаша - миска, черночерепковая. Высота-5 см; диаметр горловины по венчику - 18,5 см; диаметр днища - 7 см.

3. Черночерепковый керамический кувшин шаровидной формы, высотой - 25 см; диаметр венчика горловины — 12х9 см. Отвенчика до нлечей три ряда насечек.

4. Широкогорлый кувшин - котел с отогнутым венчиком. По средней части тулова - валик со вмятинами.

Погребение №88 (Табл.1, рис4)

Погребение небольшое с выявленным костяком. Череп покоился на одном из кувшинов на левом боку. Покойник захоронен в сильно скорченном положении. На одной из костей руки был надет бронзовый браслет, круглого сечения. Направление костяка -западное.

Погребальный инвентарь состоит из трех керамических сосудов и одного бронзового браслета, одной сердоликовой бусины и одной стеклянной, цилиндрической формы покрытой белой патиной.

1. Черночерепковый округлой формы кувшин с диаметром горловины 17 см.

У изголовья находился кувшин черночерепковый с широким горлышком и двумя ручками, прикрепленными к плечику сосуда и приподнятые почти до уровня почти венчика. Высота кувшина - 24 см. Диаметр тулова - 23 см. Диаметр дна -10,5 см. По средней части тулова выгравированы три горизонтальные линии.

3. Черночерепковая чаша с выступом - ручкой трапециевидной формы с двумя сквозными отверстиями, вертикально направленными. Под венчиком профилирован поясок и резко от него, тулово сужается к

плоскому дну. Высота -10 см. Диаметр горловины -26,5х24; диаметр днища - 7,5 см.

Погребение №95 (Табл.1, рис,3)

Погребение раскрыто в центральной части раскопа на небольшой глубине от уже очищенной площадки - 35-40 см. От костяка сохранилось несколько костей конечностей. Сосуды керамические выложены вокруг остатков костей полукругом и два сосуда в отдалении на некотором расстоянии от этой группы. В погребении обнаружено 68 бусин, в основном, сердоликовых разной величины, одна - из раковины и две бусины - пастовые; две серьги из бронзовой проволоки, бронзовый браслет и бронзовая игла-заколка. В погребении находилось 8 керамических предметов. Инвентарь погребения: 68 бусин, две бронзовые тонкие серьги с разжемными концами в виде колечек, бронзовая игла - заколка около 5 см длиной, бронзовый гофрированный браслет.

1. Керамический черночерепковый кувшин с венчиком едва выделенным от тулова. Вокруг верхней поверхности кувшина идет поясок орнаментированный треугольниками из нескольких линий, которые затем повторяют несколько уже заостренными треугольниками вниз по верхнему поясу тулова кувшина. Диаметр горловины - 14х12,3 см. Диаметр тулова - 27 см, высота - 20 см. Диаметр дна — 11 см.

2. Кувшин с узким горлом и с одной ручкой круглого сечения, прикреплённые венчика к плечику кувшина. Дно плоское, диаметром -11 см. Высота сосуда - 35, 36 см. Диаметр тулова - 27 см. Диаметр венчика - 11, 12 см. Часть его обломана. Под ручкой выгравированы две горизонтальные линии, образующие поясок.

3. Кувшин черночерепковый биконической формы тулова без орнаментации с отогнутым венчиком широкой горловины диаметром - 15,3 см. Высота сосуда - 35 см; диаметр тулова - 32 см; диаметр дна - 12 см.

4. Тарелка - миска черночерепковая. Высота - 9 см, диаметр венчика - 28 см.

5. Черно-серый неравномерного обжига широкогорлый кувшин с профилированным венчиком с туловом образует полосу шириной 3 см. По краю пояса имеется три выступа - ручки на разном расстоянии, шириной в 3 см. Диаметр венчика - горловины - 20х165 см. Высота сосуда 18 см; диаметр тулова - 27 см. Донышко выделено, диаметром в 10 см. Под венчиком и до самой широкой части тулова (почти середина) имеется орнаментация, состоя щая из нескольких вертикальных линий и между ними две линии перекрещены.

6. Широкогорлый кувшин - котел с двумя ручками круглого сечения. Высота сосуда - 16,5 см. Диаметр тулова - 23 см; диаметр горловины - 19,5х16 см.

7. Кувшин-котел черночерепковый, высотой - 21 см; ширина тулова - 27 см; диаметр венчика - 22 см, дна - 13 см. По плечику налеп с вмятинами, имитирующими вид шнура.

Восьмой керамический сосуд не подлежит восстановлению, ибо сильно разрушен.

Некрополь несомненно представляет большой интерес своими особенностями погребений. Многие погребения не содержат костяков, в некоторых они беспорядочно разбросаны, в других они переломаны и как будто сброшены на погребальный инвентарь. Все это затрудняет их интерпретацию. Обряд погребения весьма сложный, трудно объясним. Возможно в некоторых погребениях сложены кости после демациации - вторичного погребения, последующего за первичным воздушным захоронением или в результате эксгумации и повторного захоронения костей (реингумации).

Такой обряд погребения является проявлением культа предков, «а именно обряда некромации-«общения» одноплеменников умершего с его душой, которая выступает посредником между людьми и богом».

Кости предков, как бы, являясь частью магического ритуала, в основе которого лежит подсознательное мистическое отождествление умершего сородича с его остатками.

Эксгумация костей наиболее почитаемых предков происходила в связи с переселением древних общин на новое место и перенесения остатков в общую могилу на место нового могильника, для дальнейшей возможности отправления магических обрядов, связанных с культом предков. Подобный обряд отмечается и в «Истории» Геродота. Сравнительный материал из проведенных ранее раскопок археологов на данной территории, может помочь выявить характер обряда погребения на данном раскопе, где вскрыто 130 погребений.

## ЛИТЕРАТУРА

1. C.Ə. Xəlilov. Qərbi Azərbaycanın tunc dövrü və dəmir dövrünün əvvəllərinə aid arxeoloji abidələr. Bakı, 1959, s. 60.

2. Center for archaeological Studies. Geeorgian Academy of Sciences. Pipeline archaeology vol. 1. 1999, Tbilisi.

3. Тураев. История древнего Востока. Т. 1, с 121.

4. Е.В.Антоаова. Очерки культуры древних земледельцев Передней и Средней Азии. М., 1984, с.71

5. Абу Райхан Бируни. Книга вразумления начатками науки о звёздах. Избранные произведения т.6, Ташкент, 1975, с. 54

6. Фром Э. Психоанализм и религия. Сумерки богов. М.,1990



1
0 2 4 6
Q-95
3
Q-88
4
Q-68
2
Q-91
5
Q-94
6
Q-93
7
Q-92
8
Q-82
9


Q-84
1й слой
1
4й слой
Q-84
7ой слой
Q-84
Q-86
3
Q-85
2

**F.S. XƏLİLLİ**

## *Milli Azərbaycan Tarixi Muzeyində mühafizə edilən Şəmkir materialları (son tunc və ilk dəmir dövrü)*

Azərbaycanın qədim və orta əsr tarixinin öyrənilməsində Şəmkir rayonunun ərazisində aşkar olunmuş maddi mədəniyyət nümunələri mühüm əhəmiyyətə malikdir. Həmin maddi mədəniyyət nümunələrinin bir qismi Milli Azərbaycan Tarixi Muzeyinin Arxeologiya fondunda mühafizə edilir.

Azərbaycanın öz elmi təşkilatları içərisində ilk dəfə olaraq Azərbaycan Tarixi Muzeyi arxeoloji qazıntılar aparmışdır (1, s. 178-183). 1921-ci ildə «Muzeydən ezamiyyə və Gəncə quberniyasının Gəncə qəzasındakı kurqanlarda qazıntı aparmaq hüququ» alan V.Qukasov Gəncə qəzasının 3 kəndində yerləşən 7 kurqanda arxeoloji tədqiqat işləri aparmışdır (2).

İyun ayının 1-də Şəmkir rayonunun Nərimanlı kəndində Şamir dərəsi adlanan yerdə Azərbaycan Tarixi Muzeyinin ilk arxeoloji qazıntısına başlanmışdır. Hesabatda qeyd olunduğuna görə bu kurqanın uzunluğu 10 arşın (7,2 m), eni 5 arşın (3,6 m), hündürlüyü 2,5 arşın (1,8 m) olmuşdur. Ətrafına xırda daşlar düzülmüş qəbrin üstü üç böyük yastı daşla örtülmüşdü. Qəbirdən aşkar edilən skeletin başı şərqə tərəf uzadılmış vəziyyətdə olmuşdur. Qəbir avadanlığı içərisində tunc qolbaq, bıçaq (şəkil 1), üç ədəd saç borusu (şəkil 2) və gil qab əldə edilmişdir (3). Qazıntının müəllifi tapılmış əşyaların xüsusiyyətinə görə skeletin kişiyə məxsus olduğunu ehtimal etsə də (4, s.5), avadanlıqdan da göründüyü kimi, daha çox qadına məxsus ola biləcəyi təəssüratı yaranır.

Nərimanlı kəndində uzunluğu 7 arşın (5 m), eni 3 arşın (2,13 m), hündürlüyü 2 arşın (1,42 m) olan ikinci kurqan Kəkəlü adlı yerdə tədqiq olunmuşdur (4). Qəbrin üzərini örtən böyük yastı daşların yerləşməsi birinci kurqandan fərqlənirdi. Belə ki, üç böyük yastı daş demək olar ki, qəbrin üstünü bağlamış və dördüncü yastı daş da qəsdən açıq saxlanmış yeri örtmüşdür. Bu kurqandakı skeletin də başı şərqə uzadılmışdı. Qəbirdən qolbaq, üzük və ayparaşəkilli sinə bəzəkləri (şəkil 3) əldə edilmişdir (5).

Ekspedisiya Nərimanlı kəndində yerli sakinlərdən təsadüfi tapıntılar nəticəsində aşkar olunmuş maddi mədəniyyət nümunələrini də toplamışdır (7). Arxeologiya fondunda Nərimanlı kurqanlarından olduğu qeyd edilən 10-dan çox gil qab saxlanılır. Qabların hamısı boz və qara rəngli olub, yaxşı bişirilmişdir (şəkil 4). Əsasən üzərləri cilalanmış, bəzi hallarda müxtəlif naxışlar vurulmuşdur. 1921-ci ildə Gəncə qəzasının Nərimanlı, Qotul və Çovdar kəndlərindən aşkar olunmuş arxeoloji materiallar həmişə arxeoloji ədəbiyyatda Gəncə-Çovdar adı ilə qeyd olunmuş, heç vaxt onların müxtəlif abidələrdən əldə edildiyi qeyd edilməmişdir. Qazıntı hesabatının muzeyin «Sənədli Mənbələr fondu»nda olmasına baxmayaraq, qazıntı materiallarının qeydə alındığı Arxeologiya fondunun I inventar kitabındakı məlumatlar dəqiqləşdirilməmişdir. Burada arxeoloji materialların hamısı Gəncə qəzası ümumi adı ilə verildiyindən, tədqiqatçılar buna diqqət yetirməmiş, bütün materialların Çovdardan olduğunu

zənn etmişlər. Araşdırmamız zamanı bu dolaşıqlıq üzə çıxarılmış, yuxarıda da göründüyü kimi, kurqan materiallarının inventar kitabındakı yeri müəyyənləşdirilmişdir. 1921-ci il Gəncə qəzası (Nərimanlı, Qotul və Çovdar) arxeoloji materialları V.Qukasovun qeyd etdiyi kimi, kurqanlardan deyil, əslində, daş qutu qəbirlərdən aşkar olunmuşdur. Onun qəbirlərin qazıntısını təsvir etməsindən və həmin abidələrdə sonralar aparılan arxeoloji qazıntılardan bu aydın görünür.

Nərimanlı abidəsi Xocalı-Gədəbəy mədəniyyəti arealına daxildir. Buradan tapılmış maddi mədəniyyət nümunələri son tunc və ilk dəmir dövründə bu ərazidə yaşamış qədim azərbaycanlıların dünyagörüşünü, aralarında hiss edilən sosial bərabərsizliyi, sənətkarlığının, hərb sənətinin inkişaf səviyyəsini öyrənməyə imkan verir. Çar Rusiyası dövründə canişinlik mərkəzi Tiflis şəhəri olduğundan, Qafqazın müxtəlif yerlərindən aşkar edilən arxeoloji materiallar bir qayda olaraq burada yerləşən Qafqaz Muzeyinə gətirilirdi. Odur ki həmin dövrdə Azərbaycanın qazıntılar aparılmış abidələrindən Qafqaz Muzeyinə çoxlu sayda arxeoloji materiallar daxil olmuşdur. 1925-ci ildə Qafqaz Muzeyi bu maddi mədəniyyət nümunələrinin müəyyən hissəsini Davud Şərifovun bilavasitə səyi nəticəsində Azərbaycan Tarixi Muzeyinə təhvil vermişdir (7,s.l328). Qafqaz Muzeyi materialları öz elmi dəyərini yalnız əşyanın varlığında və abidənin adında saxlaya bilmişdir. Hətta nə vaxt, necə və kim tərəfindən tapılması məlum olmayan bu materialların bu cür yarımçıq qeydiyyatının aparılması tədqiqatçının işini çətinləşdirir. Bir sözlə, əksəriyyəti saxsı məmulatından ibarət olan Redkin lager materialları XIX-XX əsrin əvvəllərində keramikanın dövrünü təyin etmə baxımından etalon kimi götürülürdüsə, indi də elmi əhəmiyyətini itirməmişdir. Amma onlar haqqında zəruri dəqiqləşdirmələrin aparılmasına ehtiyac vardır.

Təzadlı vəziyyət yaranmışdır. Arxeoloji materiallar tapıldığı yer, il, abidə və tapan şəxs adları qeyd olunmadan Arxeologiya fondunun inventar kitabında qeydə alınmışdır. Bu kitaba baxan hər hansı tədqiqatçı tapıntıların yalnız Redkin lagerdən olduğunu anlayar. Əslində isə daha çox abidənin materiallarının təhvil verildiyi təəssüratı yaranır. 1925-ci ildə tərtib olunmuş aktda Qafqaz Muzeyinin Redkin lager, Şuşa, Anenfeld, Çomaqlı, Zəylik, Göyçay qəzası Yenikənd kəndi və Bakı qəzasından aşkar olunmuş maddi-mədəniyyət nümunələrini Azərbaycan Tarixi Muzeyinə təhvil verdiyi aydın olur. Odur ki, Arxeologiya fondunun inventar kitabından istifadə edən tədqiqatçı istəmədən yanlışlığa düşə bilər. Beləliklə, Redkin lager materialları kimi qeyd olunmuş bəzi materialların Anenfelddən (Şəmkir) Qafqaz Muzeyinə, oradan da Azərbaycan Tarixi Muzeyinə təhvil verildiyi üzə çıxarılmışdır. Şəmkir arxeoloji materialları - xəncərlər, nizə ucluğu, ox ucluqları, qolbaq, məftildən üzük-halqa, maqqaş və müxtəlif muncuqlar dəqiqləşdirilərək seçilmişdir (8).

Məlum olduğu kimi görkəmli arxeoloq Yakob Hummelin çoxillik arxeoloji qazıntıları nəticəsində aşkar olunmuş arxeoloji materialları Xanlar Diyarşünaslıq Muzeyində toplanmışdır. 1955-ci ildə Azərbaycan Tarixi Muzeyi öz elmi ekspozisiyasını yaradarkən Xanlar Diyarşünaslıq Muzeyinin yeni daş dövrü, son tunc-ilk dəmir dövrü və ilk orta əsrlərə aid materiallarını nümayiş

etdirmək və daimi mühafizə üçün qəbul etmişdir. Həmin materiallardan biri Şəmkirdə aşkar olunmuş daşdan təbərzintökmə qəlibidir (9). Həmin qəlibi XX əsrin 30-cu illərində Qaraarx kanalı çəkilərkən fəhlələr təsadüfən tapmışlar (10, s.16). Xocalı-gədəbəylilərin Cənubi Qafqaz təbərzinlərinin kütləvi istehsalı ilə məşğul olduğunu söyləmək üçün ən tutarlı dəlil olan bu təbərzintökmə qəlibinin uzunluğu 19,5 sm, eni 16 sm, qalınlığı 8 sm-dir (şəkil 5). Həmin qəlib Azərbaycan Tarixi Muzeyinin bütün elmi ekspozisiyalarında, 2006-2007-ci illərdə isə Azərbaycan Tarixi Muzeyinin Norveç krallığının Stavanger şəhərində təşkil olunmuş sərgisində də nümayiş etdirilmişdir. 1960-cı ildə maraqlı materiallar verən kurqanlardan biri təsadüfən Şəmkir rayonunun Qasım-İsmayılov kəndində açılmışdır. Tapıntı yerinə Tarix İnstitutunun elmi işçiləri İdeal Nərimanov, Qüdrət İsmayılov və Mansur Mansurov ezam olunmuşdur. Onların həm sakinlərdən, həm də kurqanın qalıqları içərisindən topladığı gil və daş qablar, tunc əşyalar və bəzək nümunələrindən ibarət arxeoloji materiallar muzeyə daimi mühafizə üçün təhvil verilmişdir. İdeal Nərimanov həmin tapıntıları təhlil etdiyi məqaləsində maddi mədəniyyət nümunələrini e.ə. VIII-VII əsrlərə aid etmişdir (11, s.714). Son tunc və ilk dəmir dövründə daşişləmə sənətinin inkişafını göstərən əlamətlər daş qabların hazırlanmasında aydın görünür. Daş qablar əsasən tufdan və əhəngdaşıdan hazırlanmışdır. Qasım-İsmayılovdan bu cür tufdan qabların iki nümunəsi tapılmışdır. Həmin tuf qablar tünd-qəhvəyi rəngdədir (11, s.711). Onlardan biri vazformalı olub, konusvari altlığı vardır. Usta qaba zəriflik və müqəddəslik verməsi məqsədilə vazın bir tərəfindən qoçbaşlı qulp əvəzedicisi olan çıxıntı çıxarmışdır (şəkil 6). Vazın hündürlüyü 8,5 sm, ağzının diametri 18,5 sm-dir (12). Qasım-İsmayılovdan tapılmış ikinci daş qab-xeyrə alçaq, lakin dabanlı oturacağa malikdir. Onun ağzının diametri 20x17 sm, oturacaq diametri 5 sm, hündürlüyü 3 sm-dir. Qasım-İsmayılov tuf qablarına oxşar nümunələr Mingəçevirin kurqan və torpaq qəbirlərindən də məlumdur (13, s.20; 14, s.105).

1963-cü ildə Şəmkir rayonunun Nərimanlı kəndində dəmirçixana yaxınlığında təsərrüfat işləri görülərkən nadir əşyalar - tunc təbərzin balta, qılınc, xəncər (şəkil 7), bıçaq, biz, mıx, düymə və üzük aşkar olunmuşdur. Tapıntılar haqqında ilkin məlumat verən Nəsimi Quliyev həmin materialları təsvir etmiş və Xocalı-Gədəbəy mədəniyyəti dövrünə aid etmişdir (15).

Tapılmış tunc qılınc Xocalı-Gədəbəy tipli qılınclardandır (16). Onun tiyəsi enli, ucu yarımdairəvidir (şəkil 8). Nərimanlı qılıncının hər iki üzü beş ədəd novşəkilli xətlə bəzədilmişdir. Dəstəklə tiyənin birləşdiyi hissədən iki ədəd batıq üfüqi xətt keçir. Bu xətlərin arasındakı sahə kiçik nöqtələrlə, ondan 0,5 sm aşağıda isə cızma üsulu ilə spiralvari xətlərlə naxışlanmışdır. Tiyənin dəstəyə yaxın yerində hər iki üzdə günəş və keçi təsvirləri vardır (şəkil 9). Günəş şüalarının onların üzərinə düşməsi nöqtələrlə göstərilmişdir. Qılıncın ümumi uzunluğu 72 sm, tiyəsinin dəstəyə yaxın hissədə eni 7,5 sm, ucunda eni 2 sm-dir. Bu qılınclara vurulmuş bəzəklərə Xocalı-Gədəbəy mədəniyyətinə məxsus gil qablar üzərində tez-tez rast gəlinir.

1989-cu ildə Şəmkir rayonunun Qaracəmirli kəndində aparılan arxeoloji qazıntılar nəticəsində Münəvvər Hüseynovanın aşkar etdiyi maraqlı tapıntılar tuncdan maral və quş formalı, belşəkilli standartlar (tuğ-bayraqlar), at üçün əsləhə və bəzəklər, gildən quş fiqurları və qablar 10 inventar sayı altında Azərbaycan Tarixi Muzeyinə təhvil verilmişdir (17).

Öz unikal formaları ilə diqqəti xüsusilə cəlb edən tuğ-bayraq başlıqlarının tunc dövründə dövlətçilik rəmzləri kimi istifadə olunduğu ehtimal edilir. Tarixdən məlumdur ki, tuğ-bayraqlar qədim xalqlarda xüsusilə, türklərdə geniş yayılmışdır. Tuğlar hökmdar tərəfindən əyanlara hakimiyyət rəmzi mənasında verilirdi. Tunc dövrünün tuğ-bayraq başlıqları Qaracəmirli kurqanlarından da məlumdur (18, s.57). Tökmə üsulla hazırlanan tuğ-bayraq başlığı iki hissədən ibarət olub, iri halqaya birləşdirilmiş maral bədənlidir (şəkil 10). Onun döyüş arabasına bərkidildiyi, döyüşlər zamanı tuğ-bayraq rolunu oynadığı düşünülür.

Belşəkilli tuğ-bayraq başlığı tunc lövhədən yarımdairəvi formada döyülərək hazırlanmışdır (19). Onun hər iki üzündə günəş və həndəsi naxışlar cızılmışdır (şəkil 11). Yuxarı hissəsində uzunsov deşik açılan dəstəsi ilə birlikdə uzunluğu 21 sm-dir. Yarımdairəvi digər tuğ başlığı Küdürlü kurqanından tapılmışdır. O, Qaracəmirli tuğ başlığı ilə tam oxşardır. Onun da uzunluğu 21 sm olub, tunc lövhədən döyülərək düzəldilmişdir. Belşəkilli bu tuğ başlığı yalnız saya olması ilə fərqlənir. Kurqandan tapılmış bu maddi mədəniyyət nümunələri ekspozisiyanın tunc dövrü bölməsində nümayiş etdirilir. Maraqlı tunc gəmlərdən biri isə Qaracəmirli kurqanından tapılmış Luristan tipli at gəmidir (20). Bu gəmin baş hissəsi begemot, arxa tərəfləri isə şir bədəni formasında düzəldilmişdir (şəkil 12). Gəmin uzunluğu 20 sm, əfsanəvi heyvanın uzunluğu 13 sm-dir. Münəvvər Hüseynova və Tufan Axundov həmin gəmləri Hett mədəniyyəti arenasına aid edir, Azərbaycana bu mədəniyyətin təsiri nəticəsində daxil olduğunu ehtimal edirlər (18, s.58).

Qaracəmirlidən tapılmış iri həcmli (hündürlüyü 34 sm) küpün üzərində heyvanların ön planda qabarıq verildiyi bütöv bir ayin təsvir olunmuşdur (18, s.56). Küp qara rəngli olub, heyvan və digər təsvirlər ağ pasta ilə inkrustasiya olunmuşdur (şəkil 13). Təsvirlər cızma üsulu ilə həkk edilmişdir. Qabın ağzı kənara qatlaq, oturacağı isə yastıdır. Gövdəsi qabarıq olub, çiynində təsvirlərin verildiyi iki cərgə kəmər şəklində fərq etdirilmişdir. Birinci cərgədə sxematik şəkildə maral, ikinci cərgədə isə öküz təsvir olunmuşdur. Birinci cərgədə səma cisimlərindən dairəvi şəkildə onbirguşəli ulduz, ikinci cərgədə svastika şəklində günəş təsvir edilmişdir. Görünür, usta düşüncəsindəki fantaziyanı maraqlı kompozisiyalar yaradaraq qab üzərinə köçürməklə həmin qaba müqəddəslik gətirməyə çalışmışdır. Qabın sahibi olan əyanı öldükdən sonra da axirətdə müşayiət etsin deyə qəbrinə qoyulmuşdur. Bu qab Xocalı-Gədəbəy mədəniyyəti tipli qabların ən qədimlərindən (e.ə. 1500) hesab oluna bilor. Ola bil-sin ki, Xocalı-Gədəboy mədəniyyətinə sahib olan qədim azərbaycanlıların bir hissəsi öz soykökünü marallarla bağlamışdır. Bunu Qaracəmirlidən aşkar olunmuş maralbədənli tunc tuğ-bayraq da sübut edir.

2003-cü ildə Şəmkir rayonunun Bayramlı kəndində Kür hövzəsindən tapılmış yarpaqşəkilli, iki paralel çıxıntılı, maili, aypara formalı, dəstəsi düz, hamar, ucunda deşiyi olan tunc bıçaq Muzeyin elmi işçisi Viktor Kvaçidze tərəfindən təhvil verilmişdir (21). Digər Şəmkir tapıntıları kimi bu bıçaq da son tunc və ilk dəmir dövrünə aid edilmişdir.

Şəmkir rayonu ərazisindən tapılmış arxeoloji materiallar nəinki Azərbaycan tarixinin ayrı-ayrı məsələlərinin öyrənilməsində, həm də Azərbaycan Tarixi Muzeyinin ekspozisiyasının zənginləşdirilmə-sində mühüm mənbələrdəndir.

## ƏDƏBİYYAT VƏ QEYDLƏR

1. Xəlilov F.S. Azərbaycan Tarixi Muzeyinin ilk arxeoloji səfərləri (1921-22-ci illər) // Azərbaycan Tarixi Muzeyi - 2004, s. 178-183.
2. AMEA Azərbaycan Tarixi Muzeyi Sənədli Mənbələr fondu: Azərbaycan Dövlət Muzeyinin 1921-ci ilin iyununda Gəncə qəzasında apardığı kurqanların qazıntısı haqqında hesabat, inv. № 36.
3. AMEA Azərbaycan Tarixi Muzeyi Arxeologiya fondu: inv. №79.
4. AMEA Azərbaycan Tarixi Muzeyi Sənədli Mənbələr fondu: inv. № 36, s. 5.
5. AMEA Azərbaycan Tarixi Muzeyi Arxeologiya fondu: inv. №75.
6. AMEA Azərbaycan Tarixi Muzeyi Sənədli Mənbələr fondu: inv. № 36, s. 7; AMEA Azərbaycan Tarixi Muzeyi Arxeologiya fondu: inv. № 82-83.
7. Xəlilov F.S. Müxtəlif muzeylərdən Azərbaycan Tarixi Muzeyinə daxil olmuş arxeoloji materiallar // Azərbaycan Milli Elmlər Akademiyasi aspirantlarının elmi konfransının materialları (Məcmuə). II hissə. Bakı: Elm, 2006.
8. AMEA Azərbaycan Tarixi Muzeyi Arxeologiya fondu: inv. №1025-1031; 1033-1035.
9. AF № 860.
10. Xəlilov C.Ə. Qərbi Azərbaycanın tunc dövrü və dəmir dövrünün əvvəllərinə aid arxeoloji abidələri (Şamxor və Zəyəm çayları hövzələri). Bakı: Azərbaycan SSR Elmlər Akademiyası Nəşriyyatı, 1959.
11. Нариманов И.Г. Разрушенный курган села Касум Исмаилова Кировабадского района // Доклады АН Азерб. ССР, 1971, т. XVI, №7.
12. АФ№1986.
13. Казиев СМ. Археологические раскопки в Мингечауре // Материальная культура Азербайджана, 1949, т. I.
14. Nərimanov İ.H. Gəncəçay rayonunun arxeoloji abidələri: ən qədim zamanlardan ilk dəmir dövrünün əvvəllərinə qədər. Bakı: Azərbaycan SSR EA Nəşriyyatı, 1958.
15. Quliyev N.M. Şamxor rayonundan tapılmış yeni arxeoloji materiallar // Azərbaycan SSR Elmlər Akademiyasının Məruzələri, 1965, c XXI, № 11, s. 84-88.
16.AF№858.
17. AMEA Azərbaycan Tarixi Muzeyi Arxeologiya fondu: inv. № 21644-21653.

18. Гусейнова М., Ахундов Т. На колесницах в поисках бессмертия // Azerbaijan-Irs, 1999, winter-spring
19. AF№1181.
20. AMEA Azərbaycan Tarixi Muzeyi Arxeologiya fondu: inv. № 21746.
21. AMEA Azərbaycan Tarixi Muzeyi Arxeologiya fondu: inv. №21763.


10


11


12


13


1
0 2 4 6
2
3
0 2 4 6
0 2 4 6
4
0 3 6 9


5
7
8
6


9

**A.M. AĞALARZADƏ**

## *Zəyəmçay yaxınlığındakı bir katakomba qəbri haqqında*

2005-ci ilin yayında Bakı-Tbilisi-Ceyhan boru kəməri marşrutunun Şəmkir rayonu ərazisindən keçən hissəsində, t.e.n. S.Aşurovun rəhbərliyi altında aparılan arxeoloji qazıntılar zamanı (bilavasitə müəllifin iştirakı ilə) katakomba tipli qəbir abidəsi tədqiq edilmişdir. Əvvəla qeyd edək ki, Şəmkir rayonunun ərazisindən keçərək kəmərlərin marşrutu boyunca ilkin araşdırmalar zamanı bir neçə yerdə kəşfiyyat şurfları qoyulmuşdur. Şurfların qoyulmasında məqsəd arxeoloji abidələrin varlığını müəyyən etmək olmuşdur (1,7). Yaxınlıqda son tunc - ilk dəmir dövrünə aid «San rəmə» və ya «Yataq rəməsi» adlandırılan qədim yaşayış yeri və Zəyəmçayın sahilinə doğru hissədə qədim nekropol yerləşir. Düyərli kəndinə tərəf olan sahədə isə bir neçə yerdə arxlar və mühəndis texniki qurğular qurularkən antik dövrə aid maddi mədəniyyət qalıqları dağıdılmışdır. Keramika məmulatının ilkin analizi, ətrafda antik dövrə aid qəbirlərin olduğu ehtimalını söyləməyə imkan verir. İlkin tədqiqatlar aparılarkən təpənin üzəri qalın alaq otları ilə örtüldüyündən, heç bir maddi mədəniyyət qalığına rast gəlinmədi. Lakin təbəqənin məlum olduğunu müəyyən etmək üçün təpənin bir tərəfində kiçik ölçülü (lxl m) yoxlama surf qoyulmuşdur. Təqribən 60-70 sm qazıldıqdan sonra kiçik keramika parçaları aşkarlandı. Bu materiallar son tunc – erkən dəmir dövrünə aiddir. Təpənin abidə və ilkin müşahidələrə görə, kurqan olduğu ehtimal olundu. Kurqan abidələrinin qazıntısı üçün xarakterik olan qazıntı forma və üsullarından istifadə etməklə təpənin tədqiqinə başlandı. Qazıntı zamanı müəyyən edildi k:i, abidə katakomba qəbirdən ibarətdir.

Qəbir abidəsinin qazıntısı zamanı metal məmulatı və hər hansı skeletə aid sümüklər aşkarlanmadı. Keramika məmulatı isə tam dağıdılmış formada əldə olundu. Bütün bu amillər xüsusi analizlərin aparılmasına imkan vermədi.

Abidə Şəmkir rayonu ərazisində, BTC marşrutunun üzərində, Bayramlı və Düyərli kəndləri arasında yerləşir. Alçaq təpənin şimalında «Sarı rəmə» və ya «Yataq rəməsi» adlandırılan son tunc - ilk dəmir dövrü yaşayış yeri vardır. Yaşayış yeri və katakombanın arasından enli çay yatağı keçir və bu çayın yarğanlarında arxeoloji materiallar və mədəni təbəqə aydın görünür. Təpənin cənubundan isə ona bitişik ara yolu keçir. Yoldan cənuba olan ərazilər uzun illər əkin sahəsi olmuşdur. Təpənin bir tərəfindən bu sahələri suvarmaq üçün kiçik arx salınmışdır.

Alçaq süni təpə şimal-cənub və şərq-qərb istiqamətində 4 sektora ölündü və şimal oxundan başlayaraq saat əqrəbi istiqamətində 1, , 3, və 4 № kimi nömrələndi. Təpənin diametri şərq-qərb istiqamətdə 23 m, şimal-cənub istiqamətdə isə 20 m-dir. Torpağın üst qatları asan qazılır və tək-tək hallarda saxsı qabların hissələrinə və kömür qalıqlarına rast gəlinir. Lakin dərinlik 40 sm-ə çatdıqda məlum oldu ki, təpənin 2, 3,4-cü sektorlarından vaxtilə çay keçmişdir.

Bu hissələrdə enli zolaq şəklində çay çöküntüləri təmizləndi. Yalnız 1 saylı sektorda torpaq qatının yumşaq qazıldığı hiss olundu. Süni tökmə təpənin ilkin olaraq yalnız 1 №-li sektoru əhatə etdiyi müəyyən edildi. Bu sektorun qazıntıları 30 sm-ə çatdırıldıqda maraqlı qırğu (katakomba) açıldı. Dairəvi quyu formalı hissənin ağız diametri 1,25 m-idi. Təqribən 30 sm qalınlığında möhrədən qurulmuşdur. Daxilində güclü yanğın olduğundan, divarları bişmiş və nəticədə qırmızı rəng almışdır. Qurğunun daxilinə kiçik suvaq parçaları tökülmüşdür. Bu laydan aşağıda quyuyabənzər hissənin daxili müxtəlif keramika məmulatının və daş alətlərin sınıqları ilə doldurulmuşdur. Keramika məmulatı əsasən irihəcmli təsərrüfat küplərinin ağız hissələrindən ibarətdir. 35 sm dərinlikdən başlayaraq hissə daha asan qazılır və torpaq kül və kömür qatışıqlıdır. Bu qatlarda çox kiçik sümük parçalarından başqa, heç bir maddi mədəniyyət nümunəsi aşkar edilmədi. Quyuyabənzər hissə 55-60 sm təmizləndikdən sonra, onun şimal-şərq istiqamətinə uzanan, diametri 40 sm, uzunluğu 80 sm olan keçidi (dromos) təmizləndi.

Keçidin ağzı quyu tərəfdən iki ədəd daşla örtülmüşdü.

Dromosun daxili yalnız yanmış torpaqla dolmuşdu. Dromos maili istiqamətdə qəbir çalası ilə qurtarır. Qəbir çalasının eni 1,70 m, uzunluğu 1,50 m idi. Qəbir çalası quyuyabənzər hissənin dibindən 40 sm dərinlikdə yerləşirdi. Qəbir çalası eyni ilə xüsusi gillə qurulmuş və güclü yanmışdır. Bu hissə də yanmış torpaq və kül qatışığından ibarətdir. Qəbir çalasının daxilində bir neçə daş təmizləndi. Daşlardan yalnız biri müəyyən formaya malik idi. O, sanki çəkməyə bənzəyir. 52 sm uzunluğa malik bu daş insan fiqurunu xatırladır. İstər qəbir çalası və istərsə də quyuyabənzər hissə güclü dağıdılmış və qərət olunmuşdu. Bu səbəbdən onun daxilində heç bir avadanlığa rast gəlinmədi. Çox güman ki, katakombanın üzərində torpaq təpəsi (kurqan) olmuşdur. Lakin zaman keçdikcə bu hissə dağılmış və məhz bu səbəbdən təpə yastılanmış və torpağı ətrafa yayılmışdır. 2 saylı sektor təmizlənərkən onun bir tərəfində, katakombaya yaxın hissədə bir ədəd dağıdılmış küpə təmizləndi. Çox güman ki, küpə katakombaya məxsus olmuşdur.

Katakombadan tapılan arxeoloji materiallar keramika məmulatı və daş əşyalardan ibarətdir. Keramika məmulatı küp, küpə, kasa və bir neçə saxsı qab qırıqları ilə təmsil olunur. Bunlar aşağıdakılardır:

1. Şargövdəli küpə tipli qab hissəsi. Ağız kənarı geriyə qatlanır. Boğazdan gövdəyə keçid hiss olunur. Gövdənin ağız kənarına birləşdiyi hissəni iki, gövdənin mərkəzini isə bir qabartma üfüqi xətt haşiyələyir. Çiyin hissə, gövdədəki və çiyin hissədəki qabartma xətlərin arası torşəkilli formada naxışlanmışdır. Naxışlar cila üsulu ilə çəkilib. Qab dulus çarxında hazırlanıb.

2. Kiçik kasa tipli qab qırığı. Çiynindən başlayaraq ağız kənarına doğru boğaz hissəsi daralır. Ağız kənarı xaricdən bir ədəd basma xətlə haşiyələnib. Gövdə hissə azca qabarıqdır. Qara-qonur rənglidir.

3. Geniş ağızlı kasa tipli qabın fraqmenti. Düz boğazı ağız kənarında sanki bad formasındadır. Boğazın hündürlüyü 3 sm-dir. Boğaz hissəni bir-birinə paralel basma xətt haşiyələyir. Qara rəngdədir.

4. Sarı-qonur rəngli, iri qum qatışıqlı gildən hazırlanmış silindrik əşyanın qırığı. Aşağı hissəsi genişlənir. Oturacaqda diametri 10 sm-ə yaxın olmuşdur. Mərkəzində diametri 2 sm olan şaquli deşiyi vardır. Yuxarı hissəsi və yarısı sınmışdır.

6. Qalın divarlı, iri qum qatışıqlı gildən hazırlanmış təsərrüfat küpünün fraqmenti. Divarının qalınlığı 2 sm-dir. Üzərində eni 5 sm olan köbə vardır. Köbənin üzəri yaş gil üzərində dərin cızma üsulu ilə naxışlanmışdır. Bir tərəfdə 5, digər tərəfdə isə 1 şaquli xətt çəkilmişdir. Onların arasına «X» işarəsinə bənzər çarpaz xətlər çəkilib.

8. Boz-qonur rəngli təsərrüfat küpünün ağız hissəsi. Divarının qalınlığı 2 sm, ağız badının eni 6,5 sm-dir. Səthi hisin təsirindən qaralmışdır. Ağız kənarında diametri təqribən 28 sm olmuşdur.

9. Boz rəngli təsərrüfat küpünün sınığı. Bad üsulu ilə hazırlanıb. Boğaz hissəni ensiz və nazik köbə əhatələyir.

10. Boz rəngli təsərrüfat küpünün qırığı. Daxildən aşınıb, divarının qalınlığı 2,5 sm, ağız badının eni 8 sm-dir. Boğazın aşağı hissəsini əhatələyən cızma naxışın az bir hissəsi qalmışdır. Naxış daraqvari alətlə çəkilib.

11. Qara-qonur rəngli küpün ağız hissəsi. İri qum qatışıqlı gildən hazırlanıb. Divarının qalınlığı 2,5 sm, ağız səthinin eni 6 sm-dir. Səthi yanma nəticəsində qaralıb.

12. Qara-qonur rəngli təsərrüfat küpünün ağız hissəsinin sınığı. Divarının qalınlığı 3 sm, ağız səthinin eni 7 sm-dir. Daxili yanma nəticəsində aşınıb. Ağız səthi və çiyin hissəsi daraqvari alətlə dalğavari xətlərlə naxışlanmışdır.

13. Boz rəngli küpə tipli qabın hissəsi. Qalın divarlıdır. Gilinin tərkibində qum qatışığı vardır və keyfiyyətli bişirilmişdir. Küpün ağız kənarının sınığıdır. Çiyin hissədə üfüqi istiqamətdə çərtmə naxışlar vardır. Dulus çarxında hazırlanma əlamətləri bilinir.

14. Gilinin tərkibində qum və parçalanmış daş qatışığı olan, yaxşı bişirilmiş qonur rəngli küpə tipli saxsı qabın hissəsi. Dar boğazlı, gen gövdəlidir. Ağzının kənarı azca köbəli olub xaricə meyillidir.

15. Qalın divarlı, keyfiyyətli bişirilmiş, gilinin tərkibində qum və parçalanmış daş qırıqları olan küpə tipli qabın hissəsi. Ağız kənarı düz və xaricə meyillidir. Çiyin hissədə çərtmə naxış vardır. Üzərini his təbəqəsi örtmüşdür. Dulus çarxında hazırlanmışdır.

16. Gilinin tərkibi qum və parçalanmış daş qatışıqlı, qalın divarlı, keyfiyyətli bişirilmiş küpə tipli qabın hissəsi. Ağzının kənarı azca köbəli olub xaricə meyillidir. Üzərini his təbəqəsi örtmüşdür. Dulus çarxında hazırlanmışdır.

17. Gilinin tərkibi qum qatışıqlı, qalın divarlı, keyfiyyətli bişirilmiş qara rəngli saxsı qabın oturacağının hissəsi. Diametri təqribən 11 sm-dir.

18. Qalın divarlı, keyfiyyətli gildən yoğrulmuş, qonur-qəhvəyi rəngli, gilinin tərkibində qum və parçalanmış daş qatışığı olan gil qurğu hissəsi. Üzəri iri dişli dulus darağı ilə daraqlanmışdır. Kiçik bir hissəsi əldə olunduğundan, hansı məqsədlə istifadə olunduğunu söyləmək çətindir.

19. Boz rəngli küpə tipli qabın qırığı.

20. Qalın divarlı, qum qatışıqlı gildən hazırlanmış qabın fraqmenti. Uzun və dar boğazı, yana qatlanan ağzı, çiyin hissəsinin hər iki tərəfində isə yastı lentvari qulpu vardır. Qulplardan birinin yanında deşik açılmışdır. Qab dulus çarxında hazırlanıb. Katakomba qəbrindən aşkar olunan daş əşyalar dən daşı, daban daşı, ağırlıq daşı və dəstə tipli əşyadan ibarətdir.

1. Ağ rəngli əhəngdaşından uzunsov formalı əşya. Uc hissəsi sınmışdır. Eni 2,5 sm, uzunluğu 4 sm, qalınlığı ortada 2 sm-dir. Bir tərəfində burma üsulu ilə deşik açmağa cəhd edilmişdir. Tam açılmadığı üçün konusvari oyuğa bənzəyir.

2. Ağ rəngli çaylaq daşından hazırlanmış daş əşya. Uzunsov formalıdır. Bir tərəfində ikitərəfli deşik açılmışdır. Çox güman ki, asma olmuşdur. Uzunluğu 7 sm, eni 3 sm, qalınlığı 1,6 sm-dir.

3. Çaydaşından hazırlanmış dəstə. Yarı hissəsi sınıb. Uc hissəsi işlənmə nəticəsində yastılanıb. Uzunluğu 10 sm, diametri sınan hissədə 6,5 sm-dir.

4. Qara rəngli çaydaşından hazırlanmış don daşı. Alt hissəsi və bir tərəfi sınmışdır. Səthi yastıdır. Uzunluğu 40 sm, eni 21 sm, qalınlığı 7,5 sm-dir.

5. Açıq boz-ağ rəngli daşdan hazırlanmış dən daşının fraqmenti. 2 sınıqdan ibarətdir. Bir tərəfi - salamat qalmış hissəsi qayıqvari formada yuxarı qatlanır. Salamat hissədə uzunluğu 36 sm, eni 21 sm, qalınlığı 7,5 sm-dir.

6. Qalın və uzunsov formalı əhəngdaşından hazırlanmış daban daşı. Daşın yastı səthində üç yerdə dairəvi oyuq vardır. Onlardan ikisi dayaz, biri isə dərindir.

7. Uzunsov formalı, qırmızı rəngli əhəngdaşından hazırlanmış dabandaşı. Daşın yastı səthində, mərkəz hissəsində dairəvi oyuq vardır. Oyuğun diametri 10 sm, dərinliyi 5,3 sm-dir.

8. Ağ rəngli əhəngdaşından hazırlanmış kürə formalı ağırlıq daşı. Diametri 2,5 sm olan bu asmanın ortasında diametri 0,8 sm olan deşik açılmışdır.

Katakomba qəbirlər Azərbaycanda indiyədək az öyrənilmiş qəbir tipidir. O formasına görə, digər qəbir formalarından seçilir. Bu tip qəbirlər Azərbaycanda əsasən Mingəçevir qədim yaşayış yerində aparılan qazıntılar zamanı öyrənilmişdir. Həmin qəbirlər eramızın II əsrinə aid edilir. Lakin qonşu Dağıstan ərazisində bu tip qəbirlər geniş öyrənilmişdir. Dağıstan ərazisində ən erkən katakombalar tunc dövrünə (e.ə.III minilliyin birinci yarısma) aid edilir (2, 157). Katakomba qəbirlər indiki Qərbi Azərbaycan ərazisində də öyrənilmişdir və onlar əsasən e.ə. II minilliyin sonları və I minilliyin əvvələrinə aid edilir.

Katakomba qəbirlərin mənşəyi barədə bu günədək yekdil fikir yoxdur. Tədqiqatçıların bir qrupu bu qəbirlərin Qafqazda yayılmasını cənub-şərqi Avropa çöllərində yaşayan tayfalarla, başqa bir qrupu isə qədim zamanlarda Mesopotamiya və Anadolu ərazisində yaşayan tayfaların Qafqaza doğru yerdəyişməsi ilə əlaqələndirirlər (3, 39). İkinci ehtimalın təsdiqlənməsi üçün Azərbaycan ərazisində daha qədim dövrlərə aid katakombaların varlığı təsdiq olunmalıdır. Lakin hələlik Dağıstanda və ondan şimala doğru ərazilərdə yayılmış katakomba qəbirlərin (qədimlik və zənginlik baxımından) oxşarları Azərbaycanda

tədqiq edilmədiyindən, bu fikri təsdiqləmək mümkün deyildir. «Katakomba qəbirlərin quruluşu qədim insanların bilavasitə yaşayış üçün inşa etdikləri evlərin formasını xatırladır» (4,456) fikrini söyləyən tədqiqatçılar isə haqlıdırlar. Bu qəbirlər sanki ilk tunc dövründə geniş yayılmış dairəvi-günbəzvari planlı evlər və onlara bitişik dördkünc köməkçi tikililərin forması ilə eyniyyət təşkil edir. Şübhəsiz, Şəmkir rayonu ərazisində öyrənilmiş katakomba qismən dağıntıya və qarətə məruz qaldığından onun tarixi, mənsubiyyəti barədə qəti fikir söyləmək mümkün deyildir. Katakombanın qurulduğu sahədən əldə edilmiş azsaylı keramika məmulatı erkən dəmir dövrünə, yəni - e.ə. IX əsrə aid edilir. Hələlik bu keramika nümunələri əsasında katakombanın tarixini söyləmək fikrimizcə, düzgün olmazdı. Çünki bu materiallar sahəyə yaxınlıqdakı yaşayış yerindən təsadüfən düşə bilərdi. Bu əraziyə ilkin baxışlardan sonra daha bir neçə yerdə bu tip qəbirlərin olduğu ehtimal olunur. Yalnız ərazidə aparılacaq gələcək geniş qazıntılar dəqiq elmi fikirlər söyləməyə imkan verəcəkdir.

## ƏDƏBİYYAT


1. Aşurov S. BTC marşrutunun Şəmkir rayonu ərazisindən keçən hissədə, 355,600 km-də aşkar edilmiş katakomba tipli qəbrin qazıntısının qısa hesabatı. Bakı 2007.
2. Техов Б.В. Центральный Кавказ в XVI-X вв. до н.э. М., Наука, 1977.
3. Чеченов И.М. Курган 2 у селения Кишпек в Кабардино-Балкари. М., Наука, 1986.
4. Крупное Е.И. Древняя история Северного Кавказа. М.,1960.

**S.H.AŞUROV**

## *Çaparın son antik - ilk orta əsrlər abidəsi*

Erkən xristian abidələrinin tədqiqi Azərbaycan arxeologiyasının zəif öyrənilmiş problemlərindən biridir. Son illər Azərbaycanın şimal-qərb və qərb bölgələrində bir sıra erkən xristian abidələri qeydə alınmış və arxeoloji qazıntılar nəticəsində öyrənilmişdir. Şəmkir rayonu ərazisindəki Çaparlı bu tip abidələrdən biridir. Cənubi Qafqaz qaz kəmərinin çəkilişi zamanı Şəmkir rayonunun Çaparlı kəndi ərazisində, yerli əhali tərəfindən «Qışlaq yeri» adlandırılan sahədə arxeoloji qazıntılar aparılmış və nəticədə tikili qalıqları, xristian qəbirləri və məbəd yeri, metalərİtmə emalatxanasının qalıqları və çoxsaylı maraqlı arxeoloji tapıntılar aşkarlanmışdır. İlk qəbirlər 30-35 sm. dərinlikdə açılmışdır. Qəbirlərin istiqamətlərinin hamısı şərq-qərb tərəfdir. Bu qəbirlərdə arxasıüstə uzadılmış skeletin əlləri sinə üstündə və bəzilərində cinsiyyət orqanları üzərində çarpaz formada birləşdirilmişdi. Qəbirlər istər forma etibarilə və istərsə də dəfn adətinə görə bir-birindən fərqlənmirlər. Hamısı küncləri oval olan dördkünc formadadır. Onların hamısınm daxilində nisbətən ensiz şan qazılmışdır. Skeletlər məhz bu hissələrdə yerləşdirilmişdir. Tək dəfn tam üstünlük təşkil edir. Yalnız III kvadratın ərazisində maraqlı kollektiv dəfn adəti qeydə alınmışdır. Yer üstündən xaç formasında qazılmış qəbir çalasının daxilində, xaç işarəsinin hər tərəfində bir skelet olmaqla 4 insan dəfn olunmuşdur. Xaçm şərq və qərb çıxıntıları hissəsində dəfn olunmuş skeletlər yaşlı insana məxsusdur və onlar digər iki qəbirdən nisbətən dərindədir. Sol tərəfdə olan qəbir yeniyetməyə, sağ tərəfdəki qəbir isə uşağa məxsusdur. Ümumiyyətlə, müşahidələr göstərir ki, nekropoldakı qəbirlərdə dəfn müxtəlif dərinlikdə aparılmışdır. Yaşlı insan qəbirləri daha dərində, uşaq qəbirləri isə üzdədirlər. Xaç formalı qəbrin daxilindən heç bir maddi mədəniyyət qalığına rast gəlinməmişdir. Çox güman ki, bu qəbirdə bir ailə dəfn olunmuşdur. Lakin dəfn eyni zamanda aparılmışdır. Çünki qəbirin üst hissəsinin eyni zamanda qazıldığı aydın müşahidə olunur. Sahədə təmizlənmiş qəbirlərin yalnız birində - tikili qalığının bir küncündə təmizlənmiş uşaq qəbirində arxeoloji materiallara rast gəlindi. Bunlar muncuqlardan və tunc bəzək əşyalarından ibarətdir. VI kvadratda iki tikili üst-üstə qurulmuşdu. Ən üst qatda ensiz divar şərq-qərb istiqamətdə uzanır. Divarın uzunluğu təqribən 2,5 m, eni 40-50 sm-idi. Bir cərgə çaydaşlarından qurulmuş divarın şərq tərəfinə qazıntı sahəsindən kənara doğru uzanan digər bir divar bucaq formasında birləşdirilmişdir. Ümumi görünüşdə sanki dördkünc bina qalığını xatırladır. Divarların arasından tapılmış iki ədəd üzəri oyma naxışlarla bəzədilmiş daş aşağı qatlardakı tikintinin memarlıq elementlərindən olmuşdur. Bəzi yerlərdə aşkar edilmiş birinci tikinti qalıqları ilə eyni səviyyədə, divarın yerləşdiyi hissədə isə bilavasitə divarın altından başqa bir tikilinin qalıqları aşkar edildi. Bu tikinti qalığı özünün forma və quruluşuna görə əvvəlkindən əsaslı şəkildə fərqlənir.

İri əhəng daşlarından tikilmiş tikinti qalığı 5x5 m. ölçüdədir. Divarların eni 1,50 m-dir. Şərq tərəfdə divarın tam mərkəzində, eni 1,30 m olan qapı yeri

vardır. Qapı hissədə divarın eni 1,60 m-dir. Giriş qapısının istər sağ və istərsə də sol tərəflərində yerləşdirilmiş daşlar tikintinin digər daşlarına nisbətən qalın və enlidir. Bu daşlar daha məharətlə yonulmuşlar. Girişin hər tərəfində iki sal daş yerləşdirilmişdir. Daşların hər birində bir ədəd olmaqla dördkünc formalı oyuqlar açılmışdır. Bu oyuqlar qapının ön və arxa istiqamətlərində yerləşdirilmişdir. Oyuqlar 10x10x10 sm-dir. Giriş qapısının tikilinin daxilinə tərəf olan hissəsində bir ədəd kiçik dabandaşı tapıldı. Divarların təmizlənməsi zamanı müəyyən edildi ki, tikili qalığı dağıdıldıqdan sonra onun üzərində qəbiristanlıq salınmışdır. Məbədin qalıqları təmizlənərkən qərb divarın çöl tərəfindən bir ədəd üzərində oyma üsulu ilə xaç işlənmiş daş tapıldı. Onun yaxınlığından tapılmış digər kiçik daşın üzərində xaç və oyuqlar açılmışdır. Daşın üzərindəki oyuqların düzülüşü dolça bürcünün simvolik formasını əks etdirir. Məhz bu tapıntılar və sahədən əldə edilmiş üzəri oyma naxışlı daşlar tikilinin erkən Alban xristian məbədinin qalıqları olduğunu ehtimal etməyə imkan verir.

Qazıntı sahəsində, məbədin qarşısında - giriş qapısından sağda olan ocaq yerində uzun müddət müxtəlif məişət tullantılarının atıldığı quyu təmizləndi. Quyunun daxilinə yalnız sınmış və istifadə üçün yararsız saxsı məmulatları deyil, eyni zamanda daş alətlərin sınıqları da atılmışdı.

Məbədin qərbində onun divarı yaxınlığında iki maraqlı təbəqə təmizləndi. Birinci təbəqə yer səthindən 60 sm. dərinlikdə yerləşirdi. Sahədə güclü dağıntıya məruz qalmış iki ədəd irihəcmli küpün qalıqları aşkarlandı. Küplərin arasında onlarla eyni səviyyədə skeletlər təmizləndi. Çox güman ki, küplər antik dövrdə Qafqaz Albaniyası ərazisində geniş yayılmış küp qəbirlərə məxsusdurlar. Lakin, nisbətən sonrakı, daha doğrusu erkən orta əsrlərdə xristian qəbirlərinin salınması səbəbindən bu qəbirlər, onların daxilindəki skeletlər dağıdılmış, əşyalar qarət olunmuşdur. Bu küplər istər məbəddən və istərsə də onun üzərində salınmış xristian qəbirlərdən daha qədimdir. İri küplərin təmizləndiyi sahədə və bir az onlardan şərqə tərəf olan sahədə başqa bir maraqlı təbəqə izlənildi. Təqribən 80 sm dərinlikdən başlayaraq sahədə güclü yanıq izləri müşahidə olundu. Sonrakı qazıntılar ərazidə metaləritmə sobasının olduğunu müəyyən etdi. Sobanın divarlarının qalınlığı təqribən 20-25 sm-dir. Daxili kürə hissənin eni isə 60-sm-dir. Kürə hissə ovalvari olub, iki yarusludur. Bu iki təbəqə arasında ağ rəngli güclü yanmış təbəqə vardır. Üst təbəqədə 4 yerdə şərq-qərb istiqamətdə çox güman ki, atmalar olmuşdur. Onların izləri yanmış təbəqə arasında aydın bilinir. Sobanın ön və qərb tərəfləri də güclü yanmışdı. Qərb tərəfində təqribən 50 sm kənarda diametrləri 5-7 sm, dərinlikləri 15-20 sm olan 3 oyuq vardır. Oyuqlar şimal-cənub istiqamətində bir birindən 30 sm. aralı yerləşdirilmişdir. Oyuqların daxilindən karroziyaya uğramış dəmir qalıqları təmizləndi. Bu oyuqlar demək olar ki, bütövlükdə dəmir çürüntüləri ilə dolu idi. Bəlkə də bu oyuqlar ərinmiş dəmir filizinin tökülməsi üçün bir növ qəlib rolunu oynamışdır. Metaləritmə sobası məbədin qarşısında aşkar edilmiş məişət tullantıları quyusu ilə həmdövrdür.

VII və VIII kvadratların yerləşdiyi sahədə ağ rəngli əhəngdaşı qalıqlarından ibarət təbəqə təmizləndi. Bu sahə olduqca genişdir və o qismən

qazıntı sahəsindən kənara doğru uzanır. Ehtimal ki, məbədin tikintisi zamanı istifadə olunmuş ağ rəngli əhəngdaşları məhz burada parçalanmış və cilalanmışdır. Və bura bir növ daş karxanası olmuşdur. Karxanadan qərbə tərəf hissədə 9 (doqquz) dairəvi dirək yerləri aşkar edildi. Dirək yerlərinin diametrləri 20-30 sm-dir. Onlar qazıntı sahəsinin cənub və şimal sərhədi boyunca cərgə ilə düzülmüşdür. Şərq tərəfdə mərkəz hissədə daha bir dirək yeri vardır. Sanki bu dirəklərlə hər hansı bir tikilinin şərq, cənub və şimal tərəfləri örtülmüş, yalnız qərb tərəfi açıq saxlanılmışdır. Bu sahənin də bəzi yerlərində parçalanmış əhəngdaşlarının qalıqları səpələnmişdir. Çox güman ki, bu hissədə məbədin tikintisi zamanı daha incə işləri (naxışların oyulması və s.) görmək üçün yüngül çənlibel emalatxana olmuşdur. Nəhayət, emalatxanadan qərbə tərəf IX-X kvadratların kəsişdiyi yerdə şimal-cənub tərəf istiqamətində qazıntı sahəsini su arxının yeri kəsir. Nisbətən dərin qatlarda yerləşdiyini nəzərə alaraq güman edirik ki, su arxından məbədlə eyni dövrdə istifadə olunmuşdur.

Abidənin keramika məmulatı içərisində bir ədəd gil butə və bir ədəd iy başlığı vardır. Saxsı məmulatının əksəriyyəti keyfiyyətli gildən yoğrulmuşdur. İrihəcmli təsərrüfat küplərinin və məişət keramikasının tərkibində iri qum və bəzən parçalanmış daş qatışığı vardır. Kiçik həcmli kasalar və üzərlərində naxışları olan saxsı qabların isə hamısı narın qum qatışıqlı gildən yoğrulmuş və yaxşı bişirilmişdir. Bir ədəd sarımtıl-boz rəngli küpə tipli qab alçaq boğazlı, şar gövdəli, yastı oturacaqlıdır. Üzərinə rəngsiz anqob çəkilmişdir. Bu anqob bir növ astar rolunu oynayır. Geniş boğaza malikdir. Ağız kənarı xaricə qatlanır. Ağız kənarı ilə gövdənin yuxarısını 2 ədəd enli ilgəkvari qulp birləşdirir. Qulpların hər birinin üzərində bir-birinə paralel iki ədəd şırım açılmışdır. Bu şırımların içərisi sünbülvari çərtmələrlə naxışlanmışdır. Küpənin səthi isə narıncı rəngli boya ilə həndəsi formada naxışlanmışdır.

Saxsı məmulatının başqa bir qrupunu dar boğazlı bardaq tipli qablar təşkil edir. Bardaq tipli qabların hamısı, adətən, təmiz gildən hazırlanmışdır. Onların şar formalı gövdələri, yastı oturacaqları və alçaq-dar boğazları vardır. Bardaq tipli qabların üzərinə şəffaf anqob çəkilmişdir.

İrihəcmli təsərrüfat küpləri, adətən, iri qum və bəzən parçalanmış daş qatışıqları olan gildən hazırlanmışlar. Lakin bu tip qablar da yaxşı bişirilmişdir. Onların ovalvari gövdəsi, nisbətən dar oturacaqları olurdu. Fikrimizcə, bu onların yerdə qazılmış çalalarda basdırılması ilə izah olunmalıdır.

Bir ədəd iri təsərrüfat küpünün ağız səthi bir-birindən müəyyən məsafədə, kənarları ovalvari düzbucaqlılarla bəzədilmişdir. Düzbucaqlıların daxilində isə xaç işarələri vardır. Bütövlükdə, naxışların xüsusi möhürlə vurulduğu müşahidə olunur.

Saxsı məmulatı içərisində kasa nümunələri çoxluq təşkil edir. Narın qum qatışıqlı gildən hazırlanmış, üzərlərinə şəffaf anqob çəkilmişdir. Yaxşı bişirildiklərindən sarımtıl-narıncı rəng almışdır. Kasaların oturacaqları yastı, geniş və bəzən isə ovalvari hazırlanmışdır. Kasalar içərisində bir qrupu istər gillərinin təmizliyinə, istərsə də üzərlərinin işlənməsinə görə fərqlənir. Bu tip kasaların ən xarakterik xüsusiyyəti isə onların otaracaqlarının daxilə doğru batıq

olmasıdır. Onların nisbətən çiyinli gövdələri və geniş ağızları vardır. Bu tip kasalar elmi ədəbiyyatda Əhəməni tipli kasalar kimi tanınır. Onların meydana gəlməsi eramızdan əvvəllərə aid edilsə də, son antik və ilk orta əsrlərdə bu tip kasalar geniş yayılmışdır. Arxeoloji materiallar içərisində şirli qablar azlıq təşkil edir. Müxtəlif saxsı qabların hissələrinin üzəri anqoblanmış əsasən yaşıl şirlə örtülmüş və bəzi parçaların üzəri şəffaf anqob üzərinə ağ, qara, sarımtıl rənglə naxışlanmışdır. Naxışlar həndəsi motivdədir. Abidənin daş məmulatınının birinci qrupuna qazıntı sahəsində aşkar edilmiş məbədin divar-bəzək elementlərini daxil etmək olar. Bu elementlər bir neçə sınıqlardan ibarətdir. Lakin smıqların formaları məbədin ilk əvvəllər çox orijinal və möhtəşəm naxış elementlərinə malik olduğunu söyləməyə imkan verir. Məbədin bəzək elementləri eyni ilə tikintidə istifadə olunmuş ağ rəngli keyfiyyətli travertin-əhəngdaşlarındandır. Bu daşlar üzərində bir-birinin daxilinə yerləşən dairəvi çevrələr, meandrlar, gül ləçəyinə bənzəyən naxış elementlərinə rast gəlinir. Bu naxışların hamısı oyma üsulu ilə işlənmişdir. Məbədin şərq divarı yaxınlığından əldə edilmiş tağvari daşın üzərində qazma üsulu ilə naxışlar çəkilmişdir. Hər iki tərəfdən sanki enli kəmər daşı əhatələyir. Bu enli kəmərşəkilli hissənin üzəri bir-birini kəsən çarpaz xətlərlə naxışlanmışdır. Daşın nisbətən enli yuxarı tərəfində eyni üsulla xaç işarəsi qazılmışdır. Xaçın yan qanad hissələrinin və mərkəzinin ortası dairələr və onları əhatə edən çərçivələrlə naxışlanmışdır. Çox təəssüflər ki, xaçın aşağı hissəsi güclü dağıntıya məruz qalmışdır. Ehtimal ki, bu xaç işarəli naxış elementi məbədin divarını və ya giriş hissəsinin üzərini bəzəmişdir. İkinci qrup daş məmulatı alətlərdən ibarətdirlər. Bir ədəd sürtgəc tipli daş alət boz rəngdədir. Yarı hissəsi sınmış alətin bir tərəfi yastı, digər səthi isə nisbətən qabarıqdır. Bu tip alətlər, adətən, taxıl döyüm alətləri hesab olunur. Ümumiyyətlə, məbədin giriş qapısının solunda aşkar edilmiş dərin quyuda tapılmış alətlərin əksəriyyəti dən daşları, sürtgəclər və dəstələrdən ibarətdir.

Abidənin materialları içərisində metal məmulatları azlıq təşkil edir. Onlar bir neçə ədəddən ibarətdir. Əldə olunmuş sırğaların hamısı tuncdan hazırlanmışdır. Bir ucları qarmaqvari formalı olub, nazik məftillərdən ibarətdir. Üzərinə dairəvi tunc lövhələr keçirilmişdir. Bunlar zəncirvari formaya malikdirlər.

Dairəvi formalı üzük tuncdan hazırlanmışdır. Diametri 2 sm-dir. Tunc məmulatları içərisində bir ədəd asma diqqəti cəlb edir. Uzunsov armudvari bu asma tuncdan hazırlanmışdır. Materialı çox keyfiyyətli olduğundan, ağırdır. Bir tərəfində asmaq üçün dairəvi halqası vardır.

Muncuqları üç qrupa ayırmaq olar. Birinci qrupa qara rəngli xüsusi minerallardan doğranmış muncuqları daxil etmək olar. Onlar forma etibarı ilə bir-birindən fərqlənir. Düzbucaqlı formada olanlar çoxluq təşkil edir. Lakin içərilərində trapesiya formalı olanlar da vardır. Bir neçəsinin yastı səthində dairəvi konsentrik çevrələr çəkilmişdir. Bir ədəd qara rəngli muncuğun isə orta hissəsində xaçvari çıxıntısı vardır.

İkinci qrup muncuqlar ağ-parıltılı rəngli minerallardan hazırlanmışdır. Onlar forma etibarilə 8 rəqəmini xatırladırlar. Lakin ikisinin orta hissəsində

yanlara doğru çıxıntısı vardır. Bu çıxıntılarla birlikdə muncuqlar xaça bənzəyir. Bu muncuqların hamısının sapdan asmaq üçün deşikləri vardır. Bununla yanaşı, bir neçəsinin yastı səthinin qulaqcıq formalı hissəsində şaquli deşik açılmışdır. Bu çox güman ki, bəzək xarakteri daşımışdır.

Üçüncü qrup muncuqlar ağ, qara, qonur rəngli pastadan doğranmışdır. Onların hamısının üzərində asmaq üçün deşiklər açılmışdır.

Azərbaycan ərazisində həmdövr arxeoloji materiallar Mingəçevirdən, Mollaisaqlıdan, Qaraköbərdən, Şamaxıdan, Yaloylutəpədən, Ağcabədi rayonu ərazisindən və başqa abidələrdən məlumdur. (6,50; 2,85; 7,176; 1; 3, 69-97; 5,70;) Alban xristian qəbirləri Azərbaycanın şimal-qərb bölgələrində və Qarabağ ərazisində tədqiq olunmuşdur. (4, 133). Küp qəbirlərin yayılma arealı isə daha genişdir.

Abidənin tədqiqi aşağıdakı nəticələri çıxarmağa imkan verir. Abidə çoxtəbəqəli olub, müxtəlif tarixi mərhələləri əhatə edir. Ən aşağıdakı təbəqə metaləritmə sobası və məişət tullantılarının atıldığı quyudan ibarətdir. Bu təbəqəni əldə edilmiş arxeoloji materiallara əsasən eramızın ilk əsrlərinə, II-III əsrlərə aid etmək olar.

Küp qəbirlərin və məbədin altında yerləşən bir neçə qəbir arxeoloji materiallarla birlikdə eramızın III-IV əsrlərinə Xristian məbədi IV-V əsrlərə aid edilir.

Məbəddən üst təbəqədə salınmış xristian qəbirləri təqribən V əsrə aid edilir.

Nəhayət, ən üst təbəqədən məlum olan çaydaşlarından qurulmuş tikinti (Sahədən əldə edilmiş şirli qablarla birlikdə) qalığı X-XI əsrlərə aid edilir.

Beləliklə, abidə Azərbaycan ərazisində e.ə. IV - eramızın VIII əsrlərində mövcud olmuş Alban dövlətinin müxtəlif tarixi mərhələlərini əks etdirir.

## ƏDƏBİYYAT

1. Qazıyev S.M.Mingəçevir küp qəbirləri albomu. Bakı, 1960
2. Osmanov F.L. Mollaisaqlıda antik dövrə aid yeni arxeoloji tapıntılar. AMM, IX cild, Bakı, 1980.
3. Osmanov F.L. Azərbaycanda küp qəbirlərinin meydana gəlməsi və yayılması məsələsinə dair (Mil düzündə son arxeoloji tədqiqatlar əsasında). AMM, X cild, Bakı, 1987.
4. Vahidov R.M. Mingəçevir III-VIII əsrlərdə (Arxeoloji qazıntının materialları əsasında). Bakı, 1961.
5. А.Г.Бадалов. Гончарное ремесло Азербайджана античного периода. Баку, 2003.
6. Древнейшие государства Кавказа и Средней Азии. Москва, 1985.
7. Ионе Г. И. О гончарных обжигательных печах из Мингечаура. МКА, том II, Баку, 1951.



**Şəkil 1 Qazıntı sahəsindən görünüş.**



**Şəkil 2. Xaç formalı qəbrin şəkli.**



**Şəkil 3. Məbəd və xristian qəbirlərinin görünüşü**



**Şəkil 4. Xaç formalı oyma daş**



**Şəkil 5. Məbədin bəzək elementləri**



**Şəkil 6. Xaç təsvirli daş və bəzək elementi**



**Şəkil 7. Abidədən əldə olunmuş saxı qab**

**M.C.XƏLİLOV**

## *Şəmkirin alban dövrü arxeoloji abidələri*

Şəmkir rayonu ərazisində Azərbaycan tarixinin alban mərhələsinə (e.ə. IV - y.e. VIII əsrləri) aid ilk arxeoloji material hələ XIX əsrdə aşkar edilmişdir. Bu tapıntı don Juan van-Halenin adı ilə bağlıdır. Don Juan van-Halen mənşəcə ispan olub Rusiya ordusunda hərbi xidmət etmişdir. 1820-ci ilin may ayında o, Şəmkir şəhərgahına baxış keçirmiş və burada bir tacirdən Makedoniyalı İsgəndərin (e.ə. 336 -323-cü illər) gümüş sikkəsini almışdır. Sikkəni satan tacirin sözlərinə görə, bu pul nümunəsi Şəmkir şəhərgahından tapılmışdır (23, s. 9). 1927-ci ildə Y.A.Paxomov tərəfindən Şəmkirin Çənlibel kəndində alban dovrünə aid ilk abidə qeydə alınır. Buradan tapılmış tunc quş fiquru mütəxəssislərin böyük marağına səbəb olur. Onlardan bəzilərinin fikrincə, bu plastik sənət nümunəsində qrifon təsviri əks edilmişdir (3, s. 31). Lakin quşun uzun, düz dimdiyi onun leylək və ya durna olduğuna işarə edir (şəkil 1). Fiqur tam qorunmamış, onun aşağı hissəsi qırılmışdır. Belə bir mülahizə irəli sürülmüşdür ki, bu heykəltəraşlıq əsəri tərəzi oxunun bəzəkli hissəsidir (11, s. 91; 13, s. 17). Fiqurun hündürlüyü 6 sm, eni 2 sm, qalınlığı isə 0,5 sm-dir. Onun hazırlanma tarixi haqqında fikirlər müxtəlifdir. Çənlibel heykəlciyi y.e. I əsrinə (13, s. 17), y.e. ilk əsrlərinə və hətta erkən orta əsrlərə (11, s. 91) aid edilmişdir. Beləliklə, fiqurun təklif edilən xronologiyası alban dövrü çərçivəsindən kənara çıxmır.

1934-cü ilin yayında Y.A.Paxomov SSRİ EA Zaqafqaziya filialının Azərbaycan şöbəsinin İshaq Cəfərzadənin rəhbərlik etdiyi Şəmkir-Gədəbəy ekspedisiyasının tərkibində çalışarkən Çənlibel kəndi kənarındakı kilsə yaxınlığında daha bir heykəltəraşlıq nümunəsi aşkar etmişdir. Bu, xırda məsaməli əhəngdaşından yonulmuş kişi heykəlinin baş və ayaq hissələri çatmayan gövdəsidir. Y.A.Paxomov 2x2 m ölçülü kəşfiyyat qazıntı sahəsində daş heykəllə yanaşı, gilinin rəngi qırmızı olan keramika parçaları, çaydaşları aşkar etmişdir. O, keramikanın qəbir avadanlığına aid olduğu barədə fərziyyə irəli sürmüş (22, s. 12), sonralar isə heykəl tapılan yerdə bütxana yerləşdiyi qənaətinə gəlmişdir (baxın: 11, s. 86). Bəzi məlumatlara görə, burada digər heykəltəraşlıq nümunələrinin qırıqları da qeydə alınmışdır (11, s. 86). Cinsi əlaməti qabarıq təsvir edilmiş bu çılpaq kişi heykəlinin qorunmuş hissəsinin hündürlüyü 30 sm, eni 15 sm, qalınlığı 8 sm-dir. Y.A.Paxomov bu tapıntını "xristianlıqdan əvvəlki" dövrə aid etmiş və eyni zamanda bildirmişdir ki, bu termin mütləq xronoloji anlayış əhəmiyyətinə malik deyildir (22, s. 12, 14). Sonralar Y.A.Paxomov bu heykəlin y.e. ilk əsrlərində hazırlandığı barədə mülahizə söyləmişdir (baxın: 11, s. 86). Başqa bir fikrə əsasən, heykəl y.e. I əsrinə aiddir (21, s. 114). Lakin bu dərəcədə dəqiq tarixin müəyyənləşdirilməsi üçün elə bir güclü dəlil gətirilməmişdir. Daş heykəlin kilsə yaxınlığında, digər qırılmış fiqurların arasında qeydə alınması onun Albaniyada xristianlığın dövlət dini səviyyəsinə qaldırıldığı və bütpərəstliyə qarşı mübarizəyə başlanıldığı dövr ərəfəsində, yəni təqribən I-III əsrlərdə hazırlandığını göstərir. Bəzi mütəxəssislər Çənlibel tapıntısının yerində

heykəltəraşlıq emalatxanasının yerləşdiyini, hətta buradan qonşu bölgələrə heykəllərin aparıldığını güman edir və bu zaman Tovuz rayonunun Qəribli kəndindən aşkar olunmuş daş heykəlin də Çənlibel emalatxanasında hazırlandığı barədə fikir irəli sürürlər (5, s. 57). Lakin Çənlibel və Qəribli heykəlləri arasında kəskin üslub və ikonoqrafiya fərqlərini nəzərə alaraq bu fərziyyə ilə razılaşmaq çətindir. Hal-hazırda AMEA Azərbaycan Tarixi Muzeyində mühafizə olunan Çənlibel heykəlinin indiyədək Sara Aşurbəyli tərəfindən yalnız üzdən görünüşünü əks etdirən şəkli çap olunmuşdur (11, s. 86, şəkil 20). Heykəlin bütün tərəflərinin fotoları təqdim edilən məqaləmizdə ilk dəfə işıq üzü görür (şəkil 2). 1938-ci ildə Şəmkir rayonunda, Zəyəm dəmir yolu stansiyası yaxınlığınında dəmir yolunun bir qolu çəkilən zaman iri saxsı küplər tapılır. Ora göndərilən Y.İ.Hummel bu küplərə yandırılmış meyitlərin külünün töküldüyünü və həmin yerin qədim qəbiristanlıq olduğunu müəyyənləşdirir (baxın: 4, s. 11). Küp qəbirlərində od yandırmaq ayini Albaniyanın istər antik, istərsə də ilk orta əsr abidələrində qeydə alınmışdır (24, s. 80; 25 s. 184-185). İlk orta əsr Şərgah (Şamaxı rayonu) küp qəbirlərindən birində hətta skeletin müəyyən hissəsi güclü odun təsirindən yanmışdır (25, s. 184). Bunu nəzərə alaraq, Zəyəm küp qəbirlərinin alban dövrünə aid olduğunu güman etmək mümkündür.

XX əsrin 50-ci illərində Şəmkir rayonunun arxeoloji abidələrinə maraq xeyli artır. Bunun nəticəsi kimi 1959-cu ildə Bakıda Cabbar Xəlilovun "Qərbi Azərbaycanın tunc dövrü və dəmir dövrünün əvvəllərinə aid arxeoloji abidələri (Şamxor və Zəyəm çayları hövzələri)" kitabı nəşr edilir. Bu əsər Şəmkir rayonu abidələrinin geniş əks olunduğu ilk monoqrafiyadır.

1963-cü ildə İdeal Nərimanovun öz həmkarları ilə birgə arxeoloji səfərləri zamanı Keçili kəndi yaxınlığında təsərrüfat işləri nəticəsində üzə çıxarılmış abidədən arxeoloji materiallar toplanmışdır. Bunların arasında antik dövrə aid edilmiş açıq-çəhrayı rəngli, əldə hazırlanmış saxsı kasa, küpə və s. qabların parçaları, habelə şüşə qab qırıqları qeydə alınmışdır (7, s. 66).

Şəmkir SES-ın tikintisinə başlanılması Şəmkir rayonunda arxeoloji tədqiqatlara yeni vüsət verdi. Su altında qalacaq ərazidə Hətəm Kəsəmənlinin rəhbərliyi altında tədqiqatlar aparan Azərbaycan EA Tarix İnstitutunun Şəmkir ekspedisiyası 1974-cü ildə I Keçili qəbiristanlığında antik dövrə aid bir torpaq qəbri aşkar edir (15; 20, s. 24).

1975-ci ildə antik dövrə aid yeni abidələr üzə çıxarılmışdır. Belə ki, II Keçili, Qanlıtəpə, Həsəntəpə, Tülkütəpə, Saqqızlı yaşayış yerləri, Sarıtəpə çoxtəbəqəli şəhərgahı, habelə e.ə. I - y.e. I əsrlərinə aid olan Bitdili və Daşbulaq küp qəbirləri məhz həmin ildə ilk dəfə qeydə alınaraq tədqiq edilmişdir. Sarıtəpə şəhərgahı hündürlüyü 10 m-ə, sahəsi 1 hektara yaxın olan uzunsov böyük bir təpənin üzərində yerləşir. Təpə dərin xəndəklə əhatə olunmuşdur. Təpənin şərq hissəində möhtəşəm tikinti qalıqları, habelə Əhəməni tipli sütun altlığı qeydə alınmışdır. Toplanmış yerüstü materiallar əsasında abidənin erkən dəmir dövründən orta əsrlərədək geniş xronologiyaya malik olduğu müəyyənləşdirilmişdir (15). 1974-1975-ci illərdə aşkar edilmiş bütün bu abidələr Şəmkir şəhərindən şimalda, Kür çayının sağ sahilində yerləşmişdir (15).

1976-cı ildə Şəmkir ekspedisiyası tərəfindən Bitdili (indiki Yeniabad) kəndi yaxınlığında yerləşmiş Qanlıtəpə abidəsində 25 kvadrat metr sahədə arxeoloji qazıntı işləri aparılmış, mədəni təbəqənin qalınlığının 1,3 m-ə çatdığı və yaşayış yerinin bu təbəqəsinin I - IV əsrlərə aid olduğu aydınlaşdırılmışdır (16, s. 493; 17, s. 11). 1977-ci ildə Şəmkir rayonu ərazisində alban dövrünün ilk orta əsrlər mərhələsinə aid arxeoloji abidələrin üzə çıxarılaraq tədqiq olunmasına başlanılır. Həmin ildə Şəmkir ekspedisiyası Bitdili kəndi yaxınlığında Üzümlütəpə yaşayış yerini aşkar edərək burada qazıntı işləri aparmışdır. Üzümlütəpənin hündürlüyü 4-5 m-ə, sahəsi isə 0,7 hektara çatır. Uzunsov formaya malik təpə qərbdən şərqə uzanır. Yerüstü materiallar kirəmit qırıqları, saxsı və şüşə qab parçaları, tikintidə işlənmiş çaydaşlarından ibarətdir. Bu tapıntılar əsasən ilk orta əsrlərə aid edilir, lakin onların arasında y.e. ilk əsrlərinə aid olduğu güman edilən materiallar da vardır (19, s. 8). Yaşayış yerinin xarakterini və stratiqrafiyasını müəyyən etmək məqsədi ilə 25 kvadrat metr sahədə aparılmış qazıntı işləri nəticəsində mədəni təbəqənin qalınlığının 1,5-1,6 m-ə, bəzi yerlərdə isə 1,8 m-ə çatdığı müəyyənləşdirilmiş, saxsı qabların, yerə basdırılmış təsərrüfat küplərinin çoxsaylı parçaları üzə çıxarılmış, açıq tipli ocaq, diametri 1 m, dərinliyi 1,2 m olan təsərrüfat quyusu aşkar edilmiş, qazıntı sahəsinin cənub-şərq hissəsində (2,5x1,5 m) yanğın izləri qeydə alınmışdır. Tədqiqatlar Üzümlütəpə yaşayış yerini III - VII əsrlərə aid etməyə imkan vermişdir, lakin yerüstü materiallar burada antik dövrdə də yaşayış olduğunu, həmin dövrə aid təbəqənin abidənin digər hissəsində yerləşdiyini güman etməyə əsas vermişdir (6, s. 19; 18,s. 499; 19, s. 8).

1977-ci ildə Şəmkir ekspedisiyası həmçinin Qaracəmirli kəndindən şərqdə Alıqoca yaşayış yeri kompleksini qeydə almışdır (19, s. 9). Yalnız sonralar - 1988-ci ildə Minəvvər Hüseynovanın rəhbərliyi altında aparılmış tədqiqatlar nəticəsində Alıqoca yaşayış yerində antik və ilk orta əsrlərdə də həyatın cərəyan etdiyi müəyyənləşdirildi. Zibil quyusundan tapılmış armudvari gövdəyə və üçləçəkli ağıza malik saxsı qab erkən antik dövrə, yaşayış yerindən aşkar edilmiş digər çoxsaylı saxsı cam və küp qırıqları isə ilk orta əsrlərə aid edilmişdir(14, s. 122).

Alıqoca yaşayış yerinin şimal-şərq hissəsində bir katakomba tipli qəbri aşkar etmək mümkün olmuşdur. Təpənin ətəyində qəbir kamerasına girişi bağlayan bir daş şaquli vəziyyətdə qeydə alınmışdır. Kameraya giriş dairəvi formaya malik olub (diametri 0,5 m) kameranın döşəməsindən 0,7 m hündürlükdə yerləşmişdir. Şərq-qərb istiqamətli kameranın oval formalı hamar döşəməsinin uzunluğu 2,3 m, eni 1,4 m, giriş yaxınlığında kameranın hündürlüyü 1,2 m, orta hissədə isə 0,80 - 0,85 m-ə bərabər olmuşdur. Kamerada kəlləsi şərqə istiqamətləndirilmiş, kürəyiüstə düz uzadılmış vəziyyətdə iki skelet (biri giriş yaxınlığında, digəri kameranın ortasında) qeydə alınmışdır. Hər iki skeletin kəlləsi süni deformasiya edilmiş, sümüklərinin üstündə qırmızı-qəhvəyi boya qeydə alınmışdır. Qəbirdə heç bir avadanlığa təsadüf olunmamışdır. Kamerada skeletlərin altına çınqıl döşənmişdir. Kameranın divarlarının aşağı hissəsində ağardılma izlərinə təsadüf olunmuşdur (14, s. 122). Kəlləsi süni deformasiyaya

məruz qalmış skeletlərin kürəyiüstə düz uzadılmış vəziyyəti və katakomba qəbir tipinin özü bu abidəni gəlmə "köçərilər" ilə bağlamağa imkan verir. Ərəb tarixçisi Ə.Bəlazurinin (IX əsr) məlumatından bəlli olur ki, savirlər və yaxud savartilər (macarların köhnə adı) ilə eyniləşdirilən siyavurdilər qədim və çiçəklənən Şəmkir şəhərini fəth edərək dağıtmışlar (baxın: 10, s. 127). M.İ.Artamonovun fikrincə, bu hadisə 752-ci ildə baş vermişdir (10, s. 349). Lakin siyavurdilərin Şəmkiri ərəb canişini Yəzid öz vəzifəsindən kənarlaşdırıldıqdan sonra dağıtdıqları barədə Ə.Bəlazurinin məlumatını və habelə Yəzidin öz vəzifəsində axırıncı dəfə 764-cü ildə xatırlanmasını (baxın: 10, s. 127, 244-247) nəzərə alaraq Şəmkirin dağıdılması tarixini, bizim fikrimizcə, təqribən 764-cü ilə aid etmək olar. Gələcəkdə Şəmkir şəhərgahında bu qəbilənin istehsal etdiyi və siyavurdi adlanan döyüş təbərzinlərinin (baxın: Məsudi. "Müruc əz-zəhəb və mə'adin əl-cəvahir", XVII fəsil, §31) tapılması imkanı çox böyükdür. 854/5-ci ildə islam dinini qəbul etmək niyyəti ilə 300 xəzər ailəsi öz vətənini tərk edir və ərəb xilafətinin türk mənşəli sərkərdəsi Buğa tərəfindən bərpa olunmuş Şəmkir şəhərində Bərdə tacirləri ilə birlikdə yerləşdirilir (baxın: 10, s. 329-330; 12, s. 175). Bərdəli tacirlər şəhərin iqtisadi həyatında müəyyən canlanma yaratmalı idilərsə, xəzərlər, çox güman ki, şəhərin müdafiəsi üçün nəzərdə tutulmuşdular. Güman etmək olar ki, Alıqoca katakomba qəbri şimal “köçəriləri”nin həmin dəstələrindən biri ilə əlaqədar olmuşdur. 1986-1989-cu illərdə Azərbaycan EA Tarix İnstitutunun Yeni tikinti sahələrində arxeoloji tədqiqatlar ekspedisiyasının Yenikənd dəstəsi Bulaqbaşı abidələr kompleksini tədqiq etmişdir (1; 2; 8; 9). Kompleksə daxil olan Sarıtəpə abidəsi (2№-li yaşayış yeri) təqribən 200 m uzunluğa malikdir. Qazıntılar nəticəsində mədəni təbəqənin qalınlığının 4,5 - 5 m olduğu müəyyənləşdirilmiş, 17 torpaq qəbir aşkar edilmişdir. Bu qəbirlərin böyük əksəriyyəti antik dövrə aid mədəni təbəqədə yerləşmişdir. Hər bir qəbrin üzərində qalanmış ocağın kül topasından ibarət izlərini qeydə almaq mümkün olmuşdur. Ocaq qalamaq ayininin oda sitayişlə bağlı olduğuna heç bir şübhə yoxdur. Skeletlərin kəlləsinin yanında, adətən, ortahəcmli çay daşları qoyulmuşdur. Antik dövr təbəqəsindən, həmçinin, keramika parçaları və s. üzə çıxarılmışdır.

Bulaqbaşı kompleksinə daxil olan Qanlıtəpə yaşayış yerinin şimal-qərbində aparılmış tədqiqatlar nəticəsində 2,2 m qalınlığında mədəni təbəqə öyrənilmişdir (1). Burada çaydaşlarından və bişmiş kərpicdən əhəng məhlulu ilə hörülmüş divar qalıqları, ocaq yerləri, təsərrüfat quyusu, keramika, daş və metal məmulatı aşkar edilmiş, yaşayış yerinin antik və ilk orta əsrlər dövrünə aid olduğu müəyyənləşdirilmişdir.

Beləliklə, alban dövründə müasir Şəmkir rayonu ərazisində intensiv yaşayışın olduğu, əhalinin ölüləri torpaq, küp və katakomba qəbirlərində dəfn etdiyi məlum olur. Bu bölgənin ilk orta əsrlərdə alban xristian mədəniyyəti arealına daxil olmasına da heç bir şübhə yoxdur. Təsadüfi deyildir ki, "Alban tarixi" yazılı mənbəyində (II: 52) Qüds (Yerusəlim) şəhərində, Davud qülləsi yaxınlığında müqəddəs Məryəmin xatirəsinə inşa edilmiş Partav (Bərdə) monastırının bir hissəsinin Şəmkirdən buraya gəlmiş Mariya (Məryəm) adlı bir qadının idarəsi altında olduğu qeyd edilmişdir. Həmin tarixi mənbəyə görə,

Şəmkir qalasında monastır mövcud olmuş və VIII əsrin əvvəllərində alban katolikosu Mikael burada alban kilsəsinin yığıncağını keçirmişdir ("Alban tarixi", III: 13). Hələlik, Şəmkir şəhərgahında aparılmış arxeoloji qazıntı işləri nəticəsində ilk orta əsrlərə aid mədəni təbəqəni aşkar etmək mümkün olmamışdır. Buna baxmayaraq, şəhərin ilk orta əsrlərdə mövcud olması orta əsr mənbələrinin məlumatı ilə öz ləsdiqini tapır. Hələ Ə.Bəlazuri (IX əsr) VII əsrin ortalarında, xəlifə Osmanın dövründə (644 - 656-cı illər) ərəblərin qədim Şəmkir şəhərini fəth etmələri barədə məlumat verir (baxın: 12, s. 175). Gəncəli Kirakos (XIII əsr) Şəmkir və daha 5 şəhərin əsasının Albaniya katolikosu Viro tərəfindən qoyulduğu və bu şəhərlərin, o cümlədən Şəmkirin xəzər xaqanının oğlu Şat şərəfinə belə adlandırıldığını qeyd etmişdir ("Tarix", 10-cu fəsil). Burada söhbət bir neçə şəhərin bərpasından, digərlərinin, o cümlədən Şəmkirin həqiqətən də salınmasından gedə bilər. "Alban tarixi" əsərindən məlum olur ki, Şatın rəhbərliyi altında xəzərlərin Albaniyaya yürüşü 628-ci ildə baş vermişdir (II: 14). Beləliklə, Kirakosa görə, Şəmkir şəhəri 628-ci ildə salınmışdır. Bu baxımdan, 200 ildən çox bir vaxt keçdikdən sonra, yəni 854/5-ci ildə xəzərlərin Şəmkirdə məskunlaşması müəyyən dərəcədə rəmzi məna daşımış olur.

Beləliklə, yazılı mənbələrin məlumatları əsasında Şəmkir şəhərinin VII əsrdə artıq mövcud olduğunu təsdiq etmək mümkündür. 628-ci il, hələlik, Şəmkir şəhərinin salınması tarixi kimi qəbul edilə bilər. Buna əsaslansaq, 2008-ci ildə Şəmkirin 1380 yaşı tamam olur.

## ƏDƏBİYYAT


1. Abbasova F.Ə. Bulaq başı abidələrində arxeoloji tədqiqatların ilk nəticələri // Azərbaycan arxeologiya və etnoqrafiya elmlərinin son nəticələrinə həsr olunmuş elmi konfransın materialları. Bakı, Bilik, 1992, s. 41 - 42.
2. Abbasova Fatma. Bulaqbaşı abidələri. Bakı, Elm, 2003.
3. Abbasova F.Ə. Azərbaycanın orta əsr zoomorf əşyalan. Bakı, Elm, 2004.
4. Xəlilov C.Ə. Qərbi Azərbaycanın tunc dövrü və dəmir dövrünün əvvəllərinə aid arxeoloji abidələri (Şamxor və Zəyəm çayları hövzələri). Bakı, 1959, 171s.
5. Məmmədov R., Sadıxzadə Ş. Qədim daş heykəl // Azərbaycan SSR EA Məruzələri, XXIX cild, №1,1968, s. 56 - 59.
6. Namazov A.S. Qərbi Azərbaycanın ilk orta əsr arxeoloji abidələri. Tarix elmləri namizədi... dissertasiyasının avtoreferatı. Bakı, 1994.
7. Nərimanov İ.H., Babayev İ.A. Keçilidə arxeoloji tapıntılar // AMM, X cild. Bakı, Elm, 1987, s. 57-68.
8. Аббасов Ф.А. Поселение Булагбашы. // Тезисы докладов Конференции "Великий Октябрь и развитие археологической науки в Азербайджане". Баку, Элм, 1988, с. 79-80.
9. Алиев А.А., Асадов В.А., Аббасов Ф. Работы Еникендской экспедиции // АО 1986 года. Москва, Наука, 1988, с. 453 - 454.
10. Артамонов М.И. История хазар. Ленинград, 1962.

11. Ашурбейли СБ. Скульптура Азербайджана древнего периода и периода средневековья // Труды Музея Истории Азербайджана, том I. Баку, 1956, с. 61 - 108.
12. Буниятов З.М. Из истории Кавказской Албании VII - VIII вв. // Вопросы истории Кавказской Албании. Баку, 1962, с. 149 - 180.
13. Гулиев Н.М. Торговые связи Кавказской Албании в раннем средневековье (по археологическим данным). Автореферат диссертации ... кандидата исторических наук. Баку, 1972.
14. Гусейнова М А., Алиев И.Н. Раскопки на поселении Алыгоджа Шамхорского района. // Azərbaycan arxeologiya və etnoqrafiya elmlərinin son nəticələrinə həsr olunmuş elmi konfransın materialları. Bakı, Bilik, 1992, s. 121 - 122.
15. Кесаманлы ГЛ., Гусейнова М.А., Джафаров И.Ф., Кашкай СМ., Асланов ГГ. Новые памятники в районе строительства Шамхорской ГЭС // АО 1975 года. Москва, Наука, 1976, с. 502.
16. Кесаманлы Г.П., Джафаров И.Ф. Работы в зоне строительства Шамхорской ГЭС // АО 1976 года. Москва, Наука, 1977, с. 492 - 493.
17. Кесаманлы ГЛ., Джафаров Г.Ф. Раскопки на поселении Битдили // АЭИА (1976 г.). Баку, Элм, 1979, с. 8-11.
18. Кесаманлы ГЛ., Джафаров Г.Ф., Бабаев И.А. Работы Шамхорского отряда // АО 1977 года. Москва, Наука, 1978, с. 498 - 499.
19. Кесаманлы ГЛ., Джафаров Г.Ф., Бабаев И.А. Археологические исследования в зоне строительства Шамхорской ГЭС // АЭИА (1977 г.). Баку, Элм, 1980, с. 6-9.
20. Кесаманлы Г.П., Джафаров Г.Ф., Гусейнова М.А., Асланов Г.Г. Археологические работы в зоне строительства Шамхорской ГЭС // АЭИА (1975 г.). Баку, Элм, 1978, с. 23 - 26.
21. Назирова СМ. Изображение человека в искусстве Азербайджана античного периода // Проблемы античной истории и культуры, том II. Ереван, 1979, с. 113 - 118.
22. Пахомов Е.А. К результатам Шамхоро - Кедабекской экспедиции // Научный Архив Института Истории НАНА, инв. №790а.
23. Пахомов Е.А. Монетные клады Азербайджана и других республик, краев и областей Кавказа. Выпуск IV. Баку, 1949.
24. Халилов Дж.А. Материальная культура Кавказской Албании (IV в. до н. э. - III в. н.э.). Баку, Элм, 1985.
25. Халилов М.Дж. Раннесредневсковые кувшинные погребения Азербайджана // Археология, этнография и фольклористика Кавказа. Новейшие археологические и этнографические исследования на Кавказе. Материалы Международной научной конференции. Махачкала, 2007, с. 183 - 186.

**Şəkil 2.**



Şəkil 1.




**Şəkil 2.**

**A.İ.ƏLƏKBƏROV**
**A.M.MİRABDULLAYEV**

## *Azərbaycanın arxeoloji abidələri külliyyatının hazırlanmasında Şəmkir abidələrinin yeri*

Azərbaycanın maddi mədəniyyət abidələrinin sistemləşdirilməsi, ayrı-ayrı bölgələr üzrə arxeoloji xəritələrin hazırlanması, dövrünə və əhəmiyyət dərəcəsinə görə arxeoloji və tarixi abidələrin müəyyənləşdirilməsi çox vacib məsələlərdən biridir. Bunu nəzərə alaraq hələ 70-ci illərdə Tarix İnstitutunun nəzdində «Tarixi və Arxeoloji abidələrin külliyyatı» şöbəsi yaradılmış və bu istiqamətdə xeyli iş görülmüşdür. C.Ə.Xəlilovun rəhbərliyi altında Şimal-Şərqi Azərbaycanın arxeoloji abidələrinin külliyyatı hazırlanmış və nəşr edilmişdir (3). Hal-hazırda bu işi Arxeologiya və Etnoqrafiya İnstitutunun «Arxeoloji abidələrin külliyyatı» sektoru həyata keçirir. Respublikamızın demək olar bütün bölgələrində fəaliyyət göstərən ekspedisiyalar əsasən iki istiqamətdə - stasionar arxeoloji qazıntılar və arxeoloji kəşfiyyat xarakterində tədqiqatlar aparır. Yeni aşkar edilən abidələr müvafiq bölgələrin vaxtı ilə tərtib olunmuş arxeoloji xəritələrinə salınır. Qeyd etmək lazımdır ki, bu işin özünəməxsus xüsusiyyətləri vardır. Əvvəla yeni müəyyən edilmiş abidənin hökmən sərhədləri müəyyənləşdirilməli, ərazinin strateji mövqeyi göstərilməli, yerüstü əlamətlərinin olub-olmadığı qeydə alınmalı, toplanılmış yerüstü materiallar sistemləşdirilməlidir. Əgər həmin abidədə yoxlama qazıntısı aparılmışdırsa, nəzərdə tutulmuş kvadratların ölçüləri və cəhətləri göstərilməli, mədəni təbəqənin qalınlığı müəyənləşdirilməli, həmin təbəqədən aşkar olunmuş maddi mədəniyyət nümunələri çöl kitabında qeyd olunmalıdır. Bütün bu işlər görülüb qurtardıqdan sonra abidənin dövrü müəyyənləşdirilir. Məlumdur ki, arxeoloji qazıntı prosesində abidə hökmən dağıntıya məruz qalır. Başqa sözlə, arxeoloq abidəni dağıdıb öyrənir. Bunun üçün də hökmən öyrənilən abidənin planı və fotoşəkli çəkilməli, aşkar olunan maddi mədəniyyət nümunələrinin mədəni təbəqənin hansı qatında və dərinliyində olması qeyd olunmalıdır. Yuxarıda qeyd olunanlara əməl olunarsa, gələcəkdə bölgələr üzrə arxeoloji abidələrin külliyatının hazırlanması işi daha səmərəli olar. Arxeoloji abidələrin külliyyatının hazırlanmasının çox böyük əhəmiyyəti vardır. Belə ki, bölgələr üzrə mükəmməl bir külliyyatın və arxeoloji xəritənin olması abidələrin dağıdılması və izinin itirilməsi ehtimalını azaldar, gələcəkdə geniş miqyaslı stasionar tədqiqatların aparılması işini asanlaşdırar.

Azərbaycanın arxeoloji abidələrinin külliyyatının hazırlanmasında, ümumiyyətlə, Qərb bölgəsinin arxeoloji xəritəsinin hazırlanmasında Şəmkir və onun ətrafında mövcud olan abidələrin və maddi mədəniyyət nümunələrinin xüsusi yeri vardır.

Şəmkir abidələrini aşağıdakı kimi qruplaşdırmaq olar: 1. Kənd tipli yaşayış yerləri; 2. qalalar və siklop tikintiləri; 3. şəhər yerləri; 4. epiqrafik abidələr; 5. qəbir abidələri və kurqanlar; 6. dini obyektlər və ziyarətgahlar. Qeyd etmək lazımdır ki, bu abidələr eneolit dövründən tutmuş son orta əsrlərə qədər

dövrləşdirilir. Şəmkir və onun ətrafında olan arxeoloji abidələrin öyrənilməsinə XIX əsrin səksəninci illərində başlanılmışdır. Həmin əsrin səksəninci illərində Annenfeld koloniyası yaxınlığında xeyli daş alətlər toplanılmış və Almaniyaya göndərilmişdir. XX əsrin əvvəllərində alman dili müəllimi E.Resler Arxeoloji Komitənin tapşırığı ilə Şəmkir ətrafında bir neçə kurqan tipli qəbir abidəsini öyrənib, həmin kurqanlardan toplanılmış arxeoloji materiallar əsasında elmi məqalələr çap etdirmişdir.

XIX əsrin 30-cu illərində Şəmkir ərazisində arxeoloji tədqiqatlar yenidən canlanmışdır. Həvəskar arxeoloq Hummel burada onlarla kurqan və digər qəbir abidələrində tədqiqatlar aparmışdır. Təəssüflə qeyd etmək lazımdır ki, aşkar olunan maddi mədəniyyət nümunələrinin xeyli hissəsi itirilmiş, yaxud ölkəmizin sərhədlərindən kənara aparılmışdır.

Keçən əsrin 30-cu illərində Şəmkir bölgəsində İ. İ.Meşşaninov və I. M.Cəfərzadənin rəhbərliyi altmda fəaliyyət göstərmiş, arxeoloji ekspedisiyalar, bu ərazidə siklop tikintilərini öyrənməklə yanaşı, arxeoloji kəşfiyyat işləri də aparmış, müxtəlif dövrlərə aid onlarla yeni abidələr qeydə almışlar. Təkcə bir faktı qeyd etmək yerinə düşər ki, 1934-cü ildə İ.M.Cəfərzadənin rəhbərliyi altında təşkil edilmiş arxeoloji ekspedisiya Şəmkir və Gədəbəy rayonları ərazisində 104 müxtəlif tipli abidə aşkarlanmışdır. (4). Təəssüflə qeyd etmək lazımdır ki, bu gün həmin abidələrin xeyli hissəsi bölgədə aparılan təsərrüfat və tikinti işləri zamanı dağıdılmış, izi itirilmişdir. Şəmkir rayonu ərazisində İ.H.Nərimanov və İ.A.Babayevin rəhbərliyi altında çox geniş miqyaslı arxeoloji kəşfiyyat işləri aparılmış, eneolit, tunc və sonrakı dövrlərə aid onlarla muxtəlif tipli abidələr qeydə alınmışdır (2). Sonrakı illərdə, xüsusilə XX əsrin 70-80-ci illərində Şəmkir rayonu ərazisində Yenikənd və Kirzan Su elektrik stansiyalarının tikintisi zamanı bölgəyə maraq artmış, gələcəkdə su altında qalacaq yerləri arxeoloji cəhətdən öyrənmək məqsədi ilə R. B.Göyüşovun rəhbərliyi altında Q.Q.Aslanov, Q.M.Aslanov, Ə.Ə.Əliyev, F.Ə.Abbasova, H.P.Kəsəmənli, M.Hüseynova və başqaları burada geniş miqyaslı arxeoloji tədqiqatlar aparmış, məzmunlu hesabatlar yazılmış, monoqrafiyalar çap edilmişdir (1). Bu illərdə aparılmış arxeoloji tədqiqatlar zamanı eneolit dövrünə aid Keçili yaşayış yeri, erkən tunc dövrünə aid "Osman bozu" kurqanları, son tunc dövrünə aid "Bitdili" yaşayış yeri, "Qaracəmirli" kurqanları, alban dövrünə aid Qanlıtəpə, Həsəntəpə, Tülkütəpə, II Keçili, Sarıtəpə, Saqqızlı, Üzümlütəpə, Muncuqlutəpə, Bulaqbaşı abidələr kompleksi, Daşbulaq və Bitdili küp qəbirləri nekropolu və s. kimi qiymətli abidələr öyrənilmiş və xəritələşdirilmişdir. Şəmkir rayonu ərazisində öyrənilmiş arxeoloji abidələr içərisində alban dövrü abidələri xüsusi diqqət çəkir. 70-80-ci illərin arxeoloji tədqiqatları zamanı bölgədə bu dövrə aid onlarla yaşayış yeri və qəbir abidələri qeydə alınmışdır. Bu abidələr içərisində Qaracəmirli kəndi yaxınlığındakı Alıqoca arxeoloji kompleksini və Qanlıtəpə yaşayış yerini göstərmək olar. Mədəni təbəqənin təxminən 1-1,5 m olduğu həmin abidələr antik və ilk orta əsrlərdə bu ərazilərdə intensiv həyat və yüksək mədəniyyət olduğunu göstərir. Bu gün də Şəmkirdə geniş miqyaslı arxeoloji tədqiqatlar aparılmaqdadır. Bu baxımdan İ.A.Babayevin rəhbərliyi altında Qaracəmirlidə, T.M.Dostiyevin

rəhbərliyi altında orta əsr Şəmkir şəhər yerində aparılan tədqiqatlar xüsusi diqqət çəkir. Aparılan tədqiqatların bölgənin və ümumiyyətlə, bütün Azərbaycanın qədim və orta əsr tarixinin müxtəlif problemlərinin öyrənilməsində əhəmiyyətli yer tutacağı şübhəsizdir.

Bakı-Tiflis-Ceyhan neft kəmərinin tikintisi ilə əlaqədar bölgənin arxeoloji cəhətdən öyrənilməsi, kəmərin keçdiyi ərazilərdə olan abidələrin xilası istiqamətində də xeyli iş görülmüşdür. Boru kəmərlərinin dəhlizində aparılan arxeoloji tədqiqatlar zamanı müxtəlif tipli onlarla yeni abidə aşkarlanaraq tədqiq edilmişdir. Buna Bayramlı kəndi ərazisindəki Hacıvəlililər nekropolunu, Zəyimçay hövzəsindəki müxtəlif dövrlərə aid yaşayış yerlərini və qəbir abidələrini göstərmək olar. Hal-hazırda bu abidələrdən toplanılmış arxeoloji materiallar əsasında Şəmkir və onun ətrafının arxeologiyası ilə bağlı elmi əsərlər yazılır.

Müəyyən edilmiş və arxeoloji xəritəyə salınmış abidələrin mühafizəsi və konservasiyası da vacib məsələlərdəndir. Məlumdur ki, son illərdə respublikamızda aparılan torpaq islahatları nəticəsində torpaq sahələrinin xeyli hissəsi özəlləşdirilmiş və ayrı-ayrı şəxslərin istifadəsinə verilmişdir. Bu torpaqlarda aparılan tikinti və təsərrüfat işləri zamanı yerüstü əlaməti olmayan müxtəlif tipli abidələr aşkar olunur. Təəssüflə qeyd etmək lazımdır ki, çox vaxt həmin abidələr gizlədilir, dağıdılır və izi itirilir. Bunun qarşısını almaq üçün dövlət səviyyəsində tədbirlər görülməli, abidələrin əhəmiyyəti barədə aparılan təbliğat daha da gücləndirilməlidir. Rayon ziyahları, məktəb müəllimləri, rayonlarda fəaliyyət göstərən ictimai təşkilatlar, kütləvi informasiya vasitələri, bir sözlə, bütün Azərbaycan vətəndaşları tarixi abidələrimizin qorunması istiqamətində yüksək səy göstərməlidir. Acınacaqlı hallardan biri də odur ki, təsadüfən aşkar olunmuş maddi mədəniyyət nümunələri, hətta bəzi hallarda isə muzey materialları qeyri-qanuni yollarla respublikadan kənara çıxarılır və xalqımızın milli-mənəvi dəyərləri özgəninkiləşdirilir. Elə abidələr vardır ki, onlar arxeoloqlar tərəfindən öyrənildikdən sonra konservasiya olunub saxlanılmahdır. Bu məqsədlə əlaqədar təşkilatlar məsələ qaldırmalı, həmin abidələrin tarixi əhəmiyyətini nəzərə almaqla onları mühafizə etməlidir. Yeri gəlmişkən, bu gün Şəmkir şəhər yerində aparılan arxeoloji tədqiqatlar zamanı açılmış qala divarlarının konservasiya olunması üçün aparılan hazırlıq işləri çox sevindiricidir. Bu təcrübə geniş təbliğ olunmalıdır. Bir məsələni də qeyd etmək lazımdır ki, Arxeoloji tədqiqatlar nəticəsində Şəmkir rayonu ərazisində qeydə alınmış abidələrdə bir sistemsizlik hiss olununr. Belə ki, bu abidələrin əksəriyyətinin dəqiq dövrü, sərhədləri, əhəmiyyət dərəcəsi və s. məsələlərə lazımınca diqqət yetirilməmişdir. Bunun da əsas səbəbi bölgənin arxeoloji xəritəsinin və abidələrin külliyyatının hazırlanmasının bilavasitə məqsəd kimi qarşıya qoyulmaması olmuşdur. Bundan sonrakı tədqiqatlarda bu məsələlərə diqqət yetirilməli, abidələrin sistemli şəkildə, sərhədləri, dövrü, əhəmiyyət dərəcəsi göstərilməklə xəritələşdirilməsi işinə başlanılmalıdır. Bu, eyni zamanda, bölgədə aparılan torpaq islahatları, torpaqların özəlləşdirilməsi şəraitində keçmişimizin tarixi

yadigarları olan abidələrimizin dağıdılmasının qarşısını alar, abidələrin mühafizəsi işini asanlaşdırar.

**ƏDƏBİYYAT**


1. Aslanov. Q. M "1985-ci ildə Yenikənd su elektrik stansiyası ərazisində olan kurqanlarda aparılmış arxeoloji tədqiqatlar". (rus dilində) Bakı, 1986; Əliyev Ə.Ə. "Muncuqlu təpə abidəsində aparılan arxeoloji qazıntı işləri haqqında". Azərbaycanda arxeologiya və etnoqrafiya elmlərinin son nəticələrinə həsr olunmuş elmi konfransın materialları. Bakı, 1992; Abbasova F. Ə "Bulaqbaşı abidələri". Bakı, 2003.
2. Nərimanov İ. H. Babayev İ. A. Keçilidə arxeoloji tapıntılar. Azərbaycanın maddi mədəniyyəti. X cild. Bakı, 1987.
3. Халилов Дж.А., Кошкарлы К.О., Аразова Р.Б., Археологические памятники Северо-Восточного Азербайджана. Баку, 1991.
4. Xəlilov C.Ə. Qərbi Azərbaycanın tunc dövrü və dəmir dövrünün əvvəllərinə aid arxeoloji abidələri. Bakı, 1959

**T.N.GÖYÜŞOVA**

# *XIX əsrin sonlarında və XX əsrin əvvəllərində Şəmkir rayonu ərazisində aparılan arxeoloji qazıntılar*

Azərbaycan Respublikasının müxtəlif dövrlü arxeoloji abidələrinin zənginliyi ilə seçilən ərazilərindən biri də Şəmkir rayonudur. Rayon ərazisində neolit dövründən başlayaraq son orta əsrlərə qədər bir dövrü əhatə edən müxtəlif növlü arxeoloji abidələr mövcuddur. Abidələr kurqan, daş qutu, torpaq tipli qəbir abidələrindən, yaşayış yerlərindən, qədim məbəd qalıqlarından, orta əsr şəhər yerlərindən, qədim körpülərdən və s. ibarətdir.

Şəmkirin arxeoloji abidələrinin öyrənilməsinə hələ XIX əsrin sonlarından başlanmışdır. Gədəbəy misəritmə zavodunun əməkdaşı, milliyyətcə alman olan J.Kox adlı şəxs 1883-cü ildə Annenfeld koloniyasi yaxınlığındakı ərazidən 40-a yaxın müxtəlif növlü çaxmaq daşından düzəldilmiş silah və alət tapmışdır. Kox bu alətləri misəritmə zavodunun direktoru V.Boltona, o isə Almaniyaya, Qafqaz arxeologiyasının tədqiqatçısı professor R.Virxova göndərmişdir(1,47).

Şuşa realnı məktəbində alman dilini tədris edən E.Resler Arxeoloji komitənin tapşırığı ilə o vaxtlar Georgevsk koloniyası adlanan Şəmkir rayonun Çinarlı kəndi ətrafında iki müxtəlif vaxtlarda arxeoloji qazıntı işləri aparır. Bu müddət ərzində E.Resler 11 kurqan tipli qəbir öyrənir. 1901-ci ilin avqustunda o bu ərazidə 10 kurqan qazır. Kurqanlardan üçü koloniyanın ətrafındakı dağlıq hissədə, yeddisi isə düzən ərazidə yerləşmişdi. Kurqanlar daş və torpaq qarışığından tökülmüşdür. Kurqanaltı qəbirlər isə daş qutu və torpaq qəbirlərindən ibarət olmuşdu. Dağlıq ərazidəki qəbirlərin ikisində heç bir avadanlıq olmamışdır. Qəbirlərdə meyitlər müxtəlif istiqamətlərdə sağ və ya sol böyrü üstə bükülü şəkildə dəfn edilmişdi. 3 saylı qəbirdən isə saxsı qab qırıqları, iki qulplu qara rəngli, üstü cilalanmış saxsı qab tapılmışdır (tablo I, şəkil 3). Qəbrin döşəməsində yanıq izləri qeydə alınmışdır (3, 96, 4, 15-18). Tədqiqatçı C.Xəlilov od qalıqlarına əsasən meyitin qəbirdə yandırıldığını, sonra isə qalıqlarının dəfn edilərək üzərinə kurqan töküldüyünü söyləmişdir. C.Xəlilov qara rəngli cilalı gil qabın eniolit qabları ilə oxşarlıq təşkil etdiyini söyləmiş, kurqandan heç bir metal əşya tapılmadığına əsaslanaraq onu tunc dövrünün lap əvvəllərinə aid etmişdir (1, 48-54).

Düzən ərazidə yerləşən kurqanlardan 8, 9 və 10 saylı kurqanlar nisbətən zəngin olmuşdur.

8 saylı kurqanın altındakı torpaq qəbir ellips formalı olub, istiqaməti şimaldan cənuba doğru, uzunluğu 1.83 m, eni 1,22 m, dərinliyi 1,66 m olmuşdur. Qəbrin divarları əhəngdaşmdan düzəldilmişdir. Qəbrin içi boz gil və xırda daşlarla doldurulmuşdu.

Qəbirdən sol böyrü üstə dəfn olunmuş qadm skeleti aşkar olunmuşdur. Skeletin üz tərəfindən bir necə əqiq, ağ boru formalı və tunc muncuq aşkar

olunmuşdur. Skeletin baş tərəfindən kobud hazırlanmış qırmızı rəngli saxsı qab qırıqları əldə edilmişdir (tablo I, şəkil4).

9 saylı kurqanaltı qəbrin üstü yonulmuş əhəngdaşları ilə örtülmüşdür. Bu qəbir də ellips formalı olub, diametri 1,98 m və 1,37 m, istiqaməti şimal-qərbdən cənub-şərqə olmuşdur. Qəbrin döşəməsi çınqıl daşı ilə örtülmüş, dərinliyi 1,58 m idi. Qəbrin içi qumla doldurulmuşdu. Qəbirdən sağ böyrü üstə, dizləri qatlanmış, əlləri düz halda kişi skeleti aşkar edilmişdir. Bu qəbrin avadanlığı zəngindir. Skeletin sinəsinin qabağında şar formalı, ortasında dördbucaqlı deşiyi olan tunc toppuz başı, tunc sınmış üzük, tünd-qırmızı rəngli dəvəgözü daşından ox ucu, bülöv, asmaq üçün deşiyi olan qaban dişi, başının arxasından isə gödək, enli tiyəli dəstəkli tunc xəncər, boynunun yaxınlığında əqiq muncuqlar tapılmışdır. Qəbrin şimal tərəfində iribuynuzlu mal-qara, donuz və quş sümükləri aşkar edilmişdir. Skeletin baş tərəfinə üç, arxa tərəfinə isə dörd ədəd saxsı qab qoyulmuşdur. İri qabların içərisi sümük qalıqları ilə dolu olmuşdur (tablo I, şəkil 2, 5).

10№-li kurqanın hündürlüyü 0,61 m olmuşdur. Kurqanaltı qəbir üstü uzunsov daşla örtülmüş torpaq qəbirdən ibarət olmuşdur.

Qəbirdən insan sümükləri, dəmir nizə ucluğu, üzərində svastika təsviri olan saxsı qab parçası (tablo I, şəkil 1) tapılmışdır (4, 17-18). C.Xəlilov Şəmkir kurqanlarının materiallarını tədqiq edərək (xüsusilə 9 saylı qəbir) onları Cənubi Qafqazın analoji abidələri ilə müqayisə etmiş, oxşar və fərqli cəhətlərini aydın etmişdir. 10 saylı qəbir istisna olmaqla, o, Şəmkir kurqanlarını tunc dövrünün axırlarına, e.ə. II minilliyin II yarısına aid etmişdir. 10 saylı qəbirdən tapılmış dəmir nizə ucluğuna əsasən isə o, bu qəbri xronoloji cəhətdən daha sonrakı dövrə aid olduğunun bildirmişdir. C.Xəlilov Şəmkir kurqanlarını Xocalı-Gədəbəy arxeoloji mədəniyyətinin bir variantı hesab etmişdir (1, 54-56). 1903-cü ildə E.Resler Qolosino kəndi yaxınlığında daha bir kurqan qazmışdır. Daş və torpaq qarışığından düzəldilmiş kurqanın hündürlüyü 1,20 m, diametri 14 m. olmuşdur. Kurqanın 1,5 m dərinliyindən dördbucaqlı formada, divarları daşdan tikilmiş qəbirdən çürümüş insan skeleti aşkar edilmişdir. Skelet başı qərbə uzadılmış halda dəfn edilmişdir. Qəbirdən kül qalıqları, saxsı qab parçaları, çaxmaq daşından düzəldilmiş sınmış bıçaq tapılmışdır. Bu bıçaq J.Koxun 1883-cü ildə Anenfeld koloniyasının yaxınlığında tapdığı çaxmaq daşından hazırlanmış alətlərlə oxşarlıq təşkil etmişdir. Tədqiqatçı B.B.Piotrovski qəbrin materiallarına, xüsusən də çaxmaq daşından hazırlanmış bıçağa əsaslanaraq 1 saylı kurqanı neolit dövrünə aid etmişdir (2, 30). C.Xəlilov haqlı olaraq qeyd edir: "Bu kurqan sübut edir ki, Qərbi Azərbaycanda kurqan altında meyitləri dəfnetmə adəti uzaq keçmişdən başlayır" (1, 48). E.Reslerin 1901-1903-cü illərdə tədqiq etdiyi Şəmkir kurqanları Azərbaycan arxeologiyasının bir çox problemlərinin öyrənilməsində nühüm elmi əhəmiyyət kəsb edir. Belə ki, 1 saylı kurqanın materialları əsasında Azərbaycan ərazisində kurqanlarda dəfnetmə adətinin qədim köklərə bağlı olduğu sübut edilmişdir. Hal-hazırda Azərbaycan ərazisində ən qədim kurqanları tədqiqatçılar eneolitin sonuna aid edirlər (2, c. 77-78; 3, 136; 4).

E.Resler tədqiq etdiyi bu abidələr haqqında ətraflı hesabatları Arxeoloji komissiyanın "hesabatları" və "xəbərləri"ndə çap etdirmişdir. Təəssüf ki, E.Reslerin Şəmkir rayonundan əldə etdiyi maddi mədəniyyət nümunələri Rusiyanın Ermitaj və Tarix muzeylərinə göndərilmişdir.

Uzun müddət fasilədən sonra 1930- cu illərdə Şəmkir ərazisində milli kadrlar tərəfindən yenidən arxeoloji qazıntıların aparılmasına başlanmışdır.

## ƏDƏBİYYAT


1. Xəlilov C.Ə. Qərbi Azərbaycanın tunc dövrü və dəmir dövrünün əvvəllərinə aid arxeoloji abidələri. Bakı, 1959,
2. Кошкарлы К.О. Нефтяной аспект Азербайджанской археологии. Азербайджан и азербайджанцы. 2006, № 1-4, с.77-78.
3. Мусеибли Н. Позднеэнеолитические курганы Акстафинского района. Археология, этнология и фольклористика Кавказа. Баку, 2005.
4. Нариманов И.Г., Ахундов Т.И. Алиев Н.Г. Лейлатепе. Поселение, традиция, этап в этнокультурной истории южного Кавказа. Баку, 2007.
5. Пиотровский Б.Б. Археология Закавказья. Ленинград, 1949.
6. Отчеты археологической комиссии 1901. СПб, 1903.
7. Реслер Э.А. Археологические раскопки в ЕлизаветпольскоЙ губернии в 1901 г. Известия Императорской археологической комиссии. Выпуск 16, 1905.

## I Tablo



**M.M.HÜSEYNOV**
**B.M.CƏLİLOV**

## *Orta əsr Daşbulaq yaşayış yeri*

Daşbulaq orta əsr yaşayış yeri Şəmkir rayonunun Daşbulaq və Dəllər-Cəyir kəndləri arasında, Daşbulaq kəndindən 100-150 metr cənub-qərbdə yerləşir. Bakı-Qazax magistral yolundan ayrılan və Daşbulaq kəndinin ərazisindən keçərək Şəmkir SES-ə gedən, eni 13,5 metr olan şose yolu abidəni kəsib keçir. Qazıntı işləri şose yolunun həm sağ, həm də sol tərəfində aparılmışdır. Yaşayış yeri şərqdən müasir müsəlman kənd qəbiristanlığı, qərbdən əkin sahələri və otlaqlarla əhatə olunmuşdur. Abidənin yerləşdiyi ərazi dəniz səviyyəsindən təxminən 220 m-dək yüksəklikdə relyef və geoloji baxımdan maili formalı böyük düzənlikdir. Yerüstü materiallara əsasən Daşbulaq orta əsr yaşayış yerinin ümumi sahəsinin 2,5-3 ha-ya yaxın olduğunu ehtimal etmək olar.

Yaşayış yerində 2004-2005-ci illərdə aparılmış tədqiqatlar nəticəsində çoxsaylı maddi mədəniyyət qalıqları: 23 təsərrüfat quyusu və 18 təndir, məzmunca və formaca bir-birindən fərqlənən xeyli şirli və şirsiz saxsı qab nümunələri, daş əmək alətləri, şüşə və metal məmulatı və s. aşkar edilmişdir.

Təndirlər forma və ölçüləri baxımından müxtəlif olsa da, onların ümumi və oxşar əlamətləri də var. Təndirlərin hamısı gildən odadavamlı yoğrulmuş, orta qalınlıqlı badlarla hörülmüşdür (şəkil 1-4). Gilin tərkibinə qum, saman və ya ot, keçi gəzili də qatılmışdır.

Təndirlərin bəzilərində külbə yerləri də aşkar edilmişdir. Külbə odun hərarətini azaldıb-çoxaltmaq üçün nəzərdə tutulmuşdur. Külbənin ağzı qapandıqda təndir daxilində olan köz qaralır və hərarət azalır. Külbə açıq olduqda odun hərarəti hava çəkərək artırdı. Daşbulaq orta əsr yaşayış yerində aparılan qazıntılar zamanı təndir və külbə qapaqlarının müxtəlif hissələri tapılmışdır. Bundan əlavə, bir neçə bütöv, qapaqlara da rast gəlinmişdir. Təndir və külbə qapaqları, adətən müstəvi və diskşəkilli formalı olur (5, s 22-23). Ehtimal edirik ki, iri qapaq qırıqları təndirlərə, xırda hissələr isə külbə qapaqlarına aiddir. Məsələn, I qazıntı sahəsinin 3-cü kvadratında, 1 metr 75 sm dərinlikdə 11 saylı təndirin yaxınlığında saxsı qapaq tapılmışdır. Qapağın diametri 28 sm, qalınlığı isə 4,5 sm idi. Qapağın üstündə ortada hündürlüyü 4,5 sm, diamteri 4 sm olan qulpu vardır. Qapağın qulpu simmetrik, basma üsulu ilə dairəvi formalı nöqtələrlə naxışlanmışdır. Qapağın kənarı nisbətən qalındır və cilalı əyri xətlərlə naxışlanmışdır. Göstərdiyimiz bu əlamətlərə və qapağın altındakı dərin his-yanıq izlərinə əsasən onun təndir qapağı olması qənaətinə gəlirik. Bu cür qapaqların oxşarları Naxçıvanda da aşkar edilmişdir (2, s - 68)

Külbə üçün yer, adətən, təndirin dib hissəsindən, maili istiqamətdə açılırdı. Yaşayış yerindən aşkar edilən təndirlərin əksəriyyəti bir külbəlidir, bəzilərinin isə külbəsi heç yoxdur. Bəzi təndirlərin külbə yerlərində irili-xırdalı yastı əhəngdaşlarına rast gəlinir. Çox ehtimal ki, Daşbulağın orta əsr sakinləri təndir külbələrini qapaq ilə yanaşı, əhəngdaşılari ilə də bağlayırdılar. I qazıntı

sahəsinin 7 saylı kvadratında, 12 saylı təndirin dibində, istiqaməti şərqə olan külbə yeri yaxınlığından yastı daş tapılmışdır. Görünür, bu daşdan külbənin ağzını örtmək məqsədi ilə istifadə olunmuşdu.

Təndirlərin hamısının ağız kənarı yastı olub, xaricə azca çıxıntılı vəziyyətdədir və sanki saxsi qab ağzını xatırladır. Bütün təndirlərin divarları orta hissədə genişlənir və oturacağa doğru nisbətən daralır.

Təndirlərin bəzilərinin içəri divarında ziqzaqvari cızma xətlər vardır. Ehtimal ki, bu ya barmaqla, ya da hər hansı alətlə cızılmış və xəmir kündələrinin təndirin divarına yaxşı yapışması məqsədi daşımışdır. Bu və ya digər əlamətləri Daşbulaq təndirlərinin müasir dövr təndirləri ilə eyniyyət təşkil etməsini göstərir. Bu oxşarlıq həm hazırlanma texnologiyasında, həm də istifadə qaydasında özünü biruzə verir.

Göründüyü kimi Daşbulaq orta əsr yaşayış yerindən həcmcə həm böyük, həm də kiçik təndirlərə rast gəlinmişdir. Bu tip təndirlərə Naxçıvanda Xaraba şəhərdə də təsadüf olunmuşdur. (8). Qeyd etmək lazımdır ki, Daşbulaq ərazisi üçün, o cümlədən Gəncə-Şəmkir zonası üçün çox səciyyəvi olan beb təndirlər ənənəvidir. Təndirlər, Daşbulaq kəndinin orta əsr sakinlərinin məişətində və təsərrüfat həyatında çörəkbişirmənin yüksək inkişaf etməsindən xəbər verir. Qazıntı zamanı 7 saylı təndirin yaxınlığında, kül izi və kömür qalıqları ilə zəngin sahədən ərsin tapılmışdır. Belə ərsinlər Azərbaycanın digər orta əsr yaşayış yerlərindən - Mingəçevirdən bütöv halda (5, s. 31-32) və Beyləqan qazıntılarından sınmış vəziyyətdə (10, s. 74) aşkarlanmışdır. Lakin Daşbulaqdan tapılan ərsinin qulpu saxlanmadığından, onun təndir və ya xəmir ərsini olduğunu söyləmək çətindir. Təndir və xəmir ərsinlərinin tiyə hissələri eyni formada olduğu üçün onları yalnız sapının uzun və ya qısalığına görə ayırmaq mümkündür (7, s. 32).

Daşbulaq orta əsr yaşayış yerində məhsulun saxlanılmasında istifadə edilən 23 təsərrüfat quyusu aşkar edilmişdir (7, s. 370-371). Təsərrüfat quyuları forma və ölçüləri baxımından müxtəlifdir. Bu quyular təxminən yer səthindən 30-80 sm dərinlikdə xam torpaqda qazılmış və bir qayda olaraq aşağıya, dərinliyə doğru genişlənir (şəkil 5). Quyulardan bəziləri çox böyük olub, ağız diametrləri və dərinlikləri 1 metr 80 sm-ə bərabərdir (şəkil 6). Onlardan bir çoxunun yeri hamar suvanmış və şirələnmişdir.

Təsərrüfat quyularından tapılan əsas material saxsı qab qırıqları, müxtəlif tipli bəzək əşyaları, sümük məmulatı və s. -dən ibarətdir. Bunların içərisində saxsı qab qırıqları, şübhəsiz ki, çoxluq təşkil edir (7, s. 369-370).

Daşbulaq orta əsr yaşayış yerindən aşkar olunmuş təsərrüfat quyularının oxşarları Azərbaycanın orta əsr yaşayış yerlərinin, demək olar ki, hamısından tapılmışdır. Belə təsərrüfat quyuları Ağstafa rayonunun Qıraq Kəsəmən orta əsr kənd tipli yaşayış yerindən, həmçinin, Q.Əhmədov tərəfindən Örənqala orta əsr yaşayış yerindən (3, s. 36-38), Mingəçevirdən yaxşı məlumdur (4, s. 26-28). R.M.Vahidov Mingəçevir quyularının təsərrüfat quyuları kimi istifadə edildiyi fikrini irəli sürmüşdür. Mingəçevirdə belə quyulardan bəzilərində ərzaq qalıqları da tapılmışdır (2, s. 9-10 ). Sıradan çıxan təsərrüfat quyularından sonralar zibil

quyuları kimi istifadə edilməsi də şübhə doğurmur. Bu quyuların böyüklüyünə baxmayaraq, onlardan bəziləri tamamilə saxsı qab qırıqları, sümük tullantıları, çaydaşları və s. ilə doldurulmuşdur (7, s. 369-370). Tədqiqatlar nəticəsində çoxsaylı maddi-mədəniyyət nümunələri aşkar edilmişdir. Məzmunca və formaca bir-birindən fərqlənən xeyli şirli və şirsiz saxsı qab nümunələri, daş əmək alətləri, şüşə və metal məmulatı və s. bu maddi-mədəniyyət nümunələri sırasına daxildir.

Saxsı məmulatı üstünlük təşkil etdiyindən, arxeoloji materialların səciyyəsinə onlardan başlamağı məqsədəuyğun hesab edirik. Saxsı məmulatını təyinatına görə aşağıdakı kimi qruplaşdırmaq olar. Təsərrüfat küpləri, küpələr, sərniclər, bardaqlar, dopular, qazanlar, qapaqlar, badyalar, çıraqlar, piyalələr, güvəclər, kasalar, piydanlar, şamdanlar və s. (9, s. 538-539).

Küplər əsasən sınıq vəziyyətdə olub, qırıqlarla tapılmışdır. Onların dar, yastı oturacağı, armudvari gövdəsi, silindrik boğazı, yana qatlanmış ağzı vardır. Bir qayda olaraq gövdəsini ornamental kəmər qurşaqlayır. Küplər əsasən orta dərəcə keyfiyyətdə bişirilmiş, saxsısı sıx, rəngi qonur, qəhvəyi və ya qırmızı-kərpicidir. Küplərin gövdəsini qurşaqlayan ornamental kəmərdə daha çox cızma və qazma üsulu ilə salınmış dalğalı xətlərə rast gəlinir. Küplərin ağzının kənarını isə bir qayda olaraq qabırğavari girintili-çıxıntılı relyefli naxış bəzəyir (şəkil 7-10).

Qazıntı sahəsindən aşkar olunmuş açıq-qırmızı rəngli təsərrüfat küpünün ağzı və çiyin hissəsi aşkar edilmişdir. Küpün üzərinə açıq qırmızı rəngli boya çəkilərək şüyrələnmişdir. Küp uzunboğazlı, düz ağızlı olub, ağız kənarı daxilə meyillidir. Küpün boğaz hissəsinə yapma kəmər yapılmışdır. Kəmərin yuxarı tərəfi qalın, aşağı hissəsi isə bir qədər nazikdir. Kəmərin aşağı tili burma üsulu ilə hazırlanmış batıqla əhatələnmişdir. Boğazla çiyini birləşdirən hissə çərtmə naxışlarla əhatələnmişdir. Küpün çiyin hissəsində üzüm tingləri və salxımlar əks olunmuş təsvirlər vardır. Təsvirlər yapma üsulu ib hazırlanmışdır. Salxımda təsvir olunmuş üzüm gilələrinin sayı 7-13 arasındadır. Narın qum qarışıq gillə yoğrularaq, keyfiyyətli hazırlanmışdır. Küpün üzərindəki üzüm təsvirlərinə əsasən küpdə üzüm və ya şərab saxlandığını ehtimal etmək olar. Gilinin qalınlığı 0,8 sm-dir (şəkil 7).

Saxsı məmulatlar arasında küpələr kəmiyyət üstünlük təşkil edir (şəkil 14, 20). Onlar formasına, ölçülərinə, naxışlanmasına, eləcə də bişirilmə vəziyyətinə görə bir-birindən fərqlənir. Arxeoloji sahədən üzərində zoomorf təsvirlər olan bir neçə ədəd saxsı nümunəsi aşkar olunmuşdur. Bu saxsı nümunələri küpə və qazanlarla təmsil olunur. Zoomorf naxışlar basma üsulu ilə vurulmuşdur. Bu naxışlar əsasən küpələrin gövdə və çiyin hissəsinin arasında yerləşir. Zoomorf naxışlar əsasən quş, keçi, it, vəhşi yırtıcı təsvirlərindən ibarətdir. Heyvan təsvirləri bir-birinin ardınca cərgə ilə həkk edilərək qabları əhatələyir (şəkil 16-17).

Onlar bəzən bir heyvan və ya quş təsvirlərinin cərgəsindən, bəzən isə qarışıq halda, yəni quş-keçi və yırtıcı heyvan təsvirlərindən ibarətdir (şəkil 16-17).

Orta və kiçiktutumlu sərnic nümunələri çoxdur. Üst hissəsi salamat qalmış ortatutumlu sərniclərdən bəzilərinin ağız hissəsi yarımdairəvi şəkildə bayıra açılır, boğaz hissələri aşağıya doğru genişlənərək çiyinə keçir, gövdələri armudvari formadadır. Lentşəkilli qulpların yuxarı ucları ağzının kənarına birləşdirilmişdir. Bir neçə sərnicin çiyin hissəsinə çərtmə xətt və batıqlar düzümündən ibarət naxış salınmışdır. Başqa bir ortatutumlu sərnicin fərqləndirici xüsusiyyəti qulpların birləşdiyi yerdə qabın yarımdairə formasında bayıra açılmış ağzının kənarının daha artıq bayıra genişlənməsindədir. Qulpun çiyinə yapışdırıldığı səviyyədə isə barmaqla çökəklik salınmışdır.

3 saylı təsərrüfat quyusundan tapılmış sərnicin qırıqları düz alçaq, gen boğazı, çiyin və boğazın yuxarısına birləşən lentşəkilli qulpları olan sərnicə məxsusdur. Çiyninə cızma xətlərdən ibarət naxış salınmışdır. Gilinin tərkibində qum qarışıqlar var, keyfiyyətsiz hazırlanmışdır.

Bardaqlar bir neçə nüsxə olmaqla, əsasən qırıqlarla təmsil olunmuşdur. Formasına görə onları novçalı, genboğazlı və darboğazlı olmaqla, bir neçə tipə ayırmaq olar. Yaşayış yerinin II qazıntı sahəsindən (2005-ci il qazıntıları) açıq-qırmızı rəngli bardaq tipli saxsı qabın bir hissəsi aşkar edilmişdir. Qabın ağız hissəsi novçalı olub, təkqulpludur. Enli lentvari qulpun üst orta hissəsində 1 ədəd batıq vardır. Uzun boğazlı olub, çiyni ilə boğazın birləşməsində çərtmələr vardır. Ağız kənarının xarici səthi kanalvari batıqla əhatələnmişdir (şəkil 12).

Qazıntı zamanı dopu tipli qablar da aşkar olunmuşdur. Əsasən qırıq şəkildə aşkar olunan belə qablardan bəziləri bütöv halda əldə edilmişdir.

Saxsı məmulatlar içərisində qazan tipli saxsı qablar da çoxdur (səkil 15, 19).

Aşkar olunmuş qazan fraqmentlərinin təhlili göstərir ki, onlar əsasən eyni formalı olub, yalnız öz həcmlərinə və müəyyən bəzək ornamentlərinə görə bir-birindən fərqlənir. Əldə olunmuş qazanlar şişman gövdəli irihəcimli, düz oturacaqlı olub boğazları çiyindən sərt şəkildə arxaya doğru daralır. Onların ağız kənarları geriyə doğru düz şəkildə qatlanır. Qazanların çiyin və gövdə hissələrini burma, qabarıq yapma qurşaq əhatələyir. Qazanların üçbucaq şəkilli qulpları çiynə üfüqi vəziyyətdə yapışdırılmışdır. Bəzilərində qulplarla yanaşı, üçbucaq formalı kiçik və ya böyük tutacaqlar vardır (şəkil 15). Qulplarına və tutacağa barmaqla basma üsulu ilə naxışlar vurulmuşdur. Qulpların bəziləri daha böyük olub, qazanın ağız hissəsindən hündürə qalxır. Diqqəti cəlb edən qazan tipli saxsı qablardan bir ədədi bütöv aşkar olunmuşdur. O, qırmızı rəngdə iri gövdəli olub, çiyinlə ağız hissəni birləşdirən dörd lentşəkilli qulpu vardır. Qazanın çiyin hissəsini basma zoomorf naxış əhatələyir. Heyvan və quş təsvirləri ardıcıllıqla həkk edilmişdir. Qazanın diametri ağzının 14 sm, gövdəsində 29 sm, oturacağın 11 sm, hündürlüyü 21 sm-dir. (şəkil 15, 19).

Arxeoloji sahədən əldə olunmuş qapaqlar əsasən qırmızı və açıq-qırmızı rəngli olmaqla, oxşar formada hazırlanmışdır. Onların əksəriyyətinin orta hissəsində sütun formalı tutacaqları vardır. Qapaqların altı düz, üst hissələri ornamental naxışlıdır. Onların ortası qalın olub, kənarları nisbətən nazikdir. Qapaqların əksəriyyətinin kənar hissələri sünbülvari naxışlarla əhatələnmişdir (9,

s. 538-540). Qapaqlar küp, küpə, qazan ağzını qapamaq üçün istifadə olunmuşdur. Onların əksəriyyəti böyük ölçülü nümunələrlə təmsil olunmuşdur.

Qapaqların diametri 15,5-25 sm, qalınlığı 0,7-2 sm-dir. Bu tip qapaqların bütöv nümunələrindən birinin kənarları çərtmələrlə bəzədilmiş, orta hissəyə assimmetrik yapışdırılmış tutacağı yuxarıya doğru daralan sütun şəklindədir.

Yaşayış yerində vaza tipli qablar da aşkar olunmuşdur. Belə qablardan biri açıq-qırmızı rəngdə olub, sınmış vəziyyətdədir. Lakin qabı bərpa etmək mümkün olmuşdur. Yalnız oturacaq hissəsini tapmaq mümkün olmadı. Geniş həcmlidir. Ağız hissə içəridən köbəli olub, getdikcə nazilir, ağız hissəsinin çöl tərəfində 0,8 sm eni olan üfüqi kanalvarı batıqla əhatələnmişdir. Ağzının diametri - 21,3 sm, hündürlüyü 12,4 sm, divarının qalınlığı 0,8 sm-dir. Narın qum qarışıq gillə yoğrularaq, sabit temperaturda bişirilmişdir (şəkil 18). Arxeoloji sahədən çıraq qırıqları da aşkar olunmuşdur. Dar, yastı oturacağı aşağıya doğru daralan gövdəsi, boruşəkilli lüləyi olan çıraq tapılmışdır. Gilinin tərkibində az miqdarda qırışıqlar olan həmin çıraq sabit temperaturda bişirilmiş, saxsısı sıx, rəngi açıq-qırmızıdır.

Daşbulaq yaşayış yerinin qazıntısından əldə olunmuş arxeoloji materiallar arasında duzqabı, piyalə, nimçə və kasa qırıqları ilə təmsil olunan şirli saxsı məmulatları da vardır (şəkil 22). Şəffaf şir altında ağ anqobla naxışlanmış şirli saxsı nümunələrinə az rast gəlinmir.

Tapıntılar arasında əsasən bilərziklərlə təmsil olunan şüşə məmulatı yüksək keyfiyyəti ilə diqqəti cəlb edir. Yaşayış yerində şüşə qab nümunələrinə az rast gəlinmişdir. 2005-ci il qazıntılarından əldə olunmuş nümunələr yalnız ortatutumlu flakona mənsub boğaz qırığı və nazik divarlı qablara məxsus iki kiçik fraqmentlə təmsil olunmuşdur. Fraqmentlərdən biri nazik divarlı, kiçiktutumlu qaba mənsub olub, şəffaf, rəngsiz şüşədən hazırlanmışdır. Digər nümunə nazik divarlı piyalə tipli qabın ağzının qırığı olub, kənarı qatlanaraq dəyirmiləşdirilmiş yaşılaçalan şəffaf şüşədən hazırlanmışdır. Yarımdairə şəklində yanlara açılan, yuxarıya doğru daralan, ortasında bayıra genişlənmə olan boğazı, maili çiyinlə gövdəyə keçən flakon şəffaf şüşədən hazırlanmış, uzun müddət torpaqda qaldığından üzəri erroziya qatı ilə örtülmüş və tünd-rəng almışdır. Şüşə bilərziklər kütləvi istifadə olunan bəzək əşyalarından olub, qazıntılar zamanı mədəni təbəqədə tez-tez rast gəlinən arxeoloji materiallardandır. Onlar en kəsiyinin formasına görə müxtəlif qrup və tiplərə bölünürlər. Burma üsulu ilə hazırlanmış şüşə bilərziklər daha çoxdur. Onlar qara, yaşıl, tünd-qəhvəyi, tünd-göy rəngli şüşədən hazırlanmışdır. Bir neçə nüsxə fraqment göy şüşədən hazırlanmış, qırmızı şüşə ilə inkrustasiya olunmuşdur. En kəsiyi dairəvi olub, üzərinə sapların spiralvari sarıldığı bilərziklər də geniş yayılmışdır. Onlar əsasən qara və göy şüşələrdən hazırlanmışdır. Arxeoloji qazıntılar zamanı bir neçə ədəd dəmir və mis əşya tapılmışdır. Onların əksəriyyəti fraqmentlərlə təmsil olunmuşdur. Qazıntılar zamanı uşaq üçün hazırlanması güman edilən bir ədəd kiçik ölçülü mis qolbaq da tapılmışdır. Onun ucları qapanmayır. En kəsiyi yastı olub, lentşəkillidir. Diametri 5 sm-dir. Dəmir məmulat içərisində bir ucu düz, digər ucu isə döyülərək yastılanmış əşya diqqət çəkir. Onun üzəri tamam

paslanmışdı. Tapılma şəraiti və forması onun təndir ərsini olduğunu göstərir. Bu cür ərsinlər təndirlərdən çörəyi qazıyıb çıxartmaq və təndirin divarındakı qalıqları təmizləmək üçün işləndiyinə görə təndir ərsini adlanır.

Belə ərsinlər Mingəçevirdən bütöv halda (8, s. 31-32) və Beyləqan qazıntılarında, qırıq vəziyyətdə aşkar edilmişdir (10, s. 74). Digər dəmir əşya qalıqlarının yer şumlamaq üçün xış ucluğu ehtimal olunur. Onun uzunluğu 45 sm, eni isə 6 sm-dir. Qazıntı zamanı aşkarlanmış daş məmulatı dən daşlarından, bülöv daşlarından ibarətdir. Bülöv daşları uzunsov formada olub, istifadə nəticəsində işlək tərəflərində çökəklik əmələ gəlmişdir. Kiçik ölçülü nazik çaydaşından hazırlanmış, yuxarı ucunda kəmərdən asmaq üçün deşik açılmış bülöv daşının fraqmenti tapılmışdır. Yaşayış yerindən qara rəngli bazalt cinsli daşdan hazırlanmış üst hissəsi oyuq daş alət aşkar edilmişdir. Alətin hər iki ucu sınmışdır. Salamat qalan hissəsinin uzunluğu 22 sm, eni 15 sm, qalınlığı 8 sm-dir. Üst hissəsi hamarlanaraq 6 sm diametri olan oyuq açılmışdır. Oyuğun dərinliyi 2 sm olub, alt hissəsi ovaldır. Alətin alt oturacaq hissəsi kələ-kötürdür.

Daşbulaq yaşayış yerində aparılmış arxeoloji qazıntılar nəticəsində mədəni təbəqədən xeyli miqdarda heyvan sümükləri tapılmışdır. Osteoloji qalıqlar içərisində ev heyvanları tam üstünlük təşkil edir və əsasən inək, camış, qoyun, keçi, donuz, at sümüklərindən ibarətdir. Statistik hesablamalara görə iribuynuzlu mal-qara sümüklərinin çoxluğu diqqəti cəlb etmişdir. Qazıntı zamanı az miqdarda quş sümükləri qeydə alınmışdır.

Aparılan arxeoloji qazıntılar Daşbulaq yaşayış yerinin birtəbəqəli olduğunu və IX- XI əsrlərdə burada kənd tipli yaşayış məskəninin fəaliyyətinin nəticəsi olaraq formalaşdığını göstərir. Yaşayış yerinin mədəni təbəqə yatımının intensivliyinin fərqli olması, zəngin və seyrək tapıntılı qatlarının birinin digərini əvəz etməsi yaşayış məskəninin kompakt deyil, sərbəst plan quruluşuna malik olmasının nəticəsidir.

Maddi-mədəniyyət nümunələri əhalinin məşğuliyyətində əkinçilik və maldarlığın aparıcı sahələr olduğunu, yerli sakinlərin habelə müəyyən dərəcədə sənət istehsalı ilə məşğul olduğunu, oturaq həyat tərzi keçirdiyini təsdiqləyir. Maldarlıq təsərrüfatında iri buynuzlu mal-qaranın bəslənməsinə üstünlük verilirdi. Yerli sakinlərin bəzək məmulatı arasında şüşə və metal bilərziklər, muncuqlar geniş yayılmışdır.

Arxeoloji dəlillər yerli sakinlərin arasında xristianlığının uzun müddət davam etdiyini, islamın burada IX əsrin ikinci yarısından yayıldığını izləməyə imkan verir.

Qazıntılar nəticəsində aşkar edilmiş təsərrüfat quyularının və təndirlərin say çoxluğu, eyni zamanda kənd əhalisinin sıxlığı haqqında da müəyyən fikir söyləməyə imkan yaradır.

Daşbulaq orta əsr yaşayış yerinin xronoloji çərçivəsinin müəyyənləşdirilməsi stratiqrafik müşahidələrə və əldə olunmuş maddi mədəniyyət nümunələrinin müqayisəli təhlilinə əsaslanır.

Daşbulaq orta əsr yaşayış yeri Şəmkir şəhər ətrafında olan kənd tipli yaşayış yerlərindən biri olub, yüksək mədəni iqtisadi inkişafın nümunələrini

özündə saxlayır. Yaşayış yerinin yalnız bir mədəni təbəqədən ibarət olmasına baxmayaraq, faktlar sübut edir ki, burada yaşayış bir neçə əsr davam etmişdir. Müqayisəli təhlillər əsasında yaşayışın IX əsrdən başlandığını və burada həyatın XI əsrədək davam etdiyini söyləmək mümkündür. Gələcək tədqiqatlar nəticəsində bu xronoloji çərçivədə dəyişikliklər olacağı istisna deyildir.

Перспективное развитие сети населенных мест и структурные преобразования городского расселения в Шамкирском районе связаны с повышением роли города Шамкира, с включением в его территориальные границы пгт (поселок городского типа). Далляр, а также промышленным развитием пгт Чинарлы при снижении темпов роста отдельных поселков (1, с. 105). Это во многом обусловит масштабы и пропорции изменения величины городских поселений в системе. Ориентировочные показатели такой динамики с выделением первой очереди и расчетного срока приведены в табл. 1.

*Таблица 1*

**Перспективное изменение величины городских поселений в Шамкирском районе расселения.**

| **Населенное место** | **Численность населения** | | **Проектное население** | |
|---|---|---|---|---|
| | 1969 | 197 | На первую очередь | На расчетный срок 2010 г |
| г. Шамкир | 11,6 | 21,2 | 35,0 | 45,0 |
| Пгт Зяйам | 4,6 | 5,1 | 9,0 | 10,0 |
| пгт Чинарлы | 4,6 | 4,8 | 6,0 | 12,0 |
| пгт Далляр | - | 2,7 | 5,0 | - |
| пгт Шамкир | - | - | 5,0 | 5,0 |
| ГЭС | | | | |
| **Итого:** | 20,8 | 33,8 | 60,0 | 72,0 |

Следует отметить, что приведенные выше показатели носят весьма условный характер, так как с момента разработки в ЦНИП градостроительства «Проекта районной планировки» произошли существенные изменения в политике перспективного размещения производственных сил на территории республики. Прежде всего, взамен пгт Шамкир-ГЭС с расчетным населением 5,0 тыс. чел. намечается создание в этой точке большого промышленного города Шамкир-Кура с перспективным населением 200 тыс. человек. Разумеется, что создание такого мощного индустриального центра в западной части республики само по себе повлечет за собой радикальные изменения не только в пределах Шамкирской локальной системы, но и на территории крупной Гянджинской групповой системы расселения. Последствия подобных сдвигов могут

сказаться определяющими и на планировочном развитии проектируемого города Шамкир.

Масштабы ожидаемых перспективных преобразований в районе, безусловно, были бы более аргументированными и обоснованными, если бы своевременно были разработаны принципы формирования индустриального центра Шамкир-Кура в системе расселения. Однако подобная работа в свое время не была проведена и сегодня приходится исходить лишь из возможных гипотез-альтернатив: будут ли темпы развития этого города столь внушительными, чтобы сделать его одним из больших городов республики, или же, в противоположность этому, будет иметь место инерционный, постепенный рост его как рядового поселения локальной системы расселения. В нервом случае, проектируемый город Шамкир будет иметь относительно не высокие шансы на быстрый рост, так как наличие рядом динамично развивающегося центра Шамкир-Кура потребует значительной концентрации ресурсов и средств, имеющихся не только в районе, но и за его пределами. Во втором случае, при относительно сдержанном развитии города Шамкир-Кура, возникает объективная возможность для умеренного или относительно быстрого роста проектируемого города в системе расселения. Учитывая, как уже отмечалось, отсутствие разработок по развитию г. Шамкир-Кура в системе расселения, при решении задач перспективного развития проектируемого города настоящий генплан исходит из необходимости создания гибкой планировочной структуры. Подобная структура должна быть наделена способностью реагировать на возможные экономические изменения в районе, обладать необходимым маневром в сложных меняющихся градостроительных условиях, а также обладать возможностью трансформации функционального зонирования на основных этапах развития города. В конкретных условиях гор. Шамкира подобная гибкость может быть достигнута двумя главными путями: во-первых, за счет рационального использования внутригородских территорий в черте собственно города; во-вторых, путем правильного выбора направлений развития функциональных зон и создания необходимых резервных зон на перспективу. В генеральном плане предусматривается двукратное увеличение численности населения города Шамкир на расчетный 2010 год, (точнее на первую очередь - 28 тыс. чел. на расчетный срок - 40 тыс. чел.). Вместе с тем, планировочное развитие города в системе расселения определено таким образом, чтобы в случае незначительного развития соседнего города Шамкир-Кура (а такая альтернатива не исключается), проектируемый город Шамкир мог бы взять на себя значительные функции межселенного обслуживания и его структура позволила бы расширить потенциал городского населения не в 2,0 раза, а в 2,5-3 раза более. В последнем случае, видимо становится возможным развитие города Шамкира как важного центра локальной системы расселения.

Проведенная на следующем этапе проектирования генерального плана г. Шамкира всесторонняя оценка ценности прилегающих сельскохозяйственных угодий, условий организации транспортных дорог и магистралей, наличие неосвоенных свободных пространств, размещения селитебных и производственных зон и т.д., позволила установить главные направления территориального расширения города и определить рациональные приемы связи и сочетания его важнейших функциональных зон в процессе поэтапного развития. В результате этого, планировочная структура гор. Шамкира, расширяясь с учетом территориальных возможностей, получает для своего перспективного развития главное направление на север, в сторону железнодорожной линии и расположенного здесь пгт Далляр. При этом развитие сети внутригородских транспортных дорог подчиняется задаче общей транспортной системы района. Принимается во внимание главная региональная полоса расселения, существующая железнодорожная магистраль, автодорога республиканского значения, создающие возможность направления функциональных потоков в сторону Гянджи - опорному центру крупной групповой системы расселения.

В итоге следует отметить, что принятый принцип развития города Шамкир позволит снять его градостроительную обособленность, создаст условия превращения города в важный центр межселенного обслуживания, обеспечит дополнительные предпосылки для выполнения им необходимых функций в системе расселения.

## ЛИТЕРАТУРА

1. Градостроительство, М. 1976. Том II.




**Рис. 1. Градостроительные условия формирования города Шамкир**



**Рис. 2. Опорный план шрода Шамкир**



**Рис. 3. Генеральный план города Шамкир**



**Рис. 4. Схема планировочных органичений развития города Шамкир**

A.S. ƏLİYEVA

## *Şəmkir şəhərinin mühit təşkilində landşaftın yeri*

Azıx mağarasını, Qobustanı, Semiramidanın asma bağlarını, Qafqaz Albaniyasının qalalarını, Əl-həmrənin yaşıl ərazilərini, Hindistanda Tac-Mahalı, Bakıda Şirvanşahlar sarayı kompleksini və başqalarını həm də landşaft memarlığı əsərləri sırasına aid etmək olar. Landşaft memarlığının hər bir dövrünün etalonu eyni zamanda təbiətlə əlaqənin müəyyən prinsipial əsaslarını əks etdirir. Təbii mühitə olan münasibət cəmiyyətin dünyanı dərk etməsinin, dəyərlər səmtlərinin, dünyanın quruluşu və güzgüsüdür. Dolmenlər və ziqquratlar təbiətin geoloji qüvvələri ilə yarışırdı. Naxçıvanın qədim qalaları təbii landşaftın süni davamı, akveduklar və körpülər Qafqaz Albaniyasında xaosa bir sahman və rasionalizm gətirmişdi, türbələr yerlə göy arasında vasitəçilik edirdi. Türkiyənin Süleymaniyə məsçidi kompleksi, kahkəşənanın yer üzündə insan əli ilə düzəldilmiş "əksi" təmənnasında idi, kapitalizm dövrü Bakının bağları və parkları gözəlliyin qanunlarına uyğun olaraq təbiəti estetikləşdirirdi. Bunun da kökündə dünya absolyutizminin rəsmi, Hovardın ideyasına uyğun olaraq hərtərəfli əhatə edən təbiətlə mühitin qarşılıqlı təsiri, dünya quruluşunun mahiyyətini əks etdirir. Təbiətdə insanın mənəvi və estetik tələblərinin reallaşdırılması yalnız - təbiətdə gedən prosesləri dərk edərkən ilin fəsildəyişməsini qəbul edib nəzərə alarkən mümkündür.

Landşaft memarlığının tarixi - yalnız stillərin və dövrlərin tarixi deyil, həm də landşaftla memarlığın qarşılıqlı təsirinin əksidir. Şəhər təbii amillərin landşaft-memarlıq vasitələrini tamamlayaraq təbii mühitdə insan stereotipinin yaşamını təmin edir. Landşaft memarlığı, müasir memarlığın tağçasıdır. Ekologiya gözə görünmədən hər bir memarın, ilk növbədə isə landşaft memarlığının arxasında durur.

Təbii landşaft şəhər landşaftından elementlərin - suyun, yarpağın, havanın, odun, yaşıllığın, canlı aləmin təbii bağçılıqda cəm olması ilə fərqlənir.

Bu gün landşaft memarı insanı bir mikro kosm kimi makro kosmun hissəsi kimi qəbul edərək insanla təbiətin qarşılıqlı və bərabərlik prinsipi əsasında yeni əlaqələr dialoqonu yaratmalıdır. Buna görə də şəhər təbiətin əksi, düşməni deyil, onun interpretatoru kimi qəbul edilir. Memarlıq əsərinin keyfiyyət meyarı mühitlə mənəvi, texniki və morfoloji baxımdan assimilyasiyasında görülür. Landşaft memarlığında fəaliyyət memarlıq yaradıcılığı üslubudur, peşəkarlıq fəaliyyətində istiqamətdir, memarlıqda stil xüsusiyyətidir, müəllif mövqeyi, "məktəbdir".

Landşaft memarlığını yalnız məkan təşkili, forma axtarışları ilə məhdudlaşdırmaq sadəlövhlükdür. Memarlıq və forma arasında olan ümumilik, yaxınlıq hərf və söz arasında olan ümumilik qədərdir. Mahiyyət etibari ilə forma yaradıcılığının bir məqsədi kimi qoyulması (uşaqlıqdır) infantillikdir. Landşaft memarlığı təbiəti nəzərə almır, o, bütünlükdə ondan yaranır və hər an öz yerini ona verməyə hazırdır.

"Landşaft memarlığı" anlayışı, termini XIX əsrin ortalarında (ABŞ-da ilk milli parkların yaradılması ilə) meydana gəlmişdir. XX əsrin ortalarından başlayaraq landşaft memarlığı açıq məkanların abadlaşdırılması və binaların ətrafındakı sahələrin yaşıllaşdırılmasından başlayaraq, ta şəhərətrafı ərazilərin mənimsənilməsində və təşkilində mühəndis fəaliyyəti və kompeks memarlıq yaradıcılığı kimi inkişaf etdirmişdir.

1968-ci ildə Cenevrədə "Beynəlxalq Əmək təşkilatı" "Memarlıq" və "Şəhərsalma" ilə yanaşı, "Landşaft memarlığı"nı da peşələrin beynəlxalq reyestrinə daxil etmişdir. BMT sənədlərinə görə landşaft memarlığına açıq şəhər məkanlarının, şəhər parklarının tarixi və sənaye landşaftının, kurortlarının və turist bazalarının və marşrutlarının, bağ-park obyektlərinin, landşaft dizaynı kiçik landşaft obyektlərinin, detal səviyyəsində hissələrinin layihələndirilməsi (fərdi bağlar və ictimai ərazilərin abadlaşdırılması) və başqaları daxildir. Azərbaycan Respublikasında landşaft memarlığı ixtisası Azərbaycan İnşaat Mühəndisləri Universitetində 1990-cı ildə Memarlıq fakültəsində kökündə qarşılıqlı əlaqələr duran təbiətlə bağlı memarlıq yaradıcılığına yönəldilmiş fəaliyyətdir.

Beləliklə, ilkin əsasların yarandığına gorə Azərbaycan landşaft memarlığının konseptual mövqelərindən bir neçəsini açıb qeyd etmək lazımdır. Hər şeydən əvvəl landşaft memarlığının tətbiqi konsepsiyasını göstərsək, qeyd etmək lazımdır ki, bu ilk növbədə insanla təbiətin tarixi mərhələlərdə münasibətini ifadə edir. Bu o vaxtlar idi ki, insan fiziki cəhətdən yaşamaq üçün təbiət hadisələrindən asılı idi və memarlığın simasını da əsasən təbiət müəyyənləşdirirdi. Burada Şamxor şəhərini misal gətirə bilərik.

Yaşıllıq tikintisində tətbiqi elementin ən qədim kökləri bütün dövrlər və stillər zəncirindən landşaft memarlığının şah əsərləri və ustalığını təmsil edərək keçir.

Tətbiqi landşaft memarlığı, mənəvi-estetik baxımdan təbiətdən bəhrələnir, qorunur və onu özünə tabe etmək istəyir.

Təbii landşaft tam tarazlıqda və sükutdadır. O, təbiətin qüvvələrinin təbii inkişafını, iqlim və relyefin bütün xüsusiyyət formalarını özündə əks etdirən harmonik bağlayıcı quruluşa malikdir. (Siyəzən rayonunda Beşbarmaq qalası).

İnsanın fəaliyyətinin aktivləşməsi ilə landşaft ixtiyari, yaxud süni təşkilatlanır. Hər hansı bir rayonun aşkar ediləcək landşaftının xüsusiyyəti təbii və insan tərəfindən, yaxud bütövlükdə insan tərəfindən yaranmış məkan və formalar kompleksindən, elementlərindən ibarət ola bilər.

Şəmkir şəhərinin bütün dövrlərin görkəmli məkan qurumlarının əksəriyyətinin plan məzmunu təbii landşaftın əhəmiyyətli elementinə uyğunlaşdırılmanı ifadə edir. Beləliklə, mədəni landşaft elementinin ən yaxşı keyfiyyətləri və təbii landşafta gətirilmiş yeni funksiya bir-birini tamamlayır və gücləndirir. Dünyanın varlıq ideyasının ümumi tərkib hissəsini təşkil edən bu hissə birliyə "kökləndikdə" daha yaxşı təsir bağışlayır.

Müasir şəhər mühitində insanın funksional tələblərinin həyata keçirilməsinə yönəlmiş landşaft memarlığını bir utilitar varlıq kimi qeyd etmək lazımdır.

Dinin "təbiətlə bağlılıq" konsepsiyasında insanın dini-fəlsəfi xüsusiyyətləri təbiətə köçürülürdü ("Qırx qız" daş silsiləsi, Siyəzən rayonu). Müasir dinlərə qədərki bütpərəstlik anlamında təbiətin tanrı tərəfindən yaradılması və hər şeydə ruhun olması qəbul edilirdi. Bu da dini etiqadın rüşeymidir. Belə mehalit memarlığı nümunələrinə Lənkəran və onun ətraf rayonlarında, Talış dağlarında (b.e.ə. IV minillikdə) rast gəlmək olar. Respublika ərazisində Xocalıda, Lənkəran rayonunun Kavuran kəndi yaxınlığında 4,2 metrlik atəşgahda mehrab, Kiş və Ləkit kəndlərində zodiakal məbədlər, Mingəçevirdə, Naxçıvanda təbiətin əsatirləşdirilməsi, təbiətin möminləşdirilməsi, Siyəzən rayonunda Beşbarmaq dağı və Qafqaz Albaniyasında xristianlıq dövründəki analoji təbiət məbədlərini göstərmək olar. Pirsaat çayı üzərindəki Xanəgah, Bibiheybət imamzadəsi, Şəmkirdə minarə, Bakı qalasında atəşpərəstlik məbədi yerində tikilmiş Cümə məscidi və başqaları Azərbaycan Respublikası ərazisində olan çoxlu miqdarda müqəddəsləşdirilmiş dünyanı dərketmə anlamı sisteminə qoşdurulmuş təbiət elementlərinin çox kiçik bir hissəsidir. Hazırda təbii landşaftın elementlərinin müqəddəsləşdirilməsinə, onlara ilahi qüvvə verilməsinə rast gəlmək olır. Bunların haqqında xəbər verdiyimiz "Beşbarmaq" qalasını və Qozağacı kəndi yaxınlığındakı "Mıxlı çinar"ı, Bakının Buzovna kəndi yaxınlığında "Əli ayağı" daşı və Azərbaycanın başqa rayonlarında analoji funksiya daşıyan tarixi başlanğıcı tarixin qaranlığında itən müqəddəsləşdirilmiş təbiət elementləri yaşamaqdadır.

Yeni tariximizdə müqəddəsləşdirilmiş landşaft məkanlarına şəhidlər Xiyabanlarını yada salmaq kifayət olar ki, bunların içərisində Dağüstü parkda yaradılmış "Şəhidlər Xiyabanı"nı qeyd etmək lazımdır. Parkın geosemantik dəyərinə sosioloji qəhrəmanlıq məzmununu əlavə edərək Xiyabanda 1998-ci ildə ucaldılmış Əbədi Məşəl türbəsi tamamladı.

Bağ-park incəsənətində yaranmış və təşəkkül tapmış müntəzəm parkqurma - "təbiətin estetikləşdirilməsi"ndə məqsəd maddi varlığın semantik dəyərini məqsədyönlü şəkildə tamamlamaq simbiotik emosional-estetik və sosial-psixoloji yükü olan abidəyə qədər yüksəldilməsidir.

Azərbaycanda orta əsrlərdən başlayaraq bugünkü dövrümüzə qədər insanlar təbiəti nəinki ideallaşdırır, həm də onu bütün vasitələrlə yaxınlaşdırmaq istəyir. Müddəanın yaranmasına bir səbəb kimi Semiramidanın cənnət asma bağlarının yaradılmasmı qəbul etmək olar. Bəşəriyyətin bütün varlığı tarixində bağların arzu olunan zənginliyi olmuşdur. Dünyanın qüdrətli sarayları ətrafında möhtəşəm bağlar salmaqla Qrenadada, Əl-Həmrə, Hindistanda Tac-Mahal və b. - özünün böyüklüyünü sübuta yetirərək təsdiqlənirdilər. Təbrizin saray bağları, Gəncənin və Şuşanın bağ-park kompleksləri də bu qəbildəndir.

Ağac və kolların rəng palitrasının zənginləşdirilməsi, onların qırxılması, toxuma yaşıllıqlar, hovuz və fəvvarələrin yaradılması və s. landşaft memarlığını, bağ-park incəsənətinin çiçəklənməsi - landşaft memarlığının estetik keyfiyyətlərinin yüksəlməsinə gətirib çıxarmışdır. Bağ-park incəsənətində bədii estetik üslubları çoxsaylı yaradıcılıq axtarışlarının nəticəsidir. Eyni zamanda landşaft memarlığında "ekoloji" konsepsiya - təbiəti insan fəaliyyəti

"ekspansiyası" prinsiplərindən qorumaq vacib şərt sayılır. Ekoloji konsepsiya təbii landşaftı məhv edilməkdən, çirkləndirilməkdən və ümumilikdə təbiəti pak saxlamaq üçün qəbul edilmiş tədbirlər kimi dərk edilir. İnsan həyatı üçün lazımi tələblərin təbiətə ziyan vurmadan yaradılmasını nəzərdə tutur. Bu konsepsiya günəşin və küləyin enerjisindən istifadə edərək yaşayış məskənlərində kütləvi enerji təminatını həll etmək, insanlar üçün lazım olan mühit məkanqurumunda insanın sağlamlığına və ətraf mühitə ziyan verməmək üçün radioaktiv fonu aşağı olan təbii inşaat materiallarından istifadə edilməsini nəzərdə tutur.

Şəhərsalmada ekologiyanın tətbiqi xüsusiyyəti, landşaftşünaslıq konsepsiyasında bir elmi sahə kimi düşünülür. Landşaftşünaslıq konkret şəhər məkanında təbiət kompleksinin dəyişmə dərəcəsini, onun quruluşunu, xüsusiyyətini, məkanda differensiyasının mümkünlüyünü müəyyən edir.

Şəmkir şəhərinin landşaftı onun həyat fəaliyyəti prosesində dəyişən təbii ərazi kompleksi kimi başa düşülür. Şəhərsalma üçün landşaft-ekoloji yanaşma bir-birini qarşılıqlı şəkildə tamamlayaraq zənginləşdirdiyindən, ardıcıllıq, prinsiplik, ənənəvilik, nisbi optimallıq, prioritetlik kimi ətraf mühiti öyrənmək üçün yeni metod və yollar açır.

Landşaft - ekoloji konsepsiya şəhərsalma sistemlərinin səmtləşdirilməsində yeni metoddur. Bu, şəhərsalma problemlərinin uğurlu həllində güclü potensiala malik yeni metoddur. İnsanın yer üzündə şəhərsalma fəaliyyətinin bundan sonrakı inkişafı, insanın mədəniyyətini və özünü bu dünyaya gətirən təbiətlə harmoniyasında görmək olar. Bunu Şəmkir şəhərinin timsalında göstərmək mümkündür.

Landşaft memarlığında tarixi konsepsiya paralel şəkildə inkişaf edərək müxtəlif mərhələrlə aparıcı olmuşdur. Təsdiq etmək lazımdır ki, sadalanan konsepsiyaların hamısı bugünkü landşaft memarlığı təcrübəsində mövcuddur. Bir tərəfdən texnologiyanın səviyyəsinin yüksəlməsi, digər tərəfdən ekoloji təhlükənin artması landşaft memarlığının cəmiyyətin bütün fəaliyyət sahələri üçün sağlam mühitin yaradılmasında aparıcı və həlledici rol oynayacaqdır.

**Müasir Şəmkir**





**Foto: S.Rasim**





## N.Ə. ƏLİYEV

### *Şəhərlərin İnkişafı və memarlıq abidələri*

Elə ilk andan onu qeyd edək ki, memarlıq abidələrinin şəhərsalma ilə bağlı problemləri dünyanın inkişafda olan bir çox qədim şəhərləri (bəlkə də hamısı) üçün gündəlikdən çıxmayan məsələdir. Bu təbiidir, çünki insanların yaşayış dialektikası şəhər mühitinin günün tələblərinə uyğun yenilənməsini qarşıya adi norma kimi qoyur. Başqa bir tərəfdən isə tarixən yaranmış qiymətli memarlıq tikintiləri dövrünün maddi və mənəvi yadigarı, xalqın inkişaf tarixində salınmış təkraredilməz konsepsiyanın təzahür forması kimi saxlanılmasını tələb edir.

Həqiqətən memarlıq abidələri keçmişin yadigarı, düşüncə tərzini, professional bilik səviyyəsini göstərən şahid, bir mühitdə iki zamanı yaşadan və nəhayət, konkret tarixi çərçivə içərisində xalqın memarlıq, şəhərsalma və ümumiyyətlə, bədii-estetik mədəniyyətini göstərən barometrdir desək yanılmarıq.

Professional memarlıq elminin tələbinə görə, nəinki abidələr hətta onların ətraf binalarının da (fon tikintisi) tarixi memarlıq və estetik əhəmiyyəti vardır.

Deyə bilərsiniz ki, böyük memarlıq keyfiyyəti olmayan fon tikintisi öz sadəliyi, bəsitliyi ilə şəhərin gözəl memarlıq abidələrinə nə verə bilər? Düzdür, lakin tələsməyək! Yada salaq.

Qaşı saxlayan üzük, xalının yeləni hansı rolu oynayırsa, memarlıq abidəsinin ətrafında olan kütləvi tikinti də həmin vəzifəni yerinə yetirir.

Məkanı rövnəqləndirən memarlıq abidələri - ictimai yaxud şəxsi binalar, fon tikintisə dayanaraq tikildiyi dövrün bədii-estetik düşüncələrini qabarıq şəkildə özündə əks etdirir. Tarixi fon tikintisi memarlıq abidəsi ilə çox hallarda təkraredilməz, bədii-memarlıq və emosional estetik vəhdət təşkil edir. Əlbəttə, bu heç də o demək deyil ki, fon tikintisi içərisində heç vaxt dəyişikliklər edilə bilməz. Söhbət memarlıq abidələrinin bədii-estetik və emosional keyfiyyətləri itirmədən obyektiv əsaslandırılmış dəyişiklikdən gedə bilər. Razılaşmaq lazımdır ki, bundan ötrü hazır nüsxə və qaydalar yoxdur. Ancaq bu heç də o demək deyil ki, problemin həlli tapılmayır və yaxud onun həlli qapalı dairə içərisindədir.

Təcrübə göstərir ki, memarlıq abidələrinin şəhərsalma şəraitində qorunub saxlanılması, onların ətrafının transformasiya diapozonu genişdir. Burada söhbət binaların olduğu kimi bərpa edilməsindən[1], kontrast cəhətlərə əsaslanmış inşaatdan və bənzətmə[2] rolu ilə aparılmış bərpa işlərindən gedə bilər.

Bütöv abidə qalmayıbsa, onun fraqmentlərini belə yeni tikintinin hissəsi kimi saxlamaq nümunələri də memarlıq aləmində az deyildir. Bu baxımdan aşağıdakı misallar diqqəti cəlb edir

- Romada, 1940-50-ci illərdə tikilən Termini dəmir yol vağzalının, yük (baqaj) zalında qədim Serviya Tuliya divarının qalığı (IV əsr)saxlanılmışdır.
- Biz görürük ki,... yeni binaların kürsülərini, naməlum qədim tikintilərin həssaslıqla saxlanılmış fraqmentləri təşkil edirdi.

• Almaniya Demokratik Respublikası Dövlət Şurası binasının fasadının səthində, Berlin İmperator sarayının fraqmenti saxlanılmışdır.

• Moskvada piyada keçidi düzəldilərkən, Çin divarı (XII əsr) adlanan hörgünün bir hissəsi passajın interyerində saxlanılmışdır. Dünya memarlığı təcrübəsində belə misallar çoxdur. Güman edirəm ki, yada salmmış nümunələrin də müasir şəhərin inkişafında memarlıq abidələrinə verilən yüksək qiymət və onlarm qorunub saxlanılması üçün edilən cəhdlər aydın görünür.

Burada N.V.Qoqolun sözlərini yada salaq. Memarlıq da dünyanın tarixidir. O, mahnılar və rəvayətlər susandan sonra, dünyadan köçmüş xalqın haqqında xəbər verən heç bir şey qalmayanda danışır[3].

İyirminci əsrdə Şimali Azərbaycanda "danışa bilən şahidlərin" - memarlıq abidələrinin xeyli hissəsi ya baxımsızlıq üzündən və yaxud da yeni yaradıcılığa "mane" olduğuna görə yoxa çıxmışdır. İndi bütün məşəqqətlərə baxmayaraq, şəhərsalma zonasına düşmüş və saxlanılmış abidələrin taleyinə göz gəzdirək. Qabaqcadan deyək ki, bu qəbildən olan abidələrə münasibət təşviş doğurur. Bakı, Naxçıan, Şəki, Şəmkir, Quba, bir sözlə, tarixi şəhərlərin və başqa məskənlərin inkişafı ilə bağlı maraq zonalarına düşən memarlıq abidələri diqqət və qayğı tələb edir.

Orta əsr Azərbaycan memarlığının nadir incisi sayılan Şirvanşahlar sarayı kompleksinin məscidində və Divanxananın gözəllikdə təkrarı olmayan (yer üzündə bir nüsxədir) portalında çatlar əmələ gəlmişdir. Şəmkir minarəsi və başqa qiymətli abidələr yoxa çıxmışdır. Güman edirəm ki, Şirvanşahlar sarayı kompleksinin və başqa memarlıq abidələrinin və məhəllələrinin sökülməsini gözləmədən metro xəttini İçərişəhərin altından çıxarmaq lazımdır. Son nəhayətdə bu bizə daha ucuz başa gələr. Çünki metro xəttinin təzəsini çəkmək olar, İçərişəhərin isə təzəsini tikməyəcəyik!

O. Şvidkovskinin sözləri ilə razılaşmaq lazımdır. O deyir: "Başlıcası... qədim qaşı elə yeni haşiyəyə salmaqdır ki, o, yeni həyatda özünün parlaqlığını, tarixi və bədii cazibəsini itirməsin"[4]. Memarlıq abidələrinin urbanizasiya ilə bağlı problemləri qeyd etdiyimiz kimi tək Bakıda deyil, respublikanın başqa şəhərlərində də meydana çıxır.

Heç şübhə yoxdur ki, şəhərlərin inkişafı, köhnəlib taqətdən düşməsi, inşaat və şəhərsalma prinsiplərinin dəyişməsi köhnə tikintilərin yeniləri ilə əvəz olunmasına, şəhər mühitinin dəyişməsinə gətirib çıxarır.

"Yüz ölç, bir biç" xeyirxah misalı şəhərsalma işlərində də öz doğruluğunu göstərir. Çünki çox sahədə olduğu kimi, şəhərsalmada da ötəri dəblər və modalar vardır. Onlara uyaraq gözümüzə köhnə görünən hər şeyi sökəndə, adətən, elə ilk onillikdə (bəzən gec, bəzən də tez) atılmış addımın səhv olduğu aşkara çıxır. O vaxt isə səhvi düzəltmək üçün gec olur[5].

Quba da Şimali Azərbaycanın tarixi şəhərlərindəndir. Özünə xas memarlıq siması olan bu şəhərdə bədii-estetik qiymətli, çoxlu ictimai və fərdi binalar vardır. Son illərdə şəhərdə aparılan yeni şəhərsalma işləri ilə əlaqədar köhnə məhəllələrin bəziləri sökülmüş, küçələr dəyişdirilmiş, çoxmərtəbəli binalar

ucaldılmışdır. Bu yeniliklər içərisində ən çox təəssüf doğuran Cümə məscidinin ətrafındakı köhnə tikililərin sökdürülməsi və məscidin tək-tənha saxlanılmasıdır. Yeni binalar öz həcm-məkan kompozisiya, miqyas və ritm quruluşları ilə tarixi memarlıq abidəsi ilə uzlaşmır.

Biz Quba Cümə məscidinin yaranması dövründəki mövcud olan bədii-estetik şəhər mühitini yox etməklə memarlıq abidəsinin formalaşma səbəbini yox edib memarlıqda mücərrədlik nümunəsi yaratmış olduq. İndi Cümə məscidinin nə üçün həmin yerdə, bu biçimdə və memarlıq cizgilərində ucaldığı səbəblərini həmişəlik itirmiş olduq.

Bir qayda olaraq tarixi memarlıq abidəbrinin ətraf mühitinin tikililəri, küçə bölgüsünü, kiçik memarlıq formalarını - ümumiyyətlə, nəyi saxlamaq mümkünsə, saxlamaq yaxşı olardı. Lakin bu və ya başqa səbəbdən xoşagəlməz hadisə baş vermişsə memarlıq abidələrinin bədii-estetik, memarlıq-planlaşdırma və həcm-məkan keyfiyyətlərini itirməmək üçün əski mühitdə tikilmiş yeni binalar və komplekslər bir sıra tələblərə cavab verməlidir.

Əgər tələblər çoxluğunun kvintessensiyasına baxsaq, üç cəhət daha qabarıq şəkildə görünür.

Bunlardan birincisi, memarlıq abidələrinin tikilmiş dövrdəki formalaşmış həcm-məkan kompozisiyası quruluşunun bazisini,kökünü, əsasını saxlamaqdır.

İkincisi, mövcud planlaşdırma xüsusiyyətini (heç olmasa, əsas küçələr və yollar xəttini), memarlıq abidələrinin əlverişli oxunma istiqaməti və nöqtələrini saxlamaqdır.

Üçüncüsü isə memarlıq abidələri ilə təzə tikilmiş bina və komplekslər arasında bədii-estetik, ritm, miqyas, tikinti materialı və b. uzlaşmanın olması vacibliyidir.

Şəhərlərimizin tikintisi, onların bədii-estetik simasını yaratmaqla məşğul olan memarlar (memar olmayanlar da) xalqın tarixinin iştirakçısı və şahidi olan memarlıq abidələrini qoruyub saxlamalıdırlar.

Müasir şəhərsalmada tarixi memarlıq abidələrinin saxlanılması şəhər mühitinə polifonik səslənmə verir. Şəhərlərin memarlıq ansamblları kompozisiya cəhətdən bəhrələnərək tamaşaçıya zamanı hiss etməyə kömək edir.

Zaman-məkan kateqoriyalarının uzlaşması memar əməyinə hörmət və məhəbbət doğurur. Müxtəlif dövrlərin tikililəri arasındakı harmoniya isə tarixi inkişaf prosesinin ardıcıllığını göstərir.

Memarlıq abidələrini qoruyub saxlamaqla biz, dəyişən axıcı dünyada ata-babalarımızdan yadigar qalan, gözəlliyin ötüb keçməyən gözəllik qüvvəsini seyr etməklə, dərketmə dünyasını zənginləşdiririk. İnsanlarda yaşayıb-yaratmaq həvəsi artır.

## ƏDƏBİYYAT


1. Катснелсон Р. А. Новейшая архитектура Италии. Москва, 1963, с.83.
2. Гасымзаде А.А. Проблемы развития Азербайджанской Советской Архитектуры. Баку, 1967, с.65.

3 Н.В.Гоголь. сочинение. Москва, 1957, tom 6,с. 57

4. Швидсковский О. А. Градостроительная культура Социалистической Чехословакии, Москва, 1963, с. 168.
5. Авалов Э.В. Архитектура города Шуши. Баку, 1977, с. 85-87.

**M.S. NEMƏTOVA**

## *Şəmkir kitabələri*

Sütun başlığında ərəb dilində kufi xəttilə yazılmış kitabə 1987-ci ildə arxeoloq A.Əliyev tərəfindən Şəmkir rayonu ərazisində arxeoloji qazıntılar zamanı aşkar edilmişdir. Kitabəli daş AMEA Arxeologiya və Etnoqrafiya İnstitutunun muzeyindədir. Kitabənin tərcüməsi: "Hakimiyyət Allaha məxsusdur. Dörd yüz qırx ikinci il. Müdrik Məhəmmədin oğlu İmamullahın işidir". h. 442=1050/51 il.

Ərəb dilində kufi xəttilə yazılmış digər kitabə 1970-ci ildə Şəmkir şəhərinin xərabələri yerindən qonşu kəndə qaz kəməri çəkilən zaman tapılmışdır. Kitabənin tərcüməsi: "Allahın adıyla. Bu gözətçi bürcünün Yüksək Allahın qüdrəti ilə bina olunmasına və onun istəyi, mühafizəsi və tam himayəsi altında, mömin şeyx M-l-b Afşin (ya Aqşin) öz hesabına mühafizə binaları silsiləsindən dörd yüz doxsan üçüncü ildə tikdirmişdir". (şəkil, 1A) h. 493=1099/100 il.

Bəzi tədqiqatçılar bürcü minarə kimi qəbul etmişlər. Bürc öz memarlıq quruluşu ilə Azərbaycan ərazisindəki bütün minarələrdən fərqlənir. Stalaktitli balkona qapı açılır. Bu müəzzinin çıxışı üçün kifayətdir. Tikintinin stalaktitli balkondan 6 sajen hündürlüyə qaldırılması və fənər formasında tamamlanması çox orijinaldır. Bürcün divarının aşağı hissəsində də ətrafa nəzarət etməkdən ötrü pəncərə yerləri vardır. Bürcün yuxarı hissəsi də Şəmkirin ətrafına nəzarət etmək üçün tam açıqdır. Kitabədə də bürcün şəhərin müdafiə sisteminə daxil olan tikililərdən olması haqqında dəqiq məlumat verilmişdir. (şəkil 2).

Kitabəli daş tapılana qədər memarlıq tarixində abidənin təyinatı və tarixi səhv getmişdi. Memarlar tikintini minarə kimi qəbul etmiş, lakin müəzzinin balkonundan yuxarı qaldırılmış hissəsinin nədən ötrü olduğunu aydınlaşdıra bilməmişdilər. Tikinti tarixini də səhv olaraq XII-XIII əsrlərə aid etmişdilər. (şəkil 4).

Şəmkir bürcü haqqında tarixi mənbələrdə və səyyahların əsərlərində qısa məlumat vardır.

Ərəb coğrafiyaşünası Yaqut Həməvi (XII-XIII əsr) "Təqvim əl-Büldan" əsərində Şəmkirdə hündür bir minarənin olduğunu yazır.

Dübua de Mon-Pere "Qafqaza səyahət" adlı əsərində Şəmkir bürcündən danışarkən XIV əsrdə yaşamış ərəb səyyahından aşağıdakı misalı gətirir: "Orada çox hündür, görkəmli bir minarə var". Eyxvald 1826-cı ildə abidəni salamat görmüşdür. B.Dorn isə 1861-ci ildə abidənin bünövrəsini və dərəsini görmüşdür. N.Florevski "Yelizavetpol ölkəsində qalmış abidələrin ən yaxşısı Şəmkir minarəsidir" yazmışdır. O bu barədə geniş məlumat vermişdir: "Minarə Şəmkir çayın sol sahilində, düzənlikdə bina olunmuşdur. Şəhərin 25 verstliyindədir. 30 verstlik sahəyə göz işləyir. Minarə kərpicdən gəclə xırda daşın və qumun qarışığından bina olunmuşdur. Hündürlüyü 28 sajendir. Diametri aşağıdan 7 arşın, yuxarı çıxdıqca ensizləşərək 1 sajenə çatır". (5, s. 363-364).

Göründüyü kimi, hamı səhv olaraq gözətçi bürcünü minarə kimi qəbul etmişdir.

Hər iki kitabənin XI əsrdə Şəmkirin bir şəhər kimi ən inkişaf etmiş bir dövrünü sübut etməyə bir daha imkan yaradır.

Şəmkirin şəhər kimi çiçəklənmə dövrü IX-XIII əsrlərə təsadüf edir. Şəhər yerində bürclü hasarlarla əhatə edilmiş feodal qəsrinin, Şəmkir çayın üstündəki 15 aşırımlı körpünün qalıqları lazımı dərəcədə öyrənilməmişdir.

Biz 1961-ci ildə o ərazini gəzərkən ayaq altında nə qədər zəngin xəzinənin qaldığına heyran idik. Hələ torpağın üstündə istənilən qədər XI-XIII əsrlərə aid şirli və şirsiz, əl-əlvan qab qırıqlarına, abı kaşılı kirəmit parçalarına təsadüf etmək olurdu. Bunlardan xeyli yığıb Tarix İnstitutuna gətirmişdik.

Şəmkir şəhəri Bərdədən Tiflisə gedən qədim karvan-ticarət yolunda yerləşdiyi üçün Cənubi Qafqazın və Azərbaycanın iqtisadi həyatında mühüm rol oynamışdır.

Həmin ticarət yolu haqqında XI-XIII əsr coğrafiyaşünasları Əl-İstəxri, İbn Şovqəl, Əl-Müqəddəsi, İbn Xordadbeh, Kudama, Əl-İdrisinin verdiyi məlumata görə, Şəmkir Aranda yerləşmiş və onun abad şəhərlərindən biri olmuşdur.

Tarixçilər Azərbaycanda və Gürcüstanda ticarətin canlanmasını Xəzər və Slavyan ticarətinin inkişafı ilə əlaqələndirirlər. Bu həm də Şimali Qafqaz xalqları və Volqa, Don çayları hövzəsi ilə, Azərbaycan və Aranda əmtəə münasibətlərinin inkişafı faktoru ilə əlaqədar idi. (2; 3, s 13).

Azərbaycan şəhərlərində, keramika, dəmirçilik, çəkməçilik, dəri istehsalı, metal qablar, qızıl, gümüş əşyalar, müxtəlif parçalar istehsal olunurdu.

Bərdədən Tiflisə gedən karvan-ticarət yolunun üstündəki şəhərlər, o cümlədən Şəmkir iqtisadi-siyasi cəhətdən inkişaf etmişdi. Bunu Şəmkirdə tikintilər üzərindəki kitabələr bir daha təsdiq edir.

## ƏDƏBİYYAT


1. Буниятов З.М. Азербайджан в VII-IX вв. Баку, 1965
2. Марр Н.Я. По поводу русского слово «сало» в древнсармянском описании Хазарской трапезы VII в. //Избранные работы. т.V. Москва-Ленинград, 1935.
3. Пахомов Е.А. Краткий курс истории Азербайджана. Баку, 1923.
4. Усейнов М., Бретаницкий Л., Саламзаде А. История архитектуры Азербайджана. Москва, 1963.
5. Флоровский Н. Елизавстпольский округ. II обрезание российских владений за Кавказом, ч II Санкт-Петербург, 1936.



**Şəkil 1. Kitabənin fotosu**



**Şəkil 1a. Kitabənin estampı**



**Şəkil 2. Şəmkir gözətçi bürcü. Dübae de Mon-Pere**

**R.S. TAĞIYEVA**

## *Şəmkir xalçaları*

Hər xalqın mədəniyyət tarixində elə bir sənət sahəsi vardır ki, orada onun zəngin mənəvi aləmi əks olunmuş, xarakteri, intellekti, dünyagörüşü, estetikası və həyat fəlsəfəsinə xas olan köklü xüsusiyyətlər təcəssümünü tapmışdır. Azərbaycan xalqı üçün belə sənət növü xalça sənətidir.

Toxuculuq və xalçaçılıq bir çox xalqlara məlumdur. Öz tətbiqi təyinatına uyğun olaraq o, lap qədim zamanlardan harmoniyanın, ritmin və rəngin estetikasını özündə təcəssüm edirdi. Ancaq müəyyən coğrafi, iqtisadi və sosial şərtlərin bir növ sintezi zəruri idi ki, xalçaçılıqda məhz bədii başlanğıc üstünlük qazansın və o, estetik dəyər kəsb etsin, xalq fəlsəfəsinin, milli xarakterin mahiyyətini hərtərəfli əks etdirən həqiqi sənətə çevrilsin. Azərbaycan bütün bu şərtləri özündə birləşdirir. Xalqın bədii təfəkkürü bu şərtlərlə formalaşmış, bunun sayəsində xalça sənəti Azərbaycanın əsas bədii ifadəsinə çevrilmişdir. Azərbaycan xalçası xalq mədəniyyətinin özünüifadə forması kimi meydana gəlmiş və inkişaf etmişdir. Qanunauyğunluqlar planında prototürk kökləri törəmələrinə malik olan Azərbaycan xalqı xalça sənətini bədiiliyin ən yüksək mərhələsinə qaldıraraq, dünyanın vasitəli ifadəsinin son dərəcə fərdi üsullarını yaratmışdır.

Azərbaycan xalçası xalça tiplərinin rəngarəngliyi, çeşidliliyi, özünəməxsusluğu ilə fərqlənir ki, bunu landşaft müxtəlifliyinin mənimsənilməsi də şərtləndirir.

Azərbaycanın xalça xəritəsi qismən onun coğrafi xəritəsinə uyğun gəlir. Azərbaycan xalçasının tipoloji müxtəlifliliyi Azərbaycanın unikal landşaftı ilə «tərəqqi yeri» kimi son dərəcə əlaqədardır. Müasir tədqiqatların göstərdiyi kimi, xalqın bədii təfəkkürünə «mədəniyyət - təbiət» müxalif nöqteyi-nəzərinin bir çox hallarda fəlsəsəfi mənada «çəkildiyi» «etnos-landşaft-incəsənət-mədəniyyət» zəncirində baxmaq lazımdır. Azərbaycan landşaftının unikallığı, müxtəlifliyi, çoxşəkilliliyi iqlim-landşaft zonalarının və şərtlərin unikal müxtəlifliyi ilə əlaqədardır. Azərbaycanın hər bir bölgəsində xalçaların özünəməxsusluqları həmin ərazilərin təsərrüfat, məişət və sosial amilləri ilə müəyyənləşmişdir ki, bu da Quba, Şirvan, Bakı, Gəncə, Qazax, Qarabağ, Təbriz kimi xalçaçılıq mərkəzlərinin formalaşmasına zəmin yaratmışdır.

Hər bir mərkəzin xalçaları məxsusi, fərdi, bədii və texniki xüsusiyyətlərlə seçilir və bu amillər Azərbaycan xalçasına orijinallıq və özünəməxsusluq verən rəng, ornament, kompozisiya çoxvariantlılığını təmin edir.

Həmin mərkəzlərin hər biri öz növbəsində xalçalarının bədii və texniki xüsusiyyətlərinin tipikliyi ilə seçilən bir neçə iri xalçaçılıq ocaqlarından və həmçinin də xalçaçılıq məntəqələrindən ibarətdir. Hər bir xalçaçılıq ocağının, hətta məntəqənin məxsusi tipik xüsusiyyətləri ümumilikdə aid olduğu mərkəzin bədii-texniki xüsusiyyətlərini şərtləndirir. Bu mərkəzlərin əsasında Azərbaycanın məşhur xalça məktəbləri formalaşmışdır.

Azərbaycanda Kiçik Qafqazın şimal - şərq ətəyində, Gəncə - Qazax düzənliyində yerləşən Gəncə xalçaçılıq mərkəzi Azərbaycanın məşhur Gəncə xalça məktəbinin əhatə etdiyi ərazilərdir. Buraya Gəncə, Gədəbəy, Qasım İsmayıllı, Şəmkir xalçaçılıq ocaqları və onlara daxil olan xalçaçılıq məntəqələri aid edilir. Gəncə ocağına -Gəncə şəhəri, onun ətraf kəndləri, Samux rayonu və s.; Qasım İsmayıllı ocağına - Çaylı, Şadlı və s.; Şəmkir ocağına - Qaracəmirli, Qarabağlar, Qaraqoyunlu və s.; Gədəbəy ocağına - Gədəbəy, Çıraqlı və s. xalçaçılıq məntəqələri daxildir. Gəncə və onun ətrafı ümumilikdə Gəncəbasar adlanırdı.

Gəncə öz ətraf rayonları ilə əla keyfiyyətli xalçalar toxuyan mərkəzlərdən olub. VII-VIII əsrlərdə bu regionda xalça karxanalarının sayı-hesabı yox idi. VII əsrdə Qədim Gəncədə, Şəmkirdə toxunan xalçaları, yun, ipək, xammalı İrana, Suriyaya göndərirdilər. Orta əsrlərdə, xüsusən X və XI əsrlərdə Gəncədə toxunmuş ipək xalçalar böyük şöhrət qazanmış və geniş yayılmışdı.

Mədaxillərlə əhatələnmiş çoxbucaqlı gölü olan Gəncə xalçası XV əsr Venesiya rəssamı Karlo Krivellonun «Müjdə» rəsmində çox qabarıq təsvir edilib. Tablonun xoş əhval-ruhiyyəsi ilə uyar səslənən qırmızı rəng, ara sahəni əhatə edən gül-çiçəkli enli zolaq Gəncə xalçaları üçün çox səciyyəvidir.

Ötən əsrin əvvəllərində «Şərqi-Rus» qəzeti «Gəncə - Şəmkir - Qazax» xalçalarının birbaşa Avropaya yol açdığını yazırdı.

Çar hökuməti Azərbaycan xalçalarının satışı hesabına böyük gəlir əldə edirdi. Gəncədə toxunan xalçalar Rusiyanın mərkəzi şəhərlərində, İtaliyada təşkil olunan sərgilərdə nümayiş etdirilirdi.

Gəncə xalçalarının yüksək bədii qrupunu «Qədim Gəncə», «Gəncə - şəhər», «Gəncə - buta» yaxud «Butalı Gəncə» kimi tanınan Şəmkir xalçaları təşkil edir.

Azərbaycanın qədim - qərb regionunda yerləşən Şəmkir diyarı öz əsrarəngiz təbiət gözəllikləri - əlverişli coğrafi mövqeyinə, inzibati, iqtisadi durumuna görə çox zəngin və məşhur bir ərazidir. Şəmkir ərazisi xalça sənətinin tələblərinə cavab verən bir təbiətə malikdir.

Mənbələrə görə, çar Rusiyasının zəbtindən sonra Yelizavetopol adlanan Gəncəbasarda, o cümlədən səkkiz milyon ha. sahədə otlaqlar xalçaçılığın sıx bağlı olduğu qoyunçuluqla məşğul olmaq üçün ayrılmışdı. Buradakı qışlaqların altı min il yaşı var, əhali indi də buralardan heyvandarlıq üçün istifadə edir.

Bu zonada «bozax» və «mazeh» qoyunlarından ahnan yeni döl «qumral» adlanırdı və o vaxtkı bazarda «dilican» adıyla satılırdı.

Əhali yerlərdə kütləvi «iməcilərə» - yun daramaya yığışır, zərif iplikləri elə qışlaqdaca hazırlayırdılar.

Otlaqlar, heyvandarlıq, boyaqçılıq üçün zəngin təbii vasitələr xalçaçılığın inkişafı üçün əsas şərtlərdəndir.

Azərbaycanın digər yerlərindən Şəmkirə sarağan adlı boyaq bitkisini almağa, toplamağa gəlirdilər. Bu zonada sarı rəngi dağlarda bitən sarı çiçəkdən alırdılar. Boyaqçılıq üçün Kür vadisi, Şamxor meşələri təbii mənbə idi. Bir neçə

rəng çaları verən marena bitkisi də bu ərazidə yetişdirilirdi. Dovşan alması və sarağan məhz Şəmkir ərazisində bitən boyaq bitkiləridir.

Mədəniyyətin, iqtisadiyyatın bütün sahələrində olduğu kimi Azərbaycana məxsus xalça sənəti Şəmkirdə zirvə sənətlərdən biri olub. Burada toxunan xalçaların klassik stili həm daxili, həm də xarici bazarda qiymətləndirilirdi.

Şəmkirin qədimdən bəri fəaliyyət göstərən ən mükəmməl xalça məntəqələri: Qaradağlı, Qaracəmirli, Qarabağlar, Qaraqoyunlu, Çaylı və s. adlı ınəntəqələrdir.

Şəmkir xalçalarının estetik dəyərini Azərbaycan-türk xalçalarının ənənəvi, əsrlər boyu təkmilləşdirilmiş kompozisiya, ornament və koloritin təşkili prinsipləri, eləcə də kainatla xüsusi qarşılıqlı əlaqələrdən çıxış edən xalq dünyanı dərketmə mühitini əks etdirən ideya, obrazların davamlılığı təşkil edir.

Gəncə xalçalarının ümumi məcrasında inkişaf edərək şəmkirli ustalar öz bənzərsiz xalça sənətini yaradaraq, milli xalça bazasından forma seçimlərini və onların təkmilləşdirilməsini müəyyənləşdirmişlər.

Şəmkir xalçalarında əsas bədii forma xalça sənətində geniş yayılmış «buta» motivi olur. Şəmkirli ustalar onu fərdi variasiyalarda, əksərən digər təsviri elementlərlə qarşılıqlı əlaqələrdə məharətlə işlətmiş, bununla bu bölgənin xalçalarının təsvir üsulunun zənginləşməsinə, genişlənməsinə imkan yaratmışlar. «Buta»nın dəqiq ritmli strukturda təsdiqlənmiş, xırda, kəskin həndəsiləşdirilmiş forması Şəmkir xalçalarının təsvir dilini və tanınmasını müəyyənləşdirmişdir. (şəkil 1, 2, 3)

Həndəsiləşdirilmiş formaların sonsuz ritmləşdirilməsində əks olunan əbədi varlıq bu xalçaların bədiiliyinin əsasını təşkil edir. Ara sahədəki identik «buta» motivinin çeşidliliyi, haşiyənin mürəkkəb rəng-ritm strukturu ilə nəzərə çarpdırılan dəqiq ritmi xalçalara xüsusi zəriflik və nəfislik verir.

Müxtəlif yeni formaların yaranmasında iştirak edərək «buta» motivi medalyonvari formada struktur təşkilində aktiv ifadəli fona çevrilərək Şəmkir xalçalarında yeni vizual səslənmə yaradır. Bu kompozisiyaların estetikliyi, əsasını türk – Azərbaycan xalçasının əsas prinsipi-varlığın hissələrlə və tamla qarşılıqlı əlaqədə ümumi ifadəsi təşkil edən düzülüşün tamlığı, kompaktlığı ilə xarakterizə edilir.

Kompozisiyanın mənasını və təsir qüvvəsini fonda və ensiz haşiyədə «buta»nın xırda formalarının zərifliyi ilə nəzərə çarpan iri medalyonvari formalar, təmiz, saya rəng təşkil edir.

Hissələrin və tamın mükəmməl proporsional qarşılıqlı nisbəti ilə xarakterizə edilən ümumi üslubda sərbəst elementlərin harmoniyalı yanaşı olması, daxili mənanı saxlayan və ümumi qanunauyğunluğu ifadə edən təsviri əbədiləşdirərək kompozisiyanın bütün gözəlliyinə xüsusi incəlik, zəriflik verir.

Azərbaycan xalçalarının bir çox nümunələri türk xalqlarının-türkmənlərin, türklərin xalça sənətində izlənilir. Şəmkir xalçaları da qanunauyğun təsvirləri, düzülüş üsulu, kompozisiyası, mədəniyyətə dünyəvi dərketmə və münasibətin qədim türk irsinə işarə edən həyati-vacib hadisələrin ümumi

qanunauyğunluqlarında əks olunan işarələr və rəmzlər sistemi ilə belə xalçalara aiddir. Bu xalçalar Muğla, Xakkari türk xalçaları üçün xarakterik olan şaquli oxun köməyi ilə düzülmüş çoxbucaqlıda səkkizbucaqlı ulduz, «həyat ağacı» arxetipləri olan xalçalardır. (şəkil 4) Lakin Şəmkir variantları türk nümunələrindən sxematikliyin olmaması, qəbul edilmiş modelin yeni variativ yaradıcı işlənməsi ilə fərqlənir. Şəmkirli ustalar ənənəvi ornamentlər sxemi ilə son dərəcə sərbəst və improvizasiya ilə davranmışlar.

Əgər türk xalçası kanonikdirsə, Şəmkir xalçaları ənənələri və yenilikləri birləşdirərək, əsas hakim motivə əlavə təsvirlərin salınması ilə mürəkkəbləşən kompozisiya ilə fərqlənir. Xalçanın kompozisiyasının quruluşunun ümumi prinsiplərini izləyərkən, bu təsvirlər əsas obrazın plastik ifadəliliyini artırır və onun şərhi üçün əlavə təsviri mənalar yaradır. Bolluq, xoşbəxtlik kimi həyati-vacib əbədi ideyalar və onları müşayiət edən qoruyucu işarələr-həmayillər ilə bağlı həndəsi formalı svastikaşəkilli elementlər Şəmkir və Elaziq türk xalçalarının əsas məzmununu təşkil edir. (şəkil 5). Türk bədii təfəkkürünün bu məlumat kodları kompozisiyanın ritmik quruluşunda dünya və təbiət varlığının qanunauyğunluqları qaydasında təcəssüm etmişdir. Burada da şəmkirli ustalar təsvirin qaydaları və prinsipləri sistemində, forma quruluşunda, rənglərdə kanonik modeli təkmilləşdirərək öz təsvir dillərinin xüsusiyyətlərini saxlamışlar. Hakim təsvirin tərkib elementini ayıraraq, onu fon və haşiyə bəzəklərinin həndəsi ölçülərinin nisbətini müəyyənləşdirməklə doldurucu motivlərdən azad edərək, əsl rənglərin simvolikasıyla birləşdirərək, ustalar kompozisiyanın xüsusi dinamikliyinə və ifadəliliyinə nail olmaqla ideyaların mənalarını açan sadə birləşmiş struktur yaratmışlar.

Burada onların təkcə kompozisiyaların sırf formal təşkili məqsədilə deyil, həm də onların rəmzi mənalarında qruplaşdırma qaydaları barədə bilikləri aşkara çıxmışdır. Onlar çox gözəl bilirdilər ki, əgər forma öz məzmunundan daha bəsit alınarsa, məzmun haqqında məlumat heç cür məqsədə çata bilməz. Beləliklə də çox məharətlə təsviri ifadəliliyin təkmilləşdirilməsini tələb edən, dünya haqqında daim dəyişən biliklərin təsvirini yaratmışlar.

Şəmkirli ustaların ənənəvi ornamenti müxtəlif şəkildə təsvir etmək, forma, məzmun və koloristikaya öz dəsti-xəttini daxil etmək bacarığı, Gəncənin digər xalçaçılıq məntəqələrində yaranmış və formalaşmış xalça kompozisiyalarını yenidən işləmələrində özünü göstərir. Gəncə xalçalarının «Faxralı», «Şadlı», «Gədəbəy» kimi məşhur kompozisiyaları, kanonik struktur modellərinin məna anlaşılması ilə, şəmkirli ustaların təfsirində cizgilərinin qüsursuz dəqiqliyi, düzgün, həndəsi simmetrik formaları, rənglərinin mükəmməlliyi və parlaqlığı ilə fərqlənərək yeni səslənmə almışlar. Şəmkirin Qaracəmirli məntəqəsində toxunan «Faxralı» xalçası ilk dəfə XVIII əsrin əvvəllərində Faxralı kəndində kiçik namazlıqlar şəklində toxunmuşdu. Şəmkirlilər «Faxralı» kompozisiyasında da bədii texniki əlavələrə, ara sahəyə özlərinin çox sevdikləri sarı, şux rənglərlə işıqlı fon verməklə «Çıraqlı» yaxud «Şamxor» adı vermişdilər (şəkil 6).

«Şadlı» kompozisiyası Gəncəbasarda Goranboyun Şadlı kəndinin şərəfinə adlansa da, Şəmkirin Çaylı, Qaradağlı, Qaracəmirli məntəqələrində də

şəmkirlilərin yaradıcı improvizələri ilə çox müvəffəq şəkildə toxunur (şəkil 7). «Şadlı» xalçası Şəmkirdə yerli şivə ilə «Şaddı», yaxud da ara sahəni tamamlayan qoşa qıvrımlara əsasən «Qoşaquyrum» adlanır. «Şadlı»dakı kompozisiyalara Orta Asiya, Qırğızıstan basmalarında daha çox rast gəlinir. Türkiyənin qərb xalça məntəqələrində də bu cür kompozisiyalar mövcuddur. Lakin Şəmkir xalçalarında bədii ünsürlər daha üstünlük təşkil edir. Şəmkir xalça sənəti bu gün də davam etdirilir. Xalq arasında peşəkar xalçaçılar məlumdur. Bizə elə gəlir ki, sırf qədim ənənələrə, Şəmkirin ötən əsrlərdəki xalça vüsətinə nisbətən qayıtmaq təşəbbüsünə cəhd etməliyik.

**Şəkil 1. Xalça "Butalı Gəncə". XIX əsrin sonu**



**Şəkil 1. Xalça "Butalı Gəncə". XIX əsrin sonu**



**Şəkil 2. Xalça "Butalı Gəncə". XIX əsrin sonu**



**Şəkil 3. Xalça "Butalı Gəncə". XIX əsrin sonu**



**Şəkil 4. Xalça "Qədim Gəncə". XX əsrin əvvəli**



**Şəkil 5. Xalça “Qədim Gəncə”. XX əsrin əvvəli**



**Şəkil 6. Xalça “Faxralı”. XX əsrin əvvəli**



**Şəkil 7. Xalça "Şadlı". XX əsrin əvvəli**

## R.Q.MEHDİXANOV

### *Şəmkir şəhərinin tarixi orta əsr mənbələrində*

Vətən tarixinin ən aktual problemlərindən biri də Azərbaycan şəhərlərinin tarixinin öyrənilməsidir.

Azərbaycan ərazisində qədim, antik və orta əsrlər dövründə şəhərlərin yaranması və inkişafı haqqında yazılı mənbələrdə kifayət qədər məlumatlar vardır. 3 min illik tarixi olan və Azərbaycan ərazisindən tapılmış mixi yazılarında Mannadakı şəhər və qalaların adı çəkilir, bu qalaların möhtəşəmliyindən və möhkəmliyindən danışılır və mənbələrdə 55 şəhərin adı qeyd edilir [1, s.10]

Cənubi Azərbaycandan tapılmış bir kitabədə 21 qala və 45 şəhərin zəbt edilməsi göstərilir [1, s. 11].

Antik qaynaqlarda Albaniya və Atropatena şəhərlərinin, yaşayış məntəqələrinin adı çəkilir. Strabonun "Coğrafiya kitabı"nda [l,s.ll] Albaniya və Atropatena haqqında tarixi-coğralı arayış vardır.

Ptolemey "Coğrafiya dərsliyi" əsərində Albaniyanın hududlarını göstərir və orada 29 şəhərin olduğunu yazır [1, s. 11].

Orta əsrlərdə Azərbaycan şəhərləri Şərqin inkişaf etmiş şəhərləri ilə bir sırada dururdu. Azərbaycan şəhərləri mühüm sənətkarliq, ticarət və mədəniyyət mərkəzləri kimi Yaxın Şərq ölkələrində məşhur idi.

Orta əsr yazılı mənbələrində Yaxın va Orta Şərqin iqtisadi, siyasi və mədəni mərkəzləri kimi tanınan şəhərlər arasında Azərbaycanın Bərdə, Şamaxı, Bakı, Naxçıvan, Gəncə, Şəki, Beyləqan, Qobələ, Ərdəbil, Təbriz, Şabran, Xoy, Marağa, Urmiyə, Şəmkir va s. şəhərlərinin də adı çəkilir.

Azərbaycanda ilk orta əsrlər dövründə baş verən hadisələr, sosial-iqtisadi və siyasi proseslər, şəhər həyatı va s. haqqında ərəb tarixçi və coğrafiyaşünaslarının əsərlərində kifayət qədər məlumat vardır. Orta əsr müəlliflərindən Əl-Kufinin, Əl-Bəlazurinin, Əl-İstəxirnin, İbn-Hövqəlin, İbn-Xordadbehin, Əbu-1 Fudanın, Əl-Bağdadinin və başqalarının əsərlərində Azərbaycan haqqında, eləcə də onun ayrı-ayrı şəhərləri haqqında maraqlı məlumat verməlari Azərbaycanın orta əsr şəhərlər tarixinin öyrənilməsi üçün böyük elmi əhəmiyyət kəsb edir.

Əbu-1 Fuda "Təqvim əl-Büldan" əsərində Azərbaycan şəhərlərinin ümumi mənzərəsini təsvir etməklə diqqəti Naxçıvan, Bərdə, Şəmkir, Gəncə, Beyləqan, Bab-əl Əbvab şəhərlərinə yönəldir. Əsərdə tariximizə, coğrafiyaya, etnoqrafiyaya dair zəngin material vardır. Əbu-1 Fuda coğrafiya elmində ilk dəfə olaraq ölkələrin sistemli təsvirini vermişdir. (4, s.37).

X əsr müəllifləri əl-İstəxiri "Kitab məsalik əl-Məmalik" kitabında Azərbaycanın, Arranın sərhədləri, şəhərləri, dəniz və gölləri haqqında maraqlı məlumatlar verir [1, s. 87-93]. Mənbələrdə abad, inkişaf etmiş şəhərlər arasında Şəmkir adının sıralanması, ticarət-karvan yollarının Şəmkirdən keşməsi, onun istehsal və istehlak bazarında özünə layiqli yer tutması, şəhər həyatının bütün

xüsusiyyətlərini özündə cəmləşdirməsi, şəhərin əlverişli təbii coğrafi şəraiti, mövqeyi və s. məsələlər haqqında ətraflı məlumatlar vardır. Mənbələrdə bir çox şəhərin, o cümlədən Şəmkirin qala şəhər olduğu və burada hərbi dəstələrin saxlanması barədə məlumatlar olduqca maraqlıdır [4, s.142]. Yaqut Həməvi "Mücam əl-buldan" əsərində Şəmkirin Arranda qala olduğunu xəbər verir.

Azərbaycan şəhərləri arasında ticarət əlaqələri daxili ticarət bazarının inkişaf etdiyini göstərən mühüm amillərdən biri idi. Bundan başqa, şəhər və kənd arasında mal mübadiləsinin mövcud olması, şəhərlərin kəndləri sənətkarlıq məhsulları ilə təchiz etməsi, kəndin isə şəhəri kənd təsərrüfatı məhsulları ilə təmin etməsi, şəhəri kənddən fərqləndirən mühüm xüsusiyyətlərdən biri idi. Azərbaycanın orta əsr şəhərlərinin ümumi və oxşar cəhətləri ilə yanaşı, hər birinin səciyyəvi cəhətləri də var idi. O dövrdə hər bir şəhər özünün istehsal etditi məhsulları ilə fərqlənirdi. Yaqut Həməvinin "Mücam əl-Buldan" [5, s.239] əsərində Şəmkirdə yun parça istehsalmm xüsusi yer tutması, Beyləqanda dulusçuluq və şirniyyatın istehsal olunduğu, Gəncə və Bərdənin ipək istehsalı ilə məşhur olduğu qeyd olunur.

Mənbələrin verdiyi məlumata görə, Azərbaycanın Təbriz, Ərdəbil, Naxçıvan, Gəncə, Beyləqan, Şəmkir və başqa şəhərlərində böyük bazarlar mövcud idi. Həmçinin, bu şəhərlərdə bir neçə məhəllə bazarları da var idi. Əsas bazar isə şəhərin mərkəzində yerləşirdi [6]. Azərbaycanm həm daxili bazarında, həm də xarici ticarətdə mal mübadiləsi mövcud idi. Azərbaycan Asiya ölkələri ilə ticarət əlaqəsi yaradır, mal mübadiləsi edirdi.

Əl-İstəxirinin yazdığına görə, Bərdə şəhərindən 4 istiqamətdə karvan yolu gedirdi. Karvan yolları şəhərlər arasında, o cümlədən Şəmkir şəhəri ilə ticarət əlaqələrini təmin edirdi [7, s.15]. Əl-İstəxiri, ibn-Hövqəl, Müqəddəsi, ibn-Xordadbeh, əl-İdrisi Şəmkirdən Xunana, Gəncədən Şəmkirə olan ticarət yolunun məsafəsini eyni ölçüdə göstərirlər [3].

Arranın coğrafi tasvirini verən Müqəddəsi yazır: Arrana gəldikdə bu ərazi bütün vilatətin üçdəbirini təşkil edir və dəniz ilə Araz çayı arasında adaya bənzəyir. Kür çayı isə vilayəti uzununa iki hissəyə bölür. Onun paytaxtı Bərdə idi. Şəhərləri isə Beyləqan, Şəmkir və b. Müəllif 14 şəhərin adını çəkir [3, s. 130].

Ərəb qoşunlarının komandanı, sərkərdə-tarixçi Məsləmə İbn Əbdülməlik VIII əsrin əvvəllərində Arran ərazisində xəzərləri məğlub edib (ərəb-Xəzər müharibələrində xilafətin qoşunlarına komandanlıq etmişdir) Dərbəndə kimi irəliləməsi və buraya 24 min ərəb əsəsringərinin, Bərdə, Beyləqan, Şamaxı, Şəmkir şəhərlərinə isə minlərlə əsgərin köçürüldüyünü qeyd edir. Bəlazuri köçürmə siyasəti ilə əlaqədar olaraq yazır ki, ərəblər Azərbaycanı tutduqdan sonra Kufə, Bəsrə və Suriyadan ərəb tayfalarının köçürülməsinə nail oldular. Mənbələr VIII əsrin 40-cı illərindən başlayaraq ərəb işğalına qarşı Azərbaycan xalqının azadlıq mübarizəsinə qalxdığını və bu mübarizənin 90-cı illərə qədər davam etməsi barədə məlumat verir. Öz əksini üsyanlarda tapan azadlıq mübarizəsi 50-ci illərdə (VIII əsrin) daha da genişləndi. 752-ci ildə Şəmkir şəhərinin ətraf kəndləri onların hesabına yaşayan ərəb mühacirlərinə qarşı üsyana başladı. Qəzəblənmiş (nifrətdən) Şəmkirlilər ərəblərin qərargahı yerləşən Şəmkir

şəhərini dağıtdılar. Üsyanın əsas mərkəzləri Bərdə, Beyləqan və Şəmkir şəhərləri idi.

XII əsrin sonu - XIII əsrin əvvəllərində Azərbaycanda feodal ara müharibələrinin güclənməsi şəhərlərin iqtisadiyyatını, şəhər həyatını, ticarət əlaqələrinin inkişafını zəiflətdi. Monqolların Azərbaycana hücumu zamanı ölkə ərazisinin şəhər və kəndlərinin işğala məruz qalması, kütləvi qırğınlar, dağıntılar, vandalizm Azərbaycan iqtisadiyyatına zərbə vurdu [3. 8, s. 139]. Şəhərlərdə ticarət və sənətkarlıq mərkəzlərinin, bazarların, karvansaraların qağıdılması haqqında dövrün mənbələrində kifayət qədər materiallar toplanmışdır.

XIII-XIV əsrlər tarixinin öyrənilməsində Gəncəli Kirakosun "Tarix" əsəri, Şərafəddin Əli Yəzdinin, Şahəbəddin Nəsəvinin, müəllifi məlum olmayan "Əcaib əd-dünya" və başqa əsərlərin əhəmiyyəti böyükdür. Həmin əsərlərdə Azərbaycan, onun coğrafiyası, etnoqrafiyası, əhalinin dini və dili, məşğuliyyəti, şəhərlər, istehsal olunan malları haqqında zəngin materiallar vardır. "Əcaib əd-dünya" adlı mənbədə XIII əsrin birinci yarısında mövcud olmuş Azərbaycanın 16 şəhərinin, o cümlədən Şəmkirin də adı çəkilir. Monqolların hücumu nəticəsində bir çox şəhər, o cümlədən Ərdəbil, Sərab, Gəncə, Beyləqan, Şəmkir və başqa şəhərlər tənəzzülə uğradı [7, s.15]. Mongollar şəhəri dağıdır, qarət edirdilər. Karvan yolları təhlükə arasmda qalmışdı. Daxili ticarət əlaqələri kəsilmişdi. Mongollar Şəmkir şəhərini mühasirəyə alıb qala divarlarına yaxılaşarkən ciddi müqavimətlə üzləşdilər. Şəmkirlilər düşməni qalaya buraxmaq istəmir və şəhərin hakimindən düşmənə qarşı mübarizə aparmağı tələb etdilər. Lakin monqollar güclü həmlə ilə Şəmkir qalasını aşaraq şəhərə soxuldular. Şəmkir yandırıldı, əhali qılmcdan keçirildi. 1239-cu ildə monqolların Dərbənd şəhərini tutması ilə Azərbaycanın bütünlüklə işğal oluması başa çatdı [5, s.122]. Monqolların hücumu zamanı ən çox dağıntılara məruz qalan Ərdəbil, Marağa, Salmas, Sərab, Beyləqan, Gəncə, Şamaxı, Naxçıvan, Bərdə, Şəmkir şəhəri olmuşdur [5, s. 194]. XIII əsrdə yaşamış tarixçi Gəncəli Kirakos əsərində Azərbaycan şəhərlərinin, o cümlədən Şəmkirin monqollar tərəfindən tutulması barədə məlumatlar verir [9]. Orta əsr müəlliflərindən Şahəbəddin Nəsəvi, Şərafəddin Əli Yəzdi və başqaları öz əsərlərində monqol hücumlarını zəfərli yürüşlər kimi qələmə verir, monqol ordusunu işğalçı deyil, qüdrətli ordu hesab edirlər.

XIII əsrin 30-cu illərində monqollar tərəfindən tarmar edilmiş Şəmkir şəhərinin sonrakı yüzillikdə də dirçəlmədiyi barədə mənbələrdə ziddiyyətli fikirlər mövcuddur. Həmdullah Qəzvin "Nüzhət əl-Qülüb" əsərində (1340) dağılmış Şəmkirin onun vaxtında da hələ özünə gəlmədiyini qeyd edir.

Mənbələrdən göründüyü kimi, monqol istilası zamanı Azərbaycanın bir çox şəhərləri, o cümlədən Şəmkir şəhəri, karvan və ticarət yolları ciddi dağıntılara məruz qalmışdı. Lakin Elxanilərin hökmranlığı dövründə, xüsusilə Qazan xanın vaxtında (XIII əsrin sonu - XIV əsrin əvvəli) onun sosial-iqtisadi və mədəni sahədə keşirdiyi islahatlar nəticəsində Azərbaycanın dağılmış karvan və ticarət yolları və şəhərlərinin yenidən bərpa edilməsi, iqtisadi - sosial həyatda bir canlanma yarandığı barədə qaynaqlarda məlumatlar vardır. Sonrakı dövrlərdə Şəmkirin taleyi necə olmuşdur? O öz əvvəlki şöhrətini qaytara bilmişdimi? Bu

suallara XVII-XVIII əsrlərin Avropa və türk mənbələrində cavab tapmaq mümkündür. Belə ki, Səfəvilər dövründə Azərbaycana səyahət etmiş Avropa səyyahlarının gündəliklərində Şəmkir şəhərinin adı çəkilir. Alman səyyahı Adam Oleari öz gündəliyində Səfəvilər dövlətini təsvir edərkən Azərbaycanın hüdudlarını üç vilayətə bölür və onlardan birinin də Aran vilayəti olduğunu qeyd edir. Adam Oleari yazır ki, Aran iki yaxşı çay Araz və Kür arasında yerləşən vilayətdir. Bura çox varlı və məhsuldar ölkədir. Vilayətdə xeyli gözəl şəhərlər və qalalar olduğunu qeyd edən səyyah onlardan ən məşhurlarının, o cümlədən Şəmkir şəhərinin adını çəkir, onun təsvirini verir və şəhərin abad olmasını göstərir. Bu onu göstərir ki, Şəmkir şəhəri tənəzzüldən sonrakı dövrdə, yəni Səfəvilər dövründə tərəqqi etməsi heç bir şübhə doğurmur [10].

XVIII yüzilliyin türk mənbələrində Şəmkir Gəncə, Qarabağ əyalətinin inzibati-ərazi vahidliyinin mərkəzlərindən biri kimi təsvir edilir. XVIII əsrin əvvəllərində (1727) Osmanlılar tərəfindən tərtib edilmiş "Gəncə - Qarabağ əyalətinin müfəssəl dəftərində" Şəmkirin sosial-iqtisadi həyatına dair maraqlı materiallar verilmiş, onun tabeliyinə daxil olan 75 məntəqəsinin inzibati mərkəz olduğu qeyd edilir. [11]

Ümumiyyətlə, Şəmkir tarixinin açılmamış səhifələri hələ çoxdur və bu istiqamətdə işlər davam etdirilir.

## ƏDƏBİYYAT


1. Azərbaycan tarixi üzrə qaynaqlar. Bakı, 1989.
2. Mirzəzadə Z. Azərbaycanın toponimləri orta əsr ərəb coğrafi mənbələrində. Bakı, 1988.
3. Vəlixanlı N. IX-XII əsr ərəb coğrafiyaşünasları Azərbaycan haqqında. Bakı, 1974.
4. Bünyadov Z. Azərbaycan VII-1X əsrlərdə. Bakı, 1989.
5. Piriyev V. Azərbaycan XIII-XIV əsrlərdə. Bakı. 2003.
6. Azərbaycan MEA Tİ EA inv. 470.
7. Azərbaycan tarixinə dair materiallar. Bakı. 1980.
8. Azərbaycan tarixi. Bakı. 1996.
9. Гандзакеци Киракос. История. Перевод с древнеармянского языка. Т.И. Тер-Григоряна. Баку. 1964.
10. Mahmudov Y.Səyyahlar, kəşflər və Azərbaycan. Bakı.1985.
11. "Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri. 1727-ci il" Bakı, 2000.

## Q.Ə.HACIYEV

### *Azərbaycan şəhərləri orta əsrlərdə: Bərdə və Şəmkir paralelləri*

Ərəb və fars mənbələrində Azərbaycan şəhərlərinin adı çəkilir. Bərdə və Şəmkir şəhərlərinin orta əsrlərdə siyasi, sosial-iqtisadi və mədəni həyatı öz əksini tapır.

Əl-Bəlazuri ərəblərin Bərdədən sonra digər şəhərlərə etdiyi yürüşlərdən bəhs edərək bildirir ki, «Bir neçə Bərdə sakini mənə xəbər verdi ki, Salman ibn-Rəbiə qədim şəhər sayılan Şəmkirə qoşun göndərdi, onu tutdu» (31, s.14). O, sonra qeyd edir ki, «Salman Arrasla (Araz) Kürrün (Kürün) qarışdığı yerə - Bərdincə gəldi, Kür çayını keçərək Qəbələni tutdu. Hüzeyfə (vilayətdə hakim) "Bərdəyə gələrək bu şəhərlə Xalxal və eyni zamanda, Xeyzan arasında yerləşən vilayətə məmur göndərdi, ancaq tezliklə o, xəlifə Osmanın yerinə yanında olan Sul ibn Züfəri qoyub geriyə (Mədinəyə) qayıtmaq əmrini aldı və belə də etdi» (31, s.15).

Əməvi əl-Cərrah ibn Abdullah Azərbaycana və Arrana hakim təyin olunan vaxt (722-ci il) ölçü və çəki sistemini tətbiq etmişdi ki, ticarətdə «əl-Cərrah» qanunu adlanan bu üsul uzun müddət fəaliyyət göstərmişdir. Ərəb müəllifi əl-Bəlazuri əl-Cərrahın həyata keçirdiyi bu tədbiri belə təsvir edir: «O, Bərdəyə gəldikdə, şəhərdəki ölçü və çəki işlərində sui-istifadələr və xəyanət olduğunu ona xəbər verdilər; o, həmin qüsurları aradan qaldırdı və Cərrahiyyə adı ilə məlum olan yeni dürüst ölçü vahidi tətbiq etdi». Bərdə bu zaman Xilafətin şimaldakı mərkəzi şəhəri olduğu üçün onun ətrafında olan şəhərlər də, o cümlədən Şəmkirdə də bu tədbirlər həyata keçirilirdi (8, s. 149; 31, s. 16).

İstəxri Bərdənin təbii xüsusiyyətlərinə görə digər şəhərlərdən fərqləndiyini qeyd edərək yazır ki, «Arranda Bərdə, Bab əl-Əbvab və Tiflisdən böyük şəhər yoxdur (155, s.89). Beyləqan, Varsan, Bərdinc, Bərzənc, Şamaxı, Şirvan, Abxaz, Şabran, Qəbələ, Şəki, Cənzə, Şəmkir, Xunan böyüklüyünə, çiçəklənməsinə və məhsullarına görə çox da diqqəti cəlb edən şəhərlər deyil» (4, s. 110-117; 24, s.85-102; 36, s.21).

İbn Havqəl Bərdənin təbii şəraiti və ərazisinin xüsusiyyətləri haqqında məlumat verir ki, «Bərdə şəhərinə gəldikdə, bura Ümmu-l Randır (Arranın anası) (paytaxtı) və bu yerlərin ən yaxşısıdır... Bura parlaq vəziyyətdə və çox yaxşı haldadır. Bu isə onun saf havasmdan, məhsuldarlığından, əkinlərin, meyvə ağaclarının və çayların çoxluğundan irəli gəlir. Rey və İsfahandan sonra İraqla Təbəristan arasında Bərdətək böyük və məhsuldar, tutduğu mövqe və xəzinəyə verdiyi gəlirə görə yaxşı yer yoxdur» (24, s.108; 26, s.86). Tədqiqat göstərir ki, Bərdə Arranın, eləcə də Xilafətin tarixində çox böyük rol oynamış ən əhəmiyyətli şəhərlərdən biri olmuşdur (8, s.151; 109, s.128-134).

Bərdə şəhərinin daxili və şəhərlərarası ticarətində istehsal edilən sənətkarlıq məmulatı mühüm rol oynamışdır. İstehsalın inkişaf etdiyi bir dövrdə özünəməxsus, yüksək əmtəə xüsusiyyətinə malik olan məhsulları dünyanın bir ölkəsindən o birinə daşımaq və satmaqla həm ticarətin, həm də əmtəə və istehsal

üsulları mübadiləsinin inkişafına şərait yaranmışdı. Üzərində Bərdə ustalarının xüsusi möhürü olan saxsı qabların (5; 13; 18; 41), müxtəlif formalı və çoxçeşidli şüşə məmulatının (18; 19; 41), şüşə və əlvan metallardan zinət əşyalarının (9, s.26; 40; 41), təbii xammaldan (yun və ipəkdən) toxunan rəngarəng toxuculuq məmulatının (ipək parça, yun xalça) həm daxili, həm də xarici bazarlarda yüksək ticarət dövriyyəsi olmuşdur (1, s.407-443; 6, s.15). Yuxarıdakı fikri yazılı mənbələr və arxeoloji materiallar təsdiq etməkdədir (15; 19; 24; 29; 36; 40; 47). Arxeoloji qazıntılar zamanı Bərdə şəhərindən aşkar edilmiş şirsiz və şirli saxsı məmulatı, şüşə qablar və s. kimi maddi mədəniyyət nümunələrinin Şəmkirdən əldə edilən nümunələri buna əyani sübutdur.

VIII-IX əsrlərdə ticarətin inkişafı Xilafət üçün böyük gəlir mənbəyinə çevrilmişdi. Bərdədən başlayan və Şəmkirdən keçən ticarət yolları barədə ərəb mənbələrində maraqlı məlumatlar verilir. Həmçinin, bu ticarət yollarının məsafələri və əhəmiyyətindən danışılır.

İbn Xordadbeh bildirir ki, «Bərdədən Tiflisə 10 keçiddir. Bərdədən Mütəvəkkiliyə 6 keçid, Mütəfəkkiliyə şəhərindən Tiflisə qədər 10 keçiddir» (35, s.16). İstəxri qeyd edir ki, «Bərdədən Tiflisə yol: Bərdədən Cənzəyə 9 fərsəx, Cənzədən Şəmkirə 10 fərsəx, Şəmkirdən Xunana (şəhərdir) 21 fərsəx, Xunandan Kandaman qalasına 10 fərsəx və Qaladan Tiflisə 12 fərsəxdir» (24, s.l 14; 36, s.66). İbn Hövqəl həmin yolu aşağıdakı kimi göstərir: «Bərdədən gözəgəlimli şəhər - Cənzəyə 9 fərsəx, Cənzədən Şəmkirə 10 fərsəx, Şəmkirdən Xunan şəhərinədək 11 fərsəx, Xunandan Kandaman qalasına 10 fərsəx, Qaladan Tiflisə 12 fərsəx. cəmi 52 fərsəxdir» (26, s.101).

Əl-İdrisiyə görə, «Bərdədən Tiflisə gedən yol: Bərdədən çıxıb Cənzəyə 27 mil, Cənzədən Şəmkir şəhərinədək 30 mil, Şəmkirdən Xunan şəhərinədək 63 mil, Xunan şəhərindən əl-Qala şəhərinədək 30 mil, əl-Qaladan Tiflis şəhərinədək 30 mil getməlisən» (24, s.151). Bərdə və Şəmkirin ticarətdə oynadığı rolu təsəvvür etmək baxımından əl-Bəlazurinin bir məlumatı çox maraqlıdır «...Oraya (Şəmkirə), o (Buğa), Bərdədən tacirləri göndərdi və şəhəri Mütəvəkkiliyə adlandırdı» (31, s.13). Buradan məlum olur ki, Bərdədə varlı tacirlər təbəqəsi var idi ki, onlar hər hansı bir şəhəri və onun ticarətini təşkil edə bilirdilər. Həmçinin, bu məlumat Bərdə ilə Şəmkirin iqtisadi-ticarət əlaqələrinin sıxlığından xəbər verir. Xilafətin işğalçılıq xarakteri daşıyan siyasəti əleyhinə mübarizəyə Bərdədə və Şəmkir əhalisinin reaksiyası və bu rejimə qarşı mübarizə böyük bir tarixi prosesi əhatə etmişdir.

Babək hərəkatından sonra Xilafət əvvəlki kimi hakimlik iqtidarını itirdi (25, s.57). Bir-birini əvəz edən xəlifələrin (əl-Vasiqin (842-847), əl-Mütəvəkkilin (847-861)) bütün cəhdlərinə baxmayaraq, Xilafət əleyhinə mübarizə getdikcə güclənmişdir. 852-ci ildə xəlifə tərəfindən göndərilmiş Buğa dörd il müddətində bütün Qafqazı itaətə gətirmiş (25, s.57; 31, s.20), əhali üzərinə ağır vergi qoymuşdur. Buğa qışı Bərdədə keçirdikdən sonra, Dərbəndə gedərək 300 xəzər ailəsini Şəmkirə köçürmüşdür (38, s. 34). O, müqavimət göstərənləri xəlifənin hüzuruna göndərib məhv etmiş, məcburi sakitlik yaratmışdır. Lakin bu sakitlik uzun sürməmiş, IX əsrin ortalarında Xilafətin Azərbaycanda apardığı siyasət

müsbət nəticə verməmişdir. Mənbə məlumatlarının və tədqiqat əsərlərinin təhlilindən aydın olur ki, daxili sabitlik pozulmuş və parçalanma baş vermişdir. Mərkəzdənqaçan qüvvələrin və yerli əyanların təşəbbüsü ilə Xilafət ərazisində yarımmüstəqil dövlətlər yaranmışdır. Bərdə və Şəmkir yeni dövlətlərin tərkibində şəhər həyatını müxtəlif səviyyələrdə davam etdirmişdir.

Bərdənin tarixində ən dəhşətli hadisələrdən biri X əsrin ortalarında (944/45) rusların şəhərə hücumudur. Rusların Bərdə şəhərində törətdiyi dağıntılar nəticəsində şəhər xarabalığa çevrilmiş, bundan sonra siyasi mərkəz hüququnu birdəfəlik itirmişdir. XI əsrdə xarabalıq halında qalmış Bərdə şəhəri XII əsrdə Atabəy Şəmsəddin Eldəniz tərəfindən qismən abadlaşdırılmış, şəhər həyatı bərpa edilmişdir.

Qaynaqlarda Bərdənin XII əsrin sonu - XIII əsrin ilk illərində iqtisadi cəhətdən müəyyən rola malik olduğu üçün Azərbaycanıniqtisadiyyatında, rolu olan mühüm və bir qədər kiçik şəhərlər sırasında adı çəkilir(l, l c., s.l90, 198, 199, 210, 212, 214).

XIII əsrin əvvəllərində Azərbaycan şəhərləri, həmçinin, Bərdə iqtisadi baxımdan tənəzzül dövrünə başlayır. Bu zaman əmtəə mübadilələrinin azalması, qapalı natural təsərrüfata qayıdış, gümüş böhranı, kiçik, müstəqil hakimiyyətlərə parçalanma və onların öz aralarında apardığı daimi müharibələr, ticarət şəhərlərinin feodallar tərəfindən ələ keçirilməsi dövrün əsas, səciyyəvi hadisələri idi (7, s.41; 20,s.45;27,s.l8;32, s.185-185).

Qaynaqlarda bildirilir ki, monqolların ilk hücumları zamanı böyük, çox əhalisi olan şəhərlər və geniş vilayətlər elə cəhənnəmə çevrildi ki, onda çətin kimsə (sağ) qala bilərdi. Belə şəhərlər və vilayətlər sırasında Marağa, Ərdəbil, Bərdə və Gəncənin adı çəkilir. Həmin dövrün hadisələrinin şahidlərinin bildirdiyinə görə, monqollar keçdiyi yerlərdə heç nəyi salamat qoymamışdır. (32, s. 180-182; 33, s.60;46,s.319-320).

Tədqiqatlar göstərir ki, XII əsrdə Azərbaycan şəhərlərində iqtisadi inkişaf nəzərə çarpırdısa, XIII əsrin əvvəllərində Ərdəbil, Marağa, Bərdə, Naxçıvan, Beyləqan, Gəncə şəhərləri tamamilə dağıdılmış, monqol hücumlarından yaxa qurtarmış şəhərlərin əhalisi isə didərgin düşmüşdür (20, s.81).

XIII əsrdə Xarəzmşah Məhəmmədin qoşunlarının Bərdəni, Gəncəni, Beyləqanı və Şəmkiri istila etməsi nəinki bu şəhərlərin, həmçinin, Azərbaycanın iqtisadiyyatına və ictimai-siyasi həyatına ağır zərbə vurmuşdur.

XIII əsr müəllifi ən-Nəsəvi yazır ki, 1225-ci ildə Xarəzmşah Məhəmmədin oğlu Cəlaləddin əmir Urxanın rəhbərliyi altında Arrana göndərdiyi qoşun Gəncəni, Bərdəni, Beyləqanı, Şəmkiri istila etmişdir (4, s. 150; 11, s.22; 28, s.163; 32, s.184; 45, s.69). Ölkənin çox yerində, eləcə də Gəncəbasarda və Qarabağda Cəlairilərə qarşı gərgin mübarizə aparılmışdır. Lakin Cəlairilər Azərbaycan Atabəyləri hakimiyyətinə son qoymuşdur (2, s. 150; 3, s.230; 4, s. 150-152; 32).

Y.A.Paxomov qeyd edir ki, Cəlairilərin və Teymurun zərb olunmuş pullarının tapılması Bərdə şəhərində həmin dövrdə hələ də canlanma olduğunu göstərir (43, s.84).

XIV əsrdə Bərdənin öz əhəmiyyətini saxlamış şəhərlər içərisində adı çəkilir (33, s. 95). Həmin dövrdə ölkənin əsas ticarət magistalları Təbrizdən Araz kənarı ilə Ərdəbil - Biləsuvar - Mahmudabad -Şamaxı - Dərbənd, digər qolu isə Araz çayından keçdikdən sonra Lənkəran - Bərdə - Gəncə - Şəmkir - Tiflis (Tbilisi) istiqamətində fəaliyyət göstərən yollar idi. (14, s.181-184; 20, s.57; 47). Rəşidəddinin məlumatına görə, Bərdə şəhəri Elxanilər (Hülakülər) dövründə xeyli dərəcədə bərpa olundu. XIV əsrin əvvəllərində şəhərdə sənətkarlıq, ticarət və mədəniyyətin inkişafı nəzərə çarpırdı. Bu zaman Bərdədə Sultan Əbu Səidin vaxtında Hülakülərin pulları kəsilirdi (21; 22; 46). Bərdədən tapılmış pulların üzərində 1322-ci, 1328-ci və 1332-ci il tarixlərinin olması buna əyani sübutdur (43, s.83-84).

Bərdə və Şəmkir şəhərlərində orta əsrlərdə yaradılmış memarlıq abidələri bir-biri ilə oxşarlığı ilə bərabər, müsəlman ölkələri şəhərlərinin tikinti-memarlıq abidələri ilə də həmahənglik təşkil edir. Bərdədə indiyə qədər salamat qalmış tarixi abidələrin bir çoxunun da həmin dövrə aid olması bu baxımdan maraq doğurur (43, s.83). Hazırda Bərdə şəhərində mühafizə olunan türbənin tikilməsi həmin dövrə (1322-ci il) təsadüf edir (13, s.271; 43, s.83). XIV əsrin ikinci yarısı XV əsrin başlanğıcına nisbətən XV əsrin 30-80-ci illərində şəhərlərin inkişafı daha yüksək səviyyədə idi (16, s.40; 33, s.89).

Azərbaycan Səfəvilər dövləti zamanında Azərbaycanın şəhərlərində, o cümlədən Bərdə və Şəmkir şəhərlərinin həyatında da mühüm dəyişikliklər baş verdi. Səfəvilərin yaratdığı 13 bəylərbəyliyindən biri də Qarabağ bəylərbəyliyi idi. Qarabağ bəylərbəyliyinə Bərdə, Şəmkir şəhərləri və eləcə də Zəyəm, Tovuz, Şəmsəddinqulu, Qazax, Borçalı, Beyləqan, Yevlax, Ağdam və digər yerlər daxil idi (11, s.26; 12). XV-XVII əsrlərdə Azərbaycan ərazisindən keçən ticarət yolunun bir qolu Qarabağdan keçirdi. Qarabağ ticarət yolu Bəkrəbad kəndindən keçərək Araza çatır, sonra isə Qarabağ ərazisinə daxil olurdu. Araz sahilindən Gəncəyə kimi olan 34 fərsəxlik (210-220 km) yol Xar, Qark, Ləmbəran, Bazarcıq, Bərdə, Cuzbuq, Xanəgah-Şutur kimi ticarət mərkəzləri və yaşayış məskənlərindən keçirdi. Daha sonra bu yol Şəmkir, Yurt-Şadakban, Ağstafanı keçib Tiflisə çatırdı. Qarabağ yolunun ümumi uzunluğu 45 fərsəx (280-300 km.) idi (22, s.107). Onu da qeyd etmək lazımdır ki, Osmanlı-Səfəvi müharibələri dövründə şəhərlərə böyük ziyan dəymiş, ticarət də əvvəlki dövrlərlə müqayisədə xeyli zəifləmiş, yalnız daxili tələbatı ödəyən xırda ticarət məşğuliyyəti mövcud olmuş və qismən də xarici ticarət əlaqələri saxlanmışdır.

Beləliklə, Bərdə və Şəmkir şəhərlərinin tarixi taleyində oxşarlıqlar, tarixi paralellər çoxdur. Orta əsrlərdə hər iki şəhər iqtisadi cəhətdən ziqzaqlı dövr keçirmişdir. Azərbaycana yadellilərin hücumları və eləcə də daxili çəkişmələrlə əlaqədar bu şəhərlərin dəfələrlə dağıdılması nəticəsində iqtisadi həyatı da pozulmuş, ölkənin vəziyyətindən asılı olaraq ictimai-iqtisadi həyatında baş verən dəişikliklərə uyğun olaraq yenidən dirçəlmişdir.

Bərdə və Şəmkir şəhərləri bu gün də şəhər həyatını davam etdirir və indi müstəqil Azərbaycan Respublikasınm yüksəliş dövrü keçirən şəhərlərindəndir.

## ƏDƏBİYYAT


1. Azərbaycan etnoqrafiyası, I c, Bakı, 1988.
2. Azərbaycan tarixi, Bakı, 1993.
3. Azərbaycan tarixi, 1 c, Bakı, 1998.
4. Azərbaycan tarixi üzrə qaynaqlar, Bakı, 1989.
5. Babayev İ.A., Hacıyev Q.Ə. Bərdədə arxeoloji qazıntının hesabatı, 2006-cı il. AMEA AEİ EA.
6. Bünyadov T.Ə. İpin boyanması haqqında. ATM, Bakı, 1985, s.43-50.
7. Bünyadov Z.M. Azərbaycan Atabəyləri dövləti (1136-1225-ci illər), Bakı, 1984.
8. Bünyadov Z.M. Azərbaycan VII-IX əsrlərdə, Bakı, 1989.
9. Əhmədov Q.M. Orta əsr Beyləqan şəhəri, Bakı, 1979.
10. Əl-Kufi. Kitab əl-fütuh (Fəthlər kitabı). Tərcümə akademik Z.M. Bünyadovundur, Bakı, 1995.
11. Gəncə (tarixi oçerk), Bakı, 1994.
12. Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri (ön söz, tərcümə qeyd və şərhlərin müəllifi H.Məmmədovundur (Qaramanlı). Bakı, 2000.
13. Hacıyev Q.Ə. Bərdə şəhərinin tarixi (b.e.ə.III-b.e.XVIII əsri), Bakı, 2000.
14. Həmdullah Qəzvini. Nüzhət Ül-qülub. Tərcümə F.Babayevindir. AMEA TİEA inv. №4960.
15. Hüdud əl-Aləm. Tərcümə Ə.Ələsgərzadənindir. AMEA TİEA inv. №257.
16. Məmmədov S.A. Azərbaycan XV-XVI1I əsrin birinci yarısında, Bakı, 1982.
17. Moisey Kalankatuklu. Albaniya tarixi (tərcümə Z.M.Bünyadovundur). Bakı, 1993.
18. Nuriyev A.B. Bərdə arxeoloji ekspedisiyasının hesabatı, 1984-cü il, AMEA AEİÇTİBA, inv. №H-365.
19. Nuriyev A.B. Bərdə arxeoloji ekspedisiyasının hesabatı, 1985-ci il, AMEA AEİÇTİBA, inv. №H-396.
20. Onullahi S.M. XIII-XVIII əsrlərdə Təbriz şəhərinin tarixi. Bakı, 1982.
21. Piriyev V.Z. Azərbaycan Hülakular dövlətinin tənəzzülü dövründə. Bakı, 1978.
22. Piriyev V.Z. Azərbaycan XIII-XIV əsrlərdə. Bakı, 2003.
23. Şərifli M.X. IX əsrin II yarısı - XI əsrdə Azərbaycanın feodal dövlətləri. Bakı, 1978.
24. Vəlixanlı N.M. IX-XII əsr ərəb coğrafiyaşünas-səyyahları Azərbaycan haqqında. Bakı, 1974.
25. Vəlixanh N.M. Ərəb xilafəti və Azərbaycan. Bakı, 1993.
26. Ал-Идриси. Нузхат ал-муштаг фи-тирак ал-афаг. Перевод П.К.Жузс, АИИ НАНА,инв.№162.

27. Ализаде А.А. Социально-экономическая и политическая история Азербайджана XIII-XIV вв. Баку, 1956.
28. Ан-Насави. Жизнеописание султана Джалал ад-Дина Манкбурны. Перевод З.М.Буниятова. Баку, 1973.
29. Асланов Г.М, Ваидов Р.М., Ионе Г. Древний Мингечаур. Баку, 1959.
30. Ашурбейли СБ. Государство Ширваншахов. Баку, 1983.
31. Балазури. Футух ал-булдан (Книга завоеваний стран). Перевод П.К. Жузе. Материалы по истории Азербайджана. Баку, 1927.
32. Буниятов З.М. Государство Хорезмшахов-Анущтегинидов, Москва, 1986.
33. Гейдаров М.Х. Города и городское ремесло Азербайджана, Баку, 1982.
34. Гейдаров М.Х. Социально-экономические отношения и ремесленнные организации в городах Азербайджана в XIII-XV1I вв., Баку, 1987.
35. Ибн Хордадбех. Китаб ал-масалик ва-л мамалик (Книга путей и стран). Перевод Н.М.Велихановой. Баку, 1986.
36. Истахри. Китаб масалик ал-мамалик (Книга путей и царств). Перевод Н.А.Караулова, СМОМПК, вып. XXIX, Тифлис, 1901, с. 1-3
37. История архитектуры Азербайджана, Москва, 1963.
38. Масуди. Мурудж аз-захаб (Луга золота и рудники дрогоценных камней). Перевод Н.А.Караулова, СМОМПК, вып. XXXIX, Тбилиси, 1908, с. 29-78.
39. Мирхонд. Ровзат-ус-сафа. Перевод А.А.Ализаде, НАИИ НАНА, инв. №506, с. 91-97.
40. Нуриев А.Б. Из истории ремесленного производства Кавказской Албании. Из серии ПМКА, Баку, 1986.
41. Нуриев А.Б. Средневековый город Барда. Из серии ПМКА, Баку, 1986.
42. Пахомов Е.А. Бардинский клад, 1940 г. Известия Аз. ФАН СССР, 1943, №8, с. 20-24.
43. Пахомов Е.А. Башни-мовзолеи в Барде и их надписи. Труды Аз. ФАН ССР (серия историческая), т. XXV, Баку, 1936, с. 81-96.
44. Пахомов Е.А. Монеты Бардаа. Изветия Аз. ФАН СССР, 1943, №4, с. 14-16.
45. Пириев В.З. Об исторической георафии Азербайджана XIII-начала XV вв. Историческая география Азербайджана. Баку, 1987.
46. Фазлуллах Рашид ад-Дин. Джами ад-таварих, т. III. Баку, 1957.
47. Хамдуллах Казвини. Нусхат ул-гулуб (Услада сердец). Перевод З.М.Буниятов и И.П.Петрушсвского о, Матералы по Азербайджану. Баку, 1983.



**Bərdənin arxeoloji qazıntılarından görünüş**



**Şəmkirin arxeoloji qazıntılarından görünüş**



**Bərdənin arxeoloji materialları**



**Şəmkirin arxeoloji materialları**

## K.K. ŞÜKÜROV

### *Şəmkir bölgəsi 1727-ci ildə*
### *(Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri üzrə)*

Erkən orta əsrlərdə formalaşmış Şəmkir şəhəri monqol yürüşləri zamanı (XIII əsrin 30-cu illəri) dağıdıldı[1] və bir daha bərpa edilmədi. Buna baxmayaraq, Şəmkir adı unudulmadı və sonrakı tarixi dövrdə müəyyən coğrafi əraziyə aid edilməyə başladı[2]. Şərti olaraq Şəmkir bölgəsi adlandırılan həmin ərazi (tarixi müqayisə üçün, əsasən, hazırkı Şəmkir rayonunun konturları əsas götürülür) Azərbaycan tarixində mühüm rol oynayıb. Ona görə də Şəmkir bölgəsi tarixinin sistemli şəkildə öyrənilməsi vacib problemlərdəndir. Burada diqqəti, bütövlükdə Azərbaycan, o cümlədən Şəmkir bölgəsi üçün vacib dövr olan XVIII əsrin 20-ci illərinə cəlb etmək istəyirik. Osmanlı imperiyasının 1727-ci ildə tərtib etdiyi «Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri» Şəmkir bölgəsinin də həmin dövrdəki ümumi mənzərəsini bərpa etməyə imkan verir. Artıq qeyd edildiyi kimi monqol yürüşləri zamanı dağıdılan Şəmkir şəhəri bərpa edilmədi. Keçmiş Şəmkir şəhəri ərazisi və ətrafı XV əsrdə Qaraqoyunlu (1410-1468) və Ağqoyunlu (1468-1501) dövlətlərinin, 1501-ci ildən isə Azərbaycan Səfəvi dövlətinin tərkibinə daxil edildi. Şəmkir bölgəsi Gəncə-Qarabağ inzibati-ərazi vahidinə tabe idi. 1578-1590-cı illər Səfəvi-Osmanlı müharibəsində məğlub olan səfəvilər, 1590-cı il İstanbul müqaviləsi ilə həmin torpaqları osmanlılara güzəştə getdi. 1593-cü ildə Gəncə-Qarabağ əyalətinin «icmal dəftəri» tərtib olundu. Həmin məlumata görə əyalət 7 sancaq və 36 nahiyəyə bölünmüşdü

***(Cədvəl 1).***

**Gəncə-Qarabağ əyalətinin inzibati-ərazi bölgüsü (1593-cü il)**

| № | sancaq | nahiyələr | |
|---|---|---|---|
| | | sayı | adları |
| 1 | Gəncə | 12 | Gəncə, Gəncə Aranı, Dağlıq Gəncə, Şəmkir Aranı, Dağlıq Sunqur, Kürəkbasan Aranı, Şütur, Danqı, Zəyəm Aranı, Yevlaq, Tavus, Dəmirhəsən |
| 2 | Bərdə | 4 | Bərdə, Sir, Pətəklik, İncərud |
| 3 | Xaçın | 7 | Xaçın, Qaraağac, Ağcabədi, Dağlıq Çelaberd, Çelaberd, Qarqar. Məğaviz |
| 4 | Axıstabad | 5 | Axıstabad (Böyükçay), Quzey, Güney, Dağlıq İncə, İncə |
| 5 | Dizaq | 3 | Arasbar. Dağlıq Dizaq, Dizaq |
| 6 | Həkəri | 4 | Gestasf, Həkəri, Zarıs, Alpaut |
| 7 | Vərəndə | 1 | Vərəndə |
| **Cəmi :** | | 36 | |

**Qaynaq:** Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri. Bakı, 2000, s.5-6; **Piriyev V.** Azərbaycanın tarixi coğrafiyası. Bakı, 2002, s.76.

Şəmkir Aranı adlandırılan nahiyə Gəncə sancağına daxil idi. Gəncə-Qarabağ əyaləti Şah Abbasın (1587-1629) növbəti müharibələri zamanı geri alınsa da, XVIII əsrin 20-ci illərində yenidən Osmanlı dövlətinin əlinə keçdi[3] və 1727-ci ildə «Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri» tərtib edildi. «Müfəssəl dəftər»in yeganə nüsxəsi İstanbulda Başbakanlıq arxivində saxlanılır. Tarixçi-şərqşünas H.Məmmədov (Qaramaqlı) həmin «dəftər»i tərcümə, ön söz, qeyd və şərhlərlə 2000-ci ildə Bakıda çap etdirib [4].

Qaynaq: Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri. Bakı, 2000, s.5-6; Piriyev V. Azərbaycanın tarixi coğrafiyası. Bakı, 2002, s.79.

***Cədvəl 2***

**Gəncə-Qarabağ əyalətinin inzibati-ərazi bölgüsü (1727-ci il)**

| **№** | **qəzalar və livalar (sancaqlar)** | **Nahiyələr** | |
|---|---|---|---|
| | | **Savi** | **adları** |
| 1 | Gəncə qəzası | 11 | Gəncəbasan, Sunqurabad, Şəmkürbasan, Kürəkbasan, Kiçik Kürəkbasan, Böyük Kürəkbasan, Şüturbasan, Talış, Gülüstan, Yevlaq Qaraman, Danqı |
| 2 | Lori qəzası | 2 | Güney, Quzey |
| 3 | Xılxına livası | 9 | Xılxına, Həsənsuyu, Tavus, Axıncı, Əsrik, Qaraqaya, Türkənlər (?), Yuxan Zəyəm, Aşağı Zəyəm |
| 4 | Bərdə livası | 4 | Bərdə, İncərud, Sir, Bavat |
| 5 | Arasbar livası | 2 | Arasbar, Həkəri. |
| 6 | Bərgüşad livası | 4 | Bərgüşad, Zans, Dizaq, Kestasf |
| 7 | Çuləndər livası | | (nahiyələri göstərilmir) |
| 8 | ? | 5 | Xaçın-Sığnaq, Çelaberd, Keştek, Vərəndə-Sığnaq, Köçəz |
| | Cəmi: | 37 | |

**Qaynaq:** Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri, s. 6; **Piriyev V.** Göst. əsəri, s.77.

Osmanlı dövründə tərtib edilmiş bütün dəftərlər[5] kimi, «Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri» də dövrə aid əvəzedilməz qaynaq hesab olunur. Burada əyalətin inzibati-ərazi bölgüsü, iqtisadi həyatı, demoqrafik vəziyyəti, toponimiyası və s. haqqında təkzibedilməz faktlar əks olunub.

H.Məmmədov (Qaramanlı) yazır ki, «1727-ci il tarixli «Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri» bu əyalətin ərazi-inzibati bölgüsü haqqında dolğun məlumat verən yeganə sənəddir. Əgər 1593-cü ildə eyni əyalətin tərtib olunmuş «icmal dəftəri»nin məlumatlarını da bura əlavə etsək, osmanlılar dövrü Gəncə-Qarabağ əyalətinin ərazi-inzibati bölgüsü haqqında məlumatlarımızın tam olduğunu qətiyyətlə söyləyə bilərik».[6] «Müfəssəl dəftər»in məlumatına görə, Gəncə-Qarabağ əyaləti (xəritə) 37 nahiyəni birləşdirən 5 livadan (sancaqdan) və 2 qəzadan ibarət idi (Cədvəl 2). Şəmkir bölgəsi, əsasən, Gəncə qəzasına daxil olan Şəmkürbasan, Xılxına livasına daxil olan Xılxına və Aşağı Zəyəm nahiyələrini əhatə edirdi. Adları qeyd oluanan nahiyələr üzrə məlumatları cədvəl şəklində ümumiləşdirək.

Cədvəl 3-dən göründüyü kimi Gəncə qəzasının Şəmkürbasan nahiyəsində 70 kənd (58 məskun, 12 boş), 6 camaat və 2 məzrəə (sakinləri olmayan kəndlərin əkin sahəsi) var idi. Kənd, camaat və məzrəələrin adları, demək olar ki, Azərbaycan mənşəlidir. Nahiyədə 2389 nəfər qeydə alınıb, onlardan 1746-sı (73,1 %) müsəlman, 643 nəfəri (26,9 %) qeyri-müsəlmandır. Qeyri-müsəlmanların yaşadığı kəndlərin adı (Qiyaslı, Yenicəbazar, Çadırçı və i.a.) sübut edir ki, onlar buraya gəlmədir. Nahiyə elatlarla birgə 2.048.352 ağça vergi verirdi.

**Cədvəl 3**
**Gəncə qəzasının Şəmkürbasan nahiyəsi**

| № | Kəndlər, camaatlar, məzrəələr | əhali | | Vergilər (Ağça) |
|---|---|---|---|---|
| | | Müsəlman | Qeyri-müsəlman | |
| 1 | Minarə k. | 26 | 2 | 24000 |
| 2 | Zamanbəy k. | 17 | - | - |
| 3 | Molla Qədim k. | 81 | - | 156000 |
| 4 | Məfruzlu k. | heç kim yaşamır. | | 6000 |
| 5 | Qavallar k. | 14 | - | 43000 |
| 6 | Mamağanlı k. | 11 | - | 18 000 |
| 7 | Kiçik Bozdoğanlı k. | 7 | - | 27 000 |
| 8 | Kordilək k. | 14 | - | 40000 |
| 9 | Seyfəli k. | 53 | - | 76000 |
| 10 | Cırğıl k. | 34 | - | 76000 |
| 11 | Kotancı k. | 11 | - | 13000 |
| 12 | Dədəli k. | heç kim yaşamır | | 2000 |
| 13 | Ərzni k. | heç kim yaşamır | | 6000 |
| 14 | Qaramanlı çaylı k. | 11 | - | 6000 |
| 15 | Qızılçanlı k. | 12 | - | 8000 |
| 16 | Otaqçı k. | 9 | - | 9000 |

| | | | | |
|---|---|---|---|---|
| 17 | Böyük Bozdoğanlı k. | 32 | - | 40 000 |
| 18 | Qarağac k. | 9 | - | 18 000 |
| 19 | Xılxına k. | 7 | - | 18 000 |
| 20 | Daşlıca k. | 11 | - | 14400 |
| 21 | Kürdesin k. | 16 | - | 23400 |
| 22 | Qalacıq k. | 15 | - | 16800 |
| 23 | Qaraazıq Eymirli k. | 10 | - | 27000 |
| 24 | Alpaduğ k. | 25 | - | 54000 |
| 25 | Eyləməzli k. | 8 | - | 8000 |
| 26 | Molla Devənli k. | 7 | - | 13000 |
| 27 | Qiyaslı k. | 205 | 26 | 334000 |
| 28 | Qılıcbəyli k. | 16 | - | 20000 |
| 29 | Qoca İsmayıl k. | 29 | - | 20000 |
| 30 | Kiçik Alabaslı | 34 | - | 72000 |
| 31 | Ərəblər k. | 2 | - | 6000 |
| 32 | Talış k. | 9 | - | 19960 |
| 33 | Qarabaldır k. | 7 | - | 16800 |
| 34 | Keçili k. | 21 | - | 12000 |
| 35 | Təknəli k. | - | - | 40000 |
| 36 | Oxçulu k. | 15 | - | |
| 37 | Böyük Alabaslı k. | 32 | - | 72000 |
| 38 | Göləngir k. | heç kim yaşamır | | 6000 |
| 39 | Kiçikli k. | 18 | - | 15600 |
| 40 | Arğınlı k. | 10 | - | 14000 |
| 41 | Bayəhmədli camaatı | 137 | - | 35900 |
| 42 | Bayəhmədli k. | 113 | - | 41616 |
| 43 | Hacı Əlili k. | 43 | - | 16640 |
| 44 | Arıqlı camaatı | 58 | - | 29488 |
| 45 | Sıratlı camaatı | 81 | - | 48200 |
| 46 | Köslü camaatı | 36 | - | 13340 |
| 47 | Cavanşir camaatı | 7 | - | 13356 |
| 48 | Köhnəli k. | heç kim yaşamır | | 15000 |
| 49 | İsfəndiyar məzrəəsi | - | - | 2000 |
| 50 | Simcon k. | - | 27 | 15 000 |
| 51 | Burut k. | - | 9 | 5000 |
| 52 | Yenicəbazar k. | - | 19 | 10000 |
| 53 | Cadırlı k. | - | | |
| 54 | Avı dərəsi k. | heç kim yaşamır | | 3000 |
| 55 | Qazılar k. | heç kim yaşamır | | 6000 |
| 56 | Qubadca k. | heç kim yaşamır | | 3000 |
| 57 | Həvas k. | - | 5 | 6000 |
| 58 | Çaldaş k. | heç kim yaşamır | | 3000 |
| 59 | Sərdar k. | - | 5 | 5000 |
| 60 | Çənbər k. | - | 7 | 4500 |
| 61 | Hüdrik k. | - | 6 | 6000 |
| 62 | Ağcaköy k. | - | 38 | 16000 |
| 63 | Gülyetər məzrəəsi | - | | 8000 |
| 64 | Avalancı k. | - | 3 | 22000 |
| 65 | Barsum k. | - | 32 | 8000 |
| 66 | Avakusah k. | - | 3 | 16000 |
| 67 | Barun k. | - | 35 | 8000 |
| 68 | Ərtənə k. | - | 26 | 12000 |
| 69 | Tacəhməd k. | - | 44 | 9000 |

| | | | | |
|---|---|---|---|---|
| 70 | Qızılqala k. | - | 15 | 6000 |
| 71 | Düzyurd k. | - | 19 | 12000 |
| 72 | Qarabulaq k. | - | 78 | 36000 |
| 73 | Qalakənd k. | - | 119 | 40000 |
| 74 | Gədəbəy k. | - | 60 | 20000 |
| 75 | Çanaqçı k. | - | 70 | 30000 |
| 76 | Qalacıq k. | heç kim yaşamır | | 3000 |
| 77 | Şəhidlər k. | heç kim yaşamır | | 3000 |
| 78 | Ballıca k. | heç kim yaşamır | | 3000 |

Cədvəl 4-də Xılxına livasının Xılxına nahiyəsi üzrə göstəricilər əks olunub. Burada 1 şəhər, 25 kənd (23 məskun, 2 boş), 1 məzrəə və 4 camaat qeydə alınıb. Xılxına şəhərində 1 came, 1 hamam, 93 dükan, 7 dəyirman, bostan, üzüm bağı və ağaclar qeydə alınmışdı. Bölgədə arxeoloji qazıntılar genişləndikcə Xılxına şəhəri daha dəqiq şəkildə lokalizasiya oluna bilər. Əhalisi (697 nəfər) yalnız müsəlmanlardan ibarət olub. Nahiyə 862.000 ağça vergi verməli idi.

**Cədvəl 4**
**Xılxına livasının Xılxına nahiyəsi**

| S.№ | şəhər, kəndlər, camaatlar və məzrəələr | əhali | | vergilər |
|---|---|---|---|---|
| | | müsəlman qevri | müsəlman | (ağça) |
| 1 | Xılxına s. | 153 | - | 80000 |
| 2. | Mola Vəlili k. | heç kim yaşamayır | | 3000 |
| 3. | İnəkçi k. | heç kim yaşamayır | | - |
| 4. | Tatar k. | 9 | - | 9000 |
| 5. | Hacı Həqirli k. | 33 | - | |
| 6. | Əxidərəsi k. | 27 | - | |
| 7. | Cələbverdi k | 31 | - | 85000 |
| 8. | Oarılı k. | 14 | - | |
| 9. | Morul k. | 58 | - | 96000 |
| 10. | Mirasia k. | 13 | - | |
| 11 | Dürhəsənli k. | 8 | - | 6000 |
| 12 | Qovluhasar k. | 18 | - | 40000 |
| 13. | Hissədar k. | 40 | - | 38000 |
| 14. | Oarı k. | 2 | - | - |
| 15. | Alagöl k. | 37 | - | 48000 |
| 16. | Qırıqlı k. | 63 | - | 59000 |
| 17. | Aşağı Düvərli k. | 24 | - | 54000 |
| 18. | Yuxarı Düvərli k. | | - | |
| 19. | Kiçik Əyyublu k. | 50 | - | 104000 |
| 20. | Sarvanlar k. | 21 | - | 38000 |
| 21. | Cusullu k. | 10 | - | 46000 |
| 22. | Dümaqlı k. | 8 | - | |
| 23. | Daşbulaq məzrəəsi | - | - | 54000 |
| 24. | Yuxarı Avırmamışlı | 13 | - | 40000 |
| 25. | Aşağı Avırmamıslı | | - | |

| | | | | |
|---|---|---|---|---|
| 26. | Pasalı k. | 3 | - | 6000 |
| 27. | Əlixan k. | 8 | - | 30000 |
| 28. | Dəmirçihəsənli camaatı | ? | - | 4000 |
| 29. | Süfrəçi camaatı | | - | |
| 30. | Cavanşir camaatı | 28 | - | 9000 |
| 31. | Arıqlı camaatı | 24 | - | 4000 |

Cədvəl 5 Xılxma livasımn Aşağı Zəyəm nahiyəsindəki vəziyyəti aydmlaşdırır. Nahiyədə olan 14 kənddən 8-i məskun, 6-sı isə boş idi. Bütün toponimlər Azərbaycan mənşəlidir. Buna baxmayaraq, ziddiyyətli cəhət ondan ibarətdir ki, məskun kəndlərdə, yalnız qeyri-müsəlmanlar qeydə alınıb. Kəndlərin adları və heç kimin yaşamadığı kəndlərin sayı belə nəticəyə gəlməyə əsas verir ki, müsəlman əhali buranı tərk edib. Nahiyə üzrə 164.000 ağça vergi müəyyən olunub.

**Cədvəl 5**
**Xılxına livasının Aşağı Zəyəm nahiyəsi**

| S.Ne | kəndlər, camaatlar və məzrəələr | əhali | | vergilər |
|---|---|---|---|---|
| | | müsəlman qevri | müsəlman | (ağça) |
| 1 | Kamandar k. | - | 31 | 27000 |
| 2. | Bulanıq k. | - | 5 | 4000 |
| 3. | Ləfarək k. | - | 16 | 10000 |
| 4. | Kesiskənd k. | - | 23 | 25000 |
| 5. | Çardaqlı k. | - | 44 | 26000 |
| 6. | Cakər k. | - | 12 | 9000 |
| 7. | Qazançı k. | - | 22 | 26000 |
| 8. | Zadə k. | - | 9 | 10000 |
| 9. | Atabəy k. | heç kim yaşamayır | | 6000 |
| 10. | Sovucbulaq k. | heç kim yaşamayır | | 6000 |
| 11 | Yasamal k. | heç kim yaşamayır | | 6000 |
| 12 | Satılmış k. | heç kim yaşamayır | | 3000 |
| 13. | Çanaqçı k. | heç kim yaşamayır | | 3000 |
| 14. | Samanlıq k. | heç kim yaşamayır | | 3000 |

3, 4 və 5-ci cədvəllərin materialları cədvəl 6-da yekunlaşdırılıb, bəzi istisnalarla Şəmkir bölgəsinə daxil edilmiş nahiyələrin ümumi vəziyyəti müəyyənləşdirilib. Bu məlumatlar bölgənin Gəncə-Qarabağ əyalətindəki yerini aşkar etməyə imkan verir. Təxmini hesablamalara görə, bölgə üzrə məskun kəndlər bütün kəndlərin 12,8 %-ni, boş kəndlər 4,2 %-ni təşkil edirdi. Bölgə üzrə adı dəftərə düşmüş 3.248 nəfər qeydə alınmışdı ki, onlar əyalət üzrə ümumi göstəricinin 17,67 %-ni əhatə edirdi. Müsəlmanlar bölgə əhalisinin 75,22 %)-ni, qeyri-müsəlmanlar 24,78 %-ni təşkil edirdi. Müsəlmanların ümumi sayı əyalət üzrə göstəricidən xeyli yüksək idi. Göstərilən nahiyələr bütövlükdə 3.074.352 ağça (adambaşına 946,5 ağça) vergi ödəyirdi. Bu Gəncə-Qarabağ əyaləti üzrə ümumi göstəricinin 11,64 %-ni əhatə edirdi.[6]

*Cədvəl 6*

## Şəmkir bölgəsi

| S.№ | nahiyələr | kənd, camaat ,məzrəə | | | | | əhali | | | | Vergi (ağça) | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | kənd | | | camaat | | | | | | | |
| | şəh | üm | Cəm | Mə | boş | | Məzrəə | ümumi | müsləman | Qeyri-müsləman | ümumi | adambaşına |
| 1 | Şəmkürbasan | 78 | 70 | 58 | 12 | 6 | 2 | 2439 | 1746 | 643 | 2048352 | 796,3 |
| 2 | Xılxına | 30 | 25 | 23 | 2 | 4 | 1 | 697 | 697 | - | 862000 | 1236,7 |
| 3 | Aşağı Zəyəm | 14 | 14 | 8 | 6 | - | - | 162 | - | 162 | 164000 | 1012,3 |
| 4 | Cəmi | 122 | 109 | 89 | 20 | 10 | 3 | 3248 | 2443 | 805 | 3074352 | 946,5 |

Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri ailə tərkibi, həmin dövrdə möვcud olmuş şəxs adlan və b. məsələlər haqqında da məlumat verir.

Beləliklə, qeyd olunan faktlardan aydın olur ki, Şəmkir bölgəsi hərbi-strateji əhəmiyyətilə birgə, Gəncə-Qarabağ əyalətinin insan ehtiyatları və iqtisadi baxımdan mühüm ərazilərindən idi. Müəyyən edilmiş faktlar Şəmkir bölgəsinin sonrakı vəziyyətini dinamikada izləməyə də əlverişli şərait yaradır.

## ƏDƏBİYYAT VƏ QEYDLƏR

1. Piriyev V. Azərbaycan XIII-XIV əsrlərdə. Bakı, 2003, s.122; Avalov G. K воссоздвнию градостроителной структуры средневекового Şamkura // İzv. AN Azerb. SSR. Ser. lit., языка и искусства, 1980, №4

2. 1930-cu ildə Şamxor rayonu təşkil edilmişdi. 1938-ci ildə isə Annino koloniyası Şamxor adlandırılmışdı. 1991-cı ildən Şəmkir adı bərpa olundu.

3. Şükürov K. Şəmkir - qısa tarixi məlumat // İlham Əliyev Şəmkirdə. Bakı, 2006, s.94-95.

4. Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri. Ön söz, tərcümə, qeyd və şərhlərin müəllifi Hüsaməddin Məmmədov (Qaramanlı). Bakı, 2000.

5. İrəvan əyalətinin icmal dəftəri. Bakı, 1996; Naxçıvan sancağının müfəssəl dəftəri. Bakı, 1996; Naxçıvan sancağının müfəssəl dəftəri. Bakı, 1997; Tiflis əyalətinin
müfəssəl dəftəri (Borçalı və Qazax). Bakı, 2001; Ərdəbil livasının müfəssəl dəftəri. Bakı, 2004.

6. Gəncə-Qarabağ əyaləti üzrə yekun rəqəmlər haqqında bax: Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri, s.5-17.

**E.Ə.KƏRİMOV**

## *Şəmkir rayonunda yaşamış almanlar haqqında bəzi tarixi-etnoqrafik məlumallar (keçmiş Annenfeld, Georqsfeld və Aygenfeld koloniyalari)*

Məlumdur ki, XIX XX əsrin birinci yarısında Azərbaycanda 8 alman koloniyası olmuşdur: Annenfeld (1818/1819, indiki Şəmkir şəhərinin ərazisinin bir hissəsi), Georqsfeld (1885, indiki Çinarlı), Aygenfeld (1906, indiki İrmaşlı)*, Helenendorf (1818/1819, indiki Xanlar), Alekseyevka (1902, indiki Həsən-Su), Grünenfeld (1905/1906, indiki S.Vurğun qəsəbəsi), Yelizavetinka (1924, indiki Xətai) və Traubenlfeld (1942, indiki Tovuz). Onlardan 3 koloniya -Aygenfeld, Annenfeld və Georqsfeld Şəmkir rayonunun ərazisində yerləşmişdi.

Annenfeld Niderland kraliçası Anna Pavlovanın, Gcorqsfeld isə III Aleksandrın oğlu Geogi Alekseyeviçin adı ilə bağlı idi. Georqsfeldlilər əkin sahələrinin çatışmaması üzündən Helenendorfdan gələnlər idi. 1888-ci ildə bu yaşayış məskəninə kənd statusu verilmişdi.

Almanların Azərbaycanda məskunlaşması tarixi, iqtisadiyyatı, onlara qarşı həyata keçirilən siyasi terror haqqında Azərbaycanda, Rusiyada və Almaniyada bir çox monoqrafiyalar nəşr olunmuş, dissertasiyalar müdafiə olunmuş, elmi konfranslar və simpoziumlar keçirilmişdir. Lakin bu nəşrlərin əksəriyyəti bir-birini təkrar edir (1). Bundan başqa, almanlar etnoqrafik baxımdan tədqiqat obyekti olmamışdır. İlk dəfə olaraq etnoqrafik səfər vaxtilə almanların yaşadıqları yaşayış məskənlərinə 1991 və 1998-ci illərində bu sətirlərin müəllifi tərəfindən təşkil edilmişdir (2).

Almanların Şərqə köçməsinin bir sıra səbəbləri var idi. XIX əsrin əvvəllərində Napoleon müharibələrindən sonra Almaniyanın ağır siyasi-iqtisadi vəziyyətə düçar olması, əkin sahələrinin azalması, ölkənin xırda krallıqlara və hersoqluqlara parçalanması əhalinin vəziyyətini xeyli ağırlaşdırmışdı. Bu özünü xüsusilə Vürtemburq krallığında daha qabarıq göstərirdi. 1816-cı ildə burada baş verən aclıq, ağır mükəlləfiyyətlər xalqın kütləvi surətdə ölkəni tərk etməsinə səbəb oldu. Kolonistlərin öz tarixi vətənlərindən getməsinin dini səbəbləri də var idi. Məlumdur ki, almanlar xristianlığın 3 istiqamətlərindən birini təşkil edən protestantizmə mənsubdurlar. Bu din XVI əsrdə katolik kilsəsinin böhran keçirdiyi bir dövrdə Reformasiyanın nəticəsi və protest əlaməti olaraq katolik kilsəsinin bir sıra ehkamlarına (kilsə mərasimlərinin dəbdəbəli kcçirilməsi və s.) qarşı çıxır, xalqı xristianlığın "ilkin mərhələsinə" qayıtmağa çağırırdı. Protestantlığın aparıcı istiqamətlərindən birini təşkil edən lüteranlıq 1555-ci ildə "Ausburq konfessiyası" aktı əsasında rəsmi din kimi qəbul olundu. XIX əsrin əvvəllərində Vürtemburqda hakim lüteran konsistoriyası (kilsə şurası) bütün köhnə kilsə mahnılarını, katexizisi (xristianlıq dünyagörüşünü sual-cavab formasında şərh edən kitab) və s. dini ədəbiyyatı qadağan etdi. Buna etiraz əlaməti olaraq protestantizmin əsas ehkamlarına qarşı bir sıra təriqətlər formalaşdı. Təriqətçilər missionerlərin "dünyanın axırını" (esxotologiya) yaxınlaşması və antixristin peyda olmasına inanır, konfirmasiyaya (kilsədə ibadət

etmək üçün yeniyetmələrin kilsədə təntənəli təqdim olunması mərasimi) və xaçaçuraya (xaçı suya salmaq və yaxud "müqəddəs suyu" çiləmək) qarşı çıxır, uşaqları məktəbə buraxmırdılar. Bu ağır vəziyyətdən xilas olmağın yolunu isə Şərqə (Qüdsə) getməkdə görürdülər. Lakin bu uzaq səfər baş tutmadığından (Fələstinin qeyri-məhsuldar torpaqları, yerli əhalinin gəlmələrə münasibəti problemi və s.), onlar Cənubi Qafqazda yeni yurd yerləri salmağa başladılar.

Almanların arasında təriqətçilər və separatizmin yayılmasında və genişlənməsində Almaniya və İsveçrə missionerləri geniş fəaliyyət göstərirdi. Yeri gəlmişkən, burada bugünkü həyatla səsləşən və aktuallıq kəsb edən bir məsələdən də söhbət açmaq yerinə düşərdi. Missionerlər almanların Azərbaycanda məskunlaşdıqları ilk illərindən başlayaraq koloniyalarda dini fəaliyyətləri ilə yanaşı, azərbaycanlılar arasında da xristian (protestant) dinini yaymağa cəhd göstərməyə başladılar. Belə prozelitizm siyasəti özünü Qarabağda daha qabarıq büruzə verirdi. Bu məqsədlə 1821-ci ildə İsveçrənin Bazel missioner cəmiyyətinin yevangelistləri Avqust Ditrix və Felisian Zarembo Şuşa şəhərinə gələrək yerli azərbaycanlıları xristianlaşdırmağa çalışmışlar. Bu işdə çar Rusiyası missionerlərə yaxından kömək edirdi. 1881-ci ildə dərc olunmuş bir arxiv sənədində qeyd olunur ki, Rusiya tərəfindən hələ 1821-ci ildə Bazel yevangelist icmasına Cənubi Qafqazda müsəlmanlar arasında xristianlığı yaymaq üçün alman ailələrini yerləşdirmək, orada məktəb və mətbəə açmağa icazə verilmişdi. Lakin missionerlər Şuşa şəhərində olduqları 13 il ərzində nəinki kök sala bilmədilər, hətta bir nəfər müsəlmanı belə xristian edə bilmədilər (3, 319).

XIX əsrin 20-30-cu illərində təkcə Şuşa şəhərində 20-dən artıq missioner fəaliyyət göstərirdi (Felisian Zarembo (1821-1838), Avqust Ditrix (1821-1830), Yakob Lang (1821-1839) vob.). Protestant missionerləri bu gün də Azərbaycanda prozelitizm siyasətini yaymağa cəhd göstərirlər. Məsələn, bu yaxınlarda onların Zaqatala rayonunun Əliabad kəndində baptizmi (protestantizmdə təriqət) təbliğ etmək cəhdi iflasa uğramışdır.

Çar Rusiyası missionerlərin bu fəaliyyətinə yaxından kömək edirdi. Bunu general-adyutant Strekalovun 4 sentyabr 1830-cu il tarixli raportu əyani surətdə sübut edir. Raportda söhbət Rusiyanın Şuşada və bütün Qarabağda yevangelistlərin fəaliyyətini müdafiə etməsindən gedir (4, 291).

120 ildən artıq bir müddət ərzində Azərbaycanda yaşamış almanlarla azərbaycanlılar arasında intensiv etnomədəni proseslər getmiş, qarşılıqlı təsərrüfat-mədəni əlaqələri formalaşmışdı. Lakin ilk zamanlar almanlar Azərbaycanda bir sıra çətinliklərlə üzləşdilər. Onlar üçün qeyri-adi təbii-coğrafi şərait müxtəlif xəstəliklər, soykökü, dil və din baxımından almanlardan kəskin fərqlənən azərbaycanlılarla qarşılaşmaq, onların əhatəsində yeni həyat qurmaq, yerli ictimai-siyasi və mədəni həyata uyğunlaşmaq heç də asan məsələ deyildi. Bütün bunlara baxmayaraq, həyat tədricən öz axarına düşməyə başladı. Bu baxımdan azərbaycanlıların almanlara təsərrüfat cəhətdən yaxından köməyi xüsusilə qeyd olunmalıdır. Bunu azərbaycanlıların başqa xalqlara tolerant münasibət bəsləməsi ilə izah etmək olar. Onların yerli şəraitə uyğunlaşmalarında

mənsub olduqları protestant etikasının rolu da müəyyən dərəcədə rol oynamışdır (intizam, qənaətçilik, əməyə vicdanlı münasibət, tənbəlliyə qarşı mübarizə).

Məlumdur ki, Azərbaycana gəlmiş almanların doğma vətənlərində ənənəvi məşğuliyyəti əsasən üzümçülük və şərabçılıq olmuşdur.

Təcrübə göstərdi ki, Yuxarı Reyn düzənlikləri və Nekker çayının sahillərindən fərqli olaraq, Azərbaycanın təbii-coğrafi şəraiti üzümçülüklə məşğul olmaq üçün daha əlverişlidir. Azərbaycanda bu təsərrüfat sahəsi ilə almanlar 1824-1825-ci illərdə məşğul olmağa başladılar. Təsərrüfat fəaliyyətlərinin ilk illərində onlar üzümü azərbaycanlılar kimi vegetativ üsulla, yəni çubuqlarla çoxaldırdılar. Yerli üzüm sortlarını (şirvanşahı və s.) becərirdilər. Sonralar onlar texniki sortlara - saperavi, rkasiteli, bayan, muskat və s. üstünlük verməyə başladılar. Üzümlüklər azərbaycanlılar (mirablar, cuvarlar) tərəfindən suvarılırdı. Almanlar azərbaycanlılar üçün səciyyəvi olan ənənəvi süni suvarma sistemindən - arxlardan (Nadir şah arxı, Acı arx, İlmazlı, Dört tümən, Alpout, Morul arxı, Kotançı arxı, Güdək arx) geniş istifadə olunurdu.

Azərbaycanlılar almanların əkin sahələrinin becərilməsində, səpin, biçin və xırman işlərində yaxından iştirak edir, bir çox hallarda onları vəl, oraq və s. əkinçilik alətləri ilə təmin edirdilər. Azərbaycanlılar almanlara ot, kübrə, toxumluq taxıl da satırdılar. Öz növbəsində azərbaycanlılar almanlar vasitəsilə kartof və bəzi tərəvəzlə tanış oldular. Məşhur alman furqonları da bütün Qafqaz bölgəsində geniş yayılmışdı. Bayram günlərində almanlar azərbaycanlılara üzüm bandağı və s. bağışlayırdılar. Belə hədiyyələr, adətən, qarşılıqlı olardı.

İlk dövrlərdə salınmış alman məskənlərinin hamısı yaşayış və təsərrüfat işlərini aparmaq üçün heç də əlverişli olmamışdır. Ekoloji baxımdan əlverişsiz şəraitdə məskunlaşan annenfeldlilər 2 dəfə - 1832 və 1873-cü illordə öz yurd yerlərini dəyişmişlər. 1832-ci ilədək Şəmkirçayın sol sahilində salınmış koloniyada 91 ailə yaşadığı halda, sonralar bu rəqəm 40-a enmişdi. Ona görə də 1873-cü ildə bu yaşayış məntəqəsinin əhalisi Morul kəndinin yaxınlığında yeni koloniyanın əsasını qoydu. 1819-cu ildə burada 413 nəfər yaşadığı halda, 1829-cu ildə bu rəqəm 144 nəfərə enmişdi* (5, 348).

Şübhəsiz ki, əhalinin sayının azalmasında 1826-cı ildə İran qoşunlarınm bu yaşayış məskənini viran etməsinin də az rolu olmamışdır. Sonuncu dəfə annenfeldlilər 1873-ci ildə Morul kəndi yaxınlığında məskunlaşmışdılar.

Almanların xalq yaşayış evləri istər etnoqrafik, istərsə də memarlıq baxımından diqqəti xüsusilə cəlb edir. İlk vaxtlar onlar indiki evlərdən fərqli olaraq çiy kərpicdən tikilmiş, üstü qarğı, küləşlə örtülmüş evlərdə yaşayırdılar. Lakin XIX əsrin 60-70-ci illərindən başlayaraq koloniyalarda kütləvi olaraq müasir evlər tikilməyə başlandı. Etnoqrafiya elmində belə ev tipləri "aleman ev tipi" adlanır. Belə evlər, adətən, yaşayış evləri və əsas təsərrüfat tikililərinin ("saray") kirəmit döşənmiş ümumi dam örtüyünün olması ilə səciyyələnir. Evlərin damı bir qayda olaraq ikiyamaclıdır. Dam örtüyünün belə konstruksiyaya malik olmasını bölgədə yağıntının miqdarının çox olması və təsərrüfat məqsədilə çardaqdan səmərəli istifadə olunması ilə izah etmək olar. Bundan başqa, belə dam örtüyü dekorativ baxımdan da (xüsusilə fronton) diqqəti xüsusilə cəlb edir.

Memarlıqda belə tikililər faxverk adı ilə məlumdur (almanca fax-seksiya, verk isə sistem deməkdir). Belə evlərin karkasını üfüqi və şaquli vurulmuş ağac dayaqlar və çəpinə vurulmuş dirəklər təşkil edir. Əslində, evlər planlaşdırılarkən birinci növbədə kolonistlərin məşğuliyyətinin aparıcı sahəsini təşkil edən üzümçülük və şərabçılıq nəzərə alınmışdır. Bu evlər demək olar ki, Baden - Vürtemberqdəki (keçmiş Şvabiya, Alemaniya) bürqerlərin evlərinin təkrarı idi (6). Evlərin daxili sahmanında ampir və qotik stildə hazırlanmış mebel əhəmiyyətli yer tuturdu.

Küçələr planlı surətdə salınmışdır. Burada armud və çinar ağaclarının əkilməsinə üstünlük verilirdi. Məlumdur ki, armud ağacı alman heraldikasında əməyə vicdanlı münasibət, bolluq və məhsuldarlıq rəmzi hesab olunur. XIX əsrin 70-ci illərində əkin sahələrinin çatışmazlığı üzündən Annendorfa Helenendorfdan, Aygenfeldə isə Helenendorf və Gürcüstanda yerləşən Aleksandersfelddən yüzlərlə insan küçmüşdü.

Almanların etnoqrafiyasından bəhs edərkən Vürtemberqdən köçənlərin nəslindən olan və Azərbaycanda anadan olmuş, uzun müddət respublikanın Qərb bölgəsində geniş miqyasda arxeoloji qazıntılar aparmış Yakob Hummelin (1893-1946) fəaliyyətini də yaddan çıxarmaq olmaz. O, arxeologiya ilə yanaşı, ölkəşünaslıqla da məşğul olurdu. Y.Hummelen fəaliyyəti nəticəsində 1928-ci ildə Xanlarda ölkəşünaslıq muzeyi təşkil olunmuşdu. Muzeydə qazıntılar zamanı əldə olunmuş çox qiymətli və zəngin maddi mədəniyyət nümunələri nümayiş etdirilirdi. Azərbaycan etnoqrafiyasına və almanların ənənəvi maddi və mənəvi mədəniyyətinə dair zəngin eksponatlar xüsusilə vurğulanmalıdır (7).

Keçmiş SSRİ-də hökm sürən siyasi terror və deportasiya siyasəti almanlardan da yan keçmədi. Müdafiə Nazirliyinin 1941-ci il 8 oktyabr tarixli 744 saylı əmrinə əsasən, Azərbaycanda yaşayan 23 min alman ölkənin Şərq rayonlarına sürgün olundu. Onların içərisində Y.Hummel də var idi (8, 104-106).

## ƏDƏBİYYAT VƏ QEYDLƏR

* Maraqlıdır ki, 1860-cı ildə Besarabiya quberniyasından bir qrup alman Şimali Qafqaza gələrək orada da Aygenfeld (Vannikovskaya) adlı məskən salmışlar. Bax: Виталий Белозёров. Этническая карта Северного Кавказа. М., 2005, с.43.

1. Almanlar haqqında ətraflı bax: К.Т.Алиев Анненфельд до первой мировой войны //Материалы международной научной конференции «Кавказские немцы - немцы на Кавказе до первой мировой войны», Баку Гянджа, сентябрь 1997 г., Баку 2001; yenə onun, Немцы на Южном Кавказе или моя жизнь в Анненфельде, Баку, 2000; Т.Ахундова, Немцы - колонисты Азербайджана в XIX - нач. XX вв., Баку, 1999; М.Джафарли, Немцы в Азербайджане, Баку, 1998; yenə onun, Политический террор и судьбы азербайджанских немцев, Баку, 1998; Т.Гумбатова, Жизнь немецких колонистов за Кавказом. Немецкие колонии в Азербайджане (1819-1941), (на правах рукописи) Баку, 2002; Ева-Мария Аух, Жизнь и творчество Якоба И.Гуммеля и бывший краеведческий музей в Ханларе, Грайсфальд,

1999 (на правах рукописи); И.Е.Петров, Немцы в Георгиевском Елизаветпольского уезда..., Известия Кавказского отдела Русского Географического Общества,т. VIII, №4 Тифлис, 1905-1906; Y.Hummel, Heimat Buchlein der Deuctschen in Transkaukazen, Pokrovsk, 1928; yenə onun, Das Heyimatkundliche Museum zu Helenendorf in Aserbeidschan, M. 1929; yenə onun "Археологические очерки Азербайджана, Баку, 1940.
2. Э.А.Керимов, Об этнографической поездке в бывшие немецкие колонии Азербайджана //Научно-информационный бюллетень Международной ассоциации исследователей истории и культуры российских немцев, №1, М. 1999.
3. Отношение барона Розена к тайному советнику Блудову от 10 января 1835 г; №17, Акты, собранные Кавказской археографической комиссией, т. 8, Тифлис 1881, s. 319.
4. Акты..., т. 7, Тифлис, 1878, s. 291.
5. Акты..., т.6, ч. I, Тифлис, 18..., s. 348
6. Листова Н. Крестьянское жилище Германии, Австрии и в Швейцарии в XIX в. //Типы сельских жилищ в странах зарубежной Европы// М, 1968.
7. Muzey haqqında ətraflı bax: Y.Hummel, Xanlar rayonunun ölkəşünaslıq muzeyi, Bakı, 1939; Э.А.Керимов, Судьба Ханларского краеведческого музея в Ханларе, //Научно-информационной бюллетень Международной ассоциации исследовате лей истории и культуры российских немцев, апрель-июль, №2/1, М. 1996.
8. Eisfeld, A., V.Herdt (Hrsq.), Deportation Sondersicdlung, Arbaeylsarmee, Deutsche in des Sowejetunion, 1941 bis 1956, 1996, s. 104-106.

**H.N.HƏSƏNOV**

## *XIX-XX əsrin əvvəllərində Şimali Azərbaycan almanlarının sosial-iqtisadi həyatına dair*

### *(Annenfeld koloniyasının materialları üzrə)*

XIX-XX əsrin əvvəllərində Quzey Azərbaycanın sosial-iqtisadi həyatı indiyədək Qərb, keçmiş Rusiya imperiyası, SSRİ, ilk ııövbədə isə Azərbaycan tarixşünaslığında kifayət qədər işlənilmişdir. Haqqında danışdığımız dövr Quzey Azərbaycanın tarixində romanovlar Rusiyasının müstəmləkə əsarəti dövrü olmuş və bu durum diyarın həyatının bütün sahələrində kifayət qədər dərin iz buraxmışdır. Sosial-iqtisadi tarixi araşdırmış müəlliflər (Ə.Sumbatzadə, M.İsmayılov, İ.Həsənov, M.Əfəndiyev, C.Cavadov, Ə.Umayev, T.Vəliyev, M.Musayev, Y.Ələsgərov və bir çox başqaları) bu yönümlü problemlərə məhz müstəmləkə rejimi prizmasından baxmaq zorunda idilər.

XIX-XX əsrin əvvəlləri Quzey Azərbaycanın sosial-iqtisadi həyatının etnik, sosial, ictimai və s. konkret sahələri araşdırılarkən azsaylı olmasına baxmayaraq, diyarın etnik palitrasında çox parlaq iz buraxmış alman kolonistlərinin həyatına böyük diqqət yetirilmişdir. Tarixi kökləri Almaniyaya - Şvabiyaya, Vürtemberqə gedib çıxan, taleyin gərdişi, tarixin dönəmləri ilə XIX əsrin əvvəllərində Cənubi Qafqaza pənah gətirmiş almanların Quzey Azərbaycandakı tarixi son 20 il ərzində kifayət qədər geniş araşdırılmışdır. H.Verdiyeva, K.Əliyev, M.Muradov, T.Axundova, S.Zeynalova, P.Ahənçi, N.İbrahimov və bir çox başqalarının əsərlərində romanovlar Rusiyanın müstəmləkəçi köçürmə siyasəti, Şimali Azərbaycanda məskunlaşdırılmış alman kolonistlərinin sosial-iqtisadi həyatı, kolonistlərin Azərbaycanın sosial-iqtisadi həyatında oynadıqları rol və s. məsələlər avtobioqrafik xarakterli yazıdan (K.Əliyev) ta ciddi namizədlik (M.Muradov, T.Axundova, S.Zeynalova) və doktorluq (H.Verdiyeva) dissertasiyalarınadək sanballı araşdırmaların obyektinə çevrilmişdir. Bu kimi problemlərin araşdırılmasına alman (Yeva Mariya Aux və b.), gürcü (Manjqaladze və b.) və b. tədqiqatçılar da qoşulmuşdur. Amma, təbii ki, bu işdə Azərbaycan müəllifləri daha böyük fəallıq göstərirlər. Bu da başa düşüləndir, bu tarix ilk növbədə bizim tariximizdir, bu tarix üzrə ən qiymətli ilkin qaynaqların əksəriyyəti, o cümlədən Annenfeld koloniyasının tarixi üzrə arxiv qaynaqları bizdədir.

Biz hazırkı kiçik yazıda ilk növbədə onu qeyd etmək istəyirik ki, indiyədək ortaya qoyulmuş tədqiqatlarda problemin araşdırılması üzrə xeyli iş görülsə də, problemin araşdırılmasında ehtiyac duyulan məqamlar az deyildir.
Doğrudur, bu mövzuya toxunmuş Azərbaycan tədqiqatçılarının, demək olar ki, hamısı Quzey Azərbaycana alman köçürmələrinin də bütövlükdə çarizmin müstəmləkəçi köçürmə siyasətinin üzvi tərkib hissəsi olduğunu qeyd ediblər. Həqiqətən də, XIX yüzilliyin əvvəllərindən etibarən romanovlar Rusiyası «Dəli Petronun» - I Pyotrun siyasi vəsiyyətlərinə müvafiq olaraq yürüdülən rus şərq

siyasəti - Avropa və Asiyanı birləşdirən strateji ticarət magistrallarını nəzarət altına götürmək siyasətinin reallaşdırılması sahəsində çox böyük uğurlar qazanmış, Cənubi Qafqazı işğal edərək həmin magistrallara son dərəcə yaxınlaşmışdır. Rus istilalarının gedişində ələ keçirilmiş Cənubi Qafqaz torpaqlarının çox böyük əksəriyyətini türk müsəlman ölkəsi olan Azərbaycan torpaqları təşkil edirdi. Rusa yad-düşmən olan bu müsəlman ölkəsində xristian dayağı yaratmaq işğalçı Rusiya üçün həm də əsl olum, ya ölüm məsələsi idi. Çarizmin köçürmə siyasəti yenicə işğal olunmuş Güney Qafqazın ilk növbədə müsəlman hissəsində, yəni Quzey Azərbaycanda özünə xristian dayağı yaratmağa yönəlmişdir. Həmin dayağı yaratmadan, yeni ələ keçirilmiş torpaqların türk müsəlman əhalisi ilə rusların göz tikdikləri osmanlı və qacar torpaqlarındakı müsəlman əhalisi arasında koçürülən xristianlardan ibarət «sanitar kordonu» çəkmədən rus işğalçılarının yeni müstəmləkələrdə duruş gətirib möhkəmlənə bilməsi çox müşkül məsələ idi. Bu baxımdan Osmanlı imperiyası və Qacar səltənətinə məxsus torpaqlardan köçürülən ermənilər kimi alman kolonistləri də çarizmin müstəmləkə siyasətinin reallaşdınlmasına xidmət göstərən vasitə idi. Diqqət çəkən məqamlardan biri bəzi yazılarda almanların bu diyarın iqtisadi həyatında rolunun son dərəcə qabardılması, onların sosial həyatının daha «düzgün qurulması» qarşısında aludəçiliyə bənzəyən mövqeyin getdikcə güclənməsidir.

Doğrudan da əksəriyyəti, istər Yelizavetpol, istərsə də Tiflis quberniyasında olsun, Azərbaycan torpaqlarında yerləşdirilmiş alman koloniyaları həm bütövlükdə, həm də ayrı-ayrı kolonistlər təsərrüfatçılıqda, sahibkarlığın müxtəlif sahələrində böyük uğurlar qazanmışdılar. Bu faktdır. Amma nəyin hesabına? Məxsusi olaraq qeyd etmək istəyirik ki, ilk növbədə rusların əli ilə müftəcə, özü də bol-bol yiyələndikləri Azərbaycan torpaqları hesabına, Azərbaycan əhalisinin əlindən qoparılıb alınmış torpaqların hesabına! Elə təkcə bu faktı xatırlatmaq kifayətdir ki, Şəmkirçayın sol sahilində salman, Niderland kraliçası, knyagina Anna Pavlovnanın şərəfinə Annenfeld adlanan koloniyanın ilk 67 ailəsi üçün 3600 desyatina yaxın (- H.H.) torpaq ayrılmışdır. Hər ailəyə toxminən 57-58 desyatin, başqa sözlə desək, 60 hektaradək torpaq verilmişdir. Kolonistlər köçürmə ərəfəsində, köçürmənin gedişində Rusiya xəzinəsindən bol-bol maliyyə yardımı almış, 1832-ci ilədək bütün vergi və mükəlləflyyətdən azad edilmişdilər. Azərbaycanda məskunlaşdıqdan sonra da onlara tez-tez müxtəlif yardımlar göstərilmiş, hər bir annenfeldli ailəyə 3000 rubl (o zamankı kənd ailəsi üçün az qala astronomik məbləğ - H.H.) ssuda verilmişdir. Bütün xristianlar kimi, almanlar da Rusiya rejiminin basqısına məruz qalmamışdılar. Fikrimizcə, Şimali Azərbaycan, o cümlədən Annenfeld kolonistlərinin sosial-iqtisadi uğurlarının kökündə məhz bu amillər - geniş Azərbaycan torpaqları və müstəmləkələrin soyulması hesabına çarizmin almanlara ödədiyi vəsait, yaratdığı əlverişli təsərrüfatçılıq imkanları dururdu.

***

Məlumdur ki, almanların Rusiya imperiyasının ərazisinə köçlərinin başlanması XVIII yüzilliyin 60-cı illərinə gedib çıxır. XIX yüzilliyin əvvəllərinin Napoleon dövrü müharibələri, bu dövrdə Qərbi Avropada, o cümlədən də siyasi

pərakəndəliyin hələ çox güclü olaraq qaldığı Almaniya torpaqlarında təsərrüfat dağınıqlığı, iqtisadi tənəzzül, siyasi, ideoloji, dini hərc-mərclik hökmran idi. Həmin zəmində formalaşmış dini təriqətlərdən birinin («separatçılığ»ın) ardıcılları - rus çarı I Aleksandrın (1801-1825) vəd etdiyi ciddi güzəştləri (böyük torpaq payları, maliyyə dəstəyi, bir sıra vergi və mükəllifiyyətlərdən azad edilmə, dini əqidə sərbəstliyi və s.) nəzərə alan separatçılar, ilk növbədə də Vuttenberqdən olanlar, 1816-1819-cu illərdə Cənubi Qafqaza köç dərək indiki Azərbaycan və Gürcüstan respublikalarının ərazisində 8 alman koloniyasının əsasını qoymuşdular (14, 127). Rusiya hökuməti alman köçkünlərinə köç ərəfəsi və dövründə kifayət qədər güclü maliyyə dəstəyi göstərmişdir (27, 2-3).

Məhz bu prosesin gedişində Şəmkirçayın sol sahilində 3568 desyatinlik (1; 6 və b.) torpaq sahəsi pay verilən 67 alman ailəsindən (24,104) ibarət Annenfeld koloniyası meydana çıxmışdır. İlk dövrlərdə, iki ildən də çox bir müddət ərzində kolonistlərin hər bir nəfərinə gündə dövlət xəzinəsindən 11 qəpik vəsaiti buraxılırdı (24,107) ki, bu da XIX əsrin 20-30-cu illərində Quzey Azərbaycanın bəzi yerlərində ən ağır işdə çalışan qara fəhlələrinin gündəlik məvacibindən (5-6 qəpik) təxminən 2 dəfə çox idi (10, 8). İmperator I Aleksandrın fərmanlarından birinə müvafiq olaraq təkcə ilk dövrlərdə Cənubi Qafqazda alman koloniyalarının yaradılıb abadlaşdırılması üçün dövlət xəzinəsindən 100 min rubl vəsait ayrılmışdır(16, 106-107).

Almanların Qafqaza köçürülməsinin ilhamvericisi A.P.Yermolov və b. Rusiya dövlət adamları yeni ələ keçirilmiş müsəlman torpaqlarında bu yolla xristian dayağı yaratmaqla yanaşı, Qərbi Avropada olan dövrün mütərəqqi təsərrüfatçılıq üsulları və vasitələrinin almanların əli ilə bu yeni Rusiya müstəmləkələrində yaymağa da ümid bəsləyirdilər. Lakin birmənalı şəkildə demək lazımdır ki, koloniyaların öz hüdudları daxilində alman kolonistlərinin təsərrüfatçılıq sahəsində qazandıqları böyük uğurlara baxmayaraq, yerli əhalinin məişəti və təsərrüfatçılığına təsir baxımından almanlar onlara bəslənilən ümidləri qətiyyən doğrultmamışdılar. Bir daha qeyd etmək istəyirik ki, «Cənubi Qafqazda kolonistlərin təsərrüfatının yüksək inkişafının əsas amillərindən birini» «alman köçkünlərinin zəhmətkeşliyi və işgüzarlığı» (15, 71) təşkil etsə də, hər halda ən əsas amil kimi Rusiya hökuməti tərəfindən alman kolonistləri üçün yaradılan son dərəcə əlverişli iqtisadi şərait (böyük torpaq sahələri, vergi ümumiletləri, hökuməti və çox geniş maliyyə dəstəyi və s.) çıxış etmişdi. Belə olan təqdirdə diyarın təsərrüfat həyatına təsir baxımından rus müstəmləkəçi hakimiyyət orqanlarının ümidlərinin doğruldulmaması bu problemin tədqiqatçılarından H.Y.Verdiyevanın sadaladığı səbəblərlə (15, 71) yanaşı, fikrimizcə, həm də bölgədəki hərbi-siyasi durumun qeyri-sabitliyi, məlum müharibələr dövründə isə durumun, ümumiyyətlə, son dərəcə gərginliyi, habelə xristian-müsəlman yadlığı az rol oynamamışdır. Digər tərəfdən, yaşayış yerinin kəskin surətdə dəyişdirilməsi, Qərbi Avropanın mülayim-şimal iqlim şəraitindən Cənubi Qafqazın kifayət qədər isti iqliminə köç, yeni iqlimə uyğunlaşmanın, adaptasiyanın çox ağır şokildə yaşanması güclü epidemiyalara, əhalinin kütləvi şəkildə qırılmasına səbəb olurdu. 1819-1832-ci illər ərzində Annenfelddə

ölənlərin sayı (360) doğulanların sayından (194) az qala iki dəfə çox olduğundan kolonistlər 1832-ci ildə bu məskəni bir müddət hətta tərk etmiş, dördillik yeni yaşayış məskəni axtarışı heç bir nəticə vermədiyindən, 1836-cı ildə bir daha buraya qayıtmalı olmuşdular (15, 73).

Nəhayət, 1873-cü ildə annenfeldlilər 8 verst şimala doğru köç edib Morul dərəsinin girəcəyində yeni məskən salmışdılar (24,106). Lakin bu da ağır demoqrafik durumu düzəldə bilməmiş, annenfeldlilərin azalması prosesi davam etmişdir.

1836-cı ildə, kolonistlərin yenidən Annenfelddə qayıtdıqları zaman onların sayı cəmi 185 nəfər idi (24, 106). XIX əsrin 60-cı illərində həmin koloniyada cəmi 55 ailə (təxm. 280-300 nəfər) yaşayırdı (24, 106, 112). 1886-cı ilin məlumatlarına görə, koloniyada yaşayan almanların sayı 437 nəfərə (26, 150-164) bərabər olmuşdur. Lakin sonrakı 20 il ərzində burada əsl "demoqrafik bum" baş vermiş, Annenfeld kolonistlərinin sayı göstərilən müddətdə 1,7 dəfədən çox (!- H.H.) artaraq 1907-ci ildə 751 nəfərə (5,1-14; 7, 1-168) çatmışdır. 1912-ci ildə burada 912 nəfər, 1915-ci ildə isə artıq 1092 nəfər yaşayırdı (20., 168, 172, 209 və b.).

Sonuncu məlumatlar almanların yeni Vətənin təbii-coğrafi mühitinə artıq uyğunlaşdıqlarından, nisbi siyasi-iqtisadi sabitlik şəraitində kolonistlərin maddi rifah halının yüksəlməsindən də xəbər verir. Onu da qeyd edim ki, almanların yad, müsəlman ölkəsində firavan həyat qura bilmələri və son dərəcə uğurlu təsərrüfatçılıqla məşğul ola bilmələrində yerli əhalinin dini və birgəyaşama dözümlülüyü, tolerantlığı və dincliyi az rol oynamamışdır.

Alman koloniyaları, o cümlədən Annenfeld lap ilk dövrlərdən ictimai idarəçilikdə də nəzərəçarpan imtiyazlar almışdı. Koloniyanın əhalisi öz içərisindən kəndin ictimai idarəsini seçirdi. Koloniyanın ictimai xəzinəsindən məvacib alan şüls (kəndxuda, kovxa -H.H.) və iki beyziser (kənd iclasçıları - şulsun müavinləri - H.H.) iki illiyə seçilirdilər. Kənd idarəsinə bu «məmur»larla yanaşı, həm də muzdlu mirzə-katib də daxil idi (8, 20, 24). Kəndin ictimai idarəsi, həmçinin, kolonistlər üçün ilkin məhkəmə instansiyası rolunu oynayırdı, burada xırda, əhəmiyyətsiz mülki və cinayət xarakterli işlər mühakimə olunurdu. Kənd yığıncağında XIX əsrin sonunadək «tam» təsərrüfat sahibləri (yəni 1819-cu ildə koloniyanın əsası qoyularkən burada məskunlaşmış ailə-təsərrüfatların başçıları - H.H.) (25, 170), bu vaxtdan sonra isə bütün təsərrüfat başçıları səsvermədə iştirak etmək hüququna malik idilər 22, 91).

Kolonistlər özlərini müxtəlif təsadüflərdən sığortalamaq üçün artıq 1848-ci ildən Annenfelddə taxıl ehtiyatı «mağazası» (anbarı) (4; 13, 57), 1851-ci ildən etibarən isə «ictimai ehtiyat kapitalın yaratmışdılar (6, 20-21; 24, 157).

1835-ci ilədək bütün vergilərdən azad olmuş kolonistlər 1835/36-1874-cü illər ərzində imtiyazlı vergiödəmə sistemindən (hər desyatin yararlı torpaqdan 15-qəpik; hər bir adambaşına isə 16 qəpik vergi) bəhrələnmiş, 1874-cü ildən etibarən isə almanlar da yerli əhali ilə eyni vergiləri ödəməyə başlamışdılar (24, 109). Quzey Azərbaycana gəlmiş alman kolonistlərinin başlıca məşğuliyyəti kənd təsərrüfatı olmuşdur. İlk dövrlərdə onlar özləri üçün tamamilə yeni olan

baramaçılıq, çəltikçilik və s. ilə məşğul olmağa cəhdlər göstərsələr də, tezliklə ciddi uğursuzluğa məruz qalıb ata-babadan tanış olduqları üzümçülük üzərində dayandılar. Hərçənd tərəvəzçilik (əsasən, kartof becərilməsi) və taxılçılıq da onların təsərrüfat həyatında az rol oynamırdı. Əvvəllər saldıqları plantasiyalar üçün üzüm çubuqlarını əsasən qonşu Azərbaycan türklərindən alan annenfeldlilərin torpaqlarındakı üzüm bağlarının ümumi sahəsi XIX əsrin 80-cı illərində 75-80 desyatinə çatmışdı. 7200-dək üzüm kolu olan hər bir desyatin bağın orta illik ümumi gəliri Annenfeld koloniyasında təxminən 300 rubla çatırdı (24, 138, 17, 38-39).

XIX əsrin 80-cı illərinin ortalarında Annenfeld sakinlərinin istifadəsində 912 des. suvarılan əkin sahəsi, 304 des. biçənək və 3000 des.-dək otlaq sahəsi var idi. Bütövlükdə, koloniyanın təsərrüfatçılığa yararlı torpaqlarının ümumi sahəsi 4300 des.-nə çatırdı ki, bu da adambaşına 12.1 des., hər təsərrüfata isə az qala 56 des. torpaq demək idi. Belə torpaq təminatı yerli aborigen əhali olan Azərbaycan türklərinin ağlına belə gələ bilməzdi. Özü də kolonistlərə bölgənin ən yaxşı torpaqları verilmiş, onlar üçün ən əlverişli təsərrüfatçılıq şəraiti yaradılmışdır. Elə təkcə Şamxorçaydan annendfeldlilərin əkinlərinə 3 suvarma arxı çəkilmişdir (24, 115), onların istifadəsində həm də bir kəhriz var idi. Arxlara cuvarlar nəzarət edir, kolonist tosərrüfatları arasında suvarma suyunun bölüşdürülməsi isə Annenfeld kənd idarəsi tərəfindən həyata keçirilirdi.

Annenfeld sakinləri məhdud da olsa, sənətkarlıqla (araba, çəllək istehsalı, dəmirçilik və s.) məşğul olurdular (2, 3-42 və b.).

XX əsrin əvvəllərində bu koloniyada bir ibtidai məktəb (124 şagird) fəaliyyət göstərirdi (19, 8).

***

Beləliklə, XIX əsrin ikinci onilliyinin sonlarında Quzey Azərbaycanda məskunlaşdırılmasına başlanılmış təriqətçi alman kolonistləri azsaylı olmaqlarına baxmayaraq, tezliklə yaşadıqları bölgənin nəzərəçarpan etnik, dini və təsərrüfatçılıq ünsürlərindən birinə çevrilmiş, Gəncəbasarın sosial-iqtisadi həyatında parlaq iz qoymuşdular. Öz dövləti mənafelərindən çıxış edən müstəmləkəçi Rusiya hökumətinin himayədarlığı, geniş və əlverişli torpaqlar, ciddi maliyyə dəstəyi və vergi güzəştləri, Azərbaycanın zəngin təbii-coğrafi şəraiti, Azərbaycan türklərinin gəlmə almanlara tolerant münasibəti, alman işgüzarlığı, alman intizamı və s. almanlara çox güclü, rəqabətə davamlı təsərrüfat sahələri yaratmaq, nəinki Quzey Azərbaycan, Qafqaz, Rusiya, hətta bütün Avropanın bazarlarında geniş tələbata malik məhsullar istehsal etmək imkanı verdi.

**С.С.ВЕЛИЕВ**
**Б.Д.АЛЕСКЕРОВ**
**Е.Н.ТАГИЕВА**

## *Воздействие населения Шамкира на окружающую среду с IV тысячелетия до н.э. до наших дней*

Шамкир, как и многие другие города Азербайджана, впервые упоминается в сочинениях арабских, точнее арабоязычных, историков и географов. Первым среди них был историк IXв. Ахмед Баладзори, перс по происхождению. Среди городов Азербайджана, завоеванных арабским полководцем Салманом ибн Рабиа около 32г. хиджры (652-653гг.), он назвал и Шамкур [1, с. 13]. Эта дата является годом его первого упоминания в письменных источниках, который обычно принимают за год основания города. Поэтому с 32г. хиджры (652-653гг.) можно было бы вести отчет истории Шамкира, если бы не уточнение Баладзори, согласно которому Шамкур считается древним городом (1, с. 13). Археологические исследования И.Г. Нариманова показали, что неолитическая культура появляется в Азербайджане в предгорьях Малого Кавказа и развивается здесь в VI-IV тыс. до н.э. В зоне этой культуры, названной Шомутепе, оказался и район Шамкира. Здесь в 10-15км северо-западнее Шамкира и южнее Куры появляются первые поселения, относящиеся к поздней стадии культуры Шомутепе, к IV тыс. до н.э. Относительно хорошо сохранились два поселения - Кечили и Рустепеси. Первое располагалось к западу от реки Шамкирчай в 1,5 км севернее селения Кечили (бывшее Планкенд), второе - к востоку от этой реки в 1км северо-восточнее местности Битдили у поселка Кюр. Неолитическое поселение было обнаружено и чуть севернее последнего вблизи впадения Шамкирчая в Куру на холме Ганлытепе, но оно дошло в очень плохом состоянии (2, с. 33-35).

Эти и другие поселения культуры Шомутене основывались на ровной и открытой местности у берегов мелких маловодных рек и ручьев с небольшими разливами. Последнее указывает на то, что в IV тыс. до н.э. атмосферных осадков выпадало немного, а значит, и климат Шамкира был намного суше, чем теперь. На этих поселениях затем образовывались мощные культурные слои, приподнявшие в частности Кечили на 2м, а Рустепеси на 4м. Они свидетельствуют о том, что поселения существовали продолжительное время.

Палинологически исследованные нами поселения культуры Шомутепе (в пределах Агдамского района) показали, что тогда в Азербайджане началось активное воздействие деятельности человека на окружающую среду. Наибольшему воздействию подвергались тугайные (приречные) леса, которые тогда в аридной зоне протягивались вдоль всех рек и речек, привлекавших к себе первых земледельцев, и окружавшие их саванны (аридные редколесья), главной древесной породой которой была

эльдарская сосна. Уничтожению тугайных лесов способствовало земледелие. Оно быстро истощало плодородие земель, и поэтому требовалось частое освоение новых невозделанных земель вблизи водных источников. А они находились только в зоне тугайных лесов. Саванны (аридные редколесья) уже тогда привлекали внимание производителей керамических изделий. Те нуждались в сосновых дровах, которые, быстро сгорая в печах, обеспечивали благоприятный для керамики равномерный обжиг со всех сторон. Одновременно «окультировалась» и травянистая растительность. Ее естественные виды вытеснялись сообществами культурных и сорняковых трав (3). Так началось активное воздействие населения Азербайджана на окружающую среду. В нем приняло участие и древнейшее население Шамкира. Но уже тогда не только человек воздействовал на окружающую среду, но происходил и обратный процесс. Долговременная эксплуатация земель не могла не привести к истощению всех окружающих земель. Сухой климат не позволял земледельцам осваивать земли вдали от источников воды. Насельники культуры Шомутепе вынуждены были покидать насиженные места в предгорных равнинах Малого Кавказа, в том числе и район Шамкира. В поисках подходятщих земель они отдалялись все дальше и дальше от первоначальных поселений. Произошло это во второй половине IV тыс. до н.э. Куда затем направились насельники культуры Шомутепе еще не установлено. Но в заселении предгорных равнин Малого Кавказа следует перерыв в несколько веков. Земли, покинутые насельниками культуры Шомутепе, «отдохнули» и восстановили свою естественную растительность и плодородие. Тогда же стало увеличиваться и количество выпадаемых атмосферных осадков, и начался общий процесс повышения влажности. Зона возможного земледелия расширяется и уже не ограничивается приречными полосами. Реки становятся полноводными и во время наводнений заливают большие пространства на равнинах. Насельники появившейся в Азербайджане в конце IV тыс. до н.э. Кура-Аракской культуры, стали селиться на холмах, в том числе и на тех, которые образовались в процессе жизнедеятельности насельников культуры Шомутепе. Поселения Кура-Аракской культуры в районе Шамкира пока не обнаружены, но это лишь вопрос времени. Данная культура освоила практически всю территорию Азербайджана, и поэтому проигнорировать Шамкирский район, конечно, не могла. Поселения основывались чаще всего на поселениях культуры Шомутепе или вблизи них. Мощности культурных слоев (до 8 и более метров) поселений Кура-Аракской культуры говорят о том, что они имели более прочную оседлость, чем их предшественники. У них было больше возможностей для расширения площадей пахотных земель. Но, в конечном итоге, и деятельность Кура-Аракской культуры не могла не привести к истощению почв, а значит и к ослаблению ее насельников. И они, как ранее насельники культуры Шомутепе, вынуждены были покинуть обжитые места.

Но шомутепинцы ушли сами. Никаких следов иных культур, пришедших им на смену, еще не найдено. Кура-араксцев же сменили племена подвижных скотоводов, пришедших сюда с севера. К тому времени первые ослабли настолько, что не смогли оказывать сопротивление скотоводам и ушли в горы. А племена скотоводов переселились в предгорные равнины во второй половине III тыс. до н.э., куда их привлекла луговая растительность, развитию которой способствовало увеличение количества выпадавших здесь атмосферных осадков.

Одни из них не имели более или менее постоянных поселений и оставили после себя курганы с подкурганными склепами (4, с. 84-85). Некоторые из них обнаружены севернее Шамкира, на южном берегу реки Кура (сейчас - под водами Шамкирского водохранилища) в местностях Османбозу и Дашлытепе (4, с 10-16). Подвижные скотоводы, постоянно перемещаясь на больших территориях, в то время еще особого воздействия на окружающую среду не оказывали. Этому способствовало и большое количество атмосферных осадков, позволявшее за короткие периоды восстанавливать пастбищные луга предгорных территорий. Но в середине II тыс. до н.э. «северные» скотоводы в Азербайджане сходят с исторической сцены. Их заменяют новые скотоводы, оставившие после себя северо-восточнее Шамкира и восточнее Шамкирчая вблизи Шамкирского водохранилища Гараджамирлинские курганы ХУ1-ХУ вв. Они уже занимались коневодством и знали колесницы, что, как отмечают И.Н. Алиев и М.А. Гусейнова, «выводит Азербайджан в круг областей цивилизаций Передне-азиатского мира» (5).

Воздействие последнего усиливается в эпоху поздней бронзы и раннего железа, датированной XIV-IX вв. до н.э. Этот период в зоне Малого Кавказа и прилегающих областей принято именовать Ходжалы-Кедабекской культурой или культурой бронзового века Центрального Закавказья (6, с 4). В Шамкирском районе она представлена курганами и могильными полями, обнаруженными еще Я.И.Гуммелем вдоль правого берега Шамкирчая вблизи железно-дорожной станции Шамкир (Шамхорский могильник) и селений Чинарлы (бывш. Ленин) и Сейфалы (7). Исследования М.А.Гусейновой показали, что Ходжалы-Кедабекская культура состоит из погребальных памятников двух групп и «сложилась на основе контактов оседлого населения и полукочевого, локальные особенности обусловлены соотношением оседлого населения с полукочевым в каждой зоне» (8, с. 57), то есть она состояла фактически из двух самостоятельных культур. Одни могильники, которые располагаются только на равнине, «относятся к древнему местному населению, связанному своим происхождением с населением, издревле проживавшим в этой местности» (8, с. 56). Если это так, то они потомки или немногих кура-араксцев, оставшихся здесь, или последующих подвижных скотоводов, перешедших на оседлый образ жизни.

Другая «группа памятников относится к скотоводческим полукочевым племенам, более могущественным и богатым, которые занимались и военным ремеслом, связанным с захватом территорий под пастбища... Племена эти были достаточно мобильны, если их погребения обнаруживаются как в нагорьях..., так и в низменности» (8, с. 57). Последнее показывает, что тогда было положено начало отгонному скотоводству с вертикальными кочевками с зимних пастбищ на равнинах в летние пастбища в горах. В итоге антропогенному воздействию стали подвергаться и горные луга. Для нас особый интерес представляет близость друг к другу Гараджамирлинских курганов и Шамхорского могильника. Судя по их расположению, поселение, которое они «обслуживали» в XVI-IX вв., располагалось в 15-20км восточнее современного Шамкира у правого восточного берега реки Шамкир в местности вблизи селения Гараджамирли и станции Шамкир. Его точное местонахождение не известно.

Но позднее именно вблизи селения Гараджамирли, в 6-7 км к северу от него, имелось поселение, исследованное в последние годы Ильясом Бабаевым. Он выявил здесь крупное здание с колоннами середины I тыс. до н.э. Полагают, что оно и поселение были центром администрации (9). Но здание с колоннами еще в 1958г. было обнаружено в местности Сарытепе в Казахском районе, и тогда предположили, что центр был здесь. Исследования И. Бабаева показали, что здания с колоннами в античное время не были редкостью и у нас.

Письменная же история Шамкира, как выше отмечалось, начинается в 32г. хиджры (652-653гг.). При этом было специально отмечено, что он считается древним городом. После завоевания арабами, по данным Баладзори, Шамкур некоторое время процветал, пока не был разрушен савардитами. В 240 г. хиджры (854г.) арабы его восстановили и назвали Мутаваккилией - в честь тогдашнего халифа. В более поздних источниках Шамкир упоминается часто, но лишь, как один из пунктов на торговом пути от Барды и Гянджи к Тифлису. Просуществовал средневековый Шамкир до 1223г. В том году этот город был взят монголами и полностью разрушен.

Сопоставление приведенных данных позволяет предположить следующую историю Шамкира. Первые поселения вблизи Шамкира располагались в различных местностях. Сейчас, к примеру, трудно сказать - какое именно поселение неолита и средней бронзы является прямым предком Шамкира. Можно полагать, что им был Битдили, который находился несколько севернее Гараджамирли.

С последним селением связана значительная часть истории Шамкира. Около него в XVI в. до н.э. несколько южнее Битдили и возникло поселение, вошедшее в историю, как Шамкур. Этим поселением был тот город, который исследовал И.Бабаев и который был взят арабами в 32г. хиджры (652-653гг.). Через некоторое время его разрушили савардиты.

В 240 г. хиджры (854г.) арабы его восстановили, но не на прежнем месте, а на другом левом берегу реки Шамкир. Они его назвали Мутаваккилией - в честь тогдашнего халифа. Но народ дал ему название Шамкир. От этого Шамкира остались развалины. Судя по ним, город находился в 10 км к северо-востоку от современного Шамкира. Раскопки, проведенные здесь Т.Достиевым, показали, что он, действительно существовал в VIII- XIII вв. до разрушения его монголами.

Затем, Шамкир, как поселение, долгое время не существовал. Его название стало наименованием области и со временем приняло форму Шамхор. В XVIII в. оно закрепилось за названием селения, которое находилось далеко в стороне, как от древнего и средневекового Шамкура-Шамкира, так и от одноименной реки. И возвращение относительно молодому Шамхору наименования древнего и средневекового Шамкира было не совсем правильно. Также, нет никаких оснований связывать наименование Шамкира с Курой. На этой реке город никогда не находился. Вначале, необходимо хотя бы обратить внимание на ряд Шамкур-Шамкир-Шамхор и попытаться выявить здесь закономерности. И только после взяться за этимологию топонимов.

Эти 3 топонима отражают 3 этапа истории города Шамкира. Шамкур существовал на правом берегу Шамкирчая на протяжении 23 веков. Он возник в XVI в. до н. э., как небольшое поселение. К середине I тыс. до н.э. стал значительным поселением, а к VIIв. -уже крепкой крепостью. Шамкир находился уже на левом берегу Шамкирчая. Он продержался 6 веков - VIII-XIIIвв., никогда не был крупным городом и развивался, как одна из станций на торговом пути между Гянджой и Тбилиси. Шамхор же вообще отошел от Шамкирчая, был долгое время небольшим селением, и только в XIX в. начал рости, во многом благодаря немцам, основавшим вблизи свое поселение Аннино (Анненфельд). В XXв. последний стал основой города, получившего название Шамхор. Все это время воздействие населения Шамкира на окружающую среду постоянно возрастало, и этот процесс продолжается до сих пор. Произведенные исследования по изменению растительного покрова Аджиноур-Джейранчельских предгорий, в том числе и территории Шамкирского района, показали, что ныне наибольший вред окружающей среде здесь приносит чрезмерный выпас скота.

Это проявляется в большом количестве кочевок на небольшой площади и использовании зимних пастбищ круглый год. В результате этого почвенный покров здесь сильно истощен, предгорные склоны сильно эродированы, а на некоторых участках растительный покров вообще отсутствует. Естественная растительность предгорных степей только за последние 50-60 лет претерпела практически трехкратное изменение. Злаковые степи из-за постоянного выпаса не имеют возможности восстановить свой потенциал и сменяются ксерофильными и устойчивыми к засолению полынно-злаковыми степями, последние сменяются

полынными и полынно-солянковыми полупустынями и пустынями. Таким образом, антропогенная деятельность ведет к ксерофитиза-ции и галофитизации растительных ценозов и, в конечном итоге, к опустыниванию и деградации растительного покрова.

## ЛИТЕРАТУРА

1. Баладзори . Книга завоеваний стран. «Материалы но истории Азербайджана». Вып. III. Баку. «Изд. ООИА», 1927, 42с.

2. Нариманов И.Г. Культура древнейшего земледелъческо-скотоводческого населения Азербайджана. Баку. «Элм», 1987, 260с.

3. Велиев С.С., Тагиева Е.Н., Атакишиев Р.М. Антропогенная трансформация растительного покрова территории Азербайджана в IV-II тысячетиях до н.э. «География и природные ресурсы». 1996, № 2, с. 169-176.

4. Ахундов Т.И. Древнейшие курганы Южного Кавказа. Культура подкурганных склепов. Баку. «Элм», 1999, 93с.

5. Алиев И.Н., Гусейнова МА. Гараджимирлинские курганы Шамкирского района. В сб. "Şəmkir Arxeoloji irsi, tarixi və memarlığı". Şəmkir, 2007, s. 45-47.

6. Гусейнова М.А. Керамика Восточного Закавказья эпохи поздней бронзы и раннего железа (Х1У-1Х вв.до н.э.). Баку. «Элм», 1989, 127с.

7. Гуммель Я.И. Археологические раскопки в районах АзССР. «Изв. АзФАН», 1939, №3, с. 65-66.

8. Гусейнова М.А. Этнические проблемы поздней бронзы Азербайджана. «Azərbaycan arxeologiyası və etnoqrafiyası», 2003, № 3, s. 55-59.

9. Babayev İ., Knaus F., Qoqoşidze Y., Azərbaycan, Almaniya, Gürcüstan birgə beynəlxalq arxeoloji ekspedisiyasının Şəmkir rayonunun Qaracəmirli kəndində 2006-2007-ci illərdə apardığı qazıntıların ilkin nəticələri. "Şəmkir. Arxeoloji irsi tarixi və memarlığı". Şəmkir, 2007, s. 25-26.

## F.İ.VƏLİYEV

### *XIX-XX əsrin əvvəllərində Şəmkir bölgəsi əhalisinin maddi mədəniyyəti (geyimlər və bəzəklər)*

Dünya mədəniyyəti xəzinəsində özünün maddi və mənəvi dəyərləri ilə seçilən türk mədəniyyəti və onun tərkib hissəsi olan Azərbaycan mədəniyyəti mükəmməl maddi təməl üzərində pərvəriş tapmış, uzun əsrlərin əməli vərdişləri, empirik bilik və təcrübələri ilə zənginləşmiş, mədəni irsimizin mühüm sahəsi olmuşdur. Mədəni irsimiz, milli-mənəvi sərvətlərimiz azərbaycançılıq milli ideologiyasının tərkib hissəsi kimi bu gün dövləti səviyyədə qiymətləndirilir. Ümummilli liderimiz Heydər Əliyev cənabları milli-mənəvi dəyərlərimizə yüksək qiymət verərək demişdir ki, «milli ideologiyamızın əsas tərkib hissəsi bizim milli-mənəvi dəyərlərimizdir. Biz öz milli-mənəvi dəyərlərimizlə fəxr etməliyik. Bizim milli-mənəvi dəyərlərimiz əsrlər boyu xalqımızın həyatında, yaşayışında formalaşıbdır, xalqımızm fəaliyyətində formalaşıbdır. Milli-mənəvi dəyərləri olmayan millət həqiqi millət, həqiqi xalq ola bilməz» [10, s. 244].

Bənzərsiz milli sərvətlərimiz olan, xalqımızın empirik bilik, təcrübə və vərdişlərindən qaynaqlanan, zaman-zaman təkmilləşib inkişaf edən qədim və zəngin maddi mədəniyyət irsimiz də milli-mənəvi dəyərlərimizin tərkib hissəsidir. Ulu əcdadlarımızın ilkin ibtidai təxəyyül və fəhm imkanlarından, mifoloji düşüncə və duyum tərzindən başlanğıc götürən bu maddi-mədəni irs bütün orta əsrlər boyu yeni-yeni maddi mədəniyyət elementləri ilə zənginləşmiş, XIX-XX əsrin əvvəllərində kamil maddi mədəniyyət kompleksi zirvəsinə çatmışdır.

Maddi mədəniyyət bəşər tarixinin ayrılmaz tərkib hissəsi olub, xalqın fiziki əməyinin nəticəsi kimi formalaşmış, uzun əsrlər boyu təkamül və inkişaf yolu keçmişdir. Təbii-coğrafi şəraitin, dövrün sosial-siyasi xarakteri və etnik xüsusiyyətlərinin, etnosun spesifik həyat tərzinin və təsərrüfat fəaliyyətinin istiqamətinin təsiri ilə formalaşan maddi mədəniyyət sahələri (yaşayış məskənləri və evlər, geyimlər və bəzəklər, yeməklər və içkilər, nəqliyyat və rabitə vasitələri, təsərrüfat alətləri, ev peşəsi və sənətkarlıq məhsulları və s.) etnosun istehsal fəaliyyətinin göstəricisi olmaqla, bu və ya digər etnosun sosial-iqtisadi, siyasi-mədəni və ideoloji tarixini, eyni zamanda etnogenezinin bəzi məsələlərini öyrənmək üçün mühüm mənbə rolunu oynayır [ 19, s. 4-5].

Maddi mədəniyyətin yaradıcısı olan insan öz yaşayışını təmin etmək üçün çox zaman elə maddi istehsalın özündən asılı olur. Yəni insan yeyib-içmədən, geyinmədən, evə-ocağa sahib olmadan hər hansı bir ictimai-faydalı əməklə yetərincə məşğul ola bilməz. Bu baxımdan maddi mədəniyyətin - xalqın ictimai şüur səviyyəsinin barometri və ya etnik təzahür göstəricisinin öyrənilməsi, xalqın istehsal fəaliyyətinin öyrənilməsi deməkdir. Daha geniş anlamda isə bəşəriyyətin müxtəlif tarixi inkişaf mərhələlərində bu istehsal fəaliyyətinin məhsulu olan maddi mədəniyyət sərvətlərinin sosial-iqtisadi və texniki-mədəni cəhətdən təkamülünün öyrənilməsi deməkdir. Keçmiş maddi-mədəni irsi

öyrənmədən isə müasir mərhələdə bu sahədə baş verən keyfiyyət dəyişikliklərinin mahiyyətini dərk etmək mümkün deyildir.

Azərbaycanın zəngin maddi mədəniyyət irsi kompleksində geyimlərin və bəzəklərin özünəməxsus yeri vardır. Uzun sürən tarixi təkamül və inkişaf prosesinin məhsulu olan geyim mədəniyyəti yerli təbii-coğrafi şəraitin, əhalinin təsərrüfat məşğuliyyətinin istiqamətinin, sosial-iqtisadi inkişafın gerçək səviyyəsinin, sosial təbəqələşmə və ictimai fərqlərin, eləcə də xalqımızın etno-sosial birliyində qərarlaşan etnoslarla qarşılıqlı təmas, etno-sosial və etno-mədəni əlaqələrin yaratdığı müştərək zənginləşmənin fəal təsiri altında formalaşmışdır. Geyim mədəniyyətinin böyük təkamül və inkişaf yolu keçməsində xalqın yaradıcı əməyinin, empirik bilik və təcrübəsinin, nəsillərdən-nəsillərə ərməğan kimi ötürülən peşə-sənət vərdişlərinin rolu da inkaredilməzdir [18,s.4]. Geyimlər və bəzəklər hər bir xalqın (etnosun) milli xüsusiyyətlərini, iqtisadi və mədəni həyat səviyyəsini, təsərrüfat məşğuliyyətinin istiqamətini, onun başqa xalqlarla tarixi əlaqə və qarşılıqlı təsir məsələlərini, estetik və bədii zövqünü, etnik və sinfi-sosial mənsubiyyətini müəyyənləşdirməkdə əhəmiyyətli mənbə rolunu oynayır. Ənənəvi xalq geyim kompleksinin meydana gəlməsi uzun sürən tarixi inkişaf prosesinin nəticəsi olduğundan, o, xalqın etnogenezi probleminin bəzi tərəflərinin öyronilməsində də layiqli mənbələrdən biri hesab olunur [3, s.3; 15, s.3] XIX-XX əsrin əvvəllərində Şəmkir bölgəsi əhalisinin geyim mədəniyyəti ümumazərbaycan geyim mədəniyyətinin tərkib hissəsi kimi formalaşmışdır. XX əsrin əvvəllərinə qədər Şəmkir bölgəsi əhalisinin geyim mədəniyyətinə dair yazılı məlumatlar, demək olar ki, yox dərəcəsindədir. Bu haqda olan qısa səciyyəli ötəri qeydlər Qazax distansiyası və Qazax qəzasına aiddir [20, s.234; 8, s. 183-184; 6, s.107; 7, s.366-367] və sözügedən bölgələr Şəmkir bölgəsi ilə eyni etno-coğrafi ərazidə yerləşdiyi üçün bu bölgəyə də şamil edilə bilər. Həmin qeydlərdə ayrı-ayrı geyim tiplərinin sadəcə olaraq adları çəkilir, bəzən də onların tikildiyi bu və ya digər parçanın növü göstərilir. Belə natamam məlumatlarda rast gəlinən geyim tipləri (arxalıq, çuxa, kürk, şalvar, papaq, çarıq və s.) nəinki ümumazərbaycan, hətta ümumqafqaz səciyyəli olduğundan, bölgə üçün xarakterik olan gcyim tiplərini, onların lokal-məhəlli xüsusiyyətlərini ayırd etmək çətinlik törədir. Buna görə də məruzədə etnoqrafik-çöl materiallarına daha çox üstünlük verməyə çalışmışıq. Bəhs olunan dövrdə Şəmkir bölgəsi əhalisinin əldə etdiyi geyim materialları culfaların «kəryək» adlanan yer hanasında kustar üsulla toxuduqları «qılıcı şal»dan və fabrikdə istehsal olunmuş rəngbərəng çeşidli yun, ipək və pambıq parçalardan ibarət idi. Əhali istehsal edə bilmədiyi parça növlərini bəzən kəndbəkənd gəzən bəzzaz və bafayçılardan (arşın malçı), bəzən də Gəncə və Tiflis bazarlarından satm almaqla əldə edirdi. Azərbaycanda istehsal olunub geniş işlənən, başqa ölkələrə ixrac olunan parçalar arasında zərbaft, xara, atlaz, tafta, qanovuz, kəmxa, kiseyə, məxmər, darayı, mahud, şal, tirmə, midqal, bez, çit və s. əsas yer tuturdu. Bu parçalardan bəziləri xalq arasında «hacı, mənə bax», «gecə-gündüz», «gendə dur», «alışdım yandım», «küçə mənə dar gəlir», «min bir gül», «qonşu çatladan», «dur, məni gəzdir», «pinti məni geyməz» və b. adlarla məşhur idi. Tədqiqatlar göstərir ki, bu parçalardan çoxu hələ orta əsrlərdən mövcud

olmuşdur [13, s. 153-167]. XX əsrin əvvəllərindən şilə, qədək, bez (Tağıyev bezi, rus çiti, Proxorov ağı), cuna, satin, lastik kimi parçalar, həmçinin, barnus, naşura, darayı, baqaniya, qanovuz, mov, tirmə, xara, atlaz, məxmər və s. kimi qiymətli parçalar xalq geyimlərinin hazırlanmasında geniş surətdə işlədilirdi.

Şəmkir bölgəsi əhalisinin ənənəvi geyim tiplərinin bəziləri (baş və ayaq geyimləri, kürk və s.) gön-dəri məmulatlarından hazırlanırdı. Dəri əsasən xam və ya aşılanmış şəkildə istifadə olunurdu. Etnoqrafik materiallardan aydın olur ki, bölgə əhalinin kişi baş və ayaq geyimlərinin əksəriyyəti heyvan dərisindən hazırlanmışdır. Burada heyvandarlığın aparıcı sahə kimi inkişafı gön-dəri məmulatlarından hazırlanmış geyimlərin çeşidinin müxtəlifliyinə əlverişli zəmin yaratmışdı.

XIX-XX əsrin əvvəllərində Şəmkir bölgəsi əhalisinin kişi geyim kompleksinə daxil olan bütün geyim tipləri əsasən ümumqafqaz səciyyəli olmuşdur. Ənənəvi kişi geyimləri alt və üst köynəyi, dizlik, şalvar, arxalıq, işlik (işdik), çuxa, kürk, yapıncı, müxtəlif baş və ayaq geyimlərindən ibarət idi. Kişi geyim tiplərinin təxminən bu elementlərdən ibarət olduğunu XIX əsrin 30-cu illərində D.Zubarev də təsdiq edir [20, s.234]. XIX əsrin 80-cı illərində isə B.Veniaminov yazırdı ki, bölgə əhalisinin kişi geyimləri çit və ağdan tikilmiş köynək, onun üstündən ipək və ya yundan arxalıq (kəmər və xəncərlə birlikdə), yun və ya mahud çuxa, yun başlıq, yun və ya mahuddan tikilmiş şalvar, qoyun dərisindən papaq, başmaq, kürk və yapmcıdan ibarət olmuşdur [6, s. 107.].

Bölgənin kişi köynəkləri qalın ağ, midqal, humayun ağı, həmçinin, çit, satin və bezdən tuniki və ya kəsmə (doğrama) biçim üsulunda tikilərək, yaxa kəsiyinin quruluşuna görə «düzyaxa», «çəpyaxa» və «mindoylu» olmaqla üç növdə olurdu. Sonuncunun yaxa kəsiyi çiyin üstündə qoyulurdu.

Kişi üst geyim tipləri çiyinə geyilən və beldə saxlanan olmaqla iki qrupa bölünürdü. Bölgədə yoxsullar şalvarı qılıcı şaldan, ləzgi şalından, varlılar isə mahuddan, məndulədən, dioqanaldan və birrəng ipək parçadan tikdirirdilər. Bölgədə əsasən «nifəli şalvar», qismən də «rusu şalvar» və «qalife şalvar»dan istifadə olunurdu. Köynəyin üstündən geyilən içlik bölgənin ayrı-ayrı kəndlərində canlıq, qalınça, sırıqlı, pambıqlı, can arxahğı və s. adlarla məlum idi. İçlik qədək, şilə, satin və əldə toxunma şaldan tikilir, içinə yun, pambıq qoyulur və astar çəkilirdi.

Bölgədə ənənəvi kişi geyim tipi arxalıq hesab olunurdu. Onun «önürlü» (döş yaxası iki sıra düyməli) və «önürsüz» (döş yaxası bir sıra düyməli) olmaqla iki forması istifadədə idi. Əhali arasında məndulə, kəşmiri, alaca və s. kimi xarici parçalardan tikilmiş arxalıqlara da rast gəlmək olardı. Bu parçaları ziyarətə gedənlər Kərbəla, Məşhəd və b. şəhərlərdən gətirirdilər. Bir qayda olaraq arxalığın üstündən qurşaq vurulurdu. Bölgədə «sırıqlı arxalıq» adlanan geyim tipi də olmuşdur. Onun adına xalq bayatılarında da təsadüf olunur:

Xatırladaq ki, arxalıq özünün yayılma arealına görə digər geyim tiplərindən fərqlənir. Azərbaycanın Xəzərsahili bölgələrində don adlanan [14, s.124] bu geyim tipi arxalıq, beşmet və s. adlarla Şərqi Avropa, Volqaboyu, Qafqaz, Cənubi Qafqaz, Ön və Mərkəzi Asiya xalqları arasında da geniş

yayılmışdır [12, s. 151-152]. Arxalığın üstündən, bir qayda olaraq, çuxa geyilirdi. Bölgədə qeydə alınmış çuxalar ətəyinin formasına görə büzməli, çinli və büzməli-çinli, qol yerinin formasına görə isə qoltuqlu və qoltuqsuz (atmaqol) olmuşdur. Bölgədə, həmçinin, döşü vəznəli «vəznəli çuxa»ya da təsadüf edilirdi. Onu, adətən, varlılar geyirdi. Çuxa yun şaldan, mahuddan, qəsdordan və b. parçalardan tikilir, yumşaq pambıq və ipək parçalardan astar qoyulurdu. Çuxanın üstündən kəmər bağlanır və kəmərdən xəncər asılırdı.

Şəmkir bölgəsi əhalisi arasında mövsümi səciyyəli geyim tiplərindən kürk, yapıncı; dini zümrələrə (molla, axund, seyid, əfəndi, müfti, dərviş və s.) aid əba, qəba, cübbə, kəyani don və s. də istifadədə olmuşdur.

Şəmkir bölgəsi əhalisinin ənənəvi kişi baş geyimləri dəri və parça materiallarından hazırlanmaqla, həm tikili, həm də bağlama formasında olurdu. Tikili baş geyimlərinə müxtəlif formalı və adlı dəri papaqlar, araqçın (təsək və ya tərrik), başlıq, bağlama baş geyimlərinə isə baş dəsmalı (sarıq) və əmmamə daxil idi. Dəri papaqlar «buxara papaq», «şiş papaq» (armudu papaq, züllə papaq, molla papağı), «şələ papaq» (yastı papaq, yappa papaq, motal papaq, dəyirmi papaq, çoban papağı) və «daqqa papaq» adı ilə məlum idi. Bölgədə, həmçinin, «ləzgi papağı», «çərkəzi papaq», dik övdəli «aşıq papağı», varlıların baş geyimi olan «şikara papaq», “kazak papağı» da qismən yayılmışdı. Kişilər yatan zaman başlarma “gecəlik» adlanan dəri papaq qoyurdular. Dini zümrələrin geydiyi mmamə həm də əməli əhəmiyyət kəsb edirdi. Onun ölçüsü geyənin oyuna müvafiq olduğundan, lazım gələndə süfrə, qurşaq və hətta kəfən kimi də istifadə olunurdu [ 9, s.40]. Bəhs olunan dövrdə Şəmkir bölgəsi əhalisinin ənənəvi kişi ayaq geyimləri çarıq, uzunboğaz və yarımboğaz çəkmə (boğazdı), çust, başmaq, patava, dolaq, badış, corab, qondara və s.-dən ibarət olmuşdur. Yüngül və ucuz başa gəlməsi, çöl-təsərrüfat işləri zamanı əlverişli olması çarığı əhalinin əksəriyyətinin gündəlik ayaq geyiminə çevirmişdi. Bölgədə kotuğu, qızqaytaran, kalmanı, xəlbirqırağı, quşgözü, əcəmi, şirvanı, çütməçarıq, şatırı, ayrım çarığı kimi çarıq növləri geniş yayılmışdı. Kişi başmağı «mərdanə başmaq» adlanırdı və onun əsas müştəriləri varlılar, tacir-tüccar əhli idi. XX əsrin əvvəllərindən başlayaraq qaloş istehsalının artması ənənəvi kişi ayaq geyimlərini ciddi surətdə sıxışdırıb xalq məişətindən çıxardı. Şəmkir bölgəsi əhalisinin ənənəvi qadın geyim kompleksi aşağıdakı geyim elementlərindən ibarət olmuşdur: alt köynəyi (can köynəyi), darbalaq, zivını, küləcə (büzmə, arxalıq), çərkəzi, lavada, mintənə (nimtənə), üst tumanı, kativı, döşlük, önlük, çalma, dingə, ləçək, şal, təsək (saya, inci, qaysava), kəlağayı, örpək, çarıq, uzunboğaz çəkmə (quşkeçən), badış, başmaq (miyanə başmaq, qız başmağı), kəlik, corab (saya və bəzəkli) və s. Bunlar alt və üst paltarı, baş və ayaq geyimləri olmaqla müxtəlif səciyyə kəsb etmişdir. Şəmkir bölgəsi qadınlarının milli geyimlərinin öyrənilməsində etnoqrafik çöl materialları ilə yanaşı, aşıq yaradıcılığı da qiymətli materiallar verir. Bilavasitə xalqın içərisindən çıxan, xalqın istək və arzularının tərcümanı olan aşıqlar həmişə «gördüklərini çağırmış», xalqın maddi və mənəvi mədəniyyətinin, təsərrüfat və ailə məişətinin tərənnümçüləri və təsvirçiləri olmuş, yaşadıqları dövrün adət-ənənələrini, sosial-iqtisadi və siyasi şəraitin bütün incəliklərini öz

yaradıcılıqlarında əks etdirmişlər. Belə el aşıqlarından biri də Şəmkirli Aşıq Hüseyndir. XIX əsrdə yaşamış Aşıq Hüseyn Şəmkirlinin yaradıcılığında milli qadın geyimləri tərənnüm olunmuş, şəninə tariflər dediyi gözəllərin geyimlərini, bəzək-düzəklərini ustad aşıq gözündən qaçırmamışdır. Dövrün sosial-siyasi xarakteri, sinfi təbəqələşmə, istismar qanunları, dini qadağalar və s. kimi amillər xalq geyimlərinə nə qədər təsir göstərsə də, aşıq Hüseyn Şəmkirli yaradıcılığında qadın geyimləri olduğu kimi təsvir olunmuş, xırda geyim elementləri belə, diqqətdən kənarda qalmamışdır.

Aşıq Hüseyn Şəmkirlinin qoşmalarında tez-tez təsadüf etdiyimiz «Şamaxı yaylığı salıb başına», «cuna salıbsan başına, qızıl tanalar guşuna», «badisəba dəydi, açıldı çarğat», «qolunda qolbağı, qızıl-qatarı», «belində kəməri, qolda düyməsi», «sərində bəzəyi, şalı saçaqlı», «zər məxmərdən qıyqac qoyub başına», «gülgəz yelənli kəlağay, bürünübdü qəddi-dala», «əynində zər küləcə, onun üstən şal bəzənib», «bağlayıb gümüş kəmər, üstü tamam danə nişan», «geyinib qəddi-dala küləcə xəznən gəlir» və s. kimi geyim və bəzəklər aşığın xalq məişətinə nə qədər yaxından bağlı olduğunu göstərir [17, s. 169-170]. Əsasən varlı qadınların geyim dəstlərində başlıca yer tutan bu geyim elementlərinin XIX-XX əsrin əvvəllərində aşığın doğulub boya-başa çatdığı Şəmkir bölgəsində geniş yayıldığını ədəbiyyat materialları da təsdiq edir [5, s. 64-72]. Aşıq Hüseyn Şəmkirlinin şeirlərində «katıbı» adlanan üst qadın geyim tipindən də söhbət açılır.

Etnoqrafik ədəbiyyatdan məlum olduğuna görə, katıbı və kürdü tipoloji xüsusiyyətlərinə görə eyni geyimlər olmuşdur [11. s. 147]. Lakin bununla belə, Borçalı bölgəsinin katıbı tipli qadın geyimləri Şəmkir bölgəsində məlum olan və kürdüyə bənzəyən katıbılardan kəskin surətdə fərqlənmişdir. Borçalının Kəpənəkçi və Qaracala kəndlərindən Gürcüstan Dövlət Muzeyinin fonduna verilmiş katıbılar atmaqol və yarımqol olmaqla, hər ikisi uzunətəklidir. Qaracala katıbısının yuxarı yaxa kəsiyi istisna olmaqla, qol, ətək və aşağı yaxa kəsiyi xəzlə işlənmişdir. Kəpənəkçi katıbısının isə ancaq yuxarı yaxa kəsiyi xəzə tutulmuşdur [16, s.174, 178]. Qeyd edək ki, Azərbaycanın Şəmkir bölgəsində və digər etnoqrafik bölgələrində əhalinin istifadəsində olan katıbı tipli üst qadın geyimi qolsuz tikilmiş, ətəyi, qol və yaxa kəsiyi xəzə tutulmuşdur. Onu əsasən tafta, məxmər, tirmə, bəzən də mahud və şaldan astarlı tikirdilər. Bu geyim tipi Cənubi Qafqazda ermənilər və gürcülər arasında da yayılmışdır [ 17, s. 170].

XIX-XX əsrin əvvəllərində Şəmkir bölgəsi əhalisinin kişi geyimləri, bəzi əlavələri (kəmər, toqqa, xəncər, tütün qabı, saat, saat zənciri, xəncər qını, üzük, vəznə və s.) və libasa vurulan naxışları nəzərə almasaq, demək olar ki, bəzəksiz olmuşdur. Qadın geyim dəstində isə bəzəklər onun ayrılmaz tərkib hissəsi kimi çoxçeşidli idi. Etnoqrafik materiallardan aydın olur ki, qadın bəzəklərinin əksəriyyəti özünün tarixi kökləri ilə qədimlərlə səsləşir. Cehiz və müxtəlif hədiyyələr etmə yolu ilə nəsildən-nəslə keçən bu zinət-bəzək nümunələri əsrimizə qədər gəlib çataraq dövrün xüsusiyyətlərini, xalqın həyat və məişət tərzini, ictimai təbəqələr arasında sosial bərabərsizliyi, lokal və etnik özünəməxsusluğu, etnik-mədəni təması, türkdilli xalqlar arasında etnogenetik

əlaqələri, yaş dövrünün ayrı-ayrı mərhələlərində bəzəklərdən istifadə edilməsində meydana gələn dəyişiklikləri və s. özündə daha dolğun əks etdirir. Şəmkir bölgəsi qadınlarının bəzəkləri əsasən qızıl və gümüşdən hazırlansa da, müxtəlif qiymətli daşlar (mirvari, əqiq, yaqut, kəhrəba, zümrüd, firuzə, mərcan, şəvə və s.) da zinət əşyalarının hazırlanmasında mühüm idi. İmkansız qadınlar ucuz daşlardan, adi şüşədən, misdən, tuncdan, hətta bəzi meyvələrin (iydə, xurma) çəyirdəklərindən bəzək şeyləri hazırladıb gəzdirir, bəzən də varlı qadınlardan bəzək əşyalarını «birovuz» alırdılar. Metalla qiymətli daşların kombinəsindən hazırlanan zinət-bəzək əşyaları istifadə qaydasına görə baş, qulaq, boğaz, sinə, bel, qol, barmaq bəzəkləri olmaqla müxtəlif funksiyalar daşıyırdı. Qadın bəzəkləri həm də libasa bəndlənən bəzəklər, toxuma və hörmə bəzəklər, eləcə də qadın üst geyimlərinin yaxasına, boyunluğuna, qollarının ağzına, ətəklərinə vurulan bəzəklər olmaqla da fərqlənirdi. Baş bəzəklərinin «qəfəsə», «tetir», «qıraqlıq», «qarmaq», «qızıl sancaq», «tac» və s. olmaqla müxtəlif növləri əhalinin istifadəsində idi. Qəfəsə - başa dingə qoyulduqdan sonra onun ətrafına tikilmiş üstü baftalı bəzək idi. Dingəyə daha yaraşıqlı görkəm verməkdən ötrü onun qabağına üzəri gümüş və qızıl pullarla dolu tetir tuturdular. Rəqs və hərəkət zamanı cingiltili-melodik səslər çıxarsın deyə, dingənin dövrəsinə həm də qıraqlıq əlavə edilirdi. Qıraqlığın da üstü gümüş pullarla örtülü olurdu. Qızıl sancaq hörüyə gəlməyən cığa-birçəkləri nizamlayır, telbasan rolu oynayırdı. XIX əsrdə Şəmkir bölgəsi qadınlarının əsas baş geyim elementini təşkil edən mürəkkəb quruluşlu dingələr, üstü bəzəkli inci və qaysava araqçınlar, xüsusi əndazə ilə sarınan çalmalar müxtəlif zinət şeyləri ilə bəzədildiyindən, qadın görkəminə təkrarsız gözəllik verirdi. Qulaq bəzəkləri «səbət sırğa», «gilası sırğa», «lolu», «kufə», «minarə sırğa», «aypara sırğa», «yarpaq sırğa», «qozalı sırğa», «gül sırğa» və s.-dən ibarət idi. Qadın bəzəklərinin digər bir qismini boyun və sinə bəzəkləri təşkil edirdi. Bölgədə onların «boğazaltı», «yaxagülü», «məcdiyyə», «heykəl», «həmayıl», «arpa boyunbağı», «qozalı boyunbağı», «yelpazəli sinəbənd» və s. növləri mövcud idi. XIX əsrdə qadın bel bəzəklərinin əsasını kəmərlər təşkil edirdi. Etnoqrafik araşdırmalar qadın kəmərlərinin «ətəkli» (sallama) və «saya» kəmərlərdən ibarət olduğunu göstərir. Varlı qadınlar bəzən «suvadax qızıl toqqa» da bağlayırdılar. Ətəkli kəmərin qayışı dəridən hazırlanmaqla, 10-12 sm enində olur, üzərinə 20 qəpiklik gümüş pullar üç cərgədə bənd edilirdi. Kəmərin toqqa hissəsinin birinin üzərinə göy yaqutdan dairəvi qaş salınırdı. Kəmərin ətəyinə isə yuxarıdan aşağıya doğru 10, 15 və 20 qəpiklik gümüş pullar gümüş zəncirlər vasitəsilə bir-birinə bənd edilirdi. Bına görə ona ətəkli kəmər deyilirdi.

Bölgə qadınlarının istifadə etdikləri qol və barmaq bəzəkləri qaşlı və qaşsız üzükdən, qolbaqdan, bilərzikdən və qolaxçasından ibarət idi. Qaşsız üzüklər içərisində xüsusilə seçilən nişan üzüyü «barmaqçalıq» adlanır və ərlik qızların «gəlin barmağı»na taxılırdı. Üzərinə kiçik zəncirlər vasitəsilə xırda gümüş pullar bənd edilmiş qolaxçası biləkdən yuxarı kip bağlanır, hərəkət və ya rəqs zamanı tetir, qıraqlıq, sallama kəmərlə həmahəng cingiltili səslər verirdi. Şəmkir bölgəsi qadın bəzəklərinin bir qismini də libasa bənd edilən və toxunma naxışlı bəzəklər təşkil edirdi. Düymə-həbbab, qoza, zınqırov-qumrov, çalkeçir-

çarışqa, sikkə-düzmə, ətəklik, yaxalıq və s. libasa bənd edilən bəzəklər sırasına aid idi. Toxunma (tikmə) bəzəklərdən ən geniş yayılanı bafta idi. Onu 1-1,5 sm enində ipək saplardan tikirdilər. Bafta əsasən üst geyimlərinin yaxa, boyun, ətək və qollarına tikilirdi. Güləbətin, şahpəsənd, muncuqlu tikmə, zəncirə, buta, qotaz və s. də ənənəvi bəzək elementləri idi. Göründüyü kimi, XIX-XX əsrin əvvəllərində Şəmkir bölgəsi əhalisinin geyim mədəniyyəti yetərincə zəngin olmuş, uzun əsrlərin sənət-peşə vərdişləri və empirik biliklərindən qaynaqlanmış, milli koloritini, etnik mənsubluğunu bacarıqla qoruyub saxlamış, xalqın milli-mədəni sərvəti kimi nəsillərdən-nəsillərə ötürülmüşdür. Bu gün dəyişən zaman axarında, etnik mədəniyyətlərin çulğalaşdığı, etno-mədəni təmasların arealını genişləndirdiyi Azərbaycan etnik-mədəni mühitində keçən əsrlərin ənənəvi geyim mədəniyyəti öz əvvəlki forma, tikiş və milli özünəməxsusluğunu itirərək büsbütün yeniləşmişdir. Milli geyimləri və bəzəkləri yenidən xalqın istifadəsinə qaytarmaq, onun spesifik cəhətlərini, xalqı təmsil etmə üstünlüyünü təbliğ etmək hamımızın vətəndaşlıq borcudur.

## ƏDƏBİYYAT


1. Aşıq Hüseyn Şəmkirli. Bakı, 1973.
2. Bayatılar. Bakı, 1985.
3. Белицер В.Н., Маслова Г.С. Против антимарксистских извращений в изучении одежды. - «Советская этнография», № 3,1954.
4. Бромлей Ю.В. Этнос и этнография. М., 1973.
5. Велиев Ф.И. Материальная культура западной зоны Азербайджана в XIX-начале XX в. Баку, 1996.
6. Вениаминов Б. Селение Салахлу и татарские тексты, собранные в нем. - СМОМПК, вып. 3, Тифлис, 1883.
7. Дубровин Н.Ф. История войны и владычества русских на Кавказе, т. 1, кн. 2. СПб., 1871.
8. Ерицов А.Д. Экономический быт государственных крестьян Казахского уезда Елизаветпольской губернии. - МИЭБГКЗК, т. 2, вып. 3, Тифлис, 1886
9. Əfəndiyev R.S., Tərlanov M. Azərbaycan xalq yaradıcılığı nümunələri. Bakı, 1959.
10. Əliyev H.Ə. Yeni Azərbaycan Partiyasının yaradılmasının 6-cı ildönümünə həsr olunmuş təntənəli yığıncaqda nitq. 12 noyabr 1998-ci il. - Müstəqilliyimiz əbədidir. Çoxcildlik əsərləri, 18-ci cild.
11. Həvilov H.A. Azərbaycan etnoqrafiyası. Bakı, 1991
12. Каракашлы К.Т. Материальная культура азербайджанцев. Баку, 1964
13. Гейдаров М.Х. Города и городское ремесло Азербайджана в XШ-XVII вв. Баку, 1981.
14. Народы Кавказа, т. 2. М, 1962.
15. Сухарева О.А. Вопросы изучения костюма народов Средней Азии - в кн: Костюм народов Средней Азии. М., 1979.
16. Трофимова А.Г. Обзор коллекции одежды народов Азербайджана Государственного музея Грузии им. акад. С.Н.Джанашиа. - в кн: Хозяйство и материальная культура народов Кавказа в XIX-XX вв. вып. 1. М., 1971.
17. Vəliyev F.İ. Milli qadın geyimlərimiz aşıq yaradıcılığında. «Musiqi dünyası» jurnalı, № 3-4, 2006.
18. Vəliyev F.İ. XIX-XX əsrin əvvəllərində Azərbaycanın maddi mədəniyyəti. Geyimlər, bəzəklər. Bakı, 2006.
19. Vəliyev F.İ. XIX-XX əsrin əvvəllərində Azərbaycanın maddi mədəniyyəti (tarixi-etnoqrafik tədqiqat) -Doktorluq dissertasiyasının avtoreferatı. Bakı, 2007
20. Зубарев Д. Казахская дистанция. - ОРВЗК, ч. 2. СПб., 1836; Шамшадильская дистанция. - ОРВЗК, ч. 2, СПб., 1836

## B.İ.İBRAHİMLİ

### *Orta taleli şəhərlər*

XIII əsrin əvvəllərində - Monqol istilası ərəfəsində Azərbaycan öz inkişafının ən yaxşı dövrlərini keçirirdi. Əlverişli iqlim şəraiti, təbii imkanlar və süni suvarma sisteminin genişləndirilməsi kənd təsərrüfatı məhsulları istehsalının əhəmiyyətli dərəcədə artmasına səbəb olmuşdu. Kənd təsərrüfatı məhsulları yerli tələbatı ödəməklə bərabər xarici bazarlara da çıxarılırdı. Xaricə çıxarılan kənd təsərrüfatı məhsulları, əsasən pambıq, kəlan, zəfəran, neft, qızıl boya, ipək və üzüm məhsullarından ibarət idi (1, s. 309).

Sonətkarlığın və ticarətin inkişafı köhnə şəhərlərin böyüməsinə və yeni şəhərlərin yaranmasına şərait yaradırdı. Azərbaycanın əlverişli strateji mövqeyi, şərqlə qərbi birləşdirən ticarət yollarının buradan keçməsi yerli məhsulların dünya bazarına çıxarılmasına və daha əhəmiyyətlisi isə orta əsr sonətkarlığında tətbiq olunan texniki yeniliklərin və kəşflərin Azərbaycan ustaları tərəfindən tətbiq olunmasına imkan verirdi. Bunlar ipək, pambıq parça və saxsı qablar istehsalında xüsusilə nəzərə çarpırdı. XIII əsrin əvvəllərində iqtisadi və mədəni inkişafın ən yüksək zirvəsinə çatan Azərbaycan şəhərlərində ucaldılan memarlıq inciləri dünya memarlığında görkəmli yerlərdən birini tutur. Lakin iqtisadi və mədəni inkişafın yüksəlişini siyasi vəziyyət ləngidirdi. Azərbaycan bu dövrdə üç böyük feodal dövlətinə parçalanmışdı. Atabəylər, Şirvanşahlar və Ağsunqurilər arasındakı ziddiyyətlər və sülalədaxili çəkişmələr Azərbaycanı taqətdən salırdı. Məhz bu səbəbdən də Mərkəzi Asiyada güclü dövlət yaratmış Çingiz xanın 1222-ci ildə göndərdiyi 30 minlik qoşun Azərbaycanı işğal edə bildi. Monqolların hücumu ilə Azərbaycanın iqtisadi və mədəni inkişafı dayandırıldı, əkinçiliyin və sənətkarlığın uzun sürən tənəzzül dövrü başlandı.

Monqollar aldıqları şəhərləri yerlə-yeksan edir, əhalisini qılıncdan keçirir və sağ qalanları əsir aparırdılar. Müqavimət göstərən şəhərlər daha amansızcasına dağıdılırdı. Şəhəri müdafiə edən döyüşçülər rəhm olunmadan edam olunur, ailələri isə köləliyə verilirdi. Sənətkarlar və mahir ustalar isə ailələri ilə birlikdə monqol zadəganları arasında bölüşdürülür və Mərkəzi Asiyaya göndərilirdi. Mənbələrin verdiyi məlumata görə, monqol işğalının ilk illərində təkcə Azərbaycandan Mərkəzi Asiyaya 200 mindən artıq sənətkar göndərilmişdi. Monqol işğalına məruz qalan, darmadağın edilən və bir daha dirçələ bilməyən Azərbaycan şəhərləri sırasına Şəmkir və Kiran şəhərləri də daxil idi. Bu çox da böyük olmayan iki orta əsr Azərbaycan şəhərinin tarixi aqibəti çox oxşar olmuşdur. O dövrdə Təbrizdən sonra Azərbaycanın ikinci böyük şəhəri sayılan Gəncəyə yaxın yerləşdiyindən, Şəmkir heç zaman bölgənin siyasi mərkəzinə çevrilə bilməmişdır. Lakin şəhər yerindən tapılan arxeoloji materiallar Şəmkirdə dulusçuluğun və metalişləmə sənətinin yüksək inkişaf etdiyini göstərir. 1235-ci ildə monqollara ciddi müqavimət göstərdiyindən, onlar şəhəri amansızcasına dağıtmışdılar. Şəmkir şəhəri bundan sonra üz əhəmiyyətini itirmiş və bir daha əvvəlki inkişaf səviyyəsinə qalxa bilməmişdir. (5, s. 6-7).

Kiran şəhəri də, XI-XII əsrlərdə əvvəlcə səlcuqların iqamətgahı, sonra isə Atabəylər dövlətinin paytaxtı Naxçıvanın " kölgəsində" qalsa da, bölgənin sənətkarlıq mərkəzi kimi tanınmışdı. Kiranda istehsal olunan Kaşan tipli saxsı qabları və toxuculuq məhsullarını xüsusilə qeyd edə bilərik. Lakin monqol istilası zamanı güclü dağıntıya məruz qalmış Kiran şəhəri də Şəmkir kimi öz əvvəlki şöhrətini bir daha bərpa edə bilməmişdir.

Hülakulər dövründə şəhər yaxınlığında yerləşən mis mədənləri, kənd təsərrüfatı, sənətkarlıq (4, s. 50) və şəhər tikililəri qismən bərpa olunsa da, vaxtaşırı baş verən hücumlar şəhərin boşalmasına səbəb olmuşdu.

Hazırda Şəmkir və Kiran şəhərlərinin xarabalıqlarında aparılan arxeoloji tədqiqat işləri nəticəsində bu şəhərlərin tərəqqi və tənəzzül dövrlərinə aid çoxlu maddi mədəniyyət nümunələri əldə edilmiş və ümumiyyətlə, Azərbaycanın orta əsr şəhərlərinin təsərrüfatı və tikililəri haqqında ətraflı fikir söyləməyə imkan yaranmışdır. Azərbaycan orta əsr şəhərlərinin tarixinə aid bir çox problemlər hələ də öz həllini gözləyir.

1979-cu ildə, Xaraba-Gilan şəhər yerində dəfinə axtaranlar tərəfindən qarət olunmuş bir sərdabədən əldə olunan materiallar, sərdabə üzərində ucaldılmış türbənin quruluşu abidənin dövrünü müəyyən etməyə imkan versə də, burada kimlərin dəfn olunduğunu aydınlaşdırmağa imkan vermir. Dəfinə axtaranlardan sonra yerli əhalinin də kütləvi şəkildə buraya axışması və sərdabədə hər şeyin alt-üst edilməsi tabutların ılkin vəziyyətinin necə olduğunu və buradan hansı materialların aparıldığını müəyyən etməyə imkan vermədi. Lakin Xaraba-Gilan arxeoloji ekspedisiyasının 1980-ci ildə sərdabə və onun ətrafında apardığı arxeoloji tədqiqat işləri olduqca maraqlı faktlar aşkara çıxardı. Əvvəlcə, arxeoloqların sərdabənin icərisində rast gəldikləri mənzərəyə nəzər salaq: Xaricdən kub şəkilli, daxildən isə səkkiz bucaqlı və ortasında dayaq sütunu olan sərdabə qayalıq üzərində yerləşdiyindən, sərdabənin içərisində, zirvəyə tərəf olan yerlərin daşları çıxarılmamış və taxt kimi buraxılmışdır. Tabutların bir neçəsinin qalıqları bu daşların üzərində, qalanları isə sərdabənin cənub tərəfində sındırılmış və skelet sümükləri ilə qarışdırılmış vəziyyətdə idi. Dəfinə axtaranlar sərdabəyə yuxarıdan daxil olduqlarından, tavandan tökülən daş-torpaq bu hissədə dağınıq koma şəklində qalmışdı. Sərdabənin giriş qapısının yanında bir neçə iri həcmli daş divardan çıxarılaraq döşəməyə atılmışdı. Sərdabə təmizlənərkən qoz ağacından düzəldilmiş tabut qalıqları, ülülərin üstündə olmuş geyimlərin hissələri, tabutların içərisinə salınmış və üstünə çəkilmiş örtüklərdən parçalar, tabutların bərkidildiyi dəmir cəftələr və bir ədəd qara şəvədən hazırlanmış oturaq vəziyyətdə meymun fiquru aşkar edildi.

Qeyd edək ki, skelet sümüklərinin yanından qarətçilərə məxsus sovet qəpik pulları, ağac parçasının başına əsgi dolamaqla düzəldilmiş məşəl və araq butulkası var idi. Sərdabədən sarışın qadına məxsus hörüyün və qadın paltarlarına aid hissələrin tapılması və antropoloqun rəyi burada kişilərlə bərabər qadınların da dəfn olunduğunu göstərirdi. Qoftaya oxşar paltarın üzərində kəmər izi açıq-aydın izlənirdi. Bundan başqa, camaat arasında gəzən şayiələrə görə sərdabədən qəbzəsi qızıldan olan bir ədəd nəfis şəkildə hazırlanmış xəncər, qızıl kəmər və

üzəri qızıla tutulmuş dəri kitab tapılmışdı. Deyilənlərə görə, dəfinə axtaranlardan çox-çox sonra bir neçə adamla buraya gəlmiş Aşağı Aza kəndinin sakini çayçı Hüseyn qızıl sırğanın bir tayını tapmışdı. Çayçı Hüseyn ekspedisiya üzvləri ilə söhbət zamanı sırğanın qadının qulağında olduğunu və onu oradan götürdüyünü etiraf etsə də, sırğanı göstərməkdən imtina etmiş və yalnız onun halqavari formada olduğunu qeyd etmişdi. Xaraba-Gilan ətrafındakı kəndlərin əhalisindən topladığımız məlumata görə, 1979-cu ilin iyun - iyul aylarında Culfa şəhərindən olan Bəxtiyar adlı şəxsə məxsus qırmızı rəngli "Jiquli" markalı maşında gələn dörd nəfər metal detektoru ilə Xaraba-Gilan şəhər yerində nə isə axtarırmışlar. O adamlardan birinin Azərbaycan SSR EA-nın əməkdaşı Ə.Hüseyni olduğunu da deyirdilər. İndi rəhmətə getmiş bu şəxsin o zaman Azərbaycanda dağıdılmış bir neçə orta əsr sərdabəsinin açılmasında iştirak etməsi məlumdur. Hətta söyləyirdilər ki, Ə.Hüseynidə hansı sərdabədə kimlərin dəfn olunması haqqında bir kitab və ya tarixi mənbələrdən toplanmış məlumatlar var imiş.

Sərdabə yuxarıda göstərilən şəxslər tərəfindən dağıdıldıqdan sonra onlarnı yaxın tanışı olan, Naxçıvan Pedaqoji İnstitutunun müəllimi İsrafil Bağırov bir qrup tələbə ilə sərdabənin içərisində və ətrafında qeyri-qanuni qazıntı işləri aparmış və türbənin portalından tökülmüş kitabələri toplayaraq Naxçıvana aparmışdır. Təəssüf ki, İ.Bağırov arxeoloqların həmin materialları onlara və ya muzeyə təhvil verilməsi tələbini rədd etmiş və özünün bu epiqrafik materialları tədqiq edərək türbənin kimlərə məxsus olduğunu müəyyən edəcəyini iddia etmişdir. Lakin nə qarətçilərdən, nə də "alimkimilərdən" materialları alıb tədqiq etmək mümkün olmadı. Mövhumatçı olmasaq da, tarixin ibrət dərsi kimi Xaraba-Gilandakı sərdabəni qarət edənlərin sonradan başına gələn hadisələri burada qeyd etməyi lazım bilirik. Məsələ ondadır ki, sərdabəni dağıdanların hamısı bir müddət sonra dünyasını dəyişmişdir. Elmlər Akademiyasının əməkdaşı Bakıda, təzə aldığı "Volqa" avtomobilinin içərisində infarktdan, Naxçıvan Pedaqoji İnstitutunun müəllimi, onun bir oğlu və bir qızı xəstəlikdən, Culfa rayonunun Kərimqulu-Dizə kəndindən olan şəxs, onun iki oğlu və anası göbələklə zəhərlənmədən, Culfa rayonunun Yaycı kəndindən olan iştirakçı isə güllə ilə vurularaq ölmüşdür.

Onu da qeyd edək ki, Xaraba-Gilan türbələri, xüsusən də bəhs etdiyimiz türbə uzun müddət ziyarətgah olmuşdur. Belə ki, türbənin şərq tərəfdən portalının qarşısında yerə döşənmiş sal daşların üstü ziyarətçilərin ayaq izlərindən yeyilərək çuxurlaşmışdır. Xaraba-Gilanda qarət olunmuş sərdabənin kimlərə məxsus olduğunu müəyyən etmək mübahisəli və olduqca çətindir. Skeletləri tədqiq etmiş antropoloq R. Qasımovamn rəyinə görə, sərdabədə aşkar edilmiş səkkiz kəllə içərisində hər üç irqin nümayəndələri vardır. Ona görə də sərdabədə bir ailənin üzvlərinin dəfn olunduğu ehtimalı əsassız görünür.

Ətrafdan tapılan dekorativ kərpiclərlə və mavi kaşılarla yazılmış Qurani Kərimdən ayələr, altıbucaqlı və dördbucaqlı dekorativ kərpiclər üzərində Məhəmməd Peyğəmbərin (s.ə.s) xələflərinin (Ömər, Əbubəkr və Əlinin) adlarının olması türbənin, şübhəsiz müsəlman şəxsin qəbri üzərində ucaldıldığını göstərir.Lakin mərhumların taxta tabutlarda, geyimlə, silah, bəzək və başqa

əşyalarla birlikdə dəfn olunması müsəlman dəfn qaydalarına uyğun deyildir. AMEA-nın müxbir üzvü, etnoqraf Hacı Qədir Qədirzadənin fikrincə, gələcəkdə Məkkəyə aparılması nəzərdə tutulan ölülərin tabutlarda dəfn olunması kimi istisna hallara islamda rast gəlinir ki, belə qəbirlərə "tapşırma" qəbirlər deyilir. Lakin şəriət qanunlarına görə əgər ölən adamın gələcəkdə Məkkəyə aparılması nəzərdə tutulurdusa, onda ölü yuyulmalı və kəfənə tutulduqdan sonra tabuta qoyulmalıydı. Amma burada qaydalara əməl olunmamışdır, ona görə də bu qəbirlərin "tapşırma" olduqları ehtimalı çox azdır. Xaraba-Gilanda açılmış sərdabədə hər hansı bir monqol hakiminin (monqoloid), onun həyat yoldaşı və ya kənizinin (avropoid) və nökərinin (neqroid) dəfn olunduğu ehtimalı daha ağlabatandır. Məlumdur ki, Cənubi Qafqazdakı monqollar arasında Xan və ya məşhur sərkərdə öldükdə onunla birlikdə kənizlərinin və qullarının da öldürülərək dəfn olunması adəti XIV əsrə qədər mövcud olmuşdur. Həm Hülaku xanın (1258-1265-ci illər), həm də Abaqa xanın arvadları xristian olmuşdur. Hülaku xan öldükdən sonra monqol adəti ilə dəfn olunmuş, onunla birlikdə qəbrə cavan, gözəl qızlar da qoyulmuşdur (2, s 513). Beləliklə, tarixi mənbələrin məlumatlarına və sərdabədən tapılmış materiallara əsasən, türbənin islamı qəbul etmiş, lakin qədim monqol adəti ilə dəfn olunmuş bir hülaku zadəganına məxsus olduğunu ehtimal etmək mümkündür. Xaraba-Gilanda aşkar edilmiş sərdabədə kimlərin dəfn olunduğu haqqında üçüncü ehtimal burada zəlzələ zamanı həlak olmuş adamların ailə sərdabəsində dəfn olunması ehtimahdır. Bu halda da sərdabədə dəfn olunanların yuxarı təbəqəyə mənsub olmaları şübhəsizdir.

Geyim, silah və bəzək əşyaları ilə birlikdə dəfnə S.V. Ter-Avetisyanın açdığı sərdabələrdə də rast gəlinməsi Xaraba-Gilanda bu adətin (ən azı monqollar dövründə) mövcud oduğunu göstərir. Qeyd etmək lazımdır ki, Xaraba-Gilandakı kubşəkilli türbə Naxçıvan memarlıq məktəbi ənənələrinə uyğun inşa olunsa da, bu türbədə

Orta Asiya memarlığının təsiri də izlənir. Analoji həndəsi ornamentlərə Termez hakimlərinin sarayında (XII əsr) və Buxara şəhərindəki Bayan Qulu xan türbəsində (XIV əsr) rast gəlinir. Xaraba-Gilan şəhər yeri qismən öyrənilmiş, Şəmkir şəhər yerində isə geniş arxeoloji tədqiqatlar yenicə başlanmışdır. Oxşar tale yaşamış bu Azərbaycan şəhərlərinin sistematik və planlı arxeoloji tədqiqi tariximizin bir çox problemlərinin həllində mühüm rol oynayacaqdır.

## ƏDƏBİYYAT

1. Azərbaycan tarixi. I cild, Bakı. 1994.
2. В.В.Бартольд. Работы по исторической географии и истории Ирана. Moskva, 2003.
3. B.İ.İbraqimov. Srednevekovıy qorod Kiran. Baku-Moskva, 2000
4. R. Məmmədov. Naxçıvan şəhərinin tarixi oçerki. Bakı, 1977.
5. T.Dostiyev. Şəmkir arxeoloji ekspedisiyasının hesabatı. Bakı, 2007.



**Şəkil 1. Bəzi yerləri gümüş saplarla işlənmiş rəngli ipək parça qalığı**



**Şəkil 2. Üzərində kufi xətti ilə sözlər yazılmış rəngli parça qalığı**



**Şəkil 3. Rəngli ipək parça qalığı**




**Şəkil 4. Güləbətin parçanın qızıl telləri**

## M.Q.HƏSƏNOV

### *Şəmkir tarixinə bir nəzər*

"Şəmkir" toponiminin ilk dəfə hansı mənbədə xatırlandığı barədə dəqiq məlumat yoxdur. Lakin qeyd etmək lazımdır ki, bu toponim orta əsr ərəb və fars mənbələrində «Şəmkur», türk mənbələrində «Şəmkir» kimi göstərilmişdir. Erməni tədqiqatçıları onu «Şəmkar», gürcü alimləri isə «Şankori» kimi qeyd etmişlər. «Şəmkir»in toponim kimi mənası da bir-birindən fərqli mülahizələrin yaranmasına səbəb olmuşdur. 1924-cü ildə İstanbulda «Müxtəsər Azərbaycan tarixi» kitabını çap etdirən C.Zeynaloğlu bu adı aşağıdakı kimi izah etmişdir: «Şəmkir: Şəms - günəş və kir - tapınan mənasındadır. «Günəşə tapınanlar yurdu» deməkdir. Qədim zamanlarda böyük bir mərkəz idi. Hal-hazırda Gəncənin 32 kilometrliyində kiçik bir kənddir». (l,s.8).

Azərbaycan toponimlərinin tədqiqi ilə məşğul olan İ.İ.Şopen isə yazırdı: «Şəmkir - şam - qar, ərəbistanlılarda Şam - kar, günəşə sitayişkar, IX əsrdə Utinin yox, Girdman əyalətinin əhəmiyyətli şəhəri olmuşdur. İndi Tiflis-Gəncə yolu üstündə axırıncı dayanacaqdır. Burada ərəblərin tikdiyi minarə qalmaqdadır» (2). Erməni alimi S.Yeremyan isə vaxtilə Şəmkir toponimini «Sakara» ilə eyniləşdirib «Sa - Mkara», ermənicə «Şamkar» kimi oxumağı təklif etmişdir ki, mütəxəssislər bu variantın heç bir elmi əsası olmadığını sübut etmişlər.

Tədqiqatçı İ.Brutskus «şam» sözünü türk dillərində, xüsusən də Xəçər dilində «təpə», «təpəlik», «yüksəklik» mənasında işlətmişdir (3, s. 347). Bu müəllifə istinad edən Ç.Mirzəçadə göstərir ki, «Muğan» qrupu dialektlərində «şam» sözü «yaşıllığa bürünmüş yer» deməkdir. (4, s. 83). Dilçi alim M. Cahangirov bu sözü «Şam - kür», yəni «Kür şamlığı», yaxud «Kür (qırağı) şam (lıq)» kimi izah etmişdir (5, s. 59).

Bu toponimin tayfa (R.Yüzbaşov), xəzdərili heyvan - samur (Z.Əhmədzadə) adı ilə bağlı olduğunu ehtimal şəklində söyləyənlər də var. «Coğrafi adlar» lüğətinin müəllifi N.Nəbiyev bu adın «Şəmikür» sözündəıı əmələ gəlib «Kür qalası», «Kür mayağı» demək olduğunu iddia etmişdir (6, s. 59).

Maraqlıdır ki, Abbasqulu Ağa Bakıxanovun «Gülüstani-İrəm»ində Şəmkir şəhərinin salınması barədə qeyd vardır. Müəllif şəhərin adını Təbəristan hakimi Şəmkir ibn Ziyadın adı ilə əlaqələndirərək yazır: «... bu sülalənin II padşahı olan və hicri 323 (935)-ci ildən 356 (967)- ci ilə kimi şahlıq edən qədim Gilan şahlarından olan Vuşmahir ibn Ziyad Gəncə yaxınlığında öz adına Şəmkir şəhərini bina etmişdir». (7, s. 62).

Əslində bu mülahizə tarixi faktlarla uyğun gəlmir. Belə ki, qədim mənbələrin hamısında Şəmkirin adı X əsrdən xeyli əvvəlki dövrlərə aid sənədlərdə xatırlanır. Görünür, A.A.Bakıxanov adların zahiri oxşarlığına əsaslanaraq belə yanlış nəticəyə gəlmişdir. XIII əsr tarixçisi Gəncəli Kirakos isə özünün «Tarix» əsərində göstərir ki, Xəzər xaqanı Cəbunun qoşunları Albaniyaya soxularaq 623 - 624-cü illərdə bu ölkəni talan etmişdir. Cəbu xaqan burada sərkərdə oğlu Şadın şərəfinə bir neçə şəhər tikdirərək bu şəhərlərə onun adının

baş hərfi ilə başlayan adlar vermişdir. Kirakos «ş» hərfi ilə başlayan bu şəhərlər sırasında Şamaxının, Şəmkirin və Şabranın adını çəkmişdir (8, s. 101).

Lakin tədqiqatlar Gəncəli Kirakosun bu versiyasının həm tarixi, həm də linqvistik faktlarla təsdiq olunmadığını sübut etmişdir. Çünki əsərlərində VII əsr hadisələrini əks etdirən ərəb müəllifləri Əl-Bəlazuri, İbn-əl-Fəqih və başqaları Şəmkür şəhərinin adını çəkmiş və onu qədim şəhər kimi xarakterizə etmişlər. Bütün bunlar göstərir ki, Şəmkir VII əsrdən əvvəl mövcud olmuşdur. R.Qurbanovun yazdığına görə, erməni tarixçisi Alişan Şəmkirin salınma tarixini VI əsrə aid etmişdir. K.V.Trever isə araşdırmalar nəticəsində bu qənaətə gəlmişdir ki, Şəmkir ərazisində tapılmış tikinti qalıqları V əsrə aiddir. Alban tarixçisi Moisey Kalankatuklu V əsrdə Qüds (Yerusəlim) şəhərində tikilmiş alban monastrlarından (vənglərindən) söhbət açaraq yazır ki, «indi vəngi Şəmkirdən olan Məryam adlı bir qadın saxlayır. Vəngin yarısı ərəblərin əlindədir» (9, s. 174).

Erkən orta əsrlər dövrü müəlliflərinin əsərlərində Şəmkirin adı xatırlanmır. Bunu tarixçilər o dövrdə mövcud olan şəhərin hələ əhəmiyyətli rol oynamadığı ilə izah edirlər.

Bu faktı sonrakı dövr ərəb müəlliflərinin məlumatları da təsdiq edir. Həmin mənbələrdə deyilir ki, Şəmkir o dövrdə «balaca», lakin «çiçəklənən və varlı» şəhər olmuşdur.

X əsr ərəb coğrafiyaşünası əl-Müqəddəsinin Arran haqqında verdiyi məlumatda deyilir: «Arran - dəniz və Arras çayı arasında adaya oxşayır və bütün iqlimin 1/3-ni təşkil edir. Əl-Məlik çayı buranı uzununa bölür. Paytaxtı Bərdədir, şəhərlərindən Tiflis, əl-Qala, Xunan, Şəmkur, Gəncə, Bərdic, Əş-Şəmaxiyyə, Şərvan, Bakuh, Əş-Şəbran, Bab əl-Əbvab, əl-Abxaz, Qəbələ, Şəkki, Məlazkerd, Təbla» (10, s. 130).

Münəccimbaşının «Cami-əd-düvəl» kitabında da Arran ərazisi haqqında məlumat verilir və bu ölkənin əsas şəhərləri arasında Şəmkirin də adı çəkilir.

Akademik Z.Bünyadovun yazdığına görə, orta əsrlərdəki yazılı mənbələr və arxeoloji qazıntı materialları Azərbaycan və Arranda bir neçə kateqoriyalı şəhərlər olduğunu müəyyən etməyə imkan verir. O, bu şəhərləri üç kateqoriyaya bölür.

Birinci kateqoriyaya ticarət - sənətkarlıq mərkəzləri və beynəlxalq tranzit ticarətinin əsas yolları üzərində salınmış şəhərlər (Bərdə, Dərbənd, Beyləqan və b.) aid edilir.

İkinci kateqoriya şəhərlər isə əsas ticarət yollarından uzaqda yerləşən qapalı sənətkarlıq və ticarət mərkəzləridir. Şəki, Qəbələ, Amaras, Şəmkir, Naxçıvan, Ərdəbil, Girdiman bu kimi şəhərlərdən olmuşdur. Bu şəhərlər eyni zamanda qala idi (11, s. 142).

Z.Bünyadov ərəblərin istilası başlanarkən qala - şəhər olmuş bir sıra məşhur yaşayış məntəqələri arasında Şəmkirin də adını çəkərək belə şəhərlər haqqında yazır: «Şəhərlərin əzəmətini və bunların strateji əhəmiyyətini həmin şəhərlər ətrafında çəkilən hasar və bürclərin qalıqları aydın göstərir. Demək olar ki, bütün hasar və bürclər yonulmuş iri daşdan hörülmüş, bunların özülü isə

bişmiş kvadrat kərpicdən tikilmişdir. Azərbaycanın orta əsr şəhərlərinin quruluşu belə idi ki, qala hasarları və qüllələrin başında həmişə mazğal və bacalar qoyurdular. Çünki bunlar xaricdən ediləcək hücumlardan şəhərlərin müdafiəsini gücləndirirdi» (11, s. 143).

Bu xüsusiyyətlər Şəmkir qalasında və şəhərətrafı hasarlarda da olmuşdur. Məlumdur ki, qədim Şəmkir qalasının qalıqları Şəmkirçayın sol sahilində indi də qalmaqdadır. Şəhər qala yerinin sahəsi təxminən 20 hektar olmuşdur. Hələ IX əsrdə eni 3,5 m olan möhkəm müdafiə divarı ilə əhatələnmiş Şəmkir qalası sağ sahillə iki körpü vasitəsilə birləşirmiş. Həmin körpü qalıqları indi də durur.

Cənubi Qafqaz tarixinə dair saxlanılan sənəd və materiallardan görünür ki, XIX əsrin ikinci yarısından başlayaraq Şəmkir qalasının öyrənilməsinə cəhd edilmişdir.

Keçən əsrin son qərinəsində memarların abidədə apardıqları tədqiqatlar şəhərin planının bərpa layihəsini irəli sürməyə imkan vermişdir(12).

Tədqiqatlar qədim Şəmkir qalasının quruluşu barədə kifayət qədər geniş təsəvvür yaradır. Tədqiqatlardan bu şəhər-qalanın daim hücumlara məruz qaldığı da bəlli olur.

Ərəblərin Azərbaycanı işğal etməsi tarixindən söhbət açan S. Qasımova öz əsərlərində Şəmkirin də adını çəkərək yazır ki, ərəblər «Muğanı tutduqdan sonra Dərbənd, sonra Albaniyanın başqa şəhərlərini - Naxçıvanı, Beyləqanı, Şəmkiri, Qəbələni tutdular və onlarla müqavilələr bağladılar».

Tədqiqatçılar qeyd edirlər ki, işğal zamanı ərəblər tutduqları şəhərlərdən istədikləri var-dövləti daşıyıb aparırdılar. Təbii ki, belə talan Şəmkirdən də yan keçməmişdir.

A.Sumbatzadənin yazdığına görə, 628-ci ildə Bizans imperatoru İrakli Albaniya ərazisinə soxuldu, Albaniyanın Girdman ölkəsinə (Şəmkir rayonunda) gəldi və orada Mehranilər nəslindən olan yerli hökmdar Varaz - Qriqoru xaç suyuna saldı (13, s. 63).

Qeyd edək ki, Girdman Albaniyanın tərkibində vilayət olmuşdur. Tədqiqatçıların bir hissəsi Girdmanın indiki Qazax rayonu, başqa bir hissəsi isə Şəmkir və Gədəbəy rayonları ərazisində olduğunu, digərləri isə Göyçay, Girdman və Ağsu çaylarının hövzəsində yerləşdiyini iddia edirlər.

Tarixçi mütəxəssislərin yazdığına görə, VIII əsrin ortalarında Azərbaycanın paytaxtı Bərdəyə köçürüldükdən sonra bir sıra digər şəhərlərlə yanaşı, Şəmkir də Beynəlxalq ticarət həyatında daha əhəmiyyətli rol oynamağa başladı. Buna da səbəb o idi ki, Xilafətin ticarət əməliyyatı yeni yolla inkişaf edərək başqa şəhərlərdə mərkəzləşmişdi. Bu vaxt Bərdədən Tiflisə gedən ticarət yolları Şəmkirdən keçirdi ki, bu da şəhərin beynəlxalq ticarətdə mühüm rol oynamasına şərait yaradırdı.

Həmin dövrün ticarət mərkəzləri arasındakı məsafəni qeyd edən tarixçi və coğrafiyaşünaslar öz əsərlərində Şəmkirin də adını çəkirlər. Məsələn, X əsr coğrafiyaşünası əl-İstəxri «...Gəncədən Şamkura 10 fərsəx, Şamkurdan Xunana 21 fərsəx» olduğunu qeyd etmişdi. İbn-Hövqəl də bu şəhərlər arasındakı məsafəni

eyni göstərmişdir. Başqa bir coğrafiyaşünas əl-Müqəddəsi isə «Gəncədən Şəmkura bir mərhələ, sonra Xunana üç mərhələ» olduğunu, Əbül Fərəc Kudama isə «Bərdədən Mütəvəkkiliyəyə (Şəmkürə) 6 mərhələ, oradan Tiflisə 10 mərhələ» olduğunu qeyd etmişdir. Əl-İdrisinin əsərlərində isə oxuyuruq: «Bərdədən Gəncəyə 27 mil, Şamkura 30 mildir, sonra Xunana 63 mildir» (10; 11, s. 160).

Tanınmış tarixçi N.Vəlixanlı ərəb müəlliflərinin məsafə ilə əlaqədar göstərdikləri rəqəmlərin bəzilərinin səhv və şişirdilmiş olduğunu təsdiq etmişdir. O bu səhvlərin mətnlərin əlyazmalarındakı dolaşıqlıqlardan irəli gəldiyini göstərmişdir (10).

Təbii ki, biz bu rəqəmləri xatırlatmaqla ayrı-ayrı şəhərlər arasındakı məsafəni dəqiqləşdirmək niyyəti güdmürük, çünki buna ehtiyac yoxdur. Sadəcə olaraq qeyd etmək istəyirik ki, X əsrdə Azərbaycana gələn səyyah və coğrafiyaşünasların hamısı öz əsərlərində Şəmkiri ticarət mərkəzi və tanınmış şəhər kimi qəbul etmişlər. Bu mülahizəni daha da möhkəmləndirmək üçün xatırladaq ki, ərəblərin dövründə Arranda kəsilən ən qədim pul vahidi 707/8-ci il tarixli dirhəm olmuşdur. Z.Bünyadov yazır ki, o dövrün sikkəxanalarının dürüst yerini göstərmək çətindir, çünki bu sikkəxana Bərdədən başqa, Şəmkir, Qəbələ, Beyləqan və Gəncədə də ola bilərdi. (11, s. 148).

Bu ehtimal da Şəmkirin hələ VII əsrdə Aranın əhəmiyyətli şəhərlərindən biri olduğunu göstərir.

IX əsrdə Şəmkirin vəziyyəti barədə ən dolğun məlumatı tarixçi və şəcərəçi əl-Bəlazuri «Kitab Fütih əl-Büldən» («Ölkələrin fəthi kitabı») əsərində vermişdir: «...Bərdə sakinlərinin bəziləri mənə bildirdi ki, Salman İbn-əl-Bəhili (Arranın fəthində iştirak etmiş ərəb sərkərdəsi - M.H.) qədim şəhər hesab edilən Şəmkürə ordu göndərdi və onu tutdu. O vaxtdan sanarilər onu dağıdana kimi şəhər sıx əhalisi olan və çiçəklənən (şəhər) olaraq qaldı. Bu həmin xalq idi ki, Yezid ibn-Usayd əs-Sulami (752/3 - 768- ci illərdə Arranın hakimi - M.H.) Ərməniyyəni tərk etdikdən sonra hər tərəfdən axışıb gəldi, gücləndi və azğınlıq etdi. Lakin 240 (854)-cü ildə Mötəsim Billahın nümayəndəsi Buğa (Buğa əl-Kəbir görkəmli sərkərdə olmuşdur - M.H.) Allah onu əfv etsin, Ərməniyyə, Azərbaycan və Şımşatın hakimi olmaqla onu (şəhəri) bərpa etdi və xəzərlərin bir hissəsini oraya köçürdü; onlar himayəçilik xahişilə onun yanma gəlmişdilər, çünki onlar islamı qəbul etmək arzusunda idilər. O, Bərdədən tacirləri də oraya köçürdü və şəhəri Mütəvəkkiliyyə adlandırdı» (13, s. 96).

Beləliklə, əl-Bəlazurinin bu qeydlərindən Şəmkirlə bağlı üç mühüm nəticə çıxarmaq olar. Birincisi, Şəmkir VIII əsrdə sanarilər tərəfindən dağıdılmışdır. Deməli, Şəmkir bu vaxta qədər tanınmış şəhər olmuş və dağıdılmışdır.

İkincisi, həmin dövrdə Şəmkirin «sıx əhalisi» olmuş, şəhər çiçəklənmə dövrünü yaşamışdır.

Üçüncüsü, şəhər ərəb sərkərdəsi Buğa əl-Kəbir tərəfindən bərpa olunub və xəlifə Mütəvəkkilin şərəfinə «Mütəvəkkiliyyə» adlandırılmışdır.

Şəmkir haqqında yazan bütün tədqiqatçıların yekdil fikri belədir ki, şəhərin çiçəklənmə dövrü IX-XII əsrlərə təsadüf etmişdir. Şəmkir cürbəcür

hücumlara da məhz bu dövrdə məruz qalmışdır. Görünür, bu müharibələr həmin dövrdə Şəmkirin çiçəklənməsi, nüfuzunun artması ilə birbaşa bağlı olmuşdur.

Belə ki, şəhər istər beynəlxalq ticarətdə (Şərq ölkələrindən Ərdəbilə gələn karvan ticarət yolu Gəncə və Şəmkirdən keçərək Tiflisə gedirdi), istərsə də ictimai-siyasi həyatda mühüm rol oynamağa başlayır və bununla da müxtəlif hökmdarların diqqətini cəlb edirdi. X əsr coğrafiyaşünası əl-İstəxrinin «Kitab məsalik əl-məmalik» («Məmləkətin yolları kitabı») əsərində deyilir: «...Beyləqan, Varsan, Bərdic, Bərzənd, Şəmaxiyə, Şirvan, Abxaz, Şəbran, Qəbələ, Şəki, Gəncə, Şəmkur və Xunan... böyüklükdə bir-birinə bənzəyən kiçik şəhərlərdir. Bunlar münbit torpaqlı və hər şeyi bir olan yerlərdir...».

İbn-Hövqəl (X əsr) isə «Yollar və məmləkətlər» əsərində yazırdı:

«... Cənzə, Şəmkir və Xunan isə mühüm olmayan vilayətlərdir; şəhərləri gözəl, eyni böyüklükdə və məhsuldardır, geniş yararlı təsərrüfat sahələrinə malikdir» (10,s.l 10)

İbn-Hövqəl Azərbaycan şəhərlərini sayaraq qeyd edir ki, bu şəhərlərin hamısı ağaclarla bürünmüş, taxıl zəmiləri və ərik ağacları ilə örtülmüş, çaylar və bağlarla əhatə edilmişdir. Yaşayış cəhətdən bu vilayətlərin heç biri digərlərindən geri qalmır. Onların meyvələri çox ucuz, yeyinti şeyləri isə, demək olar ki, havayıdır.

X əsrin anonim coğrafiya əsəri olan «Hüdud əl-aləm»dən məlum olur ki, «... Gəncə və Şəmkirdə cürbəcür yun libaslar istehsal edilərək başqa vilayətlərə göndərilirdi». (14, s. 144).

Bu əsərdə Gəncə və Şəmkir əhalisinin əkinçiliklə də məşğul olduğu qeyd edilir, Şəmkir abad, xürrəm və nemətli şəhər kimi xatırlanır.

Bütün bunlar isə Şəmkirin hələ o vaxtlar müxtəlif hökmdarların diqqətini cəlb etməsi üçün əsas olduğunu sübut edir. Ona görə də bu «abad, xürrəm və nemətli şəhər»in əldən-ələ keçməsi, müharibələr meydanına çevrilməsi təsadüfi deyildi.

Tədqiqatçı M.X. Şəriflinin yazdığına görə, X əsrin ikinci yarısında Şəmkir Azərbaycan feodal dövləti (941—981) olan Salarilər dövlətinin tərkibinə daxil olmuşdur (15, s. 195).

X əsrin ikinci yarısmda Gəncədə yeni bir feodal dövləti - Şəddadilər dövləti yaranır və hökmdar Məhəmməd ibn-Şəddad öldürüldükdən sonra onun oğlu Ləşkəri Gəncədə hakimiyyət başına keçir. O, Bərdə və Şəmkir şəhərlərini Salarilərdən alıb Şəddadilər dövlətinə daxil edir. (15, s. 195).

Ləşkəridən sonra Şəddadilər dövlətinə ortancıl qardaş Mərzuban, sonra isə kiçik qardaş Fəzl (Fəzlun) başçılıq etmişdir. Fəzlin hökmdarlığı dövründə (XI əsrin birinci yarısmda) Kaxetiya hökmdarı böyük çar Baqrat Şəddadilər dövlətinə hücum etmişdir. Həmin müharibə ilə əlaqədar tarixi salnamələrdə Şəmkir haqqında bir - birinə uyğun gəlməyən iki versiya mövcuddur.

XI əsrin anonim gürcü müəllifi, habelə Azərbaycan haqqında orta əsr gürcü mənbələrində deyilir: «Böyük və müzəffər çar Barqat Ran ölkəsindən çox əsir tutdu və Şanxor (Şəmkir) şəhərinə getdi. O, belə hesab edirdi ki, sabah şəhəri

alacaq və dağıdacaq, lakin həmin gecə Fəzlun öz nümayəndəsini göndərib üzr istədi...» (15, s. 198).

Münnəcimbaşının «Cami əd-düvəl» əsərində isə oxuyuruq: «1026-27-ci ildə Abxaz çarı Arran ölkəsinə hücum edib Şəmkürü bir neçə gün mühasirə etdi. Fəzl isə böyük bir qoşunla ona qarşı hərəkət edib döyüşə başladı və onu qaçmağa vadar etdi. Baqratın on mindən artıq əsgərini qırdı, Abxaz hakimi məğlub olub geri qayıtdı». (15, s. 198).

Bu mənbələrin hansının həqiqətə daha yaxın olduğunu söyləmək çətindir. Lakin fakt-faktlığında qalır ki, XI əsrin birinci yarısından başlayaraq Şəmkirin üstünü qara buludlar almışdı və şübhəsiz, burada əgər döyüş getməyibsə belə, yenə şəhər qoşunlarının tapdağı altında olmuşdur.

Tarixə aid tədqiqatlar sübut edir ki, həmin əsrdə Şəmkir ətrafında qalmaqal bununla bitməmişdir. M.X. Şərifli gostərir ki, XI əsrin ortalarında Gəncə Şəddadilər dövləti zəifləyir. İki ay hakimiyyətdə olan kiçik yaşlı Ənuşirəvanın vaxtında ölkəni xəyanət bürüyür. Şəhərin müdafiə məqsədli bir neçə qalasını düşmənlərə vermək planlaşdırılır. Qalalarnı təslim edilməsinə etiraz edən rəislər Şəmkir yaxınlığında hərbi düşərgədə görüşərək həmin qalaların başqa dövlətlərə təslim edilməsini xəyanət və alçaqlıq hesab edib, qalaları təslim etməməyi qərara alırlar.

Ənuşirəvanın əmisi, Fəzlin oğlu Əbüləsvar Şavur bu zaman Şəmkür darvazası qarşısına gəlir. Dövlət çevrilişi üçün rəislər qabaqcadan hazırlaşdıqlarından onlar Şəmkür darvazasını açıb onu şəhərə buraxırlar. Beləliklə, Ənuşirəvanın hakimiyyətdən kənar olduğu elan edilir və hakimiyyətə 1049/50-ci ildə Əbüləsvar ibn-Fəzl Şavur keçir. Şavur Şəmkürda qayda-qanun yaratdıqdan sonra Gəncəyə gedir. Şəhəri öz hakimiyyəti altına alaraq bütün Arran torpaqlarını və qalalarını birləşdirib hakimiyyətə başlayır (15, s. 209). Göründüyü kimi, bu dövrdə Şəmkir şəhəri hakimiyyət uğrunda sülalədaxili mübarizənin mərkəzində olmuşdur. Lakin o vaxt hakimiyyət dəyişikliklərinin niyə məhz Şəmkirdə baş verdiyini aydmlaşdırmaq mümkün deyil.

Bu hadisələrdən heç 15 il keçməmiş Şəmkir yenidən müharibə meydanına çevrilir. Bu barədə yenə də M.X.Şəriflinin tədqiqatlarından istifadə edəcəyik. Müəllif göstərir ki, 1065-ci ildə Gəncə hakimi əmir Əbüləsvar erməni və Rum torpaqlarına hücum edib onları tutdu və Gəncəyə qayıtdı. Bu zaman alanlar IV Baqratla ittifaq yaradaraq böyük qoşun dəstəsi ilə Arran ərazisinə soxuldular, əhalini qırmağa, ölkəni qarət etməyə başladılar. Onlar Şəmkür yaxınlığında 200-dən artıq könüllü öldürüb, kəndləri qarət edərək əhalini qıra-qıra Gəncəyə qədər gəldilər (16, s. 21).

1073/74-cü ildə Fəzlun öz atasına (II Fəzl) qarşı qiyam qaldıraraq əmirliyi onun əlindən alır və atasına Xarak (Çarek) qalasını verir. O, burada ibadətlə məşğul olur (15, s. 223).

V.Minorskinin yazdığına görə, Xirak və ya Çarek qalası Şəmkür çayı yaxınlığında olmuşdur. Lakin söhbətin hansı qaladan getdiyi dəqiqləşdirilmir (16, s. 31).

Yuxarıda qeyd olunduğu kimi haqqında söhbət açılan dövrdə Şəmkirin çiçəklənən və nüfuzlu şəhərlərdən birinin olmasını burada nəhəng qüllənin - Şəmkir minarəsinin inşa edilməsi də təsdiqləyir. Şəmkir qülləsi kimi tanınan minarənin olduğunu hələ qədim dövrlərdən müxtəlif tarixçi və səyyahlar öz əsərlərində qeyd etmişlər. Minarənin rus səyyahı Q.Qaqarin və fransız Dyubua de Monpere tərəfindən müxtəlif illərdə çəkilmiş rəsmləri qalmışdır. E.Eyxvald 1826-cı ildə minarəni salamat gördüyünü yazmışdır. B.Dornun yazdığna görə, «1860-1861-ci ildə minarənin bünövrəsinin ancaq kərpic qalıqları və başqa daş parçaları ilə dolu olan çalası qalmışdır». B.Dorn yazır ki, «mən bu daşların bir neçəsini Asiya muzeyinə qoymaq üçün özümlə götürdüm».

1836-ci ildə Sankt-Peterburqda nəşr olunmuş «Yelizavetpolski okruq» kitabında N.Florovski qeyd edir: "O yerlərin bütün qədim abidələri içərisində ən görkəmlisi Şəmkir çayının sol sahilində, şəhərin 25 verstliyində düzəngahın ortasında ucaldılan və təqribən 30 verstlik məsafənin mənzərəsini göz önündə canlandıran Şəmkir qülləsidir. Qülləni düzəngahda yerləşən qala və başqa tikililər əhatə edir. Onlar kvadratşəkilli hasara alınmışdır. Hasar şimaldan cənuba doğru yüz sajen uzunluğundadır, eni isə altmış sajendir. Qüllənin tikilməsi vaxtı məlum deyildir. Amma rəvayətə görə, Makedoniyalı İskəndərin dövründə inşa edilmişdir. Əsas sütunlar kub formasındadır və onların eni yeddi arşın, hündürlüyü isə altı tam dörddəbir arşındır. Bu özüllərin üstündə eyni füqurlu başqa sütunlar tikilmişdir. Onların eni altı arşın və hündürlüyü beş arşındır. Kub formalı sütunun başında diametri aşağı hissədə beş, yuxarı hissədə isə dörd arşın olan 18 sajen hündürlüyündə dəyirmi sütun ucalır. Bütövlükdə qurğunun hündürlüyü iyirmi iki sajenə çatır. Onun yuxarı hissəsində dördkünc karniz hörülmüşdür. Karnizin hər tərəfi beş arşındır. Karnizdən alt tərəfdə kufi üslubi ilə yazılar həkk olunmuşdur. Karnizin üstündə hündürlüyü altı sajen olan daha bir dairəvi sütun ucalır. Həmin sütunun başı uçub dağılmaqdadır. Onun özül hissəsinin diametri bir sajendən artıq olmaz. Bütövlükdə qüllənin hündürlüyü 28 sajenə çatır. Qüllənin içərisi ilə dolama pilləkən qalxır. Onun təqribən 124 böyük pilləsi vardır ki, bunlar da demək olar uçmuşdur. Pillələrlə qalxmaq olduqca çətindir. Karnizdən aşağı tərəfdə qüllənin içərisində, görünür, daha bir pilləkən olmuşdur. Divarda olan oyuqlar hər halda belə bir pilləkən olduğunu sübut edir. Yəqin ki, pillələr bu oyuqlara bərkidilibmiş. Qüllə qum və qırmadaş ilə yoğrulmuş gəclə kərpicdən hörülmüşdür. Son dərəcə möhkəm və səliqəli hörgüdür. Gəc qarışığı elə möhkəmdir ki, kərpiclə bərkidilmişdir. Təəssüf ki, zaman keçdikcə qədim dövrün bu gözəl abidəsinin bir çox yerlərinin dağılması və hətta qüllənin xeyli dərəcədə yana əyildiyi nəzərə çarpır» (17, s. 363-364).

Göründüyü kimi, uzun illər Şəmkir minarəsi haqqında ancaq ayrı-ayrı qeyd və mülahizələr mövcud olmuşdur. Lakin ötən əsrin 70-ci illərində bu mülahizələr öz elmi təsdiqini tapmışdır. Şəmkir ərazisində tapılmış daş kitabəni tarix elmləri doktoru Məşədi xanım Nemətova oxumuş və bu qənaətə gəlmişdir ki, kitabə Şəmkir minarəsinin üstündə olmuşdur.

Kitabə ərəb dilində iri qabarıq kufi xətti ilə dörd sətirdə yerli ağ daşdan düzəldilmiş lövhəyə həkk olunmuşdur. Mətnin Azərbaycan dilinə tərcüməsi

belədir: «Allahın adıyla. Bu gözətçi bürcünün, yüksək Allahın qüdrəti ilə bina olunmasına və onun istəyi və onun mühafizəsi və tam himayəsi altında, mömin Şeyx M.. .L-B bin Əfşin. malı ilə mühafizə binaları silsiləsindən dörd yüz doxsan üçüncü ildə əmir etmişdir» (18, s. 19).

M.Nemətovun qənaətinə görə, hicri 493-cü il 1099-1100-cü miladi illərinə uyğundur. Bu qüllənin XI-XII əsrlərdə tikilməsinin təsdiqi bir daha Şəmkirin həmin əsrlərdə tanmmış və qüdrətli şəhər olduğunu sübut edir. Çünki qüllə kitabədə deyildiyi kimi «mühafizə bina silsiləsindəndir». Deməli, həmin dövrdə şəhərin mühafizəsinə ciddi ehtiyac olmuş və bu məqsədlə bir neçə bina və gözətçi bürcləri inşa edilmişdir.

Z.Bünyadovun «Azərbaycan Atabəyləri dövləti» əsərindən isə öyrənirik ki, XII əsrin birinci yarısında Şirvanşahlar dövlətinin qərb sərhədləri indiki Gəncə, Şəmkir, Qax, Zaqatala və Şəki rayonlarına qədər uzanırdı.

Əsərdən məlum olur ki, Şəmkir torpaqları XII əsrin ortalarından barı-bərəkəti ilə fərqlənmiş, Atabəylər dövlətinin tərkibində olmuşdur. Bununla belə, əsrin sonunda Şəmkir yenidən müharibə meydanına çevrilmişdir.

Belə ki, Atabəy Əbu-Bəkrdən narazı olan Şirvanşah I Axsitan Əbu Bəkrin hakimiyyət iddiasında olan qardaşı Əmir Əmiranla birləşərək onun hakimiyyətinə qarşı vuruşmaq üçün gürcü çarı Tamaraya müraciət edirlər.

Atabəy Əbu Bəkrin hakimiyyəti illərində (1191-1210) çar Tamaranın bu ölkəyə hücumundan söhbət açan Z.Bünyadov yazır: "Birləşmiş gürcü - Şirvan qoşunları 1194-cü il iyunun birində cümə axşamından cüməyə keçən gecə Şəmkir vilayətinə daxil oldular. Çar (David Soslon - qeyd Z.Bünyadovundur) və onun sərkərdələri Şirvanşah və Əmir Əmiran öz qoşunları ilə birlikdə sevincək halda Allaha şükür edirdilər ki, düşmənə lap yaxından rast gəldilər. Ancaq onlar çox təəccübləndilər ki, düşmənlər, yəni Əbu Bəkrin qoşunları Gəncəni və Arran düzünü tərk edərək, beləliklə, dağlar tərəfindən müdafiə oluna biləcəklərindən özlərini məhrum edərək çox tələsik onlara qarşı çıxmışlar" (19, s. 93).

Şəmkir ətrafındakı vuruşmada atabəy Əbu Bəkir məğlub olur və Beyləqana çəkilir. Gürcü-Şirvan qoşunları orada da onun qoşunlarını məğlub edirlər. Qaliblər Gəncəyə qayıdırlar, sakinlər şəhəri Əmir Əmirana təhvil verirlər. O, Gəncə əmiri olur. Şəmkir şəhəri də ona verilir(19,s. 96-97).

«Padşahların tarixi və mədhi» adlı gürcü xronikasında qeyd edilir ki, bu hücum nəticəsində Gəncəyə «hakimiyyətdən və zadəganlardan tutmuş qullara qədər 12 min adam, 29 min at, 7 min qatır, 15 min dəvə gətirilmişdi; qiymətli ev əşyalarınm, qızılın və parçaların sayı-hesabı yox idi...» (20, s. 62-64).

Şübhəsiz, talanıb aparılan bu sərvət içərisində Şəmkirin də «payı» az olmamışdır.

XIII əsrin 20-ci illərində monqollar orta Asiyada Xarəzmşahlar dövlətini dağıtdılar. Dövlətin başçısı Məhəmməd II Ələddinin Hindistana çəkilmiş oğlu sultan Cəlaləddin bir neçə il sonra qoşunla Azərbaycana doğru gəldi. Xarəzmşahlar sülaləsinin nümayəndəsi olan Ən-Nəsəvi özünün «Sultan Cəlaləddin Mankburnunun həyatının təsviri» əsərinin «Sultanın Gəncəni və Arranın digər şəhərlərini tutması haqqında hekayət» bölməsində deyilir: «Sultan

Gürcüstanı tərk edib bir müddət Təbrizdə dayandı. Ur xanı onun adamları ilə Gəncəyə göndərdi, o da *şəhərin və ona birləşdirilmiş* (kursiv bizimdir-M.H.) Beyləqan, Şəmkir və Şutur kimi mahallarının idarəsini öz əlinə aldı» (21, s. 163).

Əlavə edək ki, bu hekayətdə söhbət 1218-1231-ci illərdən gedir. Bir də Ə.Sumbatzadəyə istinadən onu əlavə edək ki, 1225-ci ildə atabəy Özbəkin ölümündən sonra monqol işğalına kimi bütün Arran kimi Şəmkir də Cəlaləddininin hakimiyyəti altında olmuşdur. (13). Ən-Nəsəvinin yazdığına görə, Sultan Cəlaləddin üçaylıq müharibəsindən sonra 1226-cı ildə Qaq və Kəvəzini tutmuşdur. Q.Qeybullayev bu faktı belə şərh etmişdir: O dövrdə Qaq qalasının hakimi Bəhram əl-Gürcü idi. Azərbaycanın indiki Qazax, Tovuz, Şəmkir və Gürcüstanın Qardabani rayonları onun hakimiyyətinə tabe olan ərazilər idi (22, s. 444-445).

Bu fakt da həmin dövrdə Şəmkirin Cəlaləddinin hakimiyyəti altında olduğunu təsdiq edir. Göründüyü kimi, hər dəfə döyüşlərdən sonra Şəmkirin tabeliyi dəyişdirilmişdir. Bütün bunlar da şəhərin o dövr üçün mühüm əhəmiyyət kəsb etməsindən xəbər verir. XIII əsr ərəb səyyahı və coğrafiyaşünası Yaqut əl-Həməvi «Müğəm əl-Büldən» («Ölkələrin əlifba ilə sadalanması») əsərində Şəmkirin adını belə xatırladır: «Arran geniş bir vilayətin ərəbcə olmayan adıdır, çoxlu şəhərləri var, onların içərisində Cənzə (xalq onu Gəncə adlandırır), Bərdə, Şəmkür, Beyləqan şəhərləri vardır» (23, s. 10). Yaqut əl-Həməvi başqa bir əsərində isə Azərbaycan şəhərləri haqqında məlumat verir və Şəmkiri belə təsvir edir:" Şəmkir Arran ərazisində qaladır. Gəncədən birgünlük yol və on bir fərsəx məsafədə yerləşir. Şəmkür qədim şəhər sayılır» (23, s. 28). M.Heydərovun tədqiqatları isə XIII əsrin əvvəllərində Şəmkirin inkişaf etmiş ticarət-sənət mərkəzi olduğunu bir daha təsdiq edir. Onun qənaətinə görə bu dövrdə şəhərdə keramika və metal emalı inkişaf etmişdi. (24).

Bütün bunlar monqol işğalına qədərki Şəmkir barədədir. Və bu məlumatlar Şəmkirin daha bir sınağa - monqol hücumuna məruz qalmazdan əvvəl gözəl və inkişaf etmiş şəhər olduğundan söhbət açır.

XIII əsrin əvvəllərində monqol işğalı Azərbaycanın iqtisadi və mədəni həyatına ağır zərbə vurmuşdur. Xarəzmşah sultan Cəlaləddinin işğalçı müharibələrindən sonra Cənubi-Qafqazda monqolların hücumunu dəf edəcək qüvvə qalmamışdı. Bundan istifadə edən monqollar Azərbaycana hücum etdilər. Molar Noyonun başçılıq etdiyi monqol qoşunları əvvəlcə Gəncəni tutdular, sonra isə Şəmkiri mühasirəyə aldılar. Şəhərin işğalını «Tarix» əsərində təsvir edən Gəncəli Kirakos yazır: «Şəhər sakinləri düşmənin qala divarlarına yaxınlaşmasını çətinləşdirmək üçün qabaqcadan şəhərin ətrafı boyunca xəndək qazmışdılar. Lakin o, (görünür, söhbət monqol sərkərdəsindən gedir-M.H.) əmr etdi ki, divara dırmaşmaq asan olsun. (Şəhər sakinləri)? içərisindən od atdılar və xəndəkdə nə vardısa hamısını gecə yandırdılar. Lakin səhəri gün Mollar Noyon bunu görüb öz əsgərlərinə əmr etdi ki, hər kəs bir topa torpaq götürüb xəndəyə atsın. Onlar xəndəyə torpaq atanda xəndək divar bərabəri doldu və qoşunlar şəhərə soxuldular, onu tutdular və əhalini qılıncdan keçirdilər, tikililəri yandırdılar, hər kəs nə tapdısa, özünə götürdü». (8). Qeyd etdiyimiz kimi, Şəmkir əsrlər boyu

mütəmadi olaraq yadellilərin işğalına məruz qalıb. Lakin şəhər heç vaxt monqol işğalında olduğu kimi tarımar edilməyib. Tarixə dair tədqiqatlar sübut edir ki, monqollar demək olar ki, Şəmkirin bütün əhalisini qılıncdan keçiriblər. Çünki digər şəhərlərin sakinləri işğalçıların soyğunçu tələblərinə tabe olaraq öz həyatlarını qoruya bilmişdilər. Amma Şəmkir əhalisi kənardan kömək almasa da, monqollara müqavimət göstərmişdi. Təsadüfi deyil ki, akademik Ə.Sumbatzadə Azərbaycanın monqollar tərəfindən işğalını şəhər üzərində qopan və on minlərlə insan həyatını aparan dəhşətli qasırğaya bənzətmişdir... Həmdulla Qəzvini «Həzhətül-qülub» («Ürəklərin əyləncəsi») əsərindəki monqol işğalından sonrakı Şəmkiri belə təsvir etmişdir: «Beyləqan və Şəmkür monqollar tərəfindən dağıldıqdan sonra, hətta demək olar ki, yüz il xarabalıq olmuş, baxımsız qalmışdır...» «... Gəncədən *indi xarabalıq olan* (kursiv bizimdir-M.H) Şəmkir şəhərinə iki fərsəxdir» (25, s. 56).

Tədqiqatçı Elturan Avalov yazır ki, monqolların dağıtdığı Gəncə, Beyləqan və başqa şəhərlər sonralar bərpa edilsə də, Şəmkir şəhəri bərpa olunmamışdır. XVII əsrin rus səyyahı Arseni Suxanovun qeydləri də şəhərin uzun illər bərpa olunmadığını təsdiq edir. O, Şəmkir barədə yazırdı: «Yolda məskun olmayan böyük bir şəhərə rast gəldik, divarları kərpicdən hörülmüşdü, bünövrəsi daşdan idi, bayır qalasının içərisində bir qala da vardı. Hər ikisinin divarı uçub tökülmüşdü. Yalnız minarə həm hündür idi, həm də yaxşı qalmışdı. Bütövlükdə şəhəri beş çay kəsib keçirdi. Məcranın kənarlarınca çayın qolları axırdı. Biz çayı keçib kimsəsiz şəhərin kənarında gecələdik». (12)

Bütün bunlardan sonra qeyd etmək yerinə düşər ki, Şəmkirin monqollar tərəfindən dağıdıldığı tarix mübahisəsidir. Belə ki, bəzi tarixçilər şəhərin 1235-ci ildə, bəziləri 1236-cı ildə, bəziləri isə hətta 1225-ci ildə dağıdıldığını qeyd etmişlər.

R.Qurbanov «Şəmkürün monqollar tərəfindən dağıdılması tarixinin dəqiqləşdirməsi haqqında» adlı məqaləsində erməni mənbələrinə əsaslanaraq monqolların Gəncəni 1231/-32-ci illərdə tutduğunu yazır.

Ən-Nəsəvidə monqolların xarəzmşah Cəlaləddinə təslim olmaq barədə təklifini 1231-ci ildə verildiyini və rədd cavabı alındıqdan sonra qoşunların Gəncəyə yeridildiyini yazmışdır. Gəncəli Kirakos onun özünün və müəlliminin monqollar tərəfindən əsr alındığından ətraflı söhbət açır. Kirakos və onun müəllimi Vanakoan 1233-cü ildə Tovuz yaxınlığında əsir düşüblər. Monqolların işğalçılığı sürətlə apardıqlarına əsaslanan tarixçilər onların Şəmkirdə də çox ləngimədiklərini qeyd edir və göstərirlər ki, Şəmkir və Tovuz eyni ildə işğal olunmuşdur. Deməli, monqollar Şəmkiri məhz Kirakosun və onun müəlliminin əsir düşdükləri ildə -1233-cü ildə dağıtmışlar... (8).

Bundan sonra salnamə və səyahət qeydlərində Şəmkirin adı nisbətən az çəkilir. Məlum olur ki, XVI əsrin əvvəllərində Şəmkir mahalı Azərbaycanın Züləqədər tayfa başçılarının irsi hakimiyyətinə keçir. Tarixdən məlumdur ki, 1736-ci ildə Nadir şah təntənəli şəkildə taxta çıxanda buna Gəncə və Qarabağ hakimləri etiraz etmişdilər. Onlar Səfəvi dövlətinin bərpasını istəyirdilər. Ona görə də Nadir şah taxta çıxandan sonra Gəncə və Qarabağ hakimlərini «yerində

oturtmaq üçün» Qazax, Şəmkir və Şəmşəddil mahallarının ixtiyarını Gəncədən alıb Gürcüstan valisinə verdi. Yenə də Şəmkir mahalı yadellilərə tabe etdirildi (26, s.36:27, s.13) Mirzə Adıgözəl bəyin «Qarabağnaməsi»ndə deyilir ki, 1752-ci ildə Gürcüstan valisi İrakli xan məsləhət və məşvərət bəhanəsilə görüş təşkil edir və orada gəncəli Şahverdi xanı, qarabağlı Pənah xanı, qaradağlı Kazım xanı, irəvanlı Hüseynəli xanı və naxçıvanlı Heydərqulu xanı xaincəsinə həbsə atır. Bıınu eşidən Şirvan xan Hacı Çələbi öz qoşunu ilə hücuma keçib İraklinin qoşunlarını Tiflisin beş ağaclığına qədər qovur, xanları azad edir. Hacı Çələbi xan «qaçmaqda olan gürcü qoşununun qabağını Şəmkirdə, Şəmsəddinlidə və Qazaxda kəsib çox adam tələf etdi. Hacı Çələbi Baydar torpağında səngər qazdırdı. Oğlu Ağakişi bəyi Tiflisdən bəri yaşamaqda olan müsəlmanlara hakim və hökmran təyin etdi. Xanları da öz vətənlərinə göndərdi» (26, s. 49-50). Bu dövrdə artıq Rusiya Qafqazda işğalçılıq siyasətinə başlamışdı. 1802-ci ilin sentyabrında Qafqaza vali təyin edilmiş Pavel Sisyanov Gəncəni tutmağa hazırlaşırdı. Jurnalist Əhməd İsayevin yazdığına görə, general-mayor Lazarev Sisyanovu bu şəhərə hücuma həvəsləndirirdi. O, Cavad xanın ehtiyat tədbirləri barədə Sisyanova yazırdı ki, «hər gün Şəmkirədək yola on nəfərlik süvari mühafizə dəstəsi nəzarət edir».

Sisyanov ətrafına xeyli qüvvə toplayıb 1803-cü il noyabrın 29-da Şəmkirə çatdı və oradan təslim olmaq barədə Cavad xana ətraflı məktub yazdı. Cavad xan ona sərt cavab verdi. Sisyanov bir də yazdı. Beləliklə, bu yazışma bir aya qədər davam etdi və Sisyanov Gəncəyə hücuma keçdi.

Bu döyüşün nə ilə nəticələndiyi tarixdən hamıya bəllidir. Biz sadəcə, Sisyanovun qoşunlarının bir ay Şəmkir ərazisində qalmasını xatırlatmaq istədik. Elə həmin ildən Şəmkir də Rusiyaya birləşdirildi. Sonuncu Rusiya - İran müharibəsinin (1826-1828) qanlı səhifələrindən biri də Şəmkir yaxınlığında olmuşdur. 1826-ci ilin sentyabrında rus qoşunları Şəmkir yaxınlığında İran ordusunu darmadağın etmişdir. (27).

Mirzə Yusif Qarabağinin «Qarabağnamələr» silsiləsindən olan «Tarixi-safi» əsərində bu döyüş barədə ətraflı məlumat verilir. Qeyd olunur ki, Şuşa qalasını bir ay mühasirədə saxlayan Abbas Mirzə sərdar Əmir xana Gəncəyə gedib Uğurlu xanla birlikdə Tiflisdən hərəkət edən rus qoşununun qabağını almağı tapşırdı. O, Gəncəyə gəldi. «Əmir xan müşavirə və müzakirədən sonra min qorxu və tərəddüd ilə qoşunu və topları götürüb Gəncədən Şəmkir tərəfə yola düşdü. Gəncə qalasında olan Nəzərəli xana xəbər verdilər ki, o da bir-iki alay qoşun götürüb kömək məqsədilə onların yanına gəlsin». Əmir xan və Abbas Mirzənin böyük oğlu Məhəmməd Mirzə «İraq atlılarını dörd top ilə götürüb çayın bu tayındakı Şəmkirə gəldilər.

Bir gecə keçdikdən sonra general Mədətovun rus qoşunu və adamları ilə onların üzərinə irəlilədiyi xəbəri yetişdi. Əmir xan bu xəbəri eşidən kimi arabaları və çadırları Gəncəyə tərəf göndərdi. Özü və qoşunu dörd topla Şəmkirin bu tayında dayandı». Lakin rus qoşunları Əmir xanın əsgərlərini qaçmağa məcbur etdilər. Mirzə Adıgözəl bəyin yazdığına görə İran qoşunları Şəmkir yaxınlığında məğlub olandan sonra Gəncəni tərk etdilər. General Mədətov bir güllə belə

atmadan Gəncəni işğal etd. Bu barədə general Yermolov 1826-cı ilin sentyabrında çara raport göndərdi... Bütün bu faktlar Şəmkirin XIX əsrdə də müharibələr meydanı olduğundan söhbət açır.

Bununla belə həmin əsrdə Şəmkirin tarixində daha bir maraqlı hadisə baş verir. Almaniyadan Rusiyaya pənah gətirən alman kolonistlərinin bir hissəsi də özlərinə yaşayış yeri kimi qədim Şəmkir ərazisini seçir.

N.İbrahimovun yazdığına görə, 1818-cı ilin sonlarında 488 alman ailəsi Cənubi Qafqaz hüdudlarına çatdı. Çar hökuməti almanların bu diyarda məskunlaşdırılması haqqında Qafqazdakı baş komandan general Yermolovun təşəbbüsü ilə qəbul etdiyi qərarı - «yerli camaata əməksevərlik nümunəsi göstərmək, ən yaxşı əkinçilik və şərabçılıq üsullarını ona öyrətmək» məqsədini əsas götürdü. Dövlət almanların məskunlaşdırılmasına xeyli pul da sərf etmiş, onlara ruslardan daha çox miqdarda torpaq payı vermişdi. 1818-ci ilin dekabrında ilk alman köçkünləri kazakların müşayiəti ilə Yelizavetpola Gəncəyə daxil olublar. 1819-cu ildə vürtemberqlilər Azərbaycanda ilk Alman koloniyasının-Yelenendorfun (indiki Xanlar şəhəri) bünövrəsini qoyublar. N.İbrahimovun yazdığına görə, Yelenendorfla, demək olar ki, eyni vaxtda ondan 40 kilometr aralıda köçkünlər ikinci alman koloniyasını - Annenfeldi (indiki Şəmkir alman məskəni və Georqsfieldi (indiki Çinarlı qəsəbəsi) salıblar. (28).

1906-cı ildə gürcüstanlı almanlar Şəmkir yaxınlığında torpaq sahəsi alıb Eygenfeld (vaxtilə Engelskənd kənd kimi tanınan indiki İrmaşlı kəndi) koloniyasını təşkil edirlər.

Almanlar məskunlaşdıqları ərazidə üzümçülüyün və şərabçılığın inkişafı üçün mütərəqqi üsullardan istifadə edir, bu ərazilərə yeni əkinçilik və təsərrüfat mədəniyyəti gətirirdilər. N.İbrahimovun tədqiqatına əsasən demək olar ki, 1906-cı ildə təkcə «Hummel qardaşları» şirkəti Şəmkir stansiyasında indiki Təzəkənd də 45 min rubla 450 desyatin torpaq sahəsi alıb, bunun 60 desyatin sahəsində üzümlük saldılar və elə orada 150 min vedrə şərab tutan zirzəmi tikdilər. 1923-24-cü illərdə bir çox koloniyalarda, o cümlədən Annenfelddə konyak zavodları tikildi.

1918-20-ci illər Azərbaycan Demokratik Cümhuriyyətinin Nazirlər Şurasında məsul vəzifədə çalışmış tarixşünas-alim və jurnalist Rəşid bəy İsmayılovun «Azərbaycan tarixi» kitabında deyilir: «Almanlar yüz yıl əqdəm (1819) Azərbaycana köçüb, Gəncə və Qazax qəzalarında yeddi köy abad etmişlər. Gəncənin sair kəndlərinə nisbətən alman kəndləri susuz və otsuz səhrada çəmənzara oxşayırlar. Almanlar kəndi lisanlarına gözəlcə mühafizə edərək qonşuları türklərin dilini dəxi iyicə bilirlər».

Bu qeyd almanların yerli əhali ilə mehriban münasibətlərdə olduğunu təsdiq edir.

Beləcə zəhmətkeş almanlar Azərbaycanın bir çox ərazilərində, o cümlədən indiki Şəmkir ərazisində dinc ömür sürür, təsərrüfat fəaliyyəti ilə məşğul olurdular. Lakin İkinci Dünya müharibəsi bu dinc həyata son qoydu. 1941-ci il avqustun 28-də SSRİ Ali Sovetinin Rəyasət Heyəti Volqa boyunda yaşayan almanların köçürülməsi haqqında fərman verdi. Fərman deyilirdi ki,

«hərbi hakimiyyət orqanlarının əldə etdiyi dəqiq məlumatlara əsasən, Volqaboyu rayonlarda yaşayan almanların məskunlaşdığı rayonlarda partlayışlar törətməli olan minlərlə və on minlərlə təxribatçı və casus vardır». Bu Fərmanla Dövlət Müdafiə Komitəsinə Volqaboyu almanlarının təcili olaraq Novosibirsk, Omsk vilayətlərinə, Qazaxıstana köçürülməsini təmin etmək tapşırılmışdı. Həmin fərman SSRİ-nin digər ərazilərində məskunlaşan almanlara da şamil edildi və Qafqazda, o cümlədən Şəmkirdə yaşayan almanlar 1941-ci ilin sentyabr-oktyabr aylarında sürgün edildilər (29). 1938-ci ildə Annenfeld adı Şamxorla əvəzləndi. 1991-ci ildə şəhərin qədim adı-Şəmkir adı bərpa edildi. Hazırda Şəmkir rayonunun ümumi sahəsi 1660 kvadrat kilometr, əhalisinin sayı 175 min nəfərdir.

## ƏDƏBİYYAT


1. Zeynaloğlu C Müxtəsər Azərbaycan tarixi: Bakı, 1992.
2. Шопен И. Новые заметки на древние истории Кавказа и его обитателей, 1966.
3. Brutzkus J. Eski Kievin Türk-Hazar menşei. // AUD və TSF Dergisi, 1943, s .1V,3-
4. Мирзазаде Ч.Х. Топонимы Азербайджана в средневековых арабских географических источниках. Баку, 1982.
5. Cahangirov M. Milli təşəkkül mərhələsində Azərbaycan dilinin aparıcı üslubları. Bakı, 1989.
6. Nəbiyev N.Ə. Coğrafi adlar. Bakı, 1982.
7. Бакиханов А.А.Гюлистани - Ирам. Баку, 1991.
8. Киракос Гандзакеци. История Баку, 1946.
9. Moisey Kalankatuklu. Albaniya tarixi; Bakı, 1993.
10. Vəlixanlı N.M. IX-XII əsr ərəb coğrafiyaşünas səyyahları Azərbaycan haqqında Bakı, 1974.
11. Bünyadov Z.M. Azərbaycan VII-IX əsrlərdə. Bakı, 1989.
12. Авалов Е. К воссозданию градостроительность структуры средневекового Шамкура. // Известия АН Азербайджанской ССР, сер. Литературы, языка и искусства, 1980, №4.
13. Сумбатзаде А.С. Азербайджанцы - этногез и формирование народа. Баку, 1990
14. Hudud al-Alam. The region of the world. A Persian geography 272a.h. – 382 a.d. London, 1937.
15. Şərifli M.X. IX əsrin ikinci yansi - XI əsrdə Azərbaycanın feodal dövlətləri. Bakı, 1978.
16. Minorski V.F. Studies in Cavcasian history. London, 1953.
17. Флоровский Н. Елизаветпольский округ.// Обозрение российских владений за Кавказом, часть 2. Спб., 1836.
18. Nemətova M. Əsrlərin daş yaddaşı. Bakı, 1987.
19. Bünyadov Z.M. Azərbaycan Atabəylər dövləti. Bakı, 1984.
20. История и восхваление венценосцев. Тбилиси, 1954.

21. Ан-Насави. Жизнеописание султана Джалал ад-Дина МалкБурны. Перевод с арабского и комментарий. З.М. Буиъятова. Баку, 1973.
22. Гейбуллаев Г.А. К этногенезу азербайджанцев. Т.й, Баку, 1991.
23. Йакут ал-Хамави. Муджам ал - Булдан (сведения об Азербайджане). Баку, 1982
24. Гейдаров М.Х. Города и городское ремесло Азербайджана в XIII - XVII вв. Баку, 1982.
25. Хамдаллах Казвини. Нузхат ал - Кулуб (материалы по Азербайджану). Баку, 1983.
26. Mirzə Adıgözəl bəy. Qarabağnamə. // Qarabağnamə. 1 kitab. Bakı, 2006.
27. Mirzə Yusif Qarabağlı. Tarixi - Səfi.// Qarabağnamələr. II kitab. Bakı,2006.
28. Ибрагимов Н. Немецкие страницы истории Азербайджана . Баку, 1995.
29. Джафарлы М. Немцы в Азербайджане. Баку, 1998.

# ŞƏMKİR:
# ARXEOLOJİ İRSİ TARİXİ VƏ MEMARLIĞI

# XÜLASƏLƏR

# BİRİNCİ RESPUBLİKA ELMİ-PRAKTİK KONFRANSI

## BABAYEV İ. A., KNAUSS F., QAQOŞİDZE. Y.

***Azərbaycan, Almaniya və Gürcüstanın birgə beynəlxalq arxeoloji ekspedisiyasının 2006-2007-ci illərdə Şəmkir rayonunun Qaracəmirli kəndində apardığı qazıntıların ilkin nəticələri (İdealtəpədə arxeoloji qazıntılar)***

Şəmkir rayonunun Qaracəmirli kəndinin ətrafı, Azərbaycanın bütün digər Kür çayı boyu ərazisi kimi müxtəlif dövrlərə aid arxeoloji abidələrlə zəngindir. Bu abidələr ilk tunc dövründən son orta əsrlərə qədər böyük dövrü əhatə edir. Bir çox hallarda bu abidələr müxtəlif torpaq işləri zamanı aşkar olunur.

Keçən əsrin 80-ci illərinin əvvəllərində Qaracəmirli kəndindən 6-7 km şimalda yerləşən bir sahədə kiçik təpəciklər traktorla hamarlanan zaman e. ə. I minilliyin ortalarına aid İranın Əhəmənilər dövrü mədəniyyəti üçün səciyyəvi olan bir ədəd daş sütunaltlığı tapılmışdı. Qafqazda birinci dəfə belə sütunaltlıqları 1958-ci ildə Azərbaycanın Qazax rayonunda, son vaxtlarda isə Şərqi Gürcüstanda Qumbati adlı yerdə aşkar olunmuşdur.

Azərbaycan, Almaniya və Gürcüstanın birgə beynəlxalq ekspedisiyası 2006-2007-ci illərdə ümumiliklə iki ay ərzində Qaracəmirli kəndi yaxınlığında Əhəmənilər dövrünə aid abidəni öyrənmək məqsədi ilə qazıntılar apararaq çınqıl bünövrə üzərində çiy kərpiclərlə tikilən binanın qalıqlarını üzə çıxarmışdır. Binanın böyük zallarının hər birinin içərisində 4 ədəd daş sütunaltlıqları olmuşdur. Tapılan sütunaltlıqların üstünə bina tikilərkən ağac sütunlar qoyulmuşdur. Ekspedisiyanın aşkar etdiyi sütunaltlıqlarının 4 ədədi öz yerində tapılmışdır. Qafqaz üçün bu nadir hadisədir. Bu bina qalıqları aşkar edildiyi kiçik təpəcik Qafqazda ilk dəfə belə bina qalıqlarını tədqiq edən Azərbaycan arxeoloqu İdeal Nərimanovun şərəfinə «İdealtəpə» adlandırılmışdır.

Qazıntılar nəticəsində müəyyən olunmuşdur ki, aşkar edilən abidə müstəqil bina deyil, daha mühüm binaya giriş binası (propleya) kimi tikilmişdir. Əsas saray tipli binanın qalıqları isə 200 m qərbdəki təpənin altında yerləşir.

Ekspedisiyanm bütün maliyyə xərclərini Almaniya (Gerda Henkel Fondation) ödəmişdir. Maliyyə vəsaiti olarsa, Qaracəmirlidə qazın-tılar davam etdiriləcəkdir.

## DOSTİYEV T.M.

***2006-2007-ci illərdə Şəmkir şəhər yerində aparılmış arxeoloji tədqiqatlar***

Məruzədə orta əsr Şəmkir şəhər yerində 2006-2007-ci illərdə aparılmış arxeoloji qazıntıların başlıca yekunlarından bəhs edilir. 2006-cı ildo şəhər yerinin şəhristan hissəsində kiçik, stratiqrafik qazıntı mədəni təbəqənin xarakterini və

xronoloji çərçivəsini müəyyənləşdirməyə imkan vermiş, VIII - XIII əsrlərdə burada qaynar şəhər həyatının olduğunu təsdiqləmişdir. 2007-ci il qazıntıları nəticəsində Narınqalanın şərq divarı 80 m məsafədə torpaq qalaqlarından təmizlənərək bünövrəyədək tədqiq edilmişdir. Narınqalanın divarları Arran memarlıq məktəbi üçün səciyyəvi olan qarışıq hörgü üslubunda tikilmiş və Azərbaycanın orta əsr hərb memarlığının incisidir.

Narınqalanın içərisində (IV qazıntı) aparılan qazıntı burada mədəni təbəqə yatımının 5 m-ə çatdığını göstərmişdir. İki təbəqə müəyyənləşdirilmişdir: XVIII-XIX əsrlərə aid üst mədəni təbəqə və qalınlığı 4 m-ə çatan orta əsrlərə aid alt mədəni təbəqə. Alt mədəni təbəqədə yüksək şəhər mədəniyyətinə dəlalət edən istehkam qalıqları, müxtəlif təyinatlı tikililərin bünövrə və ya divarlarının qalıqları, təndir və ocaqlar, quyular, kanalizasiya xətti üzə çıxarılmış, əmək alətləri, silahlar, məişət əşyaları və bəzəklər ilə təmsil olunan külli miqdarda IX-XIII əsrlərə aid maddi mədəniyyət nümunələri əldə edilmişdir.

**BƏŞİROV R.Y.**

***Şəmkir şəhər yerində XVIII-XIX əsrlər mədəni təbəqəsi***

2007-ci ildə orta əsr Şəmkir şəhərinin xarabalıqlarında aparılan arxeoloji qazıntılar zamanı XVIII-XIX əsrlərdə Narınqaladan istifadə olunduğuna dəlalət edən küllü miqdarda faktik materiallar əldə olunmuşdur.

Narınqalanın içərisində, IV qazıntı sahəsində dəhliz və iki otaqdan ibarət XIX əsrə aid bina qalıqları aşkarlanmışdır. XVIII-XIX əsrlər təbəqəsində xeyli miqdarda şirsiz və şirli saxsı qab qırıqları, saxsı qəlyan başlıqları, Rusiyada istehsal olunmuş çini qab nümunələri, dəmir və metal alət və məişət əşyaları, şüşə məmulatı, rus pulları tapılmışdır.

Arxeoloji qazıntıların nəticələri XIX əsrin əvvəllərindən 70-ci illərinədək orta əsr Şəmkir şəhərinin Narınqalasından rus hərbçilərinin istifadə etdiyini, burada rus hərbi hissəsinin yerləşdiyini təsdiqləməyə əsas verir.

**PİRQULİYEVA Q.A.**

***2007-ci ildə Şəmkir qazıntılarından aşkar edilən mis sikkələr haqqında***

Məruzədə Şəmkir şəhər yerində 2007-ci ildə aparılan arxeoloji qazıntılar nəticəsində aşkar edilmiş mis pullardan bəhs olunur.

Numizmatik material əsasən müxtəlif dəyərli mis nominallardan: fuluslardan, dirhəmlərdən və qəpiklərdən ibarətdir.

Faiz etibarı ilə Azərbaycan Atabəylərinin zərb etdikləri sikkələr üstünlük təşkil edir. Əldə edilmiş mis pullardan ən erkəni abbasilər dövrünə, son nümunələr isə XIX əsrə aiddir.

Numuzmatik materiallardan aydın olur ki, Şəmkir şəhərində VIII əsrdən XIII əsrin əvvəllərinə qədər qaynar həyat olmuşdur.

**BƏŞİROV R.Y., HÜSEYNLİ N.N.**

***Orta əsr Şəmkir şəhərinin qırmızı boyalı küplərinə dair***

2007-ci ildə Şəmkir şəhər yerində aparılan arxeoloji qazıntılar zamanı külli miqdarda saxsı nümunəbri əldə olunmuşdur. Saxsı məmulat içərisində üzəri qırmızı boya ilə boyanmış küplər xüsusilə diqqətəlayiqdir. Müəlliflər tərəfindən qırmızı boyalı küplərin 40-a yaxın fraqmentinin təhlili aparılmış və bu qırmızı boyalı küplər üzərinə vurulmuş ornamental kəmərdə müxtəlif heyvan, insan, quş rəsmləri və həyat ağacı təsvirlərinin izahı verilmişdir. Qırmızı boyalı küplərin nümunələri digər orta əsr şəhərlərindən aşkar olunmuş maddi mədəniyyət nümunələri ilə müqayisəli araşdırılmış və Şəmkir şəhəri üçün xarakterik olan belə küplərin daha çox orta əsr Gəncə və Beyləqan şəhərlərinin dulusçu ustalarının yaratdıqları sənət əsərləri ilə oxşarlıq təşkil etdiyi vurğulanmışdır. Sonda nəticə olaraq qeyd olunur ki, qırmızı boyalı küplər digər orta əsr şəhərləri üçün, XI-XII əsrlər üçün xarakterik olmuşdursa, orta əsr Şəmkir şəhər yerindən tapılmış nümunələr X-XII əsrə aiddir və Şəmkir şəhəri Arran keramika məktəbinin mərkəzlərindən biri olmuşdur.

**HÜSEYNOVA S.B., QASIMOV V.A.**

***Şəmkirdən tapılmış zərnaxışlı keramika haqqında***

Orta əsr Şəmkir şəhərgahının qala hissəsində, IV sahədə aparılmış arxeoloji qazıntılar zamanı müəyyən miqdarda zərnaxışlı keramika parçaları aşkar edilmişdir.

Tədqiq edilən material bitki mənşəli boya ilə bəzədilmiş, o qədər də böyük olmayan piyalələrdən, həmçinin, vazalardan ibarətdir. Material XI -XIII əsrin əvvəllərinə aiddir. Şəmkirin bəzi materialları öz analoqlarını orta əsr Kiran materialları arasında tapır. Yaxınlıqda yerləşmiş Köhnə Gəncənin materialları sırasında analoqların yoxluğu müəyyən maraq doğurur. Təəssüf ki, hal-hazırda tədqiq edilən materialı hər hansı bir mərkəzə aid etmək qeyri-mümkündür.

**RƏCƏBOVA B.Ə.**

***Şəmkirdən aşkar edilmiş bəzi bəzək məmulatı haqqında***

2006-2007-ci illərdə Azərbaycanın qədim şəhərlərindən olan Şəmkirdə arxeoloji qazıntı işləri aparılmış, külli miqdarda müxtəlif təyinatlı maddi mədəniyyət nümunələri tapılmışdır. Aşkar olunmuş maddi-mədəniyyət nümunələri arasında bəzək məmulatı da vardır. Bu bəzəklər əsasən gil, metal və şüşədən hazırlanmış muncuq, sancaq və bilərziklərdən ibarətdir.

**CƏFƏROVA E.B.**

***Şəmkir şəhərindən aşkar olunmuş şarkonusvari qablar***

Orta əsr Şəmkir şəhərində arxeoloji qazıntılar zamanı 10-dan artıq şarkonusvari qab aşkar olunmuşdur. Onlardan ikisi 2006-cı ildə Şəhristanda, digərləri isə 2007-ci ildə Narınqalada III-IV qazıntı sahəsində tapılıb.

Təqdim olunmuş qablardan birinin üzərində ərəb əlifbası ilə yazı -«Əmri ilə» sözləri vardır. Bu qabların bəzilərinin çiyin hissəsi dairəvi xətlərlə naxışlanmışdır.

Sferokonuslar haqqında öz münasibətlərini bildirən müəlliflərin əksəriyyəti onların IX-XIII əsrlərə aid olduğunu göstərmişdir.

**EMİNLİ C.T., NADİN LÜDVİQ**

***İdealtəpə abidəsindən aşkar olunan keramika məmulatı***

2006-2007-ci illərdə Azərbaycan-Almaniya-Gürcüstan beynəlxalq arxeoloji ekspedisiyası Şəmkir rayonu İdialtəpə abidəsində arxeoloji qazıntı işləri aparmışdır. Qazıntılar zamanı inzibati binanın qalıqları ilə yanaşı, müxtəlif növ maddi mədəniyyət nümunələri, o cümlədən saxsı məmulatı aşkar edilmişdir. Saxsı məmulatı içərisində açıq-qırmızı və qırmızı rəngli düz və dalğavari cızmalarla, həmçinin, qəhvəyi, tünd - qırmızı və ağ boya ilə naxışlanmış qablar xüsusi qrup təşkil edir. Saxsı məmulatı e.ə.V-III əsrləri əhatə edir. İnzibati bina öz əhəmiyyətini itirdikdən sonra burada həyat tamam kəsilməmişdir. Məhz qəhvəyi, tünd-qırmızı və ağ boya ilə naxışlanmış qablar bir qədər sonrakı dövrə aid edilir.

İdealtəpə abidəsindən aşkar edilmiş saxsı məmulatı Sarıtəpə, Qumbati və Kvemo Kedi abidələri ilə həmdövrdür.

**RƏHİMOVA M.N.**

***XX əsrin son rübü - XX əsrin əvvəlində Şəmkir bölgəsinin arxeoloji tədqiqinə dair***

Məruzə XX əsrin 70-80-ci illərində və XXI əsrin əvvəllərində Şəmkir bölgəsində aparılmış arxeoloji axtarış və qazıntıların başlıca yekunlarına həsr edilmişdir. Məruzədə bildirilir ki, keçən əsrin 70-80-ci illərində Şəmkir və Yenikənd SES-lərin inşası ilə əlaqədar bölgədə genişmiqyaslı arxeoloji axtarış və qazıntılar aparılmışdır. Yeni tikintilərin əhatə etdiyi Kür sahiliboyu ərazidə müxtəlif dövrlərə aid onlarla abidə aşkarlanmış, mühüm elmi əhəmiyyət kəsb edən abidələrdə geniş qazıntılar aparılmışdır. Əldə edilmiş arxeoloji materiallar bölgənin qədim keçmişi və orta əsrlər tarixinin bir çox mürəkkəb məsələlərinə aydınlıq gətirməyə imkan vermişdir. Yeni əsrin ilk onilliyində rayonun Qaracəmirli kəndi yaxınlığındakı İdealtəpə yaşayış yerində, rayon mərkəzindən 8-9 km cənubda yerləşən orta əsr Şəmkir şəhər xarabalıqlarında tədqiqatlar uğurlu olmuş, Azərbaycan mədəniyyətinin və tarixinin zənginliyindən xəbər verən çox qiymətli, mötəbər maddi dəlillər toplanmışdır.

**CƏFƏROV H.F.**

***Şəmkirin qədim arxeoloji abidələri***
***(1974-1979-cu illərin arxeoloji tədqiqatlarının nəticələri)***

Məruzədə Şəmkir (Şamxor) arxeoloji ekspedisiyasının 1974-79-cu illərdə Şəmkir SES tikinti sahəsində aparılmış arxeoloji qazıntılardan bəhs olunur. Həmin tədqiqatlar nəticəsində bölgənin tarixi inkişafının eneolit dövründən orta əsrlərədək ayrı-ayrı mərhələlərini əks etdirən müxtəlif xarakterli abidələr aşkar edilib öyrənilmiş, onların elm üçün itirilməsi təhlükəsi aradan qaldırılmışdır. Belə abidələr sırasına Keçili yaşayış yerləri (eneolit, orta tunc dövrləri), «Osman bozu» kurqanları (ilk tunc dövrü), Bitdili yaşayış yeri (orta tunc dövrü) və s. daxildir.

**MÜSEYİBLİ N.Ə., AXUNDOVA G.K.**

***Hacıvəlilər nekropolundan tapılmış arxeoloji materiallar***

Hacıvəlilər nekropolu Şəmkir rayonu ərazisində, Kür çayı üzərində tikilmiş su anbarının sahilində yerləşir. Burada müxtəlif dövrlərə aid qəbirlər mövcuddur. Lakin qəbirlərin böyük əksəriyyəti son tunc - ilk dəmir dövrünə, yəni e.ə. II minilliyin sonu -I minilliyin əvvəlinə aiddir. Abidənin ərazisində müxtəlif

səbəblərdən dağılmış qəbirlərdən arxeoloji maleriallar toplanmışdır. Həmin materiallar saxsı qablar, müxtəlif bəzək əşyaları, silah nümunələrindən ibarətdir.

**ƏLİYEV İ.N, HÜSEYNOVA M.A.**

***Şəmkir rayonunun Qaracəmirli kurqanları***

Məruzə üç Qaracəmirli kurqanının arxeoloji tədqiqinin yekunlarına həsr olunmuşdur. Tədqiq edilmiş kurqanların materialları və konstruksiyası geniş təsvir edilmiş, saxsı məmulatının əsas xüsusiyyətləri, kurqanın etnik mənsubiyyəti, xronoloji çərçivəsi və əlaqələri müəyyənləşdirilmişdir.

**NƏCƏFOV Ş.N.**

***Zəyəmçay nekropolunun daş örtüklü qəbirləri haqqında***

Məqalədə qazıntısı 2003-cü ildə həyata keçirilmiş, Şəmkir rayonunun Düyərli kəndi ərazisində, Zəyəmçayın sağ sahilində yerləşən son tunc-ilk dəmir dövrünə aid Zəyəmçay nekropolundakı daş örtüklü qəbir abidələrindən danışılır. Göstərilir ki, nekropoldakı 130 qəbrin 87-nin üzəri və yaxud örtüyü çaydaşlarından formalaşdırılmış qəbirüstü qurğudan və ya örtükdən ibarət olduğuna görə onlar belə adlandırılmışdır. Bu qəbirlərin örtüyü sadə daş yığımı deyil, bir növ tikili xarakteri daşıyır. Belə bir struktura malik qəbirlər şübhəsiz ki, nekropolda fərqli dəfn adətlərinin bir amili kimi ortaya çıxmışdır. Daha sonra məqalədə bu qəbirlərin quruluşu, salınması, fərqli xüsusiyyətləri və s. haqqında məlumat verilir.

**KVAÇİDZE V.A.**

***Zəyəmçay nekropolunun dəfn adəti (2003-cü il qazıntıları)***

2003-cü ilin yayında Zəyəmçay nekropolunun qazıntı sahəsinin qərbində tədqiqat işləri aparılmış, qeydə alınmış qəbirlər təmizlənərək öyrənilmişdir. Yer səthinin 25-30 sm dərinliyindən 1, 8 m dərinliyə qədər müxtəlif səviyyələrdə 11 qəbir tədqiq olunmuşdur. Bəzi qəbirlər müxtəlif formalı çaydaşları ilə səkkiz qat örtülmüşdür. Belə qəbilər bölgənin son tunc - erkən dəmir dövrü qəbir abidələri üçün səciyyəvi olub, həm də qonşu Gürcüstan ərazisində də rast gəlinir. Dəfn olunanların sümükləri çox dağılmışdır. Bəzi qəbirlərdə ümumiyyətlə, skelet yoxdur, yalnız qara saxsı qablardan ibarət avadanlıq var idi. Ümumilikdə, bu nekropolda 130 qəbir tədqiq olunub.

## XƏLİLLİ F.S.

***Milli Azərbaycan Tarixi Muzeyində mühafizə edilən Şəmkir materialları (Son tunc və ilk dəmir dövrü)***

Azərbaycan Tarixi Muzeyi özünün ilk arxeloji qazıntılarını 1921-ci ildə Şəmkir rayonunun Nüzgər kəndindəki kurqanlarla başlamışdır

Qafqaz Muzeyinin XX əsrin 30-cu illərində Xanlar diyarşünaslıq Muzeyinə verdiyi arxeoloji materiallar (tunc silah və bəzəklər, təbərzin baltalar üçün qəlib və s.) sonradan Azərbaycan Tarix Muzeyinə daxil olmuşdur. Qasım İsmayılov (1960-cı il), Nüzgər (1963-cü il), Qaracəmirli (989-cu il), Bayramlı (2003-cü il) kəndlərində aşkar edilən arxeoloji tapıntılar tunc silahlardan, at əsləhələrindən, müxtəlif növ bəzəklərdən, eləcə də gildən və tuf daşından hazırlanmış qablardan ibarətdir. Bütün tapıntılar Xocalı-Gədəbəy mədəniyyətinə mənsub olub, son tunc və erkən dəmir dövrünə (e.ə. XIII-VIII əsrlər) aiddir.

## AĞALARZADƏ A.M.

***Zəyəmçay yaxınlığındakı bir katakomba qəbiri haqqında***

Məruzədə 2005-ci ildə Bakı-Tbilisi-Ceyhan neft kəmərinin 356-cı km-də, Zəyəmçayın sağ sahilinin yaxınlığında aşkarlanmış katakomba tipli qəbir abidəsindən bəhs edilir. Abidənin qazıntısı zamanı içərisi yanmış quyular aşkar edilmiş və hər bir quyunun içərisində daş və saxsı məmulatından ibarət qalıqlar tapılmışdır. Tapılmış materialların azlığı və dağılması qədim dövrdə katakombanın qarət olunması ehtimalını irəli sürməyə əsas verir.

## AŞUROV S.H.

***Çaparlı son antik - ilk orta əsrlər abidəsi***

Cənubi Qafqaz qaz kəmərinin çəkilişi zamanı Şəmkir rayonunun Çaparlı kəndi ərazisində, yerli əhali tərəfindən «Qışlaq yeri» adlandırılan sahədə arxeoloji qazıntılar aparılmış və nəticədə tikili qalıqları, xristian qəbirləri və məbəd yeri, metaləritmə emalatxanasının qalıqlan və çoxsaylı maraqlı arxeoloji tapıntılar aşkarlanmışdır. Məqalədə abidənin arxeoloji materialları təhlil olunur və nəticələr çıxarılır.

Abidə Azərbaycan ərazisində e.ə. IV - eramızın VIII əsrlərində mövcud olmuş Alban dövlətinin müxtəlif tarixi mərhələlərini əks etdirir.

**XƏLİLOV M.C.**

***Şəmkirin alban dövrü arxeoloji abidələri***

Şəmkir rayonu ərazisində alban dövrünə (e.ə.IV - e.VIII əsrlər) aid yaşayış yerləri və qəbir abidələri aşkar edilmiş və ilkin olaraq tədqiq edilmişdir. Bu abidələr həmin bölgədə həyatın intensiv xarakterindən xəbər verir. Müəyyən edilmişdir ki, əhali ölüləri torpaq, küp və katakomba qəbirlərində dəfn etmişdir. Şəmkir şəhərgahının arxeoloji tədqiqi nəticəsində hələlik ilk orta əsr mədəni təbəqəsi üzrə çıxarılmamışdır. Buna baxmayaraq, şübhəsiz, Şəmkir şəhərinin əsası məhz həmin dövrdə qoyulmuşdur. Bu, orta əsr yazılı mənbələrinin məlumatları ilə öz təsdiqini tapır.

**ƏLƏKBƏROV A.İ., MIRABDULLAYEV A.M.**

***Azərbaycanın arxeoloji abidələrinin külliyatının hazırlanmasında Şəmkir abidələrinin yeri***

Müstəqil dövlətimizin iqtisadi qüdrətinin möhkəmlənməsi başqa sahələrdə olduğu kimi, arxeoloji tədqiqatların miqyasının genişlənməsinə də şərait yaratmışdır. Bu isə öz növbəsində arxeoloji abidələri özündə cəmləşdirən sistemli külliyatın hazırlanması zərurətini yaratmışdır.

Məqalə Şəmkir rayonu ərazisində olan arxeoloji abidələrin Azərbaycanın arxeoloji abidələrinin külliyatının hazırlanmasında roluna həsr edilmişdir. Məqalədə ardıcıl olaraq müxtəlif dövrlərdə Şəmkir ərazisində aşkar olunmuş müxtəlif dövrlərə aid abidələr öz əksini tapmış, külliyatın hazırlanması prinsipləri göstərilmiş, Şəmkir bölgəsinin arxeoloji xəritəsinin hazırlanması istiqamətində görüləcək işlərə dair mülahizələr irəli sürülmüşdür.

**GÖYÜŞOVA T.N.**

***XIX əsrin sonları və XX əsrin əvvəllərində Şəmkir rayonu ərazisində aparılan arxeoloji qazıntılar***

Şəmkir rayonu ərazisində arxeoloji qazıntılar XIX əsrin sonundan etibarən aparılmağa başlanmışdır. 1883-cü ildə J.Kox Anenfeld koloniyası yaxınlığında apardığı qazıntılar zamanı 40 ədəd çaxmaq daşından hazırlanmış silah və alət əldə etmişdir. 1901-ci ildə E.Resler Şəmkir rayonunda on bir, 1903-cü ildə isə bir kurqan tipli qəbir tədqiq etmişdir. Qəbirlərdən gil qablar, tunc silah və bəzəklər əldə edilmişdir.

Bu materiallar əsasında Şəmkir kurqanları tunc dövrünün axırına - II minilliyin ikinci yarısına aid edilmişdir.

**HÜSEYNOV M.M., CƏLILOV B.M**

***Orta əsr Daşbulaq yaşayış yeri***

Daşbulaq orta əsr yaşayış yeri Şəmkir rayonunun Daşbulaq və Dəllər-Cəyir kəndləri arasında Daşbulaq kəndindən 100-150 metr cənub-qərbdə və Dəllər-Cəyir kəndindən təxminən 200-250 metr şimalda yerləşir. Bakı-Qazax magistral yolundan ayrılan və Daşbulaq kəndinin ərazisindən keçərək Şəmkir SES-ə gedən, eni 13,5 metr olan şose abidəni kəsib keçir. Qazıntı işləri şosenin həm sağ, həm də sol tərəfində aparılmışdır.

Yerüstü materiallara əsasən, Daşbulaq orta əsr yaşayış yerinin ümumi sahəsinin 2,5-3 hektara yaxın olduğunu ehtimal etmək olar. Yaşayış yerində 2004-2005-ci illərdə aparılmış tədqiqatlar nəticəsində çoxsaylı maddi mədəniyyət qalıqları: 23 təsərrüfat quyusu və 18 təndir, məzmunca və formaca bir-birindən fərqlənən xeyli şirli və şirsiz saxsı qab nümunələri, daş əmək alətləri, şüşə və metal məmulatı və s. aşkar edilmişdir.

Bu məruzədə onların xüsusiyyətləri, hazırlanma texnologiyası, forma və ölçü müxtəlifliyi və nəhayət, ərazinin spesifikliyi xarakterizə edilir və şərh olunur, müqayisəli təhlillər aparılır.

**HƏSƏNOVA Ə.M.**

***Şəmkir rayonu ərazisindən arxeoloji qazıntılardan aşkar olunmuş metal məmulatların tarixi-analitik tədqiqi***

Şəmkir rayonu ərazisində aparılan arxeoloji qazıntılar nəticəsində qədim dövrlərdən başlayaraq orta əsrlərədək müxtəlif dövrlərə aid böyük miqdarda metal məmulatlar aşkar olunmuşdur. Bu əşyaları İ.Nərimanov, M.Hüseynova, T.Dostiyev, Q.Aslanov, N.Müseyibli aşkar etmişdir: Məmulatların analitik tədqiqi miqdarı spektral analizi metodu ilə AMEA Arxeologiya və Etnoqrafiya İnstitutunun arxeoloji texnologiya laboratoriyasında aparılmışdır. Məruzədə analizlərin nəticələri təhlil olunur və əsasən orta tunc dövrü ilə müqayisəli şəkildə verilir. Tədqiqatlar göstərdi ki, min illərlə qədim Azərbaycan metallurqları yerli filizlər arasında qalayı əvəz edən minerallar axtarmışlar. Məlum oldu ki, orta tuncun erkən dövrlərində qalayı qurğuşun, sürmə və sinklə əvəz ediblər. Sonralar isə filiz yataqlarının dərin qatları işlənəndə, qalayı sink və qurğuşunla əvəz edirdilər. Sinkin və qurğuşunun miqdarını yüksəltməklə daha keyfiyyətli ərintilər almaq mümkün idi.

**AVALOV E.V.**

***Orta əsr Azərbaycan memarlığının görkəmli abidəsi - Şəmkir qalası***

1235-ci ildə monqollar tərəfindən zəbt edilmiş və dağıdılmış Şəmkir, Gəncə, Beyləqan və bir sıra başqa Azərbaycan şəhərləri kimi yenidən bərpa edilmədiyinə və başlı-başına buraxıldığına baxmayaraq, özünün bir sıra şəhərsalma elementlərini saxlamışdır. Bu üçhissəli şəhərin nəzərdən keçirdiyimiz quruluş elementlərini (şəhərin qala divarları ilə əhatə olunmuş əsas ərazisi - şəhristan, içqala, körpülü xəndək, minarəli dini kompleks, şəhərin iki hissəsini birləşdirən körpülər) yerləşdirməklə çay sahilindəki düzənlikdə salınmış, keçmişdə çiçəklənən orta əsr şəhəri Şəmkirin ümumi şəhərsalma quruluşunu bərpa etmək ücün möhkəm baza əldə edildi. Şübhə yoxdur ki, Şəmkirdə Arran memarlıq məktəbinə xas olan memarlıq istiqaməti inkişaf etmişdir. Aydındır ki, bu təsirlər təkcə ayrı-ayrı binaların ucaldılması ilə məhdudlaşmır, şəhərsalma inkişafının səciyyəvi xüsusiyyətləri də özünü göstərirdi.

**ABDULLAYEVA N.D., QASIMOVA F.R.**

***Şəmkirdə Alman Memarlığı***

Almanlar Azərbaycanda XIX əsrin əvvəllərində məskən salmağa başlayıblar. Onlardan ikisi Yelendorf - müasir Xanlar və Annenfeld - müasir Şəmkirdir. Sonralar onlar Şəmkir rayonunda daha iki, Annenfeld (İrmaşlı) və Qeorqsfeld (Çinarlı) yaşayış məntəqələrini salıblar. Burada onların əsas məşğuliyyəti olan üzümçülük inkişaf etmişdir. Şərab istehsah tədricən iri sahibkarların əlində cəmləşmişdir.

Şərab-konyak zavodlarının istehsalat binaları, şərabların saxlanıldığı zirzəmilərin memarlığının planlaşdırılması, iri həcmli düşünülməsi bu gün də insanı heyran edir. Bu binaların səmərəli mühəndis tikintisi və abadlaşdırılması daha çox diqqətəlayiqdir.

İstehsalat binaları ilə yanaşı, almanlar Şəmkir torpaqlarında öz vətənlərinin memarlıq ənənələrini də yaratmışlar. Beləliklə, XIX əsrdə Azərbaycanda Avropa tipli düz küçələr, malikanələr, kanalizasiya sistemi və su təminatı yaranmağa başladı.

**QARABAĞLI R.**

***Arran memarlıq məktəbində Şəmkir memarlığının yeri***

Şəmkir qədim Arranın zəngin memarlıq abidəsidir. Tarixçilərə və səyyahlara bu şəhərin adı artıq IX əsrdən məlumdur. Arranın tarixi şəhərləri tipoloji baxımdan iki hissəyə bölünür, yəni hər bir şəhər müəyyən funksiya daşıyırdı.

Şəmkir Arranın siyasi əhəmiyyət kəsb edən şəhərlərindən olub, artıq IX əsrdən Gəncənin müdafiəsində mühüm rol oynamışdır. Burada yerli inşaat materiallarından - bişmiş kərpic, çaydaşı və yerli əhəngdaşından peşəkarlıqla istifadə edərək qarışıq hörgü ilə hörülmüş divarlar hal-hazırda da zəngin bədiiliyi ilə fərqlənir.

**HÜSEYNOV F. M.**

***Məskunlaşma sistemində Şəmkir şəhərinin inkişafı***

Şəmkir şəhəri Azərbaycan Respublikasının məskunlaşma sistemində çox vacib rol oynayır. O, həmçinin, Gəncə yaşayış məntəqələrinin qrup sistemində, Şəmkir inzibati rayonunun şəhər-mərkəzi olaraq çox önəmli yer tutur. Şəmkir şəhərinin artımı dinamikasının təhlili göstərdi ki, məskunlaşma sistemində onun sürətlənmə tendensiyası qeydə alınıb. Bu proses 2000-2007-ci illər ərzində əsas etibarilə iri nəqliyyat magistrallarının yaxınlığında yerləşdirilmiş ayrı-ayrı kəndlərin fəal inkişafı ilə müşayiət olunur. Şəmkir lokal sisteminin əsas xarakterik cəhətlərindən biri, şəhər-mərkəz Şəmkirin ətrafında kənd qəsəbələrinin aqlomerasiyaya birləşdirilməsinə nəzərə çarpmayan tendensiyasıdır.

**MƏMMƏDOVA Z.Q.**

***Şəmkir qalası və Azərbaycanın erkən dövr qala - şəhərləri***

Şəmkir şəhərciyi Şəmkir çayının sol sahilində, Bakı-Tbilisi dəmir yolundan cənub - qərbə doğru 200 metr aralıda yerləşir. Kvadrat formaya malik və dörd istiqamətə cəhətlənmiş şəhər xarabalıqlarının sahəsi ilkin tədqiqatlara görə 20 hektar olduğu hesab edilirdi. 2007-ci ilin arxeoloji todqiqatları zamanı şəhər yerinin sahəsinin 28 hektar, qala divarları ilə birlikdə isə 30 hektar olduğu məlum oldu. Bilavasitə çaya söykənən şimal - şərqi hissədə sahəsi 1 hektara bərabər olan və əzəmətli divar və bürclərlə dövrələnmiş, daş və bişmiş kərpicdən hörülmüş içqala yerləşir. Şəmkirin yaranması haqqında tam məlumat yoxdur. Coğrafi ərazidə yerləşməsinə görə - dörd bir tərəfə açılmış düzənlik Şəmkir şohərinin müharibələr

və basqınlar zamanı əhalinin gizlənməsi üçün möhkəmləndirilmiş məntəqə-qalanın əsasında deyil, orada daha qədim dövrlərdə mövcud olmuş yaşayış məskənin yerində yarandığını demək olar. Arxeoloji materiallar - saya və polixrom keramika, sikkələr, tikililərin, təndirlərin, gildən olan su boruları və kəhrizlərin qalıqları və s. şəhərin çox da böyük olmadığını, lakin yetərincə inkişaf etmiş olduğunu təsdiq edir. Tədqiqatlar şəhərin divarlarla əhatə olunmuş Şəhristan və İçqaladan ibarət iki hissəyə bölündüyünü göstərir. Eyni zamanda Şəmkirçay üzərindən bir-birinə yaxın iki körpünün salınması şəhərin bir hissəsinin çayın sağ sahilində yerləşməsi fikirinə də gətirir.

**NAĞIYEV N.H.**

***Şəmkir şəhərində mədəni-məişət xidmətləri sisteminin formalaşması***

Dərin tarixi ənənələr və nadir təbii iqlim şəraiti Şəmkir şəhərinin bütün dövrlərdə inkişaf və formalaşmasına əhəmiyyətli dərəcədə təsir edib. Bugünkü qədim Şəmkir, Azərbaycanın gözəl şəhərlərindən biridir, respublika ilə birlikdə inkişafının yeni dövrünü yaşayır. Və bu dövrdə Şəmkir şəhərində müasir memarlığın formalaşması, planlaşdırma quruluşu, şəhər mühitində landşaftın təşkil edilməsi abadlıq və yaşıllaşdırılmış küçə və yolların şəbəkələrin müasir texniki inşaat sistemində yaradılması ilə yanaşı, şəhərin mədəni-məişət xidməti sisteminin formalaşması mühüm əhəmiyyət kəsb edir.

Xidmət şəbəkəsinin səmərəli təşkili kəndlərarası və pilləli ola bilər. Bunu əsas götürüb Şəmkir şəhərinin müasir inkişaf etmiş mədəni-məişət xidmət sistemini, şəhərin rayon əhəmiyyətli xidmət mərkəzi yerini və rolunu müəyyənləşdirmək, xidmət obyektlərinin tərkib və nomeklaturunu, onların tutumu və buruxılış qabiliyyətini təyin etməklə təşkil etmək olar.

**ƏLİHÜSEYNLİ S.T**

***İrmaşlı abidələri***

Şəmkir rayonu ölkəmizin abidələrlə zəngin bölgəsidir. Rayonun belə ərazilərindən biri də İrmaşlı kəndidir. Burada 17 abidə qeydə alınmışdır.

Bu siyahıya İrmaşlı piri, pirin yaxınlığındakı qədim alban qəbiristanlığı, Bala pir alban abidəsi, Ocaq Dağdağan, Xaçın düzündə daş qutu qəbiristanlığı, Xələfli, İrmaşlı, Məsimin qalaçaları, Qurban təpəsi, İrmaşlı mağaraları, Dəyirman təpəsi, Qırxdəyirman dərəsi, Carçı-car çəkilən Qaralay dağı, Meydan müsəlman qəbiristanlığı, Əlifxan məscidi və türbəsi daxildir.

Bu abidələr Qafqaz Albaniyasının qədim Sri şəhərini həmin kəndin ərazisində yerləşdirməyə imkan verir.

**MƏMMƏDOV F.Q.**

***Arran memarlıq-bədii məktəbinin əlaqələrinə dair***

Məruzədə Şəmkir minarəsi və Şimali Osetiya-Alaniya Respublikasının ərazisindəki Qızıl Orda şəhərgahı Yuxarı Culatın minarələrindən biri olan Tatartup minarəsinin nümunəsində Azərbaycamn dörd-məhəlli memarlıq-bədii məktəblərindən birinin - Arran memarlıq məktəbinin əlaqələri nəzərdən keçirilir.

**HÜSEYNOV E. F.**

***Şəmkir şəhərinin şəhərsalma inkişafı***

Şəmkir şəhərinin baş planının layihələndirilməsi zamanı aparılan araşdırmalar: yaxınlıqdakı ərazilərin şəhərsalma qiymətləndirilməsi, nəqliyyat magistrallarının təşkili şərtləri, məskunlaşma və istehsalat zonalarının və s. yerləşdirilməsi şəhərin inkişafının əsas istiqamətlərini təyin etməyə imkan yaratdı. Şəhərin mərhələlərlə inkişafı prosesində funksional zonaların qarşılıqlı əlaqələrinin rasional üsulları və uyğunlaşdırılması müəyyən edilmişdir. Bunun nəticəsində Şəmkir şəhərinin planlaşdırma strukturu, ərazi imkanlarını nəzərə alaraq genişlənərək özünün perspektiv inkişafı üçün əsas istiqaməti şimala, dəmir yolu xəttinə və burada yerləşdirilmiş ştq Dəllərə tərəf alır. Bununla yanaşı, şəhərdaxili nəqliyyat yollarının şəbəkəsinin inkişafı rayonun ümumi nəqliyyat sisteminə tabe olur.

**ƏLİYEVA A.S.**

***Şəmkir şəhərinin mühit təşkilində landşaftın yeri***

Landşaft memarlığının hər bir dövrünün etalonu eyni zamanda təbiətlə əlaqənin müəyyən prinsipial əsaslarını əks etdirir. Təbii mühitə olan münasibət-cəmiyyətin dünyanı dərk etməsinin, dəyərlər səmtlərinin, dünyanın qurluşu və anlamının güzgüsüdür. Təbiətdə insanın mənəvi və estetik tələblərinin reallaşdırılması yalnız - təbiətdə gedən prosesləri dərk edərkən ilin fəsil dəyişməsini qəbul edib insanın estetik tələblərini nəzərə alarkən mümkündür. Landşaft memarlığının tarixi - yalnız üslubların və tarixlərin axtarışlar tarixi deyil, həm də landşaftla memarlığın qarşılıqlı təsirinin əksidir.

Şəhər təbii amillərinin landşaft-memarlıq vasitələrini tamamlayaraq təbii mühitdə insan stereotipinin yaşamını təmin edir. Landşaft memarlığı müasir memarlığın ayrılmaz hissəsidir. Şəhər mühitinin estetik zəfəri yaradıcısı olduğu

